**Yunis Hüseynov**

# QARABAĞ

**Bakı – 2018**

**ŞUŞA ŞƏHƏRİNİN TARİXİNƏ HƏSR OLUNUR**

**Redaktor və rəyçi:** **Z.H.Bayramlı**
*tarix üzrə elmlər doktoru*

**Rəyçilər:** **Q.Ə.Hacıyev**
*tarix üzrə elmlər doktoru*

**X.S.Qasımov**
*tarix üzrə elmlər doktoru*

**D.M.Əzimli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Yunis Hüseynov** - *tarix üzrə fəlsəfə doktoru*
**QARABAĞ.** Bakı, 2018, – 336 səh.

*Əsərdə müəllif Qarabağın keçmişini, Şuşa şəhərinin tarixini, erməni ünsürlərinin torpaqlarımıza gətirilməsinin səbəb və nəticələrini, erməni ünsürləri haqqında tarixi məlumatları, bu ünsürün saxtakarlıqlarını, dastanlarımız və bir çox tarixi hadisələr şərh olunur.*

*Ümumiyyətlə, keçmiş və müasir dövrümüzlə sıx bağlı olan* ***36*** *elmi məqalə və tarixi sənəd* ***"QARABAĞ"*** *əsərində nəşr olunmuşdur. Əsər gərgin axtarışların və məhsuldar elmi zəhmətin məhsuludur.*

*Əsərdə Azərbaycan xalqına qarşı erməni ünsürləri tərəfindən törədilən soyqırımı haqqında da ətraflı məlumat verilir.*

$$Y\frac{051-(L-041)}{051-032(018)}$$ *qrifli nəşr*

Kitab müəllif tərəfindən hədiyyədir.

© Yunis Hüseynov, 2018



**Pənahəli xan Cavanşir**
**1693-1763**

*Rəssam: Əbdüləli Balay oğlu Əliyev*

# ÖN SÖZ

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Qarabağın və Qarabağ xanlığının qədim və yeni tarixini əks etdirən xeyli sayda elmi əsərlər yazılmışdır. Bu sahədə **Şuşalı alim Yunis Rza oğlu Hüseynovun** da xüsusi xidmətləri vardır.

**"Qarabağ"** əsəri Yunis müəllimin altıncı elmi əsəridir. əsər alimin elmi fəaliyyətinin bəhrəsi və yorulmaq bilməyən güclü qələminin məhsuludur. Kitabda yer alan bütün materiallar Qarabağın, Qarabağ xanlığının, Şuşa şəhərinin tarixlərini öyrənmək üçün olduqca tutarlı mənbədir.

Müəllif Gürcüstanlı alim Quram Marxuliyanın **"Dağlıq Qarabağda erməni terrorizminin fenomenologiyasının tarixi"** məqaləsini rus dilindən Azərbaycan dilinə tərcümə edib əsərinə daxil etməsi olduqca faydalı və təqdirə layiqdir. Əsərdə nəşr olunan bütün materiallar Qarabağ həqiqətlərinə həsr olunub.

Tarixçi alim **"Qarabağ"** əsərində yaddaqalan yeniliklər etmişdir. Belə ki, əsərdə **Kürəkçay, Gülüstan, Türkmənçay müqavilələri ilə yanaşı, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin də kitaba daxil etməsi mühüm əhəmiyyət kəsb edir. Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının əsərdə verilməsi ilk hadisədir. Bütün bunlar dəyərli materiallardır. Əsərin elmi səviyyəsinə yeni ruh verir.**

**Mənə belə gəlir ki, "Qarabağ" əsərində mövcud olan mövzuların ayrı-ayrılıqda geniş təhlilinə ehtiyac yoxdur. Əsas odur ki, alimin əsəri elmi əsaslara söykənən mənbədir. Ona görə ki, hər mövzu ayrılığa müəllifin şəxsi yaradıcılıq mənbəyidir.**

**Əsər vətənpərvərlik ruhu ilə doludur. Düşmən əlində olan torpaqlarımızın tezliklə azad olunmasına hədsiz inam aşılanır. Bu belə də olmalıdır.**

**“Qarabağ” əsərində müəllif el-oba arasında böyük hörmətə və ehtirama sahib olan həmyerliləri haqqında da söhbət açır. Onlara böyük hörmət hissi aşılayır.**

**Sonda demək istərdim ki, “Qarabağ” əsəri Qarabağ tarixşünaslığına dəyərli hədiyyədir.**

**Zabil Bayramlı**
*tarix üzrə elmlər doktoru*

**“TARİXİ OLDUGU KİMİ QƏBUL ETMƏK, DƏRK ETMƏK VƏ OLDUĞU KİMİ QİYMƏTLƏNDİRMƏK LAZIMDIR. TARİXİ TƏHRİF ETMƏK DƏ OLMAZ, TARİXİMİZDƏKİ QARA LƏKƏLƏRİ, QARA SƏHİFƏLƏRİ UNUTMAQ DA OLMAZ”.**

ULU ÖNDƏR
**HEYDƏR ƏLİYEV**

***“Bizim siyasətimizin təməlində müstəqillik dayanır, cəsarət dayanır.***

***...Heç bir kənar qüvvə bizimlə ultimatum dili ilə danışa bilməz.***

***Bunu hamı bilməlidir"*.**

**İlham ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

***“Tarixçilər üçün ilk qanun, həqiqət olmayanı dilə gətirməməkdir, ikincisi, doğru olan bir şeyi ört-basdır etməməkdir, bunlardan başqa, yazdığı bir şeydə tərəf güdməmək və kin bəsləməməkdir".***

**M.T.SİSERON**

***“Tarix elminin vəzifəsi müasir dövrün dərkinə kömək etməkdir".***

**Karl YASPERE**

***“Pənah xan” yaxın adamları ilə hərtərəfli məsləhətləşdikdən sonra ŞUŞA şəhərini bina etdirdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. İmtahan üçün bir neçə quyu qazdılar. O quyulardan su çıxdıqdan sonra Şuşa şəhərinin (1750-ci ildə) binası qoyuldu".***

**Mirzə ADIGÖZƏL BƏY**

***Yeni qala tikdirmək üçün Pənah xan məmurlarla, din xadimləri ilə və Qarabağa yaxşı bələd olan dünya görmüş yerli sakinlərlə xeyli məsləhətləşdikdən sonra qərara gəldi ki, "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir".***

***Xanın göndərdiyi bələdçilər ətrafı hərtərəfli öyrəndikdən sonra şad xəbərlə qayıdıb ona bildirdilər ki, "Yeni tikiləcək qalanın içində iki-üç bulaqdan başqa axar su yoxdur. Güman olunan yerlərdə quyu qazdılar və bu quyulardan bol su çıxdı. Bu xəbər Pənah xana çatdırıldı. Xan yaxın adamları ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu".***

**Mirzə CAMAL BƏY**
**CAVANŞİR QARABAĞİ**

**Mən aşiqəm, Qarabağ,**
**Şəki, Şirvan Qarabağ,**
**Tehran cənnətə dönsə,**
**Yaddan çıxmaz Qarabağ.**

**AĞABƏYİM AĞA**

**Könlüm keçir Qarabağdan,**

**Gah bu dağdan, gah o dağdan.**

**Axşam üstü qoy Şuşadan**

**Havalansın XANIN səsi,**

**Qarabağın şikəstəsi.**

**SƏMƏD VURĞUN**

***Torpaq müqəddəsdir. Onun müqəddəsliyi tarixin çətin sınaqlarından şərəflə çıxmışdır. Torpağı qorumaq, onu əkib-becərmək hər bir xalqın amalı olmuş və indi də belə olaraq qalır. Torpağın müqəddəsliyi, ülviliyi onun yetirdiyi barında və bərəkətindədir. Hər torpaq belə bar yetirə bilməz. Bu torpaq Azərbaycana və onun qədim ərazisi olan Qarabağa məxsusdur. Torpağımızın yetirdiyi nemətin saflığı, yararlı olmasının nəticəsidir ki, ondan bəhrələnənlər özlərinin intellektləri ilə fərqlənirlər. Xalqımızın içərisindən çıxan istedadlar Azərbaycan Respublikasının başını ucaldır, şöhrətini dünyanın hər yerinə yayırlar.***

**MÜƏLLİF**

# QARABAĞ

**QARABAĞ!** Bu adı doğma diyarımıza Azərbaycan xalqı özü vermişdir. "Qara" və "bağ" sözlərinin birləşməsindən yaranan Qarabağ yalnız Azərbaycan xalqına məxsusdur. Onun adına biz VII əsr mənbələrində qarşılaşırıq. Bu barədə "Elm və həyat" jurnalının 1963-cü il il 3-cü nömrəsində ətraflı məlumat verilir. Qarabağ haqqında ətraflı məlumatı biz tarixçi **Mirzə Camal Cavanşirin "Qarabağ tarixi**" əsərindən (1847) də əldə edirik. Əsərdə o, qədim mənbələrə istinad edərək Qarabağın ərazisi, sərhədləri haqqında dəqiq məlumat verir. Bir dəfə də olsun, "**Dağlıq Qarabağ**" məfhumunu işlətmir, ümumi bir Qarabağ anlayışını sona kimi vurğulayır. Deməli, "Dağlıq Qarabağ" termini 1920-ci ildə yaranmışdır. Görəsən, belə bir ad başqa ölkələrdə də varmı?

Əlbəttə, yox!

Qarabağ Azərbaycanın maddi mədəniyyət abidələrini özündə birləşdirən diyardır. Onu da demək lazımdır ki, iki türk sözünün birləşməsindən yaranan bu toponim yazılı mənbə kimi ilk dəfə **1284-cü ildə Fəzullah Rəşidəddinin "Cami-ət-təvarix"** əsərində öz əksini tapmışdı. Əsərin bir yerində qeyd olunur ki, Qazan xan bu qış Qarabağda qışlamaq barədə qəti qərara gəldi. Eyni zamanda tarixçi vergi verən ərazilər sırasında Qarabağın da adını qeyd edir.

Bu ərazinin böyük hissəsi düzənlik və yaylalardan ibarətdir. Diyarın təbii-coğrafi mövqeyi olduqca əlverişlidir. Mülayim iqlimə, saf bol suya, münbit torpağa, zəngin meşə zonasına, flora və faunaya malik olan Qarabağ hökmdarlar məskəni kimi də şöhrət qazanmışdır. Məşhur türk hökmdarları - **Səlcuq sultanı Məlikşah burda qışlamışdır. Elxanilərin yay iqamətgahı da Qarabağda yerləşirdi. Görkəmli türk hökmdarı Əmir Teymur və Ağqoyunlu hökmdarları da Qarabağda istirahət etməyə üstünlük verirdilər.** Bax, budur Azərbaycan xalqına Allah tərəfindən əbədi bəxş edilən Qarabağ! Yalnız belə bir diyar bizə - İlahi tərəfindən əta edilə bilərdi.

Qarabağ Albaniya dövlətinə məxsus olduğu üçün, burda qə-

dim dövrlərdə məskunlaşan etnoslar - **utilər, sovdeylər, qarqarlar və başqaları idilər.** Qarabağın Azərbaycana məxsus olduğunu bu qədim etnoslar bir daha sübut edir. Heç bir şifahi, ya yazılı mənbə Qarabağda qədim dövrlərdə erməni ünsürünün olduğunu özündə ehtiva etmir. Ona görə ki, onlar Qarabağa gəlmədir.

Vətəni, paytaxtı, mədəniyyəti olmayan ermənilər başqa ərazilərdə özlərinə vətən yaratmaq üçün bütün çirkli əməllərə əl atırdılar. Rusiya imperiyası Cənubi Qafqazda özü üçün dayaq yaratmaqda erməniləri daha sərfəli hesab edirdi. Ona görə ki, onlar hər cür alçaq əxlaqi dəyərlərə malik olduqlarını imperiya qarşısında nümayiş etdirmişdilər.

Azərbaycan alimləri artıq tarixi mənbələr əsasında sübut etmişlər ki, ermənilər nəinki Qarabağa, həm də "Ermənistan" deyilən əraziyə də iddia etmək hüququna malik deyillər. Ona görə ki, həmin ərazi Azərbaycan ərazisidir. İrəvan xanlığı burda yerləşirdi. İrəvan şəhəri xanlığın paytaxtı idi. Onu da deyim ki, bu şəhərin 1918-ci il may ayının 29-da erməni daşnaqlarına verilməsi də mübahisəlidir... Onlar bu ərazilərə gətirilib məskunlaşdırılmışlar. Yeri gəlmişkən, qeyd edək ki, rus tarixçiləri də ermənilərin Cənubi Qafqaza, o cümlədən də, Azərbaycan ərazilərinə gətirilmələrini dönə-dönə vurğulamışlar.

**Mənbələr və qaynaqlar sübut edir ki, XIII-XVI əsrlərdə Qarabağ Azərbaycanın siyasi və ictimai həyatında mühüm yer tuturdu. XVI əsrin əvvəllərində I Şah İsmayıl Xətai tərəfindən yaradılan Azərbaycan Səfəvilər dövlətində on üç vilayətdən biri də mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyi idi. 1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsi zamanı Qarabağ osmanlılar tərəfindən işğal edildisə də, XVII əsrin əvvəllərində azad edilib, yenidən Ziyadoğluların ixtiyarına verildi.**

**1593-cü ilin məlumatına əsasən, Gəncə-Qarabağ əyaləti 7 sancağa (sancaq - inzibati ərazi vahidi - Y.H.), 36 nahiyəyə bölünürdü. "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərin"də qeyd edilir ki, burda mövcud olan 1300-dən çox yer adlarının hamısı azərbaycanlılara məxsusdur. Səfəvilər dövləti zəiflədikdən sonra Azərbaycan torpaqları, o cümlədən də, Qarabağ, İran, Rusiya və Osmanlı dövlətləri arasında hərbi-əmə-**

**liyyat meydanına çevrildi.**

**"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə** Qarabağda yalnız bir şəhərin - Bərdənin olduğu göstərilir. Sənəddə burda XVIII əsrin əvvəllərində **1178 kənd** olduğu öz əksini tapmışdır. Diqqəti cəlb edən ən mühüm cəhət odur ki, həmin kəndlərin heç biri erməni kəndi olmamışdır.

**1727-ci ildə Qarabağda 10.218 ailənin 6746-sı (33.730 nəfər) müsəlmanlardan, 3472-si (17.360) isə başqa millətlərdən ibarət olmuşdur. Bu dövrdə Bərdə şəhərində yaşayan 482 ailə (2.410 nəfər) içərisində bir nəfər də olsun, başqa millətin nümayəndəsi olmamışdır. Bu məlumatı digər məxəzlər də sübut edir. Yuxarıda adı qeyd edilən, sənəddə göstərilir ki, Qarabağda əhali yaşayan 431 kəndin 80,9 faizi azərbaycanlılardan ibarət olmuşdur. Göründüyü kimi, Qarabağın köklü əhalisi azərbaycanlılardan ibarət olmuşdur. Əhalinin qalan hissəsini isə xristianlığı qəbul edən albanlar və digər etnoslar təşkil etmişlər. Deməli, burada erməni ünsürlərindən heç bir söhbət gedə bilməz.**

**Bildiyimiz kimi, Nadir şah (1736-1747) hakimiyyəti dövründə Gəncə-Qarabağ bəylərbəyinin əhalisi ağır təzyiqlərə və cəza tədbirlərinə məruz qalmışdı. Bu səbəbdən də Qarabağın alban məliklərinin mövqeyi xeyli güclənmişdi ki, bu da onların gələcəkdə separatizminə təkan vermişdi.**

Lakin Nadir şah Əfşar 1747-ci ildə öldürüldükdən sonra İran dövləti parçalandı. Nəticədə Azərbaycanda 20-yə qədər xırda feodal dövlətlər - xanlıqlar yarandı. Beləliklə də, Azərbaycan xanlıqların timsalında özünün dövlət müstəqilliyini yenidən bərpa etdi. Keçmiş Qarabağ bəylərbəyinin ərazisində Gəncə və Qarabağ xanlıqları yarandı.

Ermənilərin irəli sürdükləri ərazi iddiaları içərisində başlıca yeri Qarabağ tutduğundan onun üzərində ayrıca dayanmaq və onların saxtakarlıqlarını ifşa etmək qarşıya qoyulan ən başlıca məqsəddir.

Azərbaycan öz milli dövlət müstəqilliyini bərpa etdikdən sonra milli tariximizdə mövcud olan ağ ləkələr silinmiş, tarixşünaslığımızda elmi həqiqət öz yerini tutmuşdur. İndi hamıya tam

aydındır ki, ermənilər vətənsiz, qaraçı kimi səyyar həyat keçirmişlər. Alimlərimiz sübut etmişlər ki, ermənilərin Qarabağa kütləvi surətdə gətirilib məskunlaşdırılması **1828-ci il Türkmənçay müqaviləsindən sonrakı dövrləri əhatə edir.**

**Tədqiqatlar sübut edir ki, ermənilər nəinki Qarabağın, eyni zamanda Cənubi Qafqazın aborigen əhalisindən olduqca uzaqdırlar. Onlar regiona Qərbdən gəlmədirlər. Əfşarlar imperiyası dağıldıqdan sonra yeni yaranan Qarabağ xanlığının qurucusu və banisi Pənahəli xan Cavanşir idi. O, təxminən 1693-cü ildə anadan olmuşdur. Tarixçi Mirzə Camal Cavanşir Pənahəli xanın şəxsiyyətindən danışarkən ona belə qiymət verir: "Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra ellər və kəndlər arasında görüb-tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən, ellər arasında Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə, mərhum Nadir şahın Rum əhli qoşunları ilə etdiyi müharibələrdə şücaət göstərmiş Pənah xanı da öz yanına apardı".**

**Pənahəli bəy Nadir şaha tabe olmağı özünə rəva bilmədiyindən və bir sıra səbəblərə görə onun sarayını tərk edib, Qarabağa gəlir. Şah bu xəbərdən agah olan kimi onu yolda tutmaq üçün ardınca çaparlar göndərir, lakin heç bir faydası olmur. Əmr verir ki, Pənahəlinin ailəsini və qohum-əqrəbasını incitsinlər və cərimə etsinlər. Bu tədbirlər də heç bir nəticə vermədi. Pənahəli bəy əfsanəvi qəhrəmana çevrildi.**

Pənahəli bəy Qarabağa çatıb, fəal işə başladı. Xorasana sürgün edilmiş Cavanşir və başqa ellər bütünlüklə oranı tərk edib, öz doğma vətənlərinə gəldilər. Pənahəli xan onları mehribancasına qarşıladı, yaşamaq üçün onlara hər cür şərait yaratdı. **1747-ci ildə Qarabağ xanlığı yaradıldı. Pənahəli xanın şöhrəti qısa müddətdə hər yerə yayıldı.**

Xanlıq yaranandan sonra Pənahəli xanın qarşısında olduqca çətin və həlli lazım olan vəzifələr dururdu. Azərbaycanın baş-

qa xanlıqlarından fərqli olaraq Qarabağ xanlığının siyasi-iqtisadi mərkəzi yox idi. Belə bir mərkəz olmadan xanlığın gələcək inkişafı mümkün deyildi. Yeni müdafiə qurğuları, yaşayış yerlərinin salınması Pənahəli xanın quruculuq işlərinə bələd olmasını sübut edir. Beləliklə də, müstəqil dövlətin bütün göstəricilərini özündə birləşdirən Qarabağ xanlığının yaranması və inkişafı tarixi baxımdan olduqca mühüm siyasi hadisə idi.

**Pənahəli xan 1748-ci ildə siyasi və iqtisadi mərkəz kimi Bayat qalasını inşa etdirdi. Tikintiyə xan şəxsən özü başçılıq edirdi. Qısa müddət ərzində qalanın tikintisi başa çatdı, ətrafında xəndək qazıldı, hasar çəkildi. Xan bütün ailəsini, qohumlarını və el böyüklərinin əhl-əyalını ora topladı.**

Şimali Azərbaycan xanlıqları içərisində güclü xanlıqlardan biri də Şəki xanlığı idi. Təkəbbürlü və bir qədər də çılğın olan Şəki hakimi Hacı Çələbi xan qonşuluğunda güclü Qarabağ xanlığının yaranmasından təşviş keçirmiş və bu xanlığı özündən asılı vəziyyətə salmaq fikrinə düşmüşdü. Mirzə Adıgözəl bəy yazırdı: **“Hacı Çələbi... Dərbənd, Car və Balakənə kimi bütün Şirvanat qoşununu cəm etdi... Pənah xan da qabaqcadan bütün elata bu əhvalatı bildirmiş və hamısını yığıb, səngərə dolduraraq sığınacaq etmişdi. Hacı Çələbi gəldi və mühasirə ilə məşğul oldu... Hacı Çələbi məqsədinə çatmadan, külli zərərlə geri qayıtmaq təbili ni vurdu”. Pənahəli xanın qüdrətli bir hakim kimi tanınmasında Hacı Çələbi və onun müttəfiqlərinin Qarabağ üzərinə uğursuz yürüşü olduqca mühüm rol oynadı. O, geri qayıdarkən məğlubiyyətini etiraf edərək demişdi: “Pənahəli xan bu vaxta kimi bir parça gümüş idi, biz gəldik, ona sikkə vurduq və qayıdırıq”.**

Pənahəli xan Bayat müharibəsindən sonra hiss etdi ki, daha etibarlı bir qala inşa etdirmək lazımdır. İkinci qala Tərnəkütdə **Şahbulağın tikilməsi oldu. Bu qala 1749-cu ildə daş və əhəngdən inşa olunmağa başladı.** Qısa müddətdə məscidlər, evlər, çarsu və hamamlar tikildi. Bütün bunlar Pənahəli xanın çoxşaxəli fəaliyyətinin nəticəsi idi.

Pənahəli xan qorxmaz, zirək və uzaqgörən dövlət xadimi kimi hamının diqqətini cəlb edir və yüksək qiymətləndirilirdi.

Ondan söhbət açan **A.A.Bakıxanov yazırdı: "Rəftarında sadə və avam olmasına baxmayaraq, anadangəlmə fitri qabiliyyətə malik idi".**

**Mənbələrdə Pənahəli xana İran hakimi Adil şah tərəfindən xanlıq fərmanı verilməsini qeyd edirlər. Lakin bu, belə deyil. Pənahəli xan fərmandan xeyli əvvəl xan rütbəsini özünə təmin etmişdi. O, xanlığın mövqeyini möhkəmlətmək üçün qohumluq diplomatiyasından da istifadə edirdi.**

Qarabağ xanlığının ərazisində yerləşən alban məlikliklərindən yalnız biri Xaçın məlikliyi yerli idi. Qalanları isə kənardangəlmə idilər. Qarabağ ərazisində Albaniya dövləti dövründə inşa edilən abidələrin heç vaxt ermənilərə aidiyyatı olmamışdır. İslam və alban mədəniyyətləri Azərbaycan türklərinə məxsusdur. Ermənilər isə alban kilsələrini özünün- küləşdirmək üçün hər cür alçaqlığa əl atır, xalqımıza məxsus mədəniyyət abidələrinə yiyələnmək istəyirlər.

Alban kilsəsi dünyanın ilk müstəqil kilsələrindən biridir. Bu kilsə Azərbaycanın şimal ərazisində - Albaniya ərazisində yaranmışdır. Tarixdən bildiyimiz kimi, bu kilsənin başçıları Roma papası tərəfindən təyin olunurdu və ona tabe idilər. XIX əsrin əvvəllərində Rusiya imperiyası Cənubi Qafqazı işğal edərkən erməni-qriqoryan kilsəsini öz himayəsinə aldı. Bu işdə erməni keşişləri böyük rol oynamışlar. Rusiya imperiyası **1836-cı ildə alban katolikosluğunu ləğv etdi**. Bundan istifadə edən ermənilər və onların keşişləri Albaniyaya məxsus tarixi materialları məhv etməyə başladılar. Ən alçaq əməllərə əl atan, mədəni və mənəvi oğurluqla ad çıxaran ermənilər, yoxdan özləri üçün tarix yaratmaq yolunu tutdular. Lakin tarix tarix olaraq qalır, onu saxtalaşdırmaq olmaz.

Pənahəli xan çox yaxşı bilirdi ki, xanlığın gələcəyi möhkəm və etibarlı mərkəzin olmasından asılıdır. O, bunu şəraitlə əlaqələndirirdi. İrandan gələn həyəcanlı xəbərlər xanı narahat edirdi. Ona görə də o, təcili tədbirlər görülməsini və daha etibarlı, möhkəm qala-paytaxt salınması problemini irəli sürdü. Bunun üçün geniş tərkibli məsləhət şurası çağırdı və yeni paytaxt-qala salınması haqqında qəti fikrə gəldiyini bildirdi.

**“Qarabağnamələr”in verdiyi məlumata görə yeni qalanın - Pənahabad (Şuşa) qalasının tikilməsi tarixi belə olmuşdur: - Pənahəli xanın yeni paytaxt inşa etdirmək fikrində olduğunu bilən saray əyanlarının bir qrupu ona dəniz səviyyəsindən 1800-2000 metr yüksəklikdə olan və üç tərəfdən təbii müdafiəsi olan, meşələrlə örtülmüş bir tərəfdən uçurum, digər tərəfdən isə sıldırım qayalarla əhatə olunmuş, bir növ təbii qalanı özündə əks etdirən yeri xana göstərdilər. Xanlığın gələcək paytaxtı və siyasi, iqtisadi və mədəni istinadgah-istehkamı olacaq belə bir qalanın salınmasına başlıca tələbləri Pənahəli xan şəxsən özü müəyyən etmişdir. Elə ona görə də yeni qala-şəhərin ilk adı Pənahabad olmuşdur.**

Mirzə Camal yazır: **“Xanın (Pənahəli xanın) bir neçə nəfər bilici və məlumatlı adamı gedib, qalanın yerini və ətrafını yoxladı. Qalanın içində iki-üç bulaqdan başqa, axar su yox idi. Bu bulaqların suyu isə qala camaatına kifayət etməzdi. Ona görə güman gələn yerlərdə quyu qazdırıb, müəyyən etdilər ki, buranın bir çox yerlərində su quyuları qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. Xan sevinərək bir neçə nəfər öz yaxın adamı ilə bura gəldi, yerlə tanış olub, əzmlə qalanın əsası qoyuldu”. Pənahabadın bünövrəsi 1750-ci ilin iyun ayında qoyulmuşdur. Pənahəli xanın dövründə qala inkişaf edərək iri şəhərə çevrilmişdir. 1751-ci ildə Əfqanlı Azad xan İrəvanı mühasirə edərkən Pənahabad qalasında Pənahabad adlı pul da kəsilirdi. Qala tikildikdən sonra Şahbulağı qalasının sakinləri olan bütün rəiyyəti, əyanların, mülazimlərin, ellərin və bir para kəndlərin kəndxudaların ailələri köçürülüb, bu qalanın içində yerləşdirildi.**

**“Qarabağnamələr”in müəlliflərindən biri Mir Mehdi Xəzani “Kitabi-tarixi-Qarabağ” əsərinin 117-ci səhifəsində qeyd edir ki, artıq qala 1753-cü ildə mərkəz rolunu oynayırdı.**

**Pənahabad sosial tərkibi baxımından Azərbaycan şəhəri idi. Qala tikilib qurtardıqdan sonra başqa xanlıqlardan da bura çoxlu köçüb-gələn oldu. Onlar müvafiq məhəllələrdə**

**yerləşirdilər. Bunu Şuşa şəhərindəki küçə və məhəllə adları sübut edir. Təbrizli, Əylisli, Qazançılı, Köçərli, Culfalar, Mamayı və sair adlandırılması həmin məhəllələrdə yaşayanların müvafiq şəhər və kəndlərdən gəlmələrini göstərən dəlillərdir. Təbii ki, bu məhəllələr heç də birdən-birə yaranmamışdır.**

Torpaq iddiasında olan erməni "alimləri" Şuşanın salınması haqqında danışarkən ən alçaq saxtakarlıqlara əl atır, şəhərin tarixini təkzib etməyə çalışırlar. Məsələn, Şagen Mkrtıçyan adlı bir erməni "Dağlıq Qarabağ-Memarlıq abidələri" adlı elmdən olduqca uzaq, fantaziyalarla dolu olan cızmaqarasında göstərməyə çalışır ki, Şuşikar (Şuşa-Y.H.) qalası, guya, VI əsrdə mövcud olmuşdur. Erməni knyazı **Hovanes** Avan 1740-cı ildə Şuşa qalasını yenidən bərpa etmişdir. 1803-cü ildə erməni könüllülərinin köməyi ilə ruslar Şuşa qalasını almış və xarici müdaxiləçilərin hakimiyyətinə son qoymuşlar. Onun bu fikri heç bir tarixi qaynağa söykənməyən, heç bir məxəzlə təsdiqlənməyən və heç bir məntiqə müvafiq olmayan sayıqlamaları siyasi xal yığmaq məqsədlərinə xidmət edir və acı gülüşdən başqa, heç nə doğura bilməz.

"Qarabağnamələr", o cümlədən də, erməni mənşəli Mirzə Yusif Qarabaği (Nersesov) də birmənalı olaraq özünün **"Tarixi-safi"** əsərində Pənahabadın Pənahəli xan tərəfindən salındığını dönə-dönə qeyd edir. O, əsərində qatı millətçi mövqeyi tutsa da, tarixi həqiqətlərdən yan keçə bilmir.

Pənahəli xan Qarabağı vahid xanlıq halında birləşdirmək uğrunda mübarizəni bir an da olsun, dayandırmırdı. Bu fikir Qarabağın tarixinə həsr olunan ilk mənbələrdə - "Qarabağnamələr"də dönə-dönə qeyd edilir. Pənahəli xanın bu məqsədini yaxşı duyan və bunu öz müstəqillikləri üçün təhlükə sayan xristian alban məlikləri Çiləbörd və Gülüstan məlikləri birləşərək xanın üzərinə hücum etməyə cəhd göstərdilər. Lakin onların bu cəhdləri dəf edildi.

Pənahəli xan diplomatik yolla məlikləri bir-birindən ayırmağı və onların arasında nifaq salmağı üstün tutdu. Bu siyasət kənardangəlmə ermənilərin tez bir zamanda ram olunmasına səbəb oldu. Xaçın məlikliyi istisna olunmaqla Qarabağ məlikləri və onların mənsub olduqları nəsillər əslən Qarabağdan deyildilər.

**Mirzə Adıgözəl bəy "Qarabağnamə" əsərində yazırdı: "Bu mahalların biri Dizaqdır. O, Loridən gəlmədir. İkincisi Vərəndədir. Əsilləri Göyçədəndir. Ordan qaçıb Qarabağa gəlmişlər. Üçüncüsü Xaçındır. Onlar Həsən Cəlalın övladıdır. Yerlidir. Dördüncüsü Çiləbörddür. Mağavizdən gəlmədirlər. Beşincisi Talışdır. Şirvandan gəlmədirlər". Onların hamısı xristian alban məlikləri idilər.**

Məliklər xanlıqda feodal dağınıqlığının saxlanılmasının qızğın tərəfdarı idilər. Ona görə də Pənahəli xan onları zərərləşdirmək üçün bütün tədbirlərə əl atmalı idi və atdı da.

**Mirzə Adıgözəl bəy yazırdı: "Behiştlik mərhum Pənahəli xanın ilk hakimiyyətliyi dövründə Ağoğlanda yaşayan Çiləbörd məliyi Allahqulu idi. O, Nadir şahın xidmətində olub, Osmanlı Türkiyəsinə qarşı Nadirin apardığı müharibələrdə fərqləndiyinə görə Nadir şah ona sultan rütbəsi vermişdi. Ona görə də Allahqulunu məlik deyil, sultan deyə çağırırdılar.**

Allahqulu sultan Pənah xanla görüşmək üçün onun hüzuruna gəlir. O, xanın hüzurunda özünü təkəbbürlü aparır. Bu zaman Naxçıvan xanı Heydərqulu xan da Pənah xana qonaq idi. O, Allahqulu sultanın hərəkətlərini, cəlal, şövkət və dəbdəbəsini gördükdə Pənah xana xatırlatdı ki, belə bir sultan sənə itaət etməz və iki cəlal sahibi bir şəhərdə (ölkədə) yola getməz... Pənah xan Heydərqulu xanın məsləhətini tamamilə düzgün və etirazsız bir məsələ kimi qəbul edib, Allahqulu sultanı öldürtdü".

Qarabağın Xəmsə məliklərindən Pənahəli xanın hakimiyyətini birinci məlik Şahnəzər tanıdı. Onun ardınca Xaçın məliyi də Pənahəli xana tabe oldu. Dizaq, Çiləbörd və Talış məlikləri bir neçə il xana qarşı düşmənçilik etdilər. Pənahəli xanın oğlu İbrahimxəlil xanın dövründə (**1763-1806-cı** illər) məliklər tamamilə zərərsizləşdirildilər və onların müstəqilliyinə son qoyuldu. Tarixçi V.A.Pottonun yazdığı kimi: **"Pənah xan İrandan böyük sayda həmyerliləri ilə vətənə qaça bildi və vətəndə üsyan bayrağı qaldırdı. Qarabağ İrandan ayrıldı və 1747-ci ildə Pənah xan özünü hakim elan etdi. Beləliklə də, böyük dövlətin sərhədlərində öz müstəqilliyini inadla qoruyan kiçik bir müstəqil dövlət əmələ gəldi".**

Bu müstəqil feodal dövlətinin başçısı Pənahəli xan günü-gündən öz mövqeyini möhkəmləndirir, dövlət quruculuğunda uğurlar qazanırdı. Mənbələrdə qeyd edilir ki, Pənahəli xanın Gəncə, İrəvan, Naxçıvan və xüsusilə də, Ərdəbil xanlıqları üzərində güclü təsiri olmuşdur. O, Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə hakim təyin etmişdi. Gəncə xanzadələrindən istədiyi adamı hökumət işinə təyin edir, istəmədiyini isə vəzifəsindən çıxarırdı. O, vilayətin xanlarının uşaqlarından bir neçəsini girov adı ilə gətirib, Şahbulaq qalasında saxlayırdı. Mirzə Camal Cavanşirin yazdığı bu hadisələri başqa salnaməçilər də eynilə qələmə almışlar.

**Qarabağ xanlığının ərazisinin genişlənməsi, qonşu xanlıqların bir qisminin Pənahəli xana tabe olması və nəticədə yeni şəhərin də hərbi-strateji baxımdan sərfəli bir yüksəklikdə inşası, sözsüz ki, İranda hökmranlıq uğrunda mübarizə aparan qüvvələrin qısqanclığına səbəb olurdu. Elə buna görə də tikildikdən az sonra Pənahabad xarici basqınlara məruz qaldı. Tezliklə Məhəmmədhəsən xan Qacar çoxlu qoşunla Pənahabad üzərinə hücum etdi. Pənahəli xanı özünə tabe etmək üçün Araz çayını keçib “Qalanın 4 fərsəxliyinə (fərsəx qədim uzunluq ölçüsü olub, 12 min addımdan ibarətdir. 6-8 km-ə bərabərdir, ona ağac və daş ölçüsü də deyilir - Y.H.) gəlibçıxdı. Buna görə də Pənahəli xan da xanlığın döyüşə qabiliyyətli kişilərini qalaya toplayıb, düşmənə qarşı müqavimət göstərməyə və şəhərin müdafiəsinə hazırlaşdı. Məhəmmədhəsən xan Qacar qalanın yaxınlığındakı Xatın arxı yanında dayandı. Pənahəli xanı tutmaq üçün müxtəlif hiylələrə əl atdı, lakin buna nail olmadı. Qarabağ qoşunları, əhalisi düşmənə ağır zərbə vurur, onların atlarını, mal-dövlətlərini əllərindən alırdılar.**

**Qalanı mühasirədə saxlayan Məhəmmədhəsən xana xəbər çatdı ki, Kərim xan Zənd İranda hakimiyyət uğrunda mübarizəyə başlayıb və bir çox əraziləri ələ keçirib. Bu xəbəri eşidən kimi o, qoşununu geri çəkdi.**

**Məhəmmədhəsən xan Qacar, Fətəli xan Əfşar və Kərim xan Zənd İranda hakimiyyət uğrunda mübarizə aparan əsas simalar idi. Bu üç qüvvə bir-birini məhv etməyə hazır idi.**

**Məhəmmədhəsən xan Qacar Qarabağdan qayıtdıqdan sonra, yolda öz adamları tərəfindən qətlə yetirildi.**

Qarabağ çox çəkmədən Fətəli xan Əfşarın da hərbi yürüşünə məruz qaldı. **O, 1759-cu ildə Gəncə və Qarabağa** hücum etdi. Qarabağ xanlığının bir sıra mahallarını tutaraq Pənahabada yaxınlaşdı və qalanı mühasirəyə aldı. Pənahəli xanın müdafiəyə hazırlaşması və qalanın qalın divarlarla əhatə edilməsi onun qısa müddətdə alınmasını çətinləşdirirdi. Bunu nəzərə alan Fətəli xan Əfşar şəhərin altı kilometrliyində müdafiə istehkamlarının tikilməsini əmr etdi. Mirzə Camal Qarabaği bu barədə yazırdı: **“Fətəli xan Əfşar Pənah xanın yanına mahir elçilər göndərib, onu itaətə və ittifaqa dəvət etdi. Lakin Pənah xan belə sərdarlara itaət etməyi haqlı olaraq özü üçün əskiklik və ar bilib, elçiləri kobud cavablarla geri qaytarırdı”.**

Pənahəli xanın qoşunları və yerli əhali düşmənə ağır zərbə vuraraq layiqli müqavimət göstərirdilər. Qalanın yarım verstliyinə gəlib-çıxan **Fətəli xan 2000-ə qədər itki verib, geri çəkilməyə məcbur oldu.**

Fətəli xan Əfşarın Pənahabad qalasına hücumu və onun nəticələri haqqında müxtəlif fikirlər var. Bəzi tarixçilər iddia edirlər ki, Fətəli xan Əfşar aldatma yolu ilə Pənahəli xanın böyük oğlu İbrahimxəlil ağanı girov kimi ələ keçirib, özü ilə Urmiyaya aparmışdır. Digərləri, o cümlədən, **H.Ə.Dəlili** qeyd edir ki, Fətəli xan Əfşarın Pənahabad qalasına hücumu və bu barədə geniş və aydın məlumatların olmasına baxmayaraq, tarixi yanlışlıqlara yol verilmişdir. Alim yazır: **“Şəhər süqut etmək təhlükəsi qarşısında idi. Yaranmış vəziyyətlə əlaqədar olaraq Pənahəli xan Fətəli xanla zahiri olsa da, sazişə gəlməyə məcbur oldu. O, tabeçilik əlaməti olaraq oğlu İbrahimxəlil xanı girov kimi Urmiyaya göndərdi”.**

Pənahəli xanı özündən asılı vəziyyətə salan Fətəli xan Əfşar ona tabe olmayan xanlıqlara qarşı hərbi yürüşə başlamağı qərara aldı. Lakin İranda baş verən siyasi hadisələr onun planlarının həyata keçməsinə imkan vermədi...

Yuxarıda dediyim kimi, İranda mərkəzi hakimiyyət uğrunda mübarizə aparanlardan biri də Kərim xan Zənd idi. Onunla Fətəli xan Əfşar arasında qan düşmənçiliyi mövcud idi. Kərim xan

Zəndin qardaşı İsgəndər Fətəli xan tərəfindən döyüşlərin birində öldürülmüşdü.

Kərim xan Zənd güclü düşməninə qarşı mübarizədə Pənahəli xanı ən münasib tərəfdaş hesab edirdi. Eyni zamanda da Pənahəli xandan ehtiyatlanırdı. Kərim xan Zənd Fətəli xanla Pənahəli xan arasında olan düşmənçilikdən istifadə edərək onu özünə müttəfiq edib, qardaşının qisasını almağı və münasib vaxtda Pənahəli xanı aradan götürmək qərarına gəldi. Hiyləgər Kərim xan Pənahəli xanın yanına elçilər göndərib, əfşarlara qarşı mübarizədə ona müttəfiq olmağı təklif elədi. Onun Pənahəli xana göndərdiyi məktubda deyilirdi: **“Fətəli xan bizim nəinki təkcə düşmənimiz, hətta qanlımızdır. Sizə qarşı da olduqca yaramaz işlər görmüş, andını, peymanını pozmuşdur. Sənin oğlunu məkr və hiylə ilə aparıb məhbus etmişdir. İndi var qüvvə ilə bizə kömək etməli və bu işdə heç şeydən müzayidə etməməlisən. Çünki intiqam alsaq və oğlunu xilas etsək, siz sevindiyiniz kimi, biz də arzumuza çatmış olarıq”.**

Sözsüz ki, Fətəli xan Əfşardan yaxa qurtarmaqda Pənahəli xanın da böyük marağı var idi. Məhz ona görə də o, Kərim xan Zəndin təklifini tərəddüd etmədən qəbul etdi. Pənahəli xan vaxt itirmədən seçmə döyüşçüləri ilə Araz çayını keçib, Kərim xan Zəndin qoşunları ilə birləşdi. Onlar Fətəli xanı dəf etmək üçün Urmiyaya tərəf yola düşdülər.

Kərim xan Zənd Qarabağ xanının timsalında özünü məğrur görürdü. Çünki o, Əfşar xanından qorxurdu. Tərəflər arasında baş verən döyüşdə müttəfiqlər qalib gəldi. **1759-cu** ildə baş verən bu döyüşdən sonra Kərim xan Zənd, əslində, İranda hakimiyyəti ələ almış oldu. Kərim xan Zənd Pənahəli xandan başqa, bütün müttəfiqlərini evə buraxdı. İbrahimxəlil ağanı Şirazdan Urmiyaya gətirtdirib, ona qiymətli xələt, cəvahiratla bəzədilmiş bir qızıl yəhər, yaraqlı bir at verib, Qarabağa yola saldı. Atası Qarabağa qayıdana kimi xanlığı idarə etmək üçün ona fərman verdi. Lakin Kərim xan Zəndin belə bir fərman verməyə səlahiyyəti yox idi. O, deyirdi ki, İranda müstəqil padşah olmadığından mən vəkiləm.

İbrahimxəlil xanı Qarabağa yola salan Kərim xan Zənd Pənahəli xandan xahiş etdi ki, bir neçə gün onunla birlikdə Şiraza

səyahət etsin. Pənah xan onun bu məkrli təklifini qəbul etdi. İbrahimxəlil ağanın əsirlikdən azad edilib, Qarabağa göndərilməsi, o dövrün qanunlarına əsasən böyük övladın hakimiyyətə sahib olması, əslində, Pənahəli xanın hakimiyyətinin sonu demək idi. Vətəndən, el-obasından ayrı düşməsi, Kərim xan Zənd tərəfindən aldanılması, siyasi əsir kimi Şiraza aparılması Pənahəli xana sarsıdıcı zərbə vurdu. **O, 1763-cü** ildə Şirazda dünyasını dəyişdi. Xanın nəşi gətirilib, Qarabağda dəfn edildi.

Pənahəli xan Kərim xan Zəndin çağırışına gedərkən xanlığın idarəsini müvəqqəti olaraq kiçik oğlu Mehrəli ağaya tapşırmışdı. İbrahimxəlil xan qardaşını saraydan uzaqlaşdırdı. Mehrəli ağa hakimiyyətin ona mənsub olduğunu iddia edirdi. Bu isə dövrün qaydalarına uyğun deyildi. Orta əsrlərdə belə bir qayda var idi ki, əgər şah və ya xan dünyasını dəyişsəydi, hakimiyyət böyük oğula keçməli idi.

İbrahimxəlil xan saray münaqişələrinə son qoyub, özü müstəqil hökmdar kimi Qarabağ xanlığını idarə etməyə başladı. O, atası kimi məğrur və qətiyyətli idi. İbrahimxəlil xan Qarabağ xanlığını 43 il idarə etmişdi. **43 il (1763-1806-cı illər)** ərzində İbrahimxəlil xan Qarabağ xanlığının daxili və xarici siyasəti sahəsində mühüm işlər görmüşdür.

**Mirzə Camal Cavanşir yazırdı: "... İbrahimxəlil xan İran və Rum (Osmanlı Türkiyəsi nəzərdə tutulur - Y.H.) padşahlarına itaət etmədən və boyun əymədən müstəqil hökmranlıq etmişdir. Onun hökmü və fərmanı Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil vilayətləri, hətta İraq və Azərbaycan sərhəddi olan Qaplankuhda belə, işləyirdi. Vilayətlərin xanları mərhum xanın hökmü və əmri ilə təyin edilər və ya vəzifədən götürülərdi".**

İbrahimxəlil xan da qohumluq diplomatiyasından istifadə edərək qohum olduğu xanlıqların daxili və xarici siyasətinə nüfuz etməyə çalışırdı. **Mirzə Camal bəyin dediyi kimi, padşah adı daşımadığına baxmayaraq, İbrahimxəlil xanın dövlət və cəlalı İran padşahlarının cah-cəlalından əskik deyildi.**

İbrahimxəlil xan Şuşa qalasında məqsədyönlü quruculuq işləri aparmaqla yanaşı, alban xristian məliklərinin pozuculuq

fəaliyyətlərinə də son qoydu. Onun dövründə adı dəyişdirilib, **"Şuşa"** adlandırılan paytaxt Yaxın və Orta Şərqin ən məşhur elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. **Mənim doğma şəhərim üç ad - Pənahəli xanın şərəfinə "Pənahabad", gözəlliyinə, sıldırım, şiş qayalarla əhatə olunmasına görə "Şişə", xalq arasında isə "Qala" adı daşımışdır.**

İbrahimxəlil xanın dövründə Qarabağ xanlığının beynəlxalq vəziyyəti olduqca gərgin idi. Bura Rusiya və qacarlar arasında müharibə meydanına çevrilmişdi.

**1795-ci ilin yayında İranda hakimiyyətə gələn Ağa Məhəmməd şah Qacar Qarabağa hücum etdi. Şuşa 33 gün mühasirədə saxlanıldısa da, o öz məqsədinə nail ola bilmədi. Ağa Məhəmməd şah Qacar 1797-ci ildə ikinci dəfə Qarabağa hücum etdi və Şuşanı tutdu. Lakin burda öz yaxın adamları tərəfindən öldürüldü.**

**XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Rusiya Cənubi Qafqazda işğalçılıq mübarizəsini gücləndirdi. 1803-cü ildə Gürcüstan Rusiya imperiyasına birləşdirildi. 1803-cü ildə Car-Balakən və 1804-cü ildə Gəncə xanlığı rus generalı P.D.Sisianovun qoşunları tərəfindən amansızlıqla işğal olundu. Xanlığın əhalisinə qanlı divan tutuldu. Şimali Azərbaycan xanlıqları rus silahı qarşısında aciz qaldı...**

Qacar şahı Fətəli şahın göstərdiyi cəhdlər İbrahimxəlil xanı Rusiyaya yaxınlaşmaq niyyətindən çəkindirə bilmədi. Xan Qarabağ xanlığının müstəqilliyini Rusiya ilə **"müqavilə də"** görürdü. Eyni zamanda da bu hərəkətinə şübhə ilə yanaşırdı. Sonrakı hadisələr də bunu sübut etdi.

İbrahimxəlil xan P.D.Sisianovla əlaqə yaratdıqdan sonra görüşmək qərarına gəldi. Generalın göstərişi ilə mayor İ.Lisaneviç **(İbrahimxəlil xanın ailəsinin və yaxın adamlarının qatili) Şuşa qalasına gəldi. Bu münasibətlə İbrahimxəlil xan müşavirə çağırdı. Altı gün davam edən müşavirə olduqca gərgin keçdi. Bütün bəylər Rusiya himayəsinə keçmək haqqında təklifi rədd etdilər. Lakin İbrahimxəlil xan Rusiya ilə imzalanacaq müqavilənin layihəsini bəyəndiyini və onun himayəsinə keçmək haqqındakı fikrini Lisaneviçə bildirdi.**

**1805-ci il mayın 14-də Gəncə yaxınlığında Kürəkçay müqaviləsi imzalandı. 11 maddədən ibarət olan və qeyri-bərabər xarakter daşıyan "Andlı öhdəlik" adlandırılan müqavilə İbrahimxəlil xanın başını kəsən, qolunu bağla yan adi vərəq parçası idi.**

P.D.Sisianovun yeganə məqsədi rus qoşununu Şuşaya yeritmək idi və o, buna nail oldu. İ.Lisaneviç İbrahimxəlil xanın bütün hüquqlarını öz əlinə almışdı və onu aradan götürmək üçün əlverişli məqam axtarırdı. Belə bir məqamı tarixi şərait yetişdirirdi.

Kürəkçay müqaviləsi tarixi reallığı əks etdirirdi. Çünki bu, Qarabağın, o cümlədən də, onun dağlıq hissəsinin Azərbaycan xalqına məxsus olduğunu bir daha özündə əks etdirən ən mötəbər tarixi sənəddir.

**Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı, əslində, Rusiya tərəfindən işğal olundu. İbrahimxəlil xan gec də olsa, aldanıldığını başa düşdü. Şuşa qalasının komendantı Lisaneviç artıq xana inanmırdı. O, 1806-cı il iyun ayının 11-də İbrahimxəlil xanın düşərgəsinə hücum edib, xanı, 35 nəfər bəy və bəyzadəni, mirzə və nökərlərini vəhşicəsi nə qətlə yetirdi.**

Yeri gəlmişkən, onu da qeyd edək ki, Vasif Quliyev bu yaxınlarda "Şuşa" qəzetində dərc etdirdiyi "CAVANŞİRLƏR" başlıqlı materialında Pənahəli xan və İbrahimxəlil xan haqqında geniş və dolğun məlumatlar verdiyi üçün onlar haqqında tarixi məlumatlarla kifayətlənməyi məqbul hesab edirəm.

İbrahimxəlil xanın öldürülməsindən sonra onun varisi Mehdiqulu xan elan olundu. **Mehdiqulu xanın hakimiyyəti 1806-1822-ci illəri əhatə edir... Deməli, xan hakimiyyəti İbrhimxəlil xandan sonra 17 il də davam etmişdir.**

**1813-cü il oktyabr ayının 12-də qacarlarla Rusiya arasında imzalanan "Gülüstan sülh müqaviləsi", rus müstəmləkə rejiminin tüğyan etməsi, 1822-ci ildə Qarabağ xanlığının ləğv olunması ilə nəticələndi.**

**1828-ci il fevralın 10-da Rusiya ilə qacarlar arasında imzalanmış "Türkmənçay müqaviləsi"nə əsasən Araz çayından şimalda yerləşən bütün Azərbaycan torpaqları Rusiyaya, cənubdakı torpaqlar isə qacarların əlinə keçdi.**

**“Gülüstan müqaviləsi” bir Vətəni, bir xalqı ikiyə böldü. Yuxarıda deyidimiz kimi, bu müqavilələrdən, xüsusilə, Türkmənçay traktatından sonra ermənilər torpaqlarımıza, o cümlədən də, Qarabağa səpələnməyə başladılar. Sözümü A.S.Qriboyedovun Rusiya imperatoruna ünvanladığı sözlərlə bitirmək istərdim: “Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpağımızdır”. Elə buna görə də rus imperiyası qacarlar məmləkətindən və Türkiyədən qovulan erməniləri başından etmək üçün Qarabağ xanlığı və İrəvan xanlığı ərazilərinə gətirib, özünə dayaq məntəqəsi etmişdir.**



BƏXTİYAR VAHABZADƏ

*Azərbaycanın birliyi və istiqlaliyyəti*
*uğrunda çarpışan Səttar xan,*
*Şeyx Məhəmməd Xiyabani və*
*Pişəvərinin əziz xatirəsinə.*

## GÜLÜSTAN

İpək yaylığıyla o, asta-asta,
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə,
Bir möhürə baxdı, bir qola baxdı.

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsüyərək.
Bir qələm əsirlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılıncı tək.

Öz sivri uçuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm,
Kəsdilər səsini Azərbaycanın.

O, güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.

O, güldü haqq üçün daim çarpışan,
Bir xalqın tarixi faciəsinə.

Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərçimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını yellədib təsbeh çevirir.
Qoyulan şərtlərə razıyıq deyə,
Tərəflər qol çəkdi müahidəyə...

Tərəflər kim idi?
Hər ikisi yad!
Yadlarmı edəcək bu xalqa imdad?!

Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə.
Onlar bu şərtlərə sözünü desin,
Zənciri kim vurdu şir biləyinə?

Hanı bu ellərin mərd oğulları?
Açın bərələri, açın yolları.
Bəs hanı bu əsrin öz Koroğlusu-
Qılınc Koroğlusu, söz Koroğlusu?

Babaların şəni, şərəfi əlbət,
Bizə əmanətdir, böyük əmanət...
Yoxmu qanımızda xalqın qeyrəti?
Belə saxlayarlar bəs əmanəti?

Qoy ildırım çaxsın, titrəsin cahan!
Ürəklər qəzəbdən coşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran,
İgid babaların goru çatlasın!

Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başlandı böyük bir elin.
Mərsiyə söyləsin axar bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin.

Tərəflər sakitdir, qəzəbli deyil,
Məhv olan qoy olsun, onlara nə var.
İmzalar atılır bir-bir, elə bil,
Sevgi məktubuna qol çəkir onlar.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla, təsbehli ağa,
Qalxıb əl də verir biri-birinə.

Onların birləşən bu əllərilə,
Ayrılır ikiyə bir el, bir Vətən.
Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?

Bir deyən olmadı, durun ağalar!
Axı bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız, bayaqdan bəri,-
Bəs hanı bu yurdun öz sahibləri?

Bəs hansı həqiqət, bəs hansı qanun?
“Qədimdir” bu yurdun tarixi, yaşı.
Bəs hansı köksünə sərhəd qoyduğun,
Bir vahid ölkənin iki qardaşı?

Görək bu hicrana, bu müsibətə,
Onların sözü nə, qərəzi nədir?
Bu xalq əzəl gündən düşüb zillətə,
Öz doğma yurdunda yoxsa kölədir?

Necə ayırdınız dırnağı ətdən-
Ürəyi bədəndən, canı cəsəddən?
Axı kim bu haqqı vermişdir Sizə,
Sizi kim çağırmış, Vətənimizə?

Neçə vaxt sərgərdə hey ulaşdılar,
Gülüstan kəndində söv dalaşdılar
Bir ölkə ikiyə
Ayrılsın deyə!...

Göy də guruldamış deyirlər o gün,
Çölləri, düzləri buludlar sarmış.
O göy gurultusu ulu Babəkin
Ruhuymuş, hönkürüb fəryad qoyarmış.

Gülüstan kəndinin gül-çiçəkləri,
Bir günün içində soldu, saraldı.
"Gülüstan" bağlandı, o gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı.

Bağrı göz-göz oldu "Yanıq Kərəmin"
Tellər inildədi, yandı, nə yandı.
Aşığın sazında daha bir həzin,
Daha bir yanıqlı pərdə yarandı.

Həmin gün ölkəni apardı sel, su,
Tutuldu çöhrəsi günün, ayın da.
Şair Nəbatinin eşqi, arzusu.
O gün batmadımı Arpa çayında?

Ağlayıb dağlardan əsən küləklər,
Bu məşum xəbəri aləmə yaydı.
Sanki dilə gəldi güllər, çiçəklər:
"Bu işə qol qoyan qollar sınaydı".

Arazın suları qəzəbli, daşqın,
Şirin nəğmələr ahdır, haraydır,
Vətən quşa bənzər, qanadlarının,
Biri bu taydısa, biri o taydır.

Quş iki qanadla uçar, yüksələr,
Mən necə yüksəlim tək qanadımla?
Ürəklər bu dərddən tuğyana gələr,
Axar gözümüzdən yaş, damla-damla.

Cənablar, bir anlıq düşündünüzmü?
Verdiyiniz hökmün ağırlığını?
Bu hökmün dəhşəti əllimi, yüzmü?
Biz necə götürək bu göz dağını?

Başı kəsiləndə bu məğrur elin
Qəlbin ağrısını hiss etdimizmi,
Ulu Füzulini, igid Babəkin
Etiraz səsini eşitdinizmi,
Cənablar, bir damcı mürəkkəblə siz,
Düşünün, nələrə qol çəkmişsiniz?

Bir damcı mürəkkəb, bir vətəndaşı,
Qanına bulayıb ikiyə böldü.
Bir damcı mürəkkəb olub göz yaşı,
İllərlə gözlərdən axdı töküldü.

Min ləkə vurdular şərəfimizə
Verdik, sahibimiz yenə "ver"- dedi
Lap yaxşı eliyib doğrudan, bizə
Biri "baran"- dedi, biri "xər"- dedi.
Bizi həm yedilər, həm də mindilər,
Amma dalımızca hey deyindilər.

Hökmü böyük olur hər keçən anın,
Möhür də basdılar varağa təkrar.
Yox, varağın deyil, Azərbaycanın,
Köksünə dağ boyda dağ basdı onlar.

İmzalı, möhürlü ey cansız varaq,
Nə qədər böyükmüş qüvvətin, gücün.
Əsrlər boyunca vuruşduq, ancaq,
Sarsıda bilmədik hökmünü bir gün.

Ey kağız parçası, əvvəl heç ikən,
Yazılıb, qollanıb yoxdan var oldun,
Böyük bir millətin başını kəsən,
Qolunu bağlayan hökmdar oldun.

Bir eli ikiyə parçaladın sən,
Özün kağız ikən paralanmadın,
Köksünə yazılan qəlb atəşindən,
Niyə alışmadın, niyə yanmadın?

Araz sərhəd oldu, əsdi küləklər,
Sular yatağında qalxdı, köpürdü.
Üstü dama-dama taxta dirəklər,
Çayın kənarında səf çəkib durdu.

Sular, sizdən təmiz, nə var dünyada?
Ləkədən xalidir axı qəlbimiz.
Bağrınız alışıb niyə yanmadı,
Bu çirkin əmələ qol qoyanda siz?

Ey Araz, səpirsən, göz yaşı sən də,
Keçdikcə üstündən çölün, çəmənin.
Səni arzulara sədd eyləyəndə,
Niyə qurumadı suların sənin?

Dayanıb Arazın bu tayında mən,
“Can qardaş” deyirəm, o da “can” deyir.
Ey zaman, soğuma cavab ver, nədən,
Səsim yetər yerə əlim yetməyir...

Qarışıb gözümdə, qırışıb aləm,
Dərd-dərdi doğrayır, qəm-qəmdən keçir.
Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub sinəmdən keçir.

Taxta dirəkləri torpağa deyil,
Qoydular Füzuli divanı üstə.
Yarıya böləndü yüz, yüz əlli il
Gəraylı, bayatı, muğam, şikəstə,

Dəmir çəpərləri eşqim, diləyim
Tarixim, ənənəm üstə qoydular.
Yarıya böləndü canım, ürəyim,
Yarıya böləndü Arazda sular.

Taxta drəkləri qoydular, ax, ax!..
Qəlbimin, ruhumun, dilimin üstə,
Biz güldük, ağladıq, yenə də ancaq,
Bir sazın, bir telin, bir simin üstə.

Ürəkdən ürəyə körpü? Bir dayan!
Dərdimiz dinirsə bir sazın üstə.
Şəhriyar yaralı misralarından,
Körpü salmadınmı Arazın üstə?!

Bu taydan o taya axışdı sel tək
Gözə görünməyən könül telləri.
Bu selin önünü nə çay, nə dirək,
Kəsə bilməmişdir yüz ildən bəri.

Ağalar bilmədi birdir bu torpaq,
Təbriz də, Bakı da Azərbaycandır.
Bir elin ruhunu, dilini ancaq,
Kağızlar üstündə bölmək asandır.

Böl, kağız üstündə, böl, gecə-gündüz,
Torpağın üstünə dirəklər də düz,
Gücünü, əzmini tök də meydana,
Qoşundan, silahdan sədd çək hər yana.

Torpağı ikiyə bölərsən, ancaq
Çətindir bədəni candan ayırmaq!

Ayırmaq kimsəyə gəlməsin asan,
Bir xalqın bir olan dərdi-sərini.
O taydan bu taya Mustafa Payan
Oxuyur Vahidin qəzəllərini.

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə,
Şəhriyar səs verdi Təbriz elindən:

**“Heydər baba, göylər qara dumandı,**
**Günlərimiz bir-birindən yamandı.**
**Biri-birizdən ayrılmayın, amandır,**
**Yaxşılıq əlimizdən aldılar,**
**Yaxşı bizi yaman günə saldılar.**

**Bir uçardım bu çırpınan yelinən,**
**Qovuşaydım dağdan aşan selinən,**
**Ağlaşaydım uzaq düşən elinən,**
**Bir görəydim ayrılığı kim saldı,**
**Ölkəmizdə kim qırıldı, kim qaldı”.**

1959

# ERMƏNİ ÜNSÜRLƏRİNİN QARABAĞA KÖÇÜRÜLMƏSİ

*"Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır".*

**A.S.Qriboyedov**

*"Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin 1 milyondan çoxu yerli deyil. Və onları vilayətə biz köçürmüşük".*

**N.N.Şavrov**

Birinci (1804-1813) və ikinci (1826-1828) rus-qacar müharibələri Azərbaycan uğrunda aparılan işğalçı və qarətçi müharibələr kimi müasir tariximizə daxil olmuşlar. Rusiya imperiyasının hakim dairələri Azərbaycanın işğalından əvvəl, burda möhkəmlənmək və özləri üçün siyasi dayaq yaratmaq planlarını da işləyib hazırlamışdılar. Azərbaycan torpaqlarında xristian dövləti yaratmaq həmin məkirli planlar içərisində mühüm yer tutanlardan biri və ən mühümü idi. Belə bir qondarma siyasi dayaq ermənilər nəzərdə tutulurdu. Çünki torpağı, vətəni, paytaxtı, dövlətçilik ənənəsi və mədəniyyəti olmayan ermənilər Rusiya imperiyasının Cənubi Qafqaza işğalçılıq yürüşlərində həmişə fəal iştirak etmişdilər.

Ağa Məhəmməd şah Qacarın Qarabağ xanlığına yürüşləri və Rusiya ilə qacarlar arasındakı müharibələr qarabağlıların öz ata-baba torpaqlarından didərgin düşmələrinə böyük təsir göstərmişdi. Onlar Cənubi Azərbaycan ərazisinə və Orta Asiyaya getməyə məcbur olmuşdular. Nəticədə azərbaycanlıların sayı kəskin surətdə azalmağa başlamışdı.

1810-cu ildə Rusiya hərbiçilərinin verdikləri rəsmi məlu-

matlarda qeyd olunur ki, "Mehrinin və Güney qəzası əhalisinin böyük əksəriyyəti Araz çayının o tayındadır. İmkan düşərsə, Mehri və Güney əhalisini, Xarvan, Kələvi, Düzəli çayları yaxınlığında yerləşən Qaradağ kəndlərini, Əbülfət ağanın yanına qaçmış qarabağlıları da bu taya köçürmək lazımdır". Bildirirdilər ki, 1806-1812-ci illər ərzində Qarabağ xanlığından didərgin düşən və qacarlar ordusu tərəfindən Araz çayından cənuba aparılan əhalinin sayı olduqca çoxdur. Qarabağ xanlığının ərazisindən 2628 ailə qaçmışdır. Həmin ailələrin sayı 13140 nəfər olmuşdur. Qacarlar məmləkətinə aparılan ailələrin sayı 2217, onların say tərkibi isə 11085 nəfər olmuşdur.

Ümumilikdə, həmin illər ərzində baş götürüb qaçan qarabağlı ailələrin və İrana aparılan ailələrin ümumi sayı 4845 olmuşdur. Yalnız, 1807-1808-ci illərdə qaçqın və İran ərazisinə aparılanlar olmamışdır. 1812-ci ildə isə daha çox əhali ata-baba torpaqlarından didərgin düşmüşdür. 1812-ci ildə buranı 4885 nəfər tərk etmişdir. Rus hərb tarixçisi N.Dubrovin yazırdı ki, bu dövrdə Şuşa ətrafında gedən döyüşlərdən sonra bir gecə ərzində 20 min adam İrana getmişdir. Onların içərisində xan nəslinin çoxsaylı nümayəndələri də var idi. Tarixi araşdırmalardan aydın olur ki, XIX əsrin əvvəllərində baş vermiş hərbi-siyasi hadisələrin nəticəsi olaraq Qarabağ xanlığı ərazisindən Şirvan əyalətinə 1500 ailə köçərək orda 8 yeni kənd salmışlar. Onlar yeni məskunlaşdıqları yerlərdə ağır məhrumiyyətlərlə qarşılaşırdılar. Aclıq, xəstəlik, iqlim şəraiti onların kütləvi ölümünə səbəb olurdu.

Qarabağ xanlığının ərazisinin xeyli hissəsi müharibələr nəticəsində adamsız qalmışdı. Bir çox kəndlər xarabazara çevrilmiş, əkin sahələri becərilmədiyindən öz münbitliyini itirmişdi. Rusiya məmurları işçi qüvvəsindən məhrum olmuşdular. Təsərrüfatı yenidən bərpa etmək məqsədilə İrana pənah aparan əhalini geri qaytarmaq lazım idi. Və onlar 1813-cü ildə qacarlar məmləkəti ərazisindən 811 ailəni geri qaytardılar. Gülüstan sülh müqaviləsindən (1813) sonra, İrana aparılan dörd min nəfər qarabağlı öz əvvəlki ata-baba torpaqlarına qayıtdı.

1823-cü ildən başlayaraq ermənilərin Qarabağa köçürülməsi prosesi başlandı. Onların bu diyara gəlişi siyasi məna daşıyırdı. Rusiya imperiyası özü üçün bu ermənilərdən gələcəkdə Azərbaycan ərazisində forpost (dayaq, məntəqə) yaratmaq istəyirdi. Ona görə də erməni ailələri tədricən Şimali Azərbaycanın müxtəlif ərazilərinə köçürülməyə başladı. 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra bu hal kütləvi xarakter aldı.

1828-ci il fevralın 10-da Rusiya ilə qacarlar arasında imzalanan ədalətsiz, işğalçılıq mahiyyətini özündə əks etdirən Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən Fətəli şah öz öhdəsinə götürürdü ki, qacarlar məmləkətində yaşayan məmur və sakinlərə bu gündən etibarən öz ailələri ilə birlikdə qacarlar vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçilik törətmədən onların satlıq malına və ya əmlakına hər hansı gömrük və vergi qoyulmadan daşınan əmlakını aparmaq və satmaq üçün bir il vaxt verir. Daşınmaz əmlaka gəldikdə isə onun satılması və ya onun barəsində sərbəst sərəncam üçün beş il müddət müəyyən edilir.

Göründüyü kimi, bu maddə Türkmənçay sülh müqaviləsinə xüsusi məqsədlə, yəni, ermənilərin qacarlar məmləkəti ərazisindən kütləvi surətdə Şimali Azərbaycan ərazilərinə, o cümlədən də, Qarabağ ərazisinə köçürülüb-gətirilməsini təmin etmək üçün daxil edilmişdi. Bunu həyata keçirmək üçün köçürmə komitəsi də yaradılmışdı. Bu işə erməni X.E.Lazarev rəhbərlik edirdi.

1829-cu il Ədirnə müqaviləsindən sonra Türkiyə ərazisində yaşayan ermənilərin Şimali Azərbaycana köçürülməsi başlandı. Köçürülmənin əsas istiqaməti Qarabağ ərazisi idi.

1826-1828-ci illər rus-qacarlar və 1828-1829-cu illər rus-türk müharibələrində Rusiyanın rəqibləri üzərində qələbəsi ona imkan verdi ki, məğlub olan ölkələrdə məskunlaşan erməniləri Cənubi Qafqazda, o cümlədən, Şimali Azərbaycanda işğal etdiyi ərazilərdə yerləşdirsin. 1805-ci il 14 may tarixli Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı Rusiyanın himayəsinə keçdikdən sonra

Rusiya diyarda öz mövqelərini daha da gücləndirməyə başladı.

XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazdakı canişini P.D.Sisianovun göstərişi ilə Gəncə xanlığı və Şəki xanlığı ərazisinə gətirilən ermənilərin xeyli hissəsi Qarabağ xanlığı ərazisinə köçürüldü. Ermənilərin kütləvi surətdə Qarabağa köçürülüb gətirilmələri Türkmənçay müqaviləsindən sonrakı illərə aid edilsə də, bu işə 23 il (Kürəkçay müqaviləsindən sonra) əvvəl başlanılmışdı.

1805-ci ildən ermənilər Irandan mərhələlərlə Qarabağa gətirilməyə başlandı. Onu da deyək ki, bu köçürülmə zorakılıqla həyata keçirilirdi. Yerli əhalinin hesabına gəlmə ermənilərə torpaq və yaylağa gedənlərin evləri də ermənilərə verilirdi. Onu da xüsusilə qeyd etmək yerinə düşər ki, Kürəkçay müqaviləsindən keçən 6 il ərzində Qarabağda əmlakdan məhrum olan 3080 ailə var idi. Bu əmlak sonralar gəlmə ermənilərə verilmişdi.

Tarixi araşdırmalara görə Qarabağda 1805-ci ildə 10000 (25000 nəfər), 1812-ci ildə 5000 (12000 nəfər), 1823-cü ildə 20000 (48000 nəfər), 1831-1833-cü illərdə 20449 (49792 nəfər), 1843-cü ildə 27000 (134589 nəfər), 1850-ci ildə 27700 (137641 nəfər) ailə yaşamışdır. 1808-ci ildə Qarabağ xanlığı ərazisində 7474 ailənin yaşadığı sənədlərdə öz əksini tapır. 1811-ci ilin məlumatına görə Qarabağda 12000, 1817-ci ildə isə 7872 ailə yaşamışdır. 1832-ci il məlumatına görə bu dövrdə Qarabağda 20546 tüstünün olması qeyd olunur. 1823-cü ildə Qarabağ əyalətində 20095 ailənin yaşadığı göstərilir. 1823-cü ilə aid olan kameral təsvirdə göstərilir ki, Qarabağ əyalətində yaşayan 20095 ailənin 15729-u (78,3 faizi) azərbaycanlı, 4366 ailə isə (21,7 faizi) erməni ailəsi olmuşdur. Həmin dövrdə Qarabağda bir şəhər, 626 kənd var idi. Bu kəndlərin 433-ü azərbaycanlı, 161-i erməni, 2-si qarışıq kənd kimi qeydə alınmış, 30 kəndin əhalisinin isə etnik mənsubiyyəti göstərilməmişdir. 1823-cü ildə Qarabağ ərazisində 18.769 ailənin yaşadığı vurğulanır. Onlardan 14241 nəfəri azərbaycanlı, 4528 erməni ailəsi olmuşdur. 1823-cü ildə Şuşada 1111 azərbaycanlı, 421 erməni, kəndlərdə isə 13130 azərbaycan-

lı, 4107 erməni ailəsi var idi. Göründüyü kimi, təxminən 18 il ərzində Qarabağa ermənilərin köçürülməsi nəticəsində ermənilərin sayı nəzərə çarpacaq dərəcədə artmışdı. 1832-ci il məlumatına görə Qarabağ əyalətində 13965 azərbaycanlı, 6491 erməni ailəsi yaşayırdı. Bir daha qeyd etmək yerinə düşər ki, ermənilərin say tərkibinin artması Türkmənçay və Ədirnə sülh müqavilələri nəticəsində qacarlar məmləkətindən və Türkiyədən gələn ermənilərin hesabına olmuşdu.

1827-ci il oktyabrın 19-da polkovnik Lazarev Təbrizə komendant təyin olundu. Bu təyinatdan sonra Cənubi Azərbaycanın müxtəlif ərazilərində yaşayan ermənilər kütləvi surətdə Lazarevin yanına gələrək Rusiya imperiyasının təbəəliyinə keçmələrini təkidlə bildirirdilər. Deməli, Rusiyanın qacarlar üzərində qələbəsi ermənilərin İrana qarşı açıqdan-açığa düşmən mövqeyə keçməsinə səbəb oldu. Bu isə uzun müddət torpağında yaşadıqları, bütün nemətlərindən istifadə etdikləri dövlətə xəyanət idi.

Qacarlar məmləkətindən və Türkiyədən gələn ermənilər Azərbaycan torpaqlarında məskunlaşmaqla bərabər, burda özləri üçün dövlət yaratmaq istəyirdilər. Bu, onların çoxdankı arzuları idi. Ermənilərin bizim torpaqlarda məskunlaşmalarında kilsə xüsusi rol oynayırdı. 1827-ci il noyabr ayının 11-də katolikos Nersesin məktubu M.F.Paskeviçə çatdırıldı. Lakin general keşişin bir sıra təkliflərini qəbul etdisə də, erməni dövləti yaratmaq təklifini qəbul etmədi. Buna baxmayaraq, Rusiya imperiyası işğal edilmiş ərazilərimizdə özünə siyasi dayaq yaratmaq siyasətində ermənilərdən istifadə etməyi əsas tuturdu. Ona görə ki, Şimali Azərbaycan torpaqlarının işğal edilməsində ermənilər ruslara xüsusi xidmət göstərmişdilər. Maraqlısı o idi ki, Rusiya imperiyasının başbilənləri İrandan və Türkiyədən gələn ermənilərin Rusiya ərazisində məskunlaşmalarını qətiyyətlə rədd edirdilər. Onlar yaxşı dərk edirdilər ki, əgər belə bir işə razı olarlarsa, gələcəkdə ermənilər onların boğazında ilişib-qalan omba sümüyünə çevrilə bilər.

1829-cu il dekabrın 24-də Lazarev Paskeviçə yazdığı mək-

tubunda göstərirdi ki, ermənilərin qacarlar məmləkətindən köçürülməsi işlərinə 1828-ci ilin fevral ayının 26-dan başlanmışdır. Səylərimiz nəticəsində bu iş iyun ayının 11-də uğurla başa çatdırılmışdır. Bu müddət ərzində 8149 erməni ailəsi, bunlardan başqa, 100 aysor ailəsi də İrəvan, Naxçıvan və Qarabağ əyalətlərinə köçürülmüşdür. Köçürmə işində əsas diqqət Qarabağa və İrəvan ərazisinə yönəldilmişdi. Məlum olduğu kimi, İrəvan xanlığı Qərbi Azərbaycan ərazisində yerləşirdi. Rusiya imperiyası gələcəkdə erməni dövlətini yaratmaq üçün İrəvan xanlığının ərazisini hədəf seçmişdi. Ona görə də İrandan köçürülən 40 min erməninin böyük hissəsi Qarabağ və İrəvan xanlıqlarının ərazisində yerləşdirilirdi. Qarabağ, İrəvan və Naxçıvanın qacarlar məmləkəti ərazisinə yaxın olmaları bu işi xeyli asanlaşdırırdı. General Paskeviç göstəriş vermişdi ki, Qarabağa köçürülən ermənilərin məskunlaşmaları üçün yeni kəndlər salınarkən yerli azərbaycanlıların sıx yaşadıqları kəndlərin yaxınlığı nəzərdə tutulsun. Baş verən hadisələr sübut edir ki, Rusiya ilə qacarlar və Rusiya ilə Türkiyə arasında siyasi savaşlar olmasaydı, nə Qarabağda, nə də İrəvan torpaqlarında ermənilər bu gün olmazdı.

Bu deyilənləri rus tarixçiləri N.Şavrov, S.Qlinka, V.Veliçko və Rusiyanın İrandakı səfiri A.S.Qriboyedov da ermənilərin Cənubi Qafqaza, o cümlədən, Qarabağa köçürülməsi haqqında maraqlı tarixi məlumatlar vermişlər. Erməni tarixçiləri də ermənilərin diyara gəlmə olduqlarını dəfələrlə etiraf etmişlər. Məsələn, götürək İrəvan xanlığının etnik tərkibini. Həmin ərazi Qərbi Azərbaycan ərazisidir. Ərazinin etnik tərkibini araşdıran erməni tarixçisi Zaven Korkodyan "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illərdə" adlı kitabında yazır: "1883-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1886-cı ildə isə 27.246 nəfərindən 23.626 nəfəri, yəni, 85,2 faizi azərbaycanlılar olmuşdu". 1828-1830-cu illərdə İrandan köçürülən 1000 ailə Cavanşir qəzasında yerləşdirilmişdi.

Tarixçi N.Şavrov 1911-ci ildə yazırdı ki, Qarabağın dağlıq hissəsində və Göyçə gölü ətrafında daha çox erməni məskunlaş-

dırılmışdı. 1828-1830-cu illərdə həmin ərazilərdə rəsmi olaraq 124 min erməni yerləşdirilmişdi. Qeyri-rəsmi köçürülmüş erməniləri də nəzərə alsaq, onların sayı 200 min nəfərə çatar.

1828-ci il fevral ayının 21-də Rusiya imperiyası "Erməni vilayəti" yaradılması haqqında bədnam fərman verdi. Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayəti gələcəkdə erməni dövlətinin yaradılmasının təməlini qoydu. Eyni zamanda da bu vilayətin yaradılması, Rusiya-qacarlar və Rusiya-Osmanlı dövlətləri ilə aparılan müharibələr dövründə ermənilərin Rusiya dövlətinə göstərdikləri köməkliyin əvəzi idi. Beləliklə də, Rusiya ermənilərin hesabına özü üçün siyasi dayaq yaratmağa nail oldu. Bu isə ermənilərin çoxdankı arzuları idi.

1829-cu il Ədirnə sülhünə görə rus qoşunları Türkiyə ərazisindən çıxarıldıqdan sonra türklərə xəyanət edən ermənilər çıxılmaz vəziyyətə düşdülər. Onları bu vəziyyətdən xilas etməyin yeganə çıxış yolunu Rusiya imperiyası erməniləri işğal edilmiş Şimali Azərbaycan torpaqlarına köçürməkdə görürdü. Minlərlə erməni əldə silah rus ordusu tərkibində Türkiyəyə qarşı vuruşurdu. Qarabağda da, İrəvanda da köçürülüb gətirilən ermənilərin hesabına azərbaycanlı əhalinin sayı nəzərə çarpacaq dərəcədə azalırdı. Bu, çar məmurlarının yerli əhaliyə qarşı zor tətbiq etmələri ilə izah olunmalıdır. 1822-ci ildə xanlıq ləğv edildikdən sonra Qarabağda müstəmləkə zülmü daha da gücləndi. Bu vəziyyətə dözməyən azərbaycanlılar İrana və Türkiyəyə qaçmağa məcbur oldular. Qarabağda əhalinin etnik tərkibində baş verən dəyişikliklər yuxarıda dediyimiz kimi, Rusiyanın regionda apardığı antiazərbaycan siyasətinin nəticəsi idi.

Vaxt keçdikcə Qarabağda Azərbaycan kəndlərinin adları dəyişdirilib, erməni adları ilə əvəz olunurdu. Bu, Sovet hakimiyyəti illərində də son həddə çatmışdı. Məsələn, Xankəndi erməni daşnaklarının birinin adı ilə əvəz edilmişdi. Halbuki o, Azərbaycan xalqının qəddar düşməni idi. Xankəndi Qarabağ xanlığının sonuncu xanı Mehdiqulu xana məxsus olmuşdu. 1847-ci ildə Xan kəndi ərazisində Rusiyanın Sunja polku yerləşdirilmiş və

sonralar bura ermənilərin axını başlamışdı.

Martuni kəndinin qədim adı Küznüt olmuşdu. Ermənilər bu kəndin də adını dəyişdirib, Martuni qoymuşlar. Türkmənçay müqaviləsinə qədər Küznüt kəndində yalnız azərbaycanlılar yaşayırdılar. Onu da deyək ki, kəndin adı ermənilər tərəfindən bir neçə dəfə dəyişdirilmişdir.

Marağa kəndi 1828-ci ildə Cənubi Azərbaycanın Marağa mahalından köçürülən ermənilər tərəfindən bina olunmuşdur. Sonralar ermənilər kəndin adını dəyişib, "Marquşevan" qoymuşdular. 1978-ci ildə onlar bu kənddə Dağlıq Qarabağa gəlmələrinin 150 illiyi münasibətilə abidə də ucaltmışdılar. Ermənilər Qarabağda və digər Azərbaycan torpaqlarında da kəndlərimizin adlarını erməni adları ilə əvəz etmişlər.

Ermənilər Şimali Azərbaycan torpaqlarında məskunlaşdırıldıqdan sonra Rusiyanın hakim dairələrinin fəal köməyi və himayədarlığı ilə Azərbaycanın iqtisadi və siyasi həyatında mühüm mövqelərin bir qismini ələ keçirib, xalqımıza qarşı qisasçılığa başladılar. Bu qisasçılıq özünü soyqırımlarında və terrorizmdə açıq surətdə göstərirdi. İndi də belə olaraq qalır.

Azərbaycanın coğrafiyası haqqında, qədim dövrlərin qaynaq və mənbələrində ermənilər haqqında istənilən qədər məlumat var. Bu məlumatlar sübut edir ki, ermənilər Cənubi Qafqaza Dəclə və Fərat çaylarının sahillərində yerləşən cəngəllik və bataqlıq ərazilərdən gəlmişlər. Oz yazısı, dili, dini olmayan belə bir toplum yer üzündə, xüsusilə də, bizə qonşu ərazilərdə yaşamamışlar. Tarixən onlar səyyar həyat sürmüş, dağlıq ərazilərə sığınaraq öz varlıqlarını qoruyub-saxlaya bilmişlər. İndi erməni quldurları müvəqqəti olaraq ələ keçirdikləri Yuxarı Qarabağa "Arsax" deyərək dünyaya car çəkirlər. Mənbələr isə başqa söz deyir.

Makedoniyalı İsgəndərin yaratdığı çoxmillətli imperiya dağıldıqdan sonra saqaların Aral dənizi sahillərində məskunlaşan Arsax qolu yaranmış olan hərc-mərclikdən istifadə edərək eramızdan əvvəl 255-ci ildə kiçik bir ərazini ələ keçirib "Arsax" adlı bir dövlət yaratdılar. Onlar öz varlıqlarını bir müddət qoru-

yub-saxlaya bilmişdilər. L.Qumilyov bunları turanlı kimi xarakterizə edir, başçılarının adının Arsax olduğunu bildirirdi.

ARSAX türk mənşəlidir. "Dünyanın qərb hissəsi" mənasını verir. Arsaxın ermənilərə heç bir aidiyyatı yoxdur. Qarabağ qədim dövrlərdən Azərbaycana məxsus olmuş və belə də olaraq qalır.

Qarabağ birdir. Onun aranı da var, dağı da. Təbiət bu diyarı belə yaratmışdır. İstər çar, istərsə də SSRI dövründə Qarabağ yenə də Azərbaycana məxsus olmuşdur. İnanırıq ki, az müddətdən sonra doğma Qarabağımız düşmən əsarətindən tamamilə birdəfəlik xilas olacaq.

Erməni ünsürləri uydurma soyqırımının yüz illiyinə ciddi hazırlaşdılar. Lakin heç bir nəticə əldə edə bilmədilər. Tarixdə mövcud olmayan erməni soyqırımı ermənilər üçün siyasi alverdən başqa bir şey deyildir. Erməni ünsürlərinin iddialarına görə, guya 1915-ci il aprel ayının 24-də Osmanlı türkiyəsinin ərazisində 1,5 milyon erməni məhv edilmişdir. Lakin əldə olan məlumatlar sübut edir ki, o dövrdə Osmanlı Türkiyəsi ərazisində yaşayan 1,5 milyon ermənin 400 min nəfəri islamı qəbul etmiş, 300 min nəfəri ətraf ölkələrə getmiş, 300 min nəfəri İngiltərəyə, Fransaya, ABŞ-a və 200 min nəfəri isə Rusiya ərazisinə köçmüşdür. İndi hesablayaq görək yerdə nə qədər erməni ünsürü qalır. Bütün bu faktlar sübut edir ki, ermənilərin soyqırım iddiaları boş və əfsanədir. Onu da deyim ki, erməni soyqırımı olduqca sönük və hiss olunmadan tarixə qovuşmuşdu. Çünki yaxşı deyirlər: - "Yalan ayaq tutsa da yeriyə bilməz".

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN "İKİ OD ARASINDA" ROMANINDA ERMƏNİ MƏSƏLƏSİNİN QOYULUŞU

Şuşada gözəl yaz fəsli hamının əhval-ruhiyyəsinə xoş təsir göstərirdi. Hamı öz işi ilə məşğul idi. İbrahimxəlil xan xanlığın bir sıra daxili və xarici problemlərini həll etmək məqsədilə geniş müşavirə çağırmışdı. Burda demək olar ki, saray əyanları ilə bərabər, bütün səlahiyyət sahibləri və ali ruhani təbəqəsinin nümayəndələri də iştirak edirdi. Müzakirə olunan məsələlər haqqında İbrahimxəlil xan, vəliəhdi Məhəmmədhəsən ağa, vəzir Molla Pənah, şəhərin kələntəri Ağasi bəy, Mirzə Əliməhəmməd ağa öz rəy və təkliflərini bildirdilər. Müşavirə günorta namazına qədər öz işini davam etdirdi. Müşavirə başa çatdıqdan sonra Məhəmmədhəsən ağa Molla Pənahı, Mirzə Əliməhəmməd ağanı və Ohan keşişi nahara saxladı. Süfrədə boyanalı aş, üstündə quzu soyutması, yanında sarımsaq-qatıq, bağırbeyin, bir sözlə, can dərmanı desən, vardı. Məhəmmədhəsən ağa "bismillah!" deyib, qonaqları yeməyə dəvət elədi. Molla Pənah yeməyin şirin yerində:

- Doğrudan da, hər fəslin öz yeməyi var, bu yeməklər insanda xoş arzular oyadır...

Məhəmmədhəsən ağa Vaqifin sözlərinə əlavə olaraq bildirdi ki, boyananı Ağdamdan göndəriblər.

Yemək süfrəsi qurtardıqdan sonra hamıya qəhvə, Məhəmmədhəsən ağaya isə darçın çayı gətirildi. Darçın çayı soyuqluq verən düyünün insan bədəninə gətirdiyi ziyanı aradan qaldırır.

Qəlyan çəkmə uzun sürdü, söhbət öz məcrasından çıxdı və bu arada üç-dörd il əvvəl Qarabağa Londondan gələn bir erməni yada düşdü. Molla Pənah təəssüflə bildirdi ki, heyf, onu görə bilmədim...

Mirzə Əliməhəmməd ağa Vaqifin sözünə əlavə etdi ki, həmin erməni olduqca alçaq hərəkətlərə yol verib. Xan onun barəsində çox humanistlik edib, günahlarından keçib. Ohan keşiş Əli-

məhəmməd ağanın sözlərini məmnuniyyətlə təsdiqləyərək:

- Xan, doğrudan da, o yaramaz barədə humanist mövqe tutdu, ona toxunmadı. Bu murdar Həmədandan idi. Londonda təhsil almışdı. Sonra Peterburqa gəlmiş, özü kimi yaramazlara qoşulmuєdu. Onu öyrədib, Qarabağa göndərirlər ki, get, orda yaşayan bir ovuc erməniləri yerli müsəlmanlara qarşı mübarizəyə çağır. Bu bədniyyət alçaq buralarda vurnuxdu, başıboş erməni tacirlərindən pul yığdı. Uçkilsəyə getdi, bizim yararsız patriarxdan xeyir-dua aldı... Məqsədinə nail olmayıb, Hindistana çıxıb-getdi.

Peterburqdan gələn erməni Yusif Əminin hərəkətlərindən Mirzə Əliməhəmməd ağanın xəbərdar olduğunu Ohan keşişə bildirməsi məsələyə bir daha aydınlıq gətirdi. Mirzə Əliməhəmməd ağa keşişə bildirdi ki, Qarabağa şeytan toxumu səpməyə gələn Yusif Əmin Gürcüstan hakiminin yanında olmuş, lakin Irakli onu qovmuşdu. Xan bu şeytanla məşğul olmağı mənə tapşırmışdı. Mən ona bildirdim ki, bütün Azərbaycan xanlıqlarında bir ovuc gəlmə erməni yaşayır... Ozləri də alverlə və əkin-biçinlə məşğul olurlar. Onlar bizim kimi at üstündə qılınc oynada bilməzlər. Nə isə sonda Yusif Əmin mənə dedi ki, mənim arxamda ingilis padşahı durur. Göründüyü kimi, ermənilər kiminsə fitnəsinin qurbanına çevrilirlər.

Ohan keşiş əsəbi halda Mirzə Əliməhəmməd ağaya bildirdi ki, bizim bədbəxt başbilənlərimiz bilməlidirlər ki, ingilis və ya rus padşahlarının xatirinə iş görməklə heç bir şeyə nail ola bilməyəcəklər. Müsəlmanlar öz torpaqlarında bizə yer vermiş, qonaqpərvərlik göstərmişlər. Bunu dəyərləndirməmək sadəcə olaraq alçaqlıq olardı.

Ohan keşiş danışdıqca daxildən sanki alışıb-yanırdı. Əsəbilikdən əlləri və dodaqları titrəyir, ermənilərin cinayətkar hərəkətlərini yada saldıqca odlanırdı. Ohan erməni xalqına rəhbərlik etməyə çalışanların tarixçəsini yada salaraq dedi ki, bu tarixçə çox qanlı və olduqca boş bir şeydir. Dəfələrlə Qarabağda sığınacaq tapan bir ovuc erməniyə demişəm ki, biz "QAXTAQANIQ", yəni qaçqınıq. Çörəyinizi haram etməyin.

Ohan keşiş Ori haqqında bildiklərini tam açıqlığı ilə həmsöhbətlərinə bildirdi. Onun Fransada, Almaniyada və Avstriyada fırıldaqçılıqla məşğul olmasından, sonra I Pyotrun yanına gəlməsindən ətraflı məlumat verdi və onu lənətləndirdi. Eyni zamanda bildirdi ki, Şərq dillərinə bələd olan keşiş Ori kimi murdarlar rus çarına gərəkli idi. I Pyotr Ori vasitəsilə İran şahı Hüseynə məktub göndərib, orda yaşayan ermənilərin vəziyyətini yaxşılaşdırmağı xahiş etmişdi. Bu xahişin arxasında məkirli niyyətlər dururdu.

Qacarlar məmləkətinə "xoşməramla" gedən Ori ordan düşmən kimi qayıtdı. Tarixi faktlar sübut edir ki, Həştərxan vasitəsilə İrana gedən Ori heyəti öz çirkin əməllərini görüb qurtardıqdan sonra Üçkilsəyə gəlir, ruhanilərə və məliklərə böyük vədlər verərək geriyə - I Pyotrun sarayına qayıdır. Topladığı məlumatı çara çatdırır. İndi qacarlar məmləkətinə səfərə çıxmaq olardı... Əlbəttə, I Pyotr bu səfəri həyata keçirdi. Aldadılmış ermənilər də bu səfərdə fəal iştirak etdilər. Təbii ki, I Pyotr İranı və Qafqazı tərk edib, geri çəkildi. Bu işdən ermənilər təşvişə düşdülər və onlara qarşı yerli xalqların kin və nifrəti artdı. Beləliklə də, kənar ermənilərin hərəkətləri Cənubi Qafqaz ermənilərinə qarşı düşmənçilikdən başqa, heç bir şey gətirmədi. Keşiş Ohan bunu yaxşı başa düşürdü. Hər dəfə erməni məsələsi dilə gətiriləndə Ohanın əhval-ruhiyyəsi pozulur, əlləri və dodaqları əsirdi... Əsəbi halda deyirdi: Qarabağda yaşayan ermənilər mənşəcə albanlardır.

Keşiş Ohan xəcalət çəkə-çəkə həmsöhbətlərinə "onları duz-çörək tutsun", - deyərək dərin bir "ah" çəkdi.

Şimali Azərbaycan xanlıqları arasındakı fikir ayrılığı Qarabağ xanlığında birmənalı qarşılanmırdı. Baş verən siyasi hadisələr heç də ürəkaçan deyildi. Şimaldan və cənubdan gələn həyəcanlı xəbərlər İbrahimxəlil xanı narahat etməyə bilməzdi. Bütün bu fikirləri xəyalında təhlil edən İbrahimxəlil xan sarayın Bağrıqan dağına baxan pəncərəsinin önündə oturub, dərin xəyala dalmışdı. Hər tərəf qarla örtülü idi. Günəş şüaları qarın üzərinə düşərək gözqamaşdırıcı bir mənzərə yaradırdı. Şuşanın məhəllə evlərinin bacalarından çıxan tüstü burularaq gah şəhərin şərqinə,

gah da şimal-qərbinə doğru hərəkət edirdi. Bu, küləyin istiqamətindən asılı idi. Xan təbiətin möcüzəsinə baxdıqca fərəhlənir, xanlığı və onun paytaxtı Şuşa ilə fəxr edirdi. Bütün bunlara baxmayaraq, İbrahimxəlil xan daxilən olduqca narahat idi. Belə bir vəziyyətdə onun qəlbindən keçənləri həll etmək üçün maraqlı həmsöhbətə böyük ehtiyacı var idi.

Belə hallarda xanın ən yaxın həmsöhbəti Vaqif idi. O, İbrahimxəlil xanın otağına daxil olarkən onun dərin fikrə daldığını hiss elədi. Xan Vaqifi görüncə xəyal dünyasından ayrıldı və vəzirin salamını alıb, bir qədər rahat oldu. Kələntər Ağasi bəy də burda idi. Vaqif xanı xəyallardan tamamilə ayırmaq və ona xoş əhval-ruhiyyə bəxş etmək məqsədilə tamamilə başqa bir mövzu ətrafında söhbətə başladı:

- Xan sağ olsun, bu gün əlimə bir kitab düşüb. Kitab salnamə xarakterində olub, qədim rəvayət və əhvalatlardan xəbər verir.

İbrahimxəlil xan tarixə böyük maraq göstərdiyi üçün maraqla soruşdu.

Orda nədən söhbət gedir?

- Vaqif xanın əhval-ruhiyyəsində baş verən sevinci hiss edərək söhbətə başladı.

- Hələ hicrəti-xatəmələnviyandan (Məhəmməd (s) Məkkədən Mədinəyə köçməsi tarixi nəzərdə tutulur) min il qabaq bizim bu Qarabağda zərdüştlər yaşamış, Turan elləri Dərbənddən, səddi-İskəndərdən keçib, buraları özlərinə məskən etmişdilər. "Salnamə"də rəvayət olunan İran-Turan müharibəsi bizim Kür-Araz arasında vaqe olmuşdur. Bizim bu ölkənin başına çox qəribə qəziyyələr gəlmişdir.

Bu arada Kələntər Ağasi bəy söhbətə müdaxilə edərək bildirdi ki, Pənahəli xan Fətəli xan Əfşarın üstünə gedərkən məni də özü ilə aparmışdı. Lakin mən yaralandım və Ərdəbildə müalicə olundum. Orda olduqca məlumatlı, həmişə ibadətlə məşğul olan qoca bir şeyx var idi. Bir dəfə mənim yanıma gəlib, yataq döşəyimin üstündə əyləşərək söylədi ki, Aran böyük bir ölkəymiş mə-

qərərsəltənəti (mərkəzi-şəhəri) də Gəncə olmuşdur.

İbrahimxəlil xan birdən Vaqifə belə bir sualla müraciət etdi:

- Bəs bu ermənilər hardaydılar? Vaqif sakit səslə:

- Ermənilər buralara çox sonralar gəlmişlər. Bunlar Çingiz və Əmir Teymurun yürüşləri zamanı qaçıb, bu dağlara sığınmışlar. Görmürsünüzmü, erməni yaşayan yerlərə "sığnaq" deyirlər". Onların vətəni olmayıb. Ermənilər səyyar həyat sürüblər. Ermənıyə vətən məhfumu yaddır. Harda yaxşı güzaran tapsalar, onlar üçün ora "vətən" hesab olunur. Xan sağ olsun, onlar qaxtaqandırlar.

Şimaldan gələn həyəcanlı xəbərlər Qarabağ xanlığının sarayında narahatçılığa səbəb olurdu. Mirzə Əliməhəmməd ağaya Tiflisdən belə bir yazılı məlumat gəlmişdi ki, Qızlar istiqamətində rus qoşunları toplaşır. Rusiya imperiyasının nümayəndələri İraklinin yanına gəlir, nə isə aralarında danışıqlar aparılır. Qubalı Fətəli xan da Kür çayını tez-tez keçərək Qarabağ kəndlərini dağıdır və əhalini əsir aparırdı. İranda da xanlar biri-biri ilə mübarizə aparır, hətta Arazdan şimala da keçirdilər.

Belə bir mürəkkəb şəraitdə İbrahimxəlil xan Qarabağ xanlığının sərhədlərinin təhlükəsizliyi qayğısına qalır və Şuşanın möhkəmləndirilməsi işini davam etdirirdi.

Xristian alban məlikləri yenə də xanlığın daxilində pozuculuq işlərini davam etdirir, onun hərbi qüvvələri və daxili durumu haqqında ruslara məlumat verirdilər.

İbrahimxəlil xan qaynı Cümşüdü yanına çağırtdırıb, məsələni aydınlaşdırmağı qərara aldı. Xan Ağasi bəylə oturub, düşüncəyə dalmışdı. Bu zaman Cümşüd xanın otağına daxil oldu və salam verdi. Xan onun salamını almadı. Cümşüd bir qədər ayaq üstə qaldıqdan sonra xan onu qəzəblə süzüb, oturmağa icazə verdi. İbrahimxəlil xan qəzəblə danışmağa başladı:

- Balam, sən erməni, mən müsəlman, məndən pislik görmüsən?

Cümşüd itaətkarcasına:

- Allah eləməsin, xan - dedi, - həmişə sizdən hörmət görmüşük, biz bir ovuc erməni sizə nə edə bilərik. Biz ermənilər ki-

mik ki, sizin bir sözünüzü iki eləyək. Evdə oturub, ev yiyəsi ilə dava eləmək olarmı?

- Yaxşı bəs bu məliklər məndən nə istəyirlər? Eşitdiyimə görə, Dizaq məliyi İsa özünü ləyaqətsiz aparır, ruslara arxalanmaq fikrinə düşüb, hətərən-pətərən danışır. Haram olsun ona verdiyim çörək! Bu saat silahlı dəstə göndərib, onun başını bədənindən üzdürüb, itlərə yem etdirərəm...

Cümşüd sakit səslə xana xatırlatdı ki, bu başı batmış məliklər mənim atama da yağı kəsilmişdilər, qudurqanlıq edirlər, onlar ən ağır cəzaya layiqdirlər.

Xan qəti bir səslə Cümşüdə dedi ki, papağınız donuz dərisindəndir, amma gerisindən xəbəriniz yoxdur. Adam gərək tutduğu işin gerisini yaddan çıxarmasın. I Pyotr sizə yalandan nələr vəd etmişdi, axırı nə oldu? Siz bu torpağa qonaq kimi gəlmisiniz, harda olmusunuzsa, ordan biabırcasına qovulmusunuz. Onun-bunun yalançı vədlərinə aldanıb, yerli əhaliyə qarşı mübarizə aparmısınız. Nəticədə də qırılıb məhv olmusunuz.

İbrahimxəlil xan Ağasi bəyə müraciət edərək dedi:

- Bu saat 300 nəfər silahlı dəstə göndər, İsanın məsələsini həll etsinlər, malını, mülkünü müsadirə edib, yoxsullara paylasınlar. Mən onu Dizaq sığnağına yüzbaşı qoydum, daha özümə düşmən demədim.

Xanın bu sözlərindən dərhal sonra Kələntər Ağasi bəy ayağa qalxdı və "baş üstə" deyib otaqdan çıxdı.

**Cümşüdün** sifəti qorxusundan tamamilə dəyişmişdi, xanla otaqda tək qalması onu sanki işıqlı dünyadan ayırmışdı. Onun belə bir vəziyyətə düşməsi İbrahimxəlil xanın sərt baxışlarından yayınmadı.

- Gedə bilərsən, - xanın qəzəbli səsi eşidildi. **Cümşüd** bütün gücünü toplayıb, birtəhər otaqdan çıxmağa hazırlaşarkən xan bir daha qətiyyətlə dedi:

- Get, xristianlara de ki, nə qədər gec deyil, ağıllarını başlarına yığsınlar, sonra gec olar...

Gərgin vəziyyətdə olan Cümşüd sarayın artırmasına çıx-

dıqdan sonra dərindən nəfəs aldı, cibindən dəsmalını çıxarıb, alnının tərini sildi və saraydan uzaqlaşdı...

Otaqda tək qalan İbrahimxəlil xan bir qədər fikrə daldı, sonra ayağa qalxaraq o baş-bu baş gəzməyə başladı. Şahməhəmməd otağa daxil olub, xana hansısa məsələ barədə məlumat verməyə başladı. Bu zaman Vaqif içəri girdi, Şahməhəmməd söhbəti yarımçıq saxladı... Vaqifin otağa daxil olması xanı gərgin vəziyyətdən qurtardı. Şahməhəmmədin ona verdiyi məlumat sanki yaddan çıxdı, söhbət yarımçıq qaldı. İbrahimxəlil xan bir qədər əsəbi halda:

- Axund, - dedi: - görürsən xristianlar yenə də sakit durmurlar, elə deyirsən xoşluqla dolan. Bu da xoşluq! Badaralı Gapı Ballıca yolunu kəsib, gəlib-gedənə sataşır. Bu yaramazı məhv etmək lazımdır.

Vaqif düşüncəli tərzdə:

- Bunların hamısı məliklərin işidir. Elə bilirlər ki, rus gəlib, bunları xan edəcək, məgər bunlar hələ də başa düşmürlər ki, Nadir şahın onlara verdiyi saxta hüququn vaxtı çoxdan qurtarıb. Bir ovuc xristian albanların nə istədiyini heç özləri də bilmirlər. Bu, bədbəxtçilikdir.

Daha sonra Vaqif təəssüf hissilə bildirdi ki, araqarışdıranlar, əlbəttə, cəzalarını almalıdırlar. Başqa çıxış yolu yoxdur. Bunlar sakit otursaydılar, elə Loristanda qalardılar, daha qaçıb, Qarabağa gəlməzdilər. İsa da və ona kömək olan yaramazlar da öz layiqli cəzalarını mütləq almalıdırlar. Bəzi qonşu xanlıqların bizə qarşı pozuculuq hərəkətlərini davam etdirdikləri bir zamanda xristian albanların düşmənçilik hərəkətləri yolverilməzdir. Qəti tədbirlər görmək vaxtı gəlib çatıb.

Şimaldan Rusiya imperiyasının, cənubdan qacarların Şimali Azərbaycan xanlıqları üçün təcavüzkarlıq hərəkətlərinin gücləndiyi bir zamanda məlikləri susdurmaq və onları zərərsizləşdirmək zamanın ən mühüm tələblərindən biri idi. İbrahimxəlil xan Vaqiflə, Kələntər Ağası bəylə, Şahməhəmmədlə və başqa saray məmurları ilə hərtərəfli məsləhətləşmələrdən sonra qardaşı oğlu,

Qarabağ xanlığında igidliyi və mərdliyi ilə məşhur olan Batmanqılınc Məhəmməd bəyi yanına çağırıb dedi:

- Oğlum, səninlə fəxr edirəm. İgidlərini də yığ başına, get Badaralı Gapını aradan götür. İlk növbədə, Badara məliyini asdırarsan! Daha sonra yerin deşiyində də olsa, Gapını tapıb, lazımınca cəzasını verərsən. Qoy bilsin ki, duz-çörəyə xəyanət nə deməkdir. Mən özüm Naxçıvana gedirəm. Naxçıvan xanı məni tanımaq istəmir. Gapı məsələsini həll etdikdən sonra Xudafərin körpüsünə çıxarsan, ordan da Naxçıvana gedərik.

Məhəmməd bəy əmisindən aldığı tapşırığı yerinə yetirmək üçün elə həmin gün, İbrahimxəlil xan isə iki gündən sonra səfərə çıxdı. Xan sarayda, şəhərdə və xanlığın başqa yerlərində asayişi təmin etmək üçün yerində qoyduğu Kələntər Ağasi bəyə böyük səlahiyyətlər verdi.

Məhəmməd bəy Badaraya gəlib, əmisindən aldığı tapşırıqları tamamilə yerinə yetirdi. Sonra Xudafərin körpüsünə doğru hərəkət etdi. Xan Xudafərin körpüsünə çatdıqda Məhəmməd bəyi başının adamları ilə birlikdə onu gözlədiklərini gördü. Məhəmməd bəy Gapının eybəcər başını xanın ayaqları altına atdı...

İbrahimxəlil xan Naxçıvan xanı Kəlbəli xanla münasibətlərini qaydaya salıb, geri qayıtdı.

Rus-Osmanlı müharibəsi 1768-ci ildən davam edirdi. Müharibə 1774-cü ildə Kiçik Qaynarca sülhü ilə başa çatdı və Rusiya Krımı işğal etdi. Bununla da, Qara dənizə çıxış yolu qazandı. Rusiya Şərq planını həyata keçirməyə başladı. Bu, ilk növbədə, məliklər və keşişlər tərəfindən sevinclə qarşılanırdı. Məliklər və keşişlər ruslardan yenə ümid gözləyirdilər. Rusiyanın verdiyi boş vədlər xristian albanları məhv olmaq dərəcəsinə gətirib çıxarmışdı. Keşiş Ohan erməni sığnaqlarını gəzir, nəsihətlər verir və xristianları məliklərə inanmamağa çağırırdı. O, sığnaqlardan qayıtdıqdan sonra Vaqiflə görüşmək və məsləhətləşmək qərarına gəldi. Ohan görüşə gələrkən Axund həyətində bənövşə dərirdi. O, keşişi mehribancasına qarşılayıb, evə apardı. Ohan dedi:

- Axund, səninlə məsləhətləşməyə gəlmişəm. Yenə bu ya-

ramaz məliklər sarsaqlaşıblar, Allah axırını xeyir eləsin... Vaqif böyük bir maraqla Ohanı dinləməyə başladı. O isə sözünə ara vermədən əsəbi halda danışırdı. Deyirdi ki, məliklər rus padşahına bir ərizə yazıblar. Ərizə iftira və yalanlarla doludur. Onların bu hərəkətləri adamı dəhşətə gətirir.

Həmin ərizədə onlar özlərini albanlar adlandırırlar.

Vaqif Ohanı dinlədikcə xəyala dalır və daxilən əsəbi hal keçirirdi.

Vaqif Ohandan soruşdu:

- Onlar ruslardan nə istəyirlər?

- Nə istəyəcəklər, istəyirlər ki, rus bura gəlib bir erməni hökmranlığı qursun. Mən qorxuram ki, yenə qan tökülər, camaat qırılar. Vartapet Minasın qəbrinə lənət...

Vaqifin təklifi bu oldu ki, məliklərin hərəkətlərini İbrahimxəlil xana bildirmək lazımdır. Camaat qırılınca qoy beş məlik, beş də tüğyan etmiş keşiş ölsün. İbrahimxəlil xan, Vaqif və Ohan məsləhətləşib qurtardıqdan sonra keşiş Ohan evinə getdi. Otaqda qalan İbrahimxəlil xanla Vaqif hərtərəfli məsləhətləşməyə və qəti qərar çıxarmağa başladılar. Vaqif ümidverici bir səslə İbrahimxəlil xana dedi:

- Xan sağ olsun, xristianları qırsaq, onda rusların əlinə bəhanə düşər, bundan bizə heç bir xeyir gəlməz. Mənə elə gəlir ki, rusların ən başlıca siyasəti İrana qapı açmaqdan ibarətdir. Ona görə də rus onlardan istifadə etmək istəyir. Orinin İrana səfərini yada salmaq kifayətdir. Biz də yazaq. Bildirək ki, onlar kimdir bizim torpaqlara nə vaxt gəliblər, beş-on alban məliklər və keşişləri birə kimi canımıza salıb, öz murdar məqsədləri üçün onlardan istifadə edirlər. Mənim məsləhətim belədir. Bir yaxşı kağız yazım, sənin xan övladı olduğundan, iyirmi ildir ki, Qarabağ torpağında hökmranlıq etməyindən, xanlığın gücündən, sənin şəxsi nüfuzundan rus hökumətinə ətraflı məlumat verim. Eyni zamanda da Rusiya hökumətinə bildirək ki, himayənizə girməyə və bac verməyə də razıyıq. Kağız sabah hazır olar. Kağızı Musa Soltan vasitəsilə rus nümayəndəsinə çatdırmaq olar. Musa Soltan baca-

rıqlı, dilavər bir adamdır. Beləliklə, biz rusu erməni fırıldaqlarından ayırıb, öz tərəfimizə çəkə bilərik.

Xan Vaqifin təklifini qəbul etdi. Vaqif məlik Abonun tutulub, zindana salınmasını da məsləhət bildi. Ona görə ki, aranı qarışdıran odur. Ayrı tənbeh lazım deyil.

Vaqif saraydakı otağına çəkilib, Rusiya iperatriçəsi II Yekaterinaya olduqca tutarlı bir məktub yazmağa başladı. Bu, o məktub idi ki, Peterburq sarayında Qarabağ xanlığına qarşı hazırlanan məkrli planı tamamilə heçə çıxardı. Ermənilərin 1783-cü ilin mart ayında Peterburqa yazdıqları böhtanla dolu ərizələrinin üzərinə knyaz Potyolmkin-Tavriçeski yazmışdı: "İbrahimxəlil xanı hakimiyyətdən salıb, Qarabağda erməni əyaləti yaratmaq lazımdır".

Vaqifin Peterburqa yazdığı məktub 1783-cü ilin aprel ayında ora çatdı. Bu məktub Potyomkini əvvəlki niyyətindən daşındırdı. O, bu məktubun üzərinə belə bir dərkənar yazmışdı: "İbrahimxəlil xanın bizə qarşı bəslədiyi sədaqət rus çariçası üçün ən gözəl bir bacdır" deyərək öz fikrini ifadə etmişdir. Bu barədə Potyomkin Qarabağ xanı İbrahimxəlil xan Cavanşirə də xəbər göndərmiєdi.

Qarabağ xanlığının bu dövrdə xarici siyasətinin ən başlıca vəzifələrindən biri rus işğalının qarşısını almaq, erməniləşmiş albanların böhtanlarını heçə çıxarmaq, onların bu diyara gəlmə olduqlarını ruslara başa salmaqdan ibarət idi. İbrahimxəlil xanla birlikdə Vaqif də bu sahədə böyük işlər görürdü. Rusiya ilə münasibətlər tədricən qaydaya düşürdü...

Rusiya Cənubi Qafqaz uğrunda mübarizəsini bir an da olsa, təxirə salmırdı. Özünə möhkəm dayaq yaratmaq üçün bütün vasitələrdən istifadə edirdi. 1783-cü il iyulun 24-də Rusiya imperiyası ilə Kartli-Kaxetiya (Gürcüstan) çarlığı arasında Şimali Qafqazın Georgiyevsk qalasında traktat imzalandı. Bu traktata əsasən Gürcüstan Rusiya imperiyasının himayəsi altına keçdi. Gürcüstan hakimi II İrakli özünün və varislərinin adından Rusiya çarının ali hakimiyyətini və himayəsini qəbul etməklə tarixi məsuliyyəti öz

üzərinə götürdü. Traktata əsasən Rusiya da üzərinə müəyyən təəhhüdlər götürürdü. Belə ki, II İraklinin çarlığının bütövlüyünün və Gürcüstan taxt-tacının qorunmasını Rusiya öz üzərinə götürür, hakimiyyətdə vərəsəlik hüququnu qəbul edirdi. II İrakli daxili idarəetmə işlərində də müstəqilliyini saxlayırdı, xarici siyasətdə isə Tiflis şəhərində olan səlahiyyətli rus məmuru ilə hesablaşmalı idi. Rusiya Tiflisdə hərbi qüvvə saxlamaq hüququ da əldə edirdi.

Gürcüstanın Rusiya himayəsinə keçməsindən İbrahimxəlil xan da xəbər tutdu. Vaxt itirmədən bütün dövlət məmurlarının, ağaların, bəylərin və din xadimlərinin iştirakı ilə geniş müşavirə çağırdı. Yaranmış beynəlxalq şərait müzakirə olundu. Müşavirə iştirakçıları ikili mövqedə dayandılar. Bir qrup İrandan, digər qrup isə Osmanlı Türkiyəsindən kömək istəməyi irəli sürürdü. Məsələ hərtərəfli müzakirə edildi. İbrahimxəlil xan və Vaqif bütün çıxışları, rəy və təklifləri səbrlə dinləyir, heç kimin sözünü kəsmirdilər. Kələntər Ağasi bəy Şahməhəmməd İbrahimxəlil xanın və Axund Vaqifin məsələyə necə münasibət bildirəcəklərini böyük intizarla gözləyirdilər. Onlar da Qarabağ xanlığının gələcək taleyi üçün məsuliyyət daşıdıqlarını yaxşı bilirdilər. Mirzə Əliməhəmməd də dərin xəyal içərisində idi. Axı xanlığın tale yüklü məsələsi həll olunurdu.

Vəliəhd Məhəmmədhəsən ağa da gərginlik içərisində idi. O, bu vəziyyətdən xilas olmaq üçün söz alıb, sakit tərzdə dedi:

- Mənə elə gəlir ki, ruslarla razılaşmaq məqsədə müvafiqdir. Rııs hökumətinin özü də buna can atır... Rusiya dövləti güclü dövlətdir, son zamanların siyasi hadisələri də onun gücünü sübut edir.

Məhəmmədhəsən ağanın bu çıxışı müşavirə iştirakçılarının bir hissəsində mübahisələrə səbəb oldu. Ağalardan biri təəccüblü səslə dedi:

- İslam məmləkətinə kafir buraxmaq olarmı? Dinimizi, şəriət qanunlarımızı niyə nəzərə almırsınız? Allah mənə o günü göstərməsin!

Nəhayət İbrahimxəlil xan müşavirədə yaranmış gərgin və-

ziyyəti yumşaltmaq məqsədilə danışmağa başladı:

- Kim deyir ki, Qarabağ xanlığını rusa verək? Mən sağ ola-ola bu işə yol verərəmmi?

Burda xanın səsində bir zəiflik yarandı, rəngi dəyişildi, əsəblərini sakitləşdirmək üçün qəlyan çəkməyə başladı. Xanın vəziyyəti məclisdəki ab-havanın dəyişilməsinə və iştirakçıların sakitləşmələrinə səbəb oldu. Otaqda dərin sükut yarandı. Yaranmış vəziyyəti Vaqifin mənalı və tutarlı çıxışı aradan qaldırdı:

- Xan sağ olsun, ümidsizliyə qapılmaq olmaz, düşmən qapımızın ağzını kəsməyib? Atalar demişkən, nəyinən yoldaş ol, amma əlindən ağacı yerə qoyma! Biz də öz işimizi əvvəlcədən ehtiyatlı tutmalıyıq. Xanlığın müstəqilliyini, təhlükəsizliyini və suverenliyini qoruyub-saxlamaq məqsədilə bütün tədbirlər görülmüş və görülür. Silahlı qüvvələrimizin sayı 7 minə qədərdir. Bunların 3 mini ləzgilərdir. Lazım gələrsə, Əmmə xandan əlavə canlı qüvvə almaq olar. Xanın zəngin xəzinəsi və çoxlu ərzaq anbarları əhalini və ordunu uzun müddət saxlamağa kifayət edər.

Vaqif danışdıqca ətrafdakıları nəzərdən keçirirdi. Hamı onu maraqla dinləyirdi. Vaqif bundan istifadə edərək son fikrini açıqladı:

- Elçilərimizi göndərək, bizim də himayəyə girmək arzumuzu Tiflisdə rus nümayəndəsinə bildirsin. Biz vəziyyəti sonra bir daha götür-qoy edərik. Elə bu saat rusun himayəsinə girmirik ki!

Vaqifin fikri məclisdə yenidən etirazların başlanmasına səbəb oldu. Lakin o, inandırıcı dəlillərlə məclisi yenidən sakitləedirə bildi.

Ibrahimxəlil xan Vaqifin çıxışını dinlədikcə sakitləşir, üzündə daxilən yüngüllük hiss edirdi. Ona görə də neypuçu (qəlyanı) xüsusi bir zövqlə çəkir, arabir də gülümsəyirdi. Gözlənilmədiyi halda xan yenidən məclisi gözdən keçirib dedi:

- Axund Vaqif özü Tiflisə getməlidir. Onunla birlikdə səlahiyyətli adamlar da gedəcək. Yazı-pozu işlərini də Mirzə Camal aparar, yaxşı xətti var. Mən Axund Vaqifə böyük ixtiyar verirəm.

Məsləhət necədirsə, elə də edər, özü arif və aqil insandır.

Xanın təklifi məclis tərəfindən böyük razılıqla qarşılandı. Hamının gözlərində ümidverici bir işıq yarandı. Bu işıq gələcəyə yol açırdı...

Qışın oğlan çağı idi. Şuşa qalası dümağ xalat geyinmişdi. Hava sakit və şəffaf idi. Adamlar nəfəs aldıqca yüngülləşir, yumşaq qar üstündə həvəslə gəzir, tanışlar bir-birinə qartopu atırdılar. Səma açıq olduğu üçün günəşin parlaq şüaları hər tərəfə yayılır və təbiətə xüsusi gözəllik verirdi.

Vaqif uzaq səfərə hazırlaşmasına baxmayaraq, hərdən pəncərədən təbiət mənzərəsini seyr etməkdən doymurdu. Vaqifin arvadı Mədinə Vaqifin yol tədarükü ilə məşğul idi. O, qış paltarlarını səliqə ilə seçir, təmiz və yaraşıqlı geyim əşyalarını evin bir tərəfinə yığırdı. Yol üçün geyim əşyalarını Vaqif özü seçməli idi. Bu, belə də oldu.

Vaqif Tiflisə böyük ümidlə gedirdi. Gedirdi ki, xanın ona etibar etdiyi missiyanı layiqincə yerinə yetirə bilsin. Bunun üçün o özündə güc və inam hiss edirdi. Gedirdi ki, Qarabağ xanlığının varlığı üçün əlindən gələni etsin, Pənahəli xanın onlar üçün qoyub getdiyi Qarabağ xanlığını qoruyub-saxlaya bilsin... Bütün bunlar sanki Vaqifə qol-qanad verirdi. O, dağ qartalı kimi Tiflis istiqamətində uçmaq həvəsində idi... Vaqifin başçılıq etdiyi Qarabağ nümayəndə heyəti Tiflisə gedərkən yolda çox əziyyət çəkdi. Soyuq qış havası, qalın qar yollarda gediş-gəlişə böyük maneə törədirdi. Atların burunlarından çıxan hava sanki vulkana bənzəyirdi. Buz bağlamış yollarda atlar arabir büdrəyirdilərsə də, cəld Qarabağ atları üçün bunlar adi bir hal idi. Vaqifgil Tiflisə çatan kimi II Iraklinin mehmandarları onları gürcü zadəganlarından birinin evinə apardı. Uzun yol atların yorulmasına təsir göstərmişdi. Nökərlər atları rahatladılar, onların tərləri silinib-qurulandı, arpa-saman verildi.

Vaqif bir qədər istirahət etdikdən sonra həsrətində olduğu Tiflisi gəzməyə çıxdı. Sonra isə Tiflis hamamına getmək və yorğunluğunu çıxarmaq istədi. Bunu hiss edən Mirzə Camal sakit bir

tərzdə dedi:

- Axund, yoldan sonra bu qarlı havada hamama getmək olmaz, adam xəstələnə bilər, bu işi sonraya saxlamaq yaxşı olardı.

Vaqif qırmızı yanaqlı, aydın nitqə malik olan Mirzə Camala ata məhəbbəti ifadə edən gözləri ilə baxaraq dedi:

- Oğlum, mən dağlarda böyümüşəm, soyuq, şaxta mənə kar etməz. Su yolun yorğunluğunu canımızdan çıxarar, bir-iki gün evdə oturub-dincələrik.

Vaqif nümayəndə heyəti ilə birlikdə Tiflisi gəzib, yenə də onlar üçün ayrılmış iqamətgaha qayıtdılar. Bir neçə gündən sonra II İraklinin nümayəndəsi Vaqifin yanına gəlib, bildirdi ki, yanvarın 22-də rəsmi ziyarət olacaq, gəldim ki, sizi xəbərdar edim.

Tiflis bayramsayağı bəzədilmişdi. Yanvarın 22-də 101 topdan açılan atəş bayramın başlandığını şəhər əhalisinə xəbər verdi. Rəsmi keçid çarın nümayəndəsi, polkovnik S.D.Burnaşevin yaşadığı mənzildən başlayıb, II İraklinin sarayına getməli idi. Vaqif və onun başçılıq etdiyi nümayəndə heyəti rəsmi keçidə qoşulmadılar, kənarda dayanıb, onu seyr etməyə başladılar.

Rəsmi keçid qurtardıqdan sonra Rusiyanın nümayəndələri bir-bir yaxınlaşaraq Rusiyanın himayəsinə keçməsi şərəfinə İrakliyə əl verib, təbrik etdilər. Növbə Vaqifə çatdıqda o, irəli yeriyib, II Iraklinin əlini sıxdı və İbrahimxəlil xanın adından onu təbrik etdi. II Irakli qaşlarının altından Vaqifi süzərək türkcə dedi:

- Dostum İbrahimxəlil xana məndən çox-çox salam söyləyin!

Sonra qonaqlar yemək otağına dəvət olundular. II Yekaterinanın və II İraklinin şərəfinə badələr qaldırıldı, sağlıqlar deyildi. Söz Vaqifə verildi. O, dərin məzmunlu çıxış etdi. II İraklini vali kimi şərəfləndirdi. Bu, II İrakliyə xoş gəlmədi.

Çünki o, artıq İranın dörd valisindən biri deyildi. Rusiyanın himayəsinə keçmiş müstəqil padşah idi. Vaqifin vali deməsi Burnaşevi də razı salmadı. Vaqif İraklini padşah adlandırmaqla İranı narazı sala bilərdi. Bunu o, yaxşı bilirdi. Burnaşev ilk dəfə olaraq incə Şərq diplomatiyası ilə qarşılaşdığını hiss etdi. Hiss etdi ki,

Vaqifin çıxışı Qarabağ xanlığı ilə qacarların münasibətlərinin pozulmamasına yönəldilmişdir.

Vaqif və onun başçılıq etdiyi nümayəndə heyəti Tiflisdə iki həftə qaldı. Bu müddət ərzində o, şəhərin tarixi yerləri ilə tanış oldu. II İraklinin andiçmə mərasimində Qarabağ nümayəndələri də iştirak etdilər. Vaqif II İrakli ilə bir daha görüşə bilmədi. Səbəb o idi ki, imzalanan müqaviləyə görə Gürcüstan hakimi yalnız Burnaşevdən başqa, digər xarici nümayəndə heyəti ilə görüşə bilməzdi, onun razılığı olmadan bir addım da ata bilməzdi. Rusiya imperiyasının müstəmləkəçilik siyasəti ilk anlardan özünü açıq surətdə göstərirdi. Vaqif bunu dərindən hiss edirdi.

Vaqif II İraklinin düşdüyü vəziyyətdən məyus oldu. İrakli nümayəndəsi vasitəsilə Vaqifə Burnaєevlə görüşməsni məsləhət gördü. Vaqif İraklinin təklifini qəbul etdi.

Vaqif rus məmurunun qəbuluna böyük qürurla, Qarabağ xanlığının gücünü və əzəmətini nümayiş etdirən vəzir kimi getdi. Onun mindiyi Qarabağ atı Tiflis küçələrindən keçərkən adamlar atın yerişinə, onun sahibinə maraqla baxırdılar. Atın hərdənbir kişnəməsi sanki Qarabağ xanlığının gücünü, əzələsini nümayiş etdirirdi.

Vaqif Burnaşevin qəbuluna tək getdi. Bəylərin məmurun yanına getmələrinə razı olmadı. Yalnız özü ilə Mirzə Camalın getməsini məsləhət bildi. Vaqif Burnaşevin otağına daxil olanda məmur masanın sol tərəfində dayanmışdı. Vaqif onu diqqətlə süzdü... Divardan asılan II Yekaterinanın iri rəsmi ilə Burnaşevin arasında heç bir fərq olmadığı Vaqifin nəzərini özünə cəlb etdi. Imperatriçənin sifəti, gözləri, qaşları, dodaqları eynilə Burnaşevdə idi. Bu zaman Vaqif ürəyində "mal sahibinə oxşamalıdır" atalar sözünü yada saldı. S.D.Burnaşev Vaqifə nəzakətlə əl verib, əyləşməsini xahiş etdi. Hər ikisi əyləşdi. Mirzə Camal da Vaqifin sol tərəfində, masanın qarşısında əyləşdi. Onlar bir sıra rəsmi söhbət etdilər, tərcüməçi Vaqiflə Burnaşevin danışıqlarını tələsmədən, aydınlıqla tərcümə edirdi. Bu arada Burnaşev Yekaterinanı tərifləməyə başladı. Tiflisə qoşun yeritməsini əhalinin asayişi-

nin qorunması ilə izah etdi. Rusiyanın əsl məqsədindən, işğalçılıq siyasətindən bir kəlmə də olsun danışmadı və danışa da bilməzdi.

Sonra Burnaşev əsl məsələyə keçdi:

- Biz möhtərəm hökmdarımız İbrahimxəlil xanla da dost olmaq istəyirik. Mərhəmətli çariçə himayəedici əlini sizə də uzatmaq istəyir. Xan yalnız bizim himayəmizdə öz taxtında həmişəlik qala bilər...

Uzaqgörən Vaqif Burnaşevin bu saxta sözlərini dinləyir və şərqlilərə məxsus şübhə ilə onun incə dodaqlarına və ağ dişlərinə tamaşa edirdi. Burnaşev danışığını qurtarar-qurtarmaz Vaqif sözə başladı:

- İbrahimxəlil xan adlı-sanlı nəslin nümayəndəsidir. Qarabağ xanının Şərqin açarı sayılan Şuşa kimi əzəmətli qalası var, - deyə qüvvət və qüdrətinin Təbrizə qədər hökmü yeridiyini məmurun nəzərinə çatdırdı:

- Biz əlahəzrət çariçə ilə də dostluq münasibətləri saxlamaq fikrindəyik. Bir az dayanaraq ciddi bir baxışla Burnaşevi süzdü və sonra İraklinin bağladığı müqaviləyə işarə edərək eyni şərtlərin İbrahimxəlil xanın da qəbul edəcəyini sezdirdi.

Burnaşev gülümsündü. Onun bu hərəkətində çar nümayəndəsinin bu şərtlərə razı olmadığı aşkar surətdə hiss olunurdu. Burnaşevin siması birdən-birə sərtləşdi:

- Siz əlahəzrət çariçənin alicənablığına, mərhəmətinə inanmalısınız, bu, sizin üçün böyük nemət ola bilər.

Vaqif də ciddi bir şəkildə:

- Mərhəmət böyük nemətdir, çox doğru deyirsiniz, lakin ölkələr arasında münasibətlərin də qayda-qanunu var. İbrahimxəlil xan vüqarlı, uzaqgörən dövlət xadimidir. Mən deyə bilmərəm o, sizin irəli sürdüyünüz şərtləri qəbul edəcək, ya yox! Xan üçün xanlığın tam müstəqilliyi onun üçün hər şeydən əzizdir. Bunu sözlə ifadə etmək çox çətindir.

Vaqifin bu məğrurluğu Burnaşevə güllə kimi təsir etdi. Vaqifin tutarlı dəlilləri qarşısında məmur olduqca cılızlaşdı və özünü itirdi... Necə deyərlər, daş qaya ilə qarşılaşmışdır. Vaqif və

onun rəhbərlik etdiyi nümayəndə heyəti Şuşaya gələn kimi baş vəzir İbrahimxəlil xanın qəbuluna getdi. Tiflisdə gördüklərini, Rusiya dövlətinin Gürcüstanla imzaladığı müqavilənin mahiyyətindən xana ətraflı məlumat verdi. Daha sonra Tiflisdəki çar məmurunun Qarabağ xanlığının da qeyd-şərtsiz Rusiyanın himayəsinə girməsi haqqındakı fikirlərini də İbrahimxəlil xanın nəzərinə çatdırdı. Vaqifin bu sözləri İbrahimxəlil xanın qəzəbinə səbəb oldu. Vaqif xanı sakitləşdirmək üçün xanlığın bütün mənafelərini qoruduğunu xanın nəzərinə çatdırdı.

- Mirzə Əliməhəmmədin dalınca adam göndərmişəm, gəlsin məsləhətləşək, - deyə İbrahimxəlil xan əsəbi tərzdə danışmağa başladı.

Vaqif nikbin bir vəziyyət alaraq dedi:

- Xan sağ olsun, rusları ələ almaq üçün imkanımız var. İndi biz müdafiə işlərimizi daha da gücləndirməli və ərzaq ehtiyatlarımızı artırmalıyıq. Razılığa gələ bilmədiyimizi ermənilər yəqin ki, biləcəklər. Ona görə də onlar apardığımız işlər haqqında Tiflisə xəbər çatdıracaqlar, haram olsun onların yediyi çörək! Torpağımızda özlərinə sığınacaq tapmalarına baxmayaraq, özlərini düşmən kimi aparırlar.

Söhbətin şirin yerində Mirzə Əliməhəmməd ağa icazə alaraq otağa daxil oldu. O, İranda baş verən siyasi hadisələrdən, xarici dövlətlərin Ağa Məhəmməd xan Qacarla münasibətlərindən ətraflı məlumat verdi. Sözünün sonunda Mirzə Əliməhəmməd ağa onu da bildirdi ki, tacirlərin gətirdikləri xəbərə görə Firəngistan hökuməti İsfahana elçi göndərib, Ağa Məhəmməd xan Qacarla danışıqlar aparırlar.

İbrahimxəlil xan qacarlar haqqında Vaqifin fikrini öyrənmək üçün nəzərini ona yönəltdi. Vəzir özünəməxsus qürurla: - Xan sağ olsun, qacarlardan bizə hələlik qorxu yoxdur, əsas məsələ rus məsələsidir. "Ermənilər" bizdən rusa yenə də böhtanla dolu kağız yazacaqlar, İrakli bizdən uzaqlaşıb, Gəncəni və İrəvanı onun əsarətindən qurtarmalıyıq. Süleyman paşa ilə əlaqə yaratmaq lazımdır. Əmmə xan hücuma hazır olmalıdır. Təzyiqə mə-

ruz qalan xanlarla əlaqə yaratmaq və onlara kömək lazımdır. Fətəli xanla, Şəki hakimi Əbdülqədir xanla dil tapmaq, qüvvələri birləşdirmək lazımdır. Onda güclü olarıq, sözümüzün kəsəri olar.

İbrahimxəlil xan çox məyus idi. Otaqda tək qalıb, xəyala dalmışdı. Mən dəfələrlə kömək verib, dardan qurtardığım İrakliyə tac gəlsin, peşkəşlər verilsin... Mənə də şərtsiz-sübutsuz təbəəlik təklif olunsun. İraklinin mənimlə iyirmi illik dostluğu xəyanətlə başa çatdı. İndi də deyir Qalanın qapısını aç, düşməni içəri burax, erməni qəddini düzəltsin.

Musa Soltanın çar sarayından nə xəbərlə qayıdacağını İbrahimxəlil xanla Vaqif səbirsizliklə gözləyirdi. Onun apardığı məktubda Qarabağ xanlığının himayəyə hazır olduğu, xanın hakimiyyətdə qalacağı, daxili işlərimizə qarışmamaq və Qarabağ torpağında asayişin pozulmaması qeyd edilmişdi.

İbrahimxəlil xan xəyaldan ayrılıb, qəti bir səslə dedi:

- Dünya dağılsa da, mən rusun təklif etdiyi boyunduruğu qəbul etməyəcəyəm. Ermənilərin heçdən tarix səhnəsinə çıxmalarına yol verə bilmərəm. Valiyə edilən hörmət mənə də edilərsə...

Bu zaman Musa Soltan içəri daxil oldu. Onun gətirdiyi məktub Tiflisdə Burnaşevin Vaqifə dediklərini özündə ehtiva edirdi.

Qasid həyəcanlı xəbər gətirdi, qonşu xanların Qarabağ ərazisinə hücum edib, soyğunçuluqla məşğul olduqlarını Ibrahim xana xəbər verdi... Vəziyyət yaxşı deyildi. Qarabağ igidləri onları susdurmalı idilər və bu işi uğurla başa çatdırdılar.

İbrahimxəlil xan əhalini məhv olmaqdan qurtarmaq və dağıntıların qarşısını almaq üçün Məhəmməd bəyi hüzuruna çağırıb, Ağdam istiqamətində baş verən siyasi hadisələrin tezliklə qarşısını almağı əmr etdi. Məhəmməd bəy ən yaxın silahdaşı Səfər vasitəsilə çox qısa vaxt ərzində 3000 qoşun toplayıb, yola düşdü.

İbrahimxəlil xan, Məhəmmədhəsən ağa, Mirzə Əliməhəmməd, Şahməhəmməd və başqaları qoşunla birlikdə xanlığın müəyyən istiqamətlərindən hərbi yürüşə başladılar. Əlbəttə, xanın

silahlı qüvvələri igidlik göstərərək Qarabağ xanlığının ərazisinə soxulmuş qarətçi silahlı dəstələri bir neçə gün ərzində vurub, ərazidən çıxartdılar. Əsir alınan əhali və onların qarət edilmiş əmlakları, mal-qara düşməndən alındı.

İbrahimxəlil xan Şuşa qalasına qayıtdıqdan sonra müşavirə çağırdı. Ağasi bəy görülən işlər haqqında məlumat verərək bildirdi ki, Məlik Abo, Məlik Məcnun və Qanzasar keşişi satqınçılıq etdiklərinə görə nəzarət altına alınmışlar. Onlar Tiflisə adam göndərib, rusları Qarabağa hücum etməyə çağırmışlar. Bu xəbər xanı sarsıtdı. Xan bildirdi ki, mən Abonu niyə salamat buraxdım ki, indi mənə qarşı qiyam qaldırsın. İbrahimxəlil xan Kələntər Ağasi bəyə göstəriş verdi ki, satqınları tutub mənim yanıma gətir. Ağasi bəy baş üstə deyib, otaqdan çıxdı.

Vaqiflə Mirzə Əliməhəmməd saraydan çıxıb, piyada evə gedirdilər. Saatlı məhəlləsində onlar keşiş Ohanla qarşılaşdılar. Ohan ermənilərin hərəkətlərini eşitmişdi. Utana-utana salam verdi, məliklərə və keşişə lənət oxudu. Onları gətirmək üçün atlı dəstə göndərildiyini Vaqif keşiş Ohana bildirdi.

Ağasi bəy iki həftədən sonra sığnaq səfərindən geri döndü. Qanzasar keşişinin evindən knyaz Potyomkinə yazılmış məktublar tapıldı. Xəyanətlərinin üstünün açıldığını görən Abo və Məcnun Ağasi bəyin gəlməsi xəbərini eşidib, Gəncə yolu ilə rus qoşunlarının yanına qaçdılar.

Ağasi bəy Məcnunla Abonu ələ keçirə bilmədiyindən çox narahat idi. Fikirləşirdi ki, nə üçün onları Çiləbörd məliyi Allahqulunun yanına göndərmədik. Rəhmətlik Pənahəli xanın dövründə o özünü düzgün aparmadığı üçün çox haqlı olaraq xan onu cəhənnəmə göndərmişdi. Gərək biz də satqınları, üzə ağ olanları da həmin yerə göndərək.

Georgiyevsk müqaviləsindən dörd il sonra Türkiyə ilə Rusiya arasında yenidən müharibə başlandı. Rusiyanın başının müharibəyə qarışması nəticəsində Qafqaza müdaxilə müvəqqəti olaraq təxirə salınmışdı. İranda da daxili vəziyyət mürəkkəb olaraq qalırdı. Hakimiyyət uğrunda mübarizə yeni mərhələyə daxil ol-

muşdu. Bütün bunlar Qarabağ xanlığında müvəqqəti də olsa, sakitliyə zəmin yaratmışdı. İbrahimxəlil xan bu vəziyyətdən istifadə edərək daxildə təxirəsalınmaz işlər həyata keçirirdi. Şimali Azərbaycan xanlarından heç biri indi İbrahimxəlil xana mane ola bilmirdilər. Deməli, xan gələcək mübarizələrə hazır olmaq üçün xanlığın möhkəmləndirilməsini davam etdirirdi.

1787-1791-ci illər Türkiyə-Rusiya müharibəsi da-vam edirdi...

Qarabağda payız fəslinin qızıl çağı idi. Ibrahimxəlil xan yorğunluğunu və gərgin vəziyyətini yüngülləşdirmək üçün yaxın adamlarından ibarət yüz atlı ilə Yevlax istiqamətində ova çıxmışdı. Vaqif Şəki xanının ona bağışladığı naxışlı tüfəngini atının yəhərinin qaşından asmışdı. Əllərinə əlcək geymiş quşçular əllərində iyirmiyə qədər qızıl quş tutmuşdular. Ovçular ov tulası götürməmişdilər, çünki quş ovunda tula gətirməzdilər.

İbrahimxəlil xan ovçuluğa hərbi məşğələ kimi baxırdı. Dəqiq nişan almaq, vəhşi heyvanlarla mübarizə aparmaq, çeviklik və güc lazım idi. Döyüşçülərə bu keyfiyyətlər aşılanırdı.

Ağa Məhəmməd xan Qacarın İranda hakimiyyəti ələ alması Qarabağ xanlığında da birmənalı qarşılanmadı. Məhəmmədhəsən ağa ilə Vaqifin arasında gedən söhbət zamanı axund ona ehtiyatla bildirdi ki, nicat yolunu İranda görmürəm. Xanlığın mənafeyi naminə hansısa bir sədaqətli dövlətə meyl etməliyik. Məhəmmədhəsən ağa da eyni fikirdə olduğunu bildirdi...

Söhbət Şahməhəmmədin dəfn mərasimində baş verdiyindən danışıqların genişlənməsini məqsədəuyğun hesab etmədilər.

Duman ətrafı bürümüşdü, göz-gözü görmürdü. Dəfn mərasimi başa çatdıqdan sonra hamı şəhərə doğru qalxmağa başladı. Adamlar dərin sükut içində idi. Şahməhəmməd xanın sədaqətli məmurlarından biri idi.

Nəhayət, İranda hakimiyyət uğrunda gedən mübarizədə Ağa Məhəmməd xan Qacar bütün rəqiblərinə qalib gələrək şahlıq kürsüsünə yiyələndi. Onun Təbrizə gələn nümayəndəsi Süleyman xan İrəvan və Naxçıvan xanlarını İran himayəsinə çağırdısa da, rədd cavabı aldı. Daha sonra İrəvan, Qarabağ, Talış, Dağıstan xanlarına

və Gürcüstana elçilər göndərərək qacarlar himayəsinə girməyi təklif etdi, yenə rədd cavabı aldı. Şəki, Şirvan, Dərbənd, Bakı xanlıqları Ağa Məhəmməd xanın elçilərini hörmətlə qəbul edib, İran himayəsinə keçməyə razı olduqlarını bildirdilər. Gəncəxanı Cavad xan isə tərəddüd edirdi. Əslində, o, İrana meylli idi...

Qacarlar təhlükəsi Qarabağ xanlığının sarayında təşviş yaratmışdı. Bir neçə il əvvəl yaranmış əmin-amanlıq birdən-birə pozulmuşdu. Şuşa qalasının kələntəri Ağasi bəyin əsas işi xanın verdiyi tapşırıqlara, müdafiə işlərinə yönəldilmişdi.

Vaqif iki-üç gün idi ki, evdən çölə çıxmırdı. İbrahimxəlil xanın göstərişi ilə nəzərdə tutulan dövlətlərin başçılarına məktublar yazır, Mirzə Camal isə onların üzünü tirmə kağıza köçürürdü. Onlar Mirzə Əliməhəmmədin otağa girməsini hiss etmədilər. Mirzə Əliməhəmməd salam verib, cavab aldı. O, Türkiyə sultanına yazılan məktubu aparmaq üçün gəlmişdi.

Vaqif mehribancasına dedi:

- Mirzə, çalış, İstanbula tez çat. Sultana vəziyyəti hərtərəfli danış, de ki, biz iki od arasında qalmışıq, yeganə çarəmiz Osmanlı himayəsidir. Bildir ki, tezliklə silahlı qüvvə göndərməsə, Qacar xanı bizi məhv edəcək.

Mirzə Əliməhəmməd məktubu alıb, səliqə ilə qurşağına qoydu. Sonra mehribancasına dedi:

- Axund, arxayın ol, inşallah, əliboş qayıtmaram. Vaqif Mirzə Əliməhəmmədlə qucaqlaşıb-öpüşdü.

Ona uğurlar arzuladı, gözləri yaşardı... Mirzə Əliməhəmməd ata minib, yoldaşları ilə birlikdə Rum səfərinə yola düşdü. Vaqifin göstərişi ilə xidmətçilərdən biri onların ardınca bir tas su atdı...

Şuşada müdafiə üçün böyük hazırlıq işləri aparılırdı. Küçələrdə silahlı adam əlindən tərpənmək mümkün deyildi. İbrahimxəlil xan, Məhəmmədhəsən ağa, Vaqif Kələntər Ağasi bəyin apardığı işdən razı idilər. Onlar bu işi daim diqqətdə saxlayırdılar. Dağ yolları ilə şimaldan gətirilən toplar Şuşanın cənub-şərq ərazisində, Dağıstandan və başqa yerlərdən köməyə gələn silahlı

qüvvələr isə şəhərin məhəllələrində yerləşdirilirdi.

İbrahimxəlil xan Məhəmməd bəyi çağırtdırıb, Qalaya gətirmişdi. O, qoşunla Araz sahilinə getməli idi. Batmanqılınca çox mühüm hərbi tapşırıq verilmişdi.

Ağa Məhəmməd xan Qacar Qarabağ xanlığına hücuma keçmişdi. İbrahimxəlil xan Tuğ kəndi istiqamətində səngər qurmuşdu. Məhəmməd bəy Cavanşir Xudafərin körpüsünü dağıtmışdı. Məlik Məcnun Ağa Məhəmməd şahın bələdçisinə çevrilmişdi. Qacar şahı Xudafərin körpüsünün dağıdılmış hissəsini bərpa etdirə bildi. Bunu Məhəmməd bəy bilmirdi. O, üç min əsgərlə Araz çayının şimal ərazisində iranlıları gözləyirdi. Onun döyüşçüləri qacarlar ordusuna ağır zərbə endirdilər. Lakin qüvvələr bərabər deyildi...

Qızılbaşlar xanlığın paytaxtına doğru irəliləyib, 1795-ci ilin iyununda onu mühasirəyə aldılar. Otuz üç günlük mühasirə heç bir nəticə vermədi. Qarabağlılar Şuşa qalasının alınmaz olduğunu bir daha sübut etdilər. Erməni ünsürlərinin bələdçiliyi də puça çıxdı. Ağa Məhəmməd xan Qacar Şuşanın mühasirəsindən əl çəkib, Tiflisə yürüşə başladı.

Mirzə Əliməhəmməd İstanbuldan xoş xəbərlə qayıtmadı... Vaqif xanın çağırdığı növbəti müşavirədə bir daha qətiyyətlə bildirdi ki, Ağa Məhəmməd şah Qacardan qurtarmaq üçün yeganə çarə - Rusiya himayəsidir.

Bəzi ağaların etirazlarına baxmayaraq, İbrahimxəlil xan Rusiyaya himayəçilik haqqında məktub yazmağı Vaqifə tapşırdı. Bu məktub Şimali Qafqazda yerləşən rus ordusunun komandanı vasitəsilə II Yekaterinaya göndərildi. 1796-cı il may ayının 2-də o, Azərbaycana ordu gətirildi. Lakin Yekaterinanın ölümü ilə əlaqədar rus qoşunu imperator I Pavelin əmri ilə geri çağırıldı.

Ağa Məhəmməd xan Qacar V.A.Zubovun Azərbaycana gəlməsini qəzəblə qarşıladı. O, Qafqaz xalqlarını birləşməyə çağıran məktub göndərdi. Çağırışda göstərilirdi ki, rusun Qafqaza gəlməsinin məqsədi xristianlığı yaymaq və regionda özü üçün sərfəli xristian dövləti yaratmaqdır. Ona görə də Qafqazda yaşa-

yan bütün müsəlman xalqları birləşməlidirlər.

Qacar xanı nə qədər diplomatik səy göstərdisə də, İbrahimxəlil xana təsir göstərib, özünə tabe edə bilmədi. Onun Rusiyaya meylinin qarşısmı ala bilmədi. Rus ordusunun Azərbaycanı tərk edib getməsi Ağa Məhəmməd şah Qacarın Qarabağ xanlığına qarşı yeni yürüşünə səbəb oldu. O, 1797-ci ilin yazında İbrahimxəlil xanı məhv etmək üçün çoxsaylı qoşunla Qarabağa hücuma keçdi. Bu, elə bir dövr idi ki, xanlıqda quraqlıq nəticəsində üç il idi ki, taxıl və başqa kənd təsərrüfatı məhsulları kəskin surətdə azalmışdı, əhali ərzaq cəhətdən korluq çəkirdi. Ermənilər xanlığın daxili vəziyyəti barədə Ağa Məhəmməd şah Qacara ətraflı məlumat vermişdilər.

İbrahimxəlil xan iranlılara müqavimət göstərsə də, istədiyi nəticəni əldə edə bilmədi. O, "Topxana" adlandırılan ərazidən Şuşanı top atəşinə tutan Qızılbaşların toplarını məhv etmək üçün gizli yolla hücuma keçib, topları sıradan çıxarmağı qərara aldı. Həmin topları fransız mütəxəssisləri idarə edirdilər. Xan topları və onları idarə edənləri zərərsizləşdirib, şəhərə qayıdarkən yolların Qacar qoşunları tərəfindən tutulduğunu gördü. Vəziyyətin ağır olduğunu görən xan qohumu, Avar xanı Əmmə xanın yanına getdi...

Qacar şahı Şuşanı tutdu, lakin bir həftədən sonra öldürüldü. Bu hadisə 1797-ci il iyul ayının 4-də baş vermişdi.

İbrahimxəlil xan doğma şəhərə qayıtdı və hakimiyyəti yenidən ələ alıb, xanlığı idarə etməyə başladı... Lakin Molla Pənah Vaqif, Mirzə Əliməhəmməd, Ağasi bəy artıq həyatda deyildilər, amansızcasına qətlə yetirilmişdilər. Onların yoxluğu İbrahimxəlil xana mənəvi cəhətdən ağır təsir göstərirdi...

İbrahimxəlil xan Rusiyanın himayəsindən böyük ümidlər gözləyir və bu məsələ ətrafında Vaqifin məsləhətlərini unutmurdu.

Rusiya imperiyası Qafqazın işğalını tezliklə həyata keçirmək məqsədilə yeni planlar hazırlayırdı. 1801-ci ildə hakimiyyətə gələn çar I Aleksandrın göstərişi ilə bu iş sürətləndirildi. Qafqaza hərbi yürüşdə iştirak edəcək qoşuna P.D.Sisianov başçı tə-

yin edildi. O, Cənubi Qafqaza gəlməmişdən ermənilər rusların planlarından xəbər tutdular və həvəslə onun yürüşündə iştirak etmək arzusunda olduqlarını bildirdilər. Erməni keşişi Danil öz soydaşlarının səfərbər olunmasını elan etdi. Ermənilər Şimali Azərbaycanın başqa xanlıqları kimi, Qarabağ xanlığı haqqında Sisianovda düşmən mövqeyi yarada bildilər. Sisianovun əli Gəncə xanlığında qana boyandı. Yenə də ermənilər öz alçaq hərəkətləri ilə ruslara xidmət göstərir, xanlığın hərbi qüvvələri haqqında və başqa təchizatları barədə Sisianova məlumat verirdilər.

Sisianov Qarabağ xanlığını işğal etməyi əsas tuturdu. Beləliklə də, 1805-ci il mayın 14-də Kürəkçay sahilində İbrahimxəlil xanla P.D.Sisianov arasında "Andlı müqavilə" imzalandı. Riyakarlıqla imzaladığı bu müqavilədə Rusiya demək olar ki, öz məkrli niyyətinə çatdı. Sisianovun məqsədi Şuşa qalasına qoşun yeritmək idi. Bu müqaviləyə əsasən Qarabağ xanı İbrahimxəlil xan Rusiyanın vassalı oldu. Xarici dövlətlərlə müstəqil əlaqələr saxlamaq hüququndan imtina etdi. Rusiya xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürdü.

PTD.Sisianov mayor İvan Lisaneviçin başçılığı altında Şuşaya 500 əsgər, üç top göndərdi. Beləliklə də, İbrahimxəlil xanın bütün hüquqları əlindən alındı. Bütün hakimiyyət Lisaneviçin əlinə keçdi. O, İbrahimxəlil xanı özündən asılı vəziyyətə saldı.

1806-cı il iyun ayının 12-də Lisaneviç hərbi dəstəsi ilə birlikdə İbrahimxəlil xanın üzərinə hücum edib, onu, ailə üzvlərini və yaxın adamlarını vəhşicəsinə öldürdü. Sözsüz ki, bu qətldə erməni ünsürü də öz rolunu oynamış.

**HAŞİYƏ:** - Son vaxtlar qeyri-rəsmi olsa da belə fikirlər səslənir ki, guya İbrahimxəlil xan rusları Qarabağa və o cümlədən Azərbaycan torpaqlarına gətirib. Osmanlı sultanına yazdığı məktublar bu fikri təkzib edir.

**Quram Marxuliya,**
*tarix üzrə elmlər doktoru, Suxumi Dövlət Universitetinin professoru (Gürcüstan).*

# DAĞLIQ QARABAĞDA ERMƏNİ TERRORİZMİNİN FENOMENOLOGİYASININ TARİXİ

XVIII əsrin sonu – XIX əsrin əvvəlləri Rusiyasının məşhur saray yazıçısı Nikolay Mixayloviç Karamzin deyirdi ki, "Tarix kinli olmalıdır". 70 illik sovet hakimiyyəti dövründə biz iqtisadiyyatdakı, dövlət quruculuğundakı, xalqlar dostluğundakı, mədəniyyətdəki irəliləyişlər və nailiyyətlərlə fəxr edirdik, bütün bunlar ictimaiyyətə yalan şousunda təqdim olunurdu. Tarixi unutqanlıq bəladır – keçmişin yenidən qiymətləndirilməsi prosesdir və vaxt tələb edir, bu tarixi ədalət üçün edilməlidir.

Fenomenoloji psixologiyanın universal vəzifəsi intensional həyəcanların tip və formalarının sistematik öyrənilməsindən ibarətdir, bu halda biz bu üsulu ermənilərin tarixi təcrübəsinin izahı, ruhi-şüur əyriliklərini anlamaq məqsədilə strukturlarının reduksiyası üçün tətbiq edə bilərik. Əvvəlcədən qeyd edək ki, fenomenologiyanı özünəməxsus psixoterapevtik üsulla qarışdırmaq olmaz, halbuki bu istiqamətdə biz müəyyən addımlar atsaq da xeyri olmadı. Fərdi ruhi həyat və onun sosiumla əlaqəsi fenomenoloqu onu **"a priori"**, yəni fəaliyyətin və təsirin mümkün formalarının yalnız nümunəsi kimi öyrənilməsi maraqlandırır və bu fenomenoloji tədqiqatlarda hər şəkildə özünü göstərir. Variantların öyrənilməsi üçün əksvariantınəzərdən keçirən nəzəri müəyyənləşdirmə apriorinin tipik sahəsini açır. Beləliklə, "istənilən psixi amilin tipik xüsusiyyətləri aydın olur".

Buna görə də fenomenoloji tədqiqat ayrıca mühakimənin və ya nəzəriyyənin əsaslılığını sübut etməyə can atmır, amma halın nəzərdən keçirilməsinə və sonrakı təsvirinə yönlənir. Hət-

ta daha artıq, nəzəriyyəçi-fizik **Con Polkinqhornun** dediyi kimi "Fenomenologiya təkcə təsvirçiliyi yox, həm də ehtimalların olmamasını təqdir edir". Lakin erməniliyin şüurunda ehtimal yoxdursa, ideya güc gəlir, o, hisslər əsasında fokuslaşır, yəni paxıllıq və nifrət, ərazidən və xalqdan asılı olaraq şüur tərəfindən qəbul olunur və yaşayır, məsələn, zamanla onlarda türklərə qarşı fenomenal nifrət, gürcülərə qarşı paxıllıq formalaşıb, özü də vurğu hər hansı halı yaradan məsələyə yox, həyat təcrübəsinin əslində şüur tərəfindən necə qəbul, emal və təşkil edilməsinə yönəldilir.

Təəssüf ki, bu halı yerli və ya təbii hal kimi tarixdə qeyd etmək mümkün olmayıb, əksinə bu fenomenologiya daha dərin, fundamental proseslərin göstəricisidir. Və bu aspektdə erməni etnoşüuru siyasi mübarizənin çoxlu taktiki formalarından biri kimi sərgilənir. Qeyd etmək lazımdır ki, o, bəzi hallar kimi zaman və məkanda lokallaşmayıb, konkret miqyası var, özünün əyri-üyrü şüuruna əhəmiyyətli təsiri ilə istənilən geosiyasi məkanda cari siyasi konyukturadan asılı olaraq yaranır və yox olur. Buna görə də ermənilərin qonşularına qarşı hərəkətlərini təbiətin sunami, zəlzələ və s. bu kimi halları ilə müqayisə etmək olar, təbiətin belə halları həmişə mövcud olduqca ermənilərin də qonşularına qarşı çıxışları həmişə baş verəcək, ta o vaxta kimi cərrah müdaxiləsi onların beyinlərindəki bəzi mikrobları amputasiya etməklə narahat həyatlarına sakitlik gətirsin.

Terrorizmin əsas təsiri qorxuya nail olmaqdır. İstənilən sosium müxtəlif sosial sifarişlərin kompozisiyasını təmsil edir. Terrorçuluq halları erməni orqanizminin memarlığındakı mümkün gərginliklərdən və tərəqqidən xəbər verir, beynin qeyri-bərabər inkişaf etmiş sol yarımkürəsinin nəticə olaraq yumşaq cənub yamaclarına qalib gəlmək məqsədilə "qərb" yarımkürəsi ilə nəticəsiz və insafsızcasına döyüşməsi ilə şərtləşdirilir. Əks halda normal adamın lap düşməni də olsa qocanı, uşağı, qadını qəddarcasına öldürməsini necə anlamaq olar?

İstənilən ölkə öz maraqlarını qonşu ölkələrin və xalqların

ərazisinə çıxarmaqla həll edir, bu, istənilən dövlətin geosiyasi inkişafının qanunudur. Lakin anlamaq vacibdir ki, nə üçün tarix boyu erməni cəmiyyəti qonşu xalqların və dövlətlərin əraziləri hesabına öz məkanını etnik genişləndirməyə can atır, öz maraqlarını tanıyırmı və özgənin haradan başlamasını başa düşürmü? Görünür, bu genlərin eyni nəyicəyə gətirən zədələnmiş sahəsidir. Ermənistanın xarici təcavüzkarlığı güclü ətraf arasında itməmək üçün özünün dünyadakı missiyasının daimi axtarışıdır.

Daşnakların məşhur ideoloqu Rubenə görə erməni milləti müstəqil fərdlərin məcmusudur, başqa millətlər isə bu məcmunun mənasız və əhəmiyyətsiz tək-tük dənəcikləridir. Başqa ideoloq Aharnyan daha ucadan bəyan edir ki, "erməni xalqı allahın hədiyyəsidir və onu başqa xalqalarla eyni tərəziyə qoymaq olmaz. Əgər dünyada seçilmiş nəsil varsa o da erməni nəslidir. Bu nəslin sələfləri olan biz ermənilər fəxr etməliyik və ən yüksək hüquqlara sahib olmalıyıq". Erməni xalqının tarixi və taleyi elə ölməz ruhdur ki, zaman və məkan qarşısında heç zaman başını əyməz.

Göründüyü kimi erməni dünyası zaman və məkandan qorxmur, lakin ilk növbədə "öz" məkanını əldə etmək özününkünə sahiblik etməmək hesabına olmalı idi. Onlara yeni məkanları əldə etməyə "məkrli" qonşuları – öz torpaqlarında yaşayan türklər, azərbaycanlılar, gürcülər mane olurdular. Erməni dünyasının yaradılması üçün erməni sivilizasiyası müəyyən yerləri bu xalqlardan təmizləməklə erməni etnik məkanını qurmalı idi.

Erməni siyasi təşkilatları "Dənizdən dənizə Böyük Ermənistan" ideyasının mexanizmini yaratdılar, əks halda bu istiqamətdəki niyyətlərinə bəraət qazandıra bilməzdilər.

Beləliklə, erməni ideoloqlarının təqib etdikləri məqsəd azərbaycanlılar, türklər və gürcülərlə qarışıq olan əraziləri təmizləməklə müstəqil "Böyük Ermənistan" dövləti üçün etnik bazanı hazırlamaq idi.

**1918-1920-ci illərdə birinci Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə Ermənistan Azərbaycana qarşı işğalçılıq müharibəsinə başladı və Zəngəzuru boşaltdı. Zəngəzur qəzasında erməni terrorçu və dövlət qruplaşmaları tərəfindən 115 azərbaycanlı kəndi məhv oldu. Bundan əlavə iki il ərzində Qarabağın dağlıq və aran hissələrində erməni cəlladları və "Daşnaksütyun" terrorçu təşkilatı 150 azərbaycanlı kəndini tamamilə məhv etmiş, həmin kəndlərin 400 000 sakinini qırmışdılar.**

**Quba məzarlığının tədqiqatı dəhşətli mənzərəni təsvir edək: – burda 400-dən artıq insanın qalıqları üzə çıxarılıb, 50-dən artığı uşağa, 100-dən artığı qadınlara, qalanları qocalara məxsusdur.**

**Məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc sakinlərə qarşı həyata keçridikləri soyqırımla əlaqəsi olması təsdiq edilib. Arxiv sənədlərindən məlum olub ki, ermənilər 1918-ci ilin aprel-may aylarında təkcə Quba qəzasında 36 min 782 adamı qətlə yetirmiş, 122 kəndi yerlə-yeksan etmişdilər.**

**Təəssüf ki, ermənilərin 1917-1920-ci illərdə törətdikləri vəhşiliyə görə cəzasız qalmaları azərbaycanlıların yeni faciəsinə –Xocalı faciəsinə gətirib çıxartdı.**

XX əsrin sonunda ermənilərin işğalçılıq arzularının hədəfi özlərinin 200 il əvvəl köçürüldükləri Dağlıq Qarabağ bölgəsi oldu. Daha fəal fəaliyyətə və ermənilərin bütün təbəqələrinin qədim ümummilli ideyası olan "Ermənistanın genişləndirilməsi"ni hazırlamaq üçün **1988-ci il, fevralın 25-də** erməni televiziyası ilə bütün ermənilərin katalikosu çıxış etdi **və dedi**: Bu günlərdə mən xaricdə yaşayan iki milyon ermənininin adından çıxış edən kilsə təşkilatlarımızdan çoxlu məktub və telefon zəngi almışam. Onlar xahiş edirlər ki, mən sovet hökumətinə Dağlıq Qarabağ məsələsinin ədalətli həllini tapması üçün müraciət edim. Mən həmin müraciətlərə əsaslanaraq bizim çox hörmətli Mixail Qorbaçova DQMV-nin erməni əhalisi üçün müsbət həl-

linə yardım göstərməsinə xahiş edən teleqram vurdum... Mən inanıram ki, Moskvada tezliklə yüksək səviyyədə xüsusi olaraq DQMV məsələsi həll olunacaq... Bizim məqsədimiz fəaliyyətimizlə ədalətin qarşısını almaq yox, uğurla başa çatdırmaqdır. Diqqət, ehtiyatlı olun! Mənim səsimi və atalıq məsləhətimi dinləyin!"

Qeyd etmək lazımdır ki, "Haykan xalqı"nın bir nümayəndəsi belə "xalqın atası"nın səsini, məsləhətini eşitməmək iqtidarında deyildi. Milli ideya milli birlik tələb edirdi və bu da əldə olunmuşdu. Erməni xalqı ərazisinin geosiyasi mahiyyətini Mərkəz üçün saxlamaq vədləri ilə Moskvanı "ehtiyatla" yemləyirdi, Ermənistanın arzuladığı ölçülərə qədər genişləndirmək hüququnu qazanmağa çalışırdı.

**1992-93-cü illərdə** Ermənistan-Azərbaycan münaqişəsi ətrafındakı hərbi-siyasi vəziyyət əhəmiyyətli dərəcədə dəyişdi. Onun əsasında Rusiyanın siyasətindəki ümumi irəliləyişlər, güc meyllərinin artması, Rusiyanın geosiyasi genişlənməsində ənənəvi cənub miqyasının canlanması dururdu. Həmin mərhələdə erməni liderləri RF-nin rəhbərliyindəki bir sıra qruplaşmaların dəstəyinə arxalanaraq Rusiya tərəfini birmənalı şəkildə inandıra bildi ki, Ermənistan Moskvanın geosiyasi rəqabət və qonşu dövlətlərə intensiv genişlənməsi kimi baxdığı vacib strateji bölgə olan Qafqazda Rusiyanın yeganə müttəfiqi və sonuncu hərbi əməliyyat meydanıdır. Bununla da Rusiya siyasətinin Ermənistanın xeyrinə dəyişilməsi təmin olundu. Azərbaycan daha dost ölkə kimi nəzərdən keçirilmirdi; onun rəhbərliyi qərbə yönəlmiş sayılırdı. Rusiyanın Azərbaycana sərtləşdirdiyi siyasətinin Rusiya-Ermənistan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə çıxması ilə eyni vaxta təsadüf etməsi hərbi əməliyyatların sonrakı gedişinə radikal təsirini göstərdi.

**Ermənistan-Azərbaycan münaqişəsi ətrafında tammiqyaslı hərbi əməliyyatlar 1991-ci ilin sonunda, 1992-ci ilin əvvəlində başladı. Ermənistan silahlı birləşmələri ən müasir silah növlərindən istifadə etməklə Dağlıq Qarabağ**

**bölgəsində hərbi əməliyyatlara başladılar ki, bu hücumun da ən ağır nəticəsi fevralda Xocalının alınması oldu.**

**Azərbaycan xalqının XX əsrdə üzləşdiyi ən qorxunc faciə Xocalı soyqırımıdır. Xocalı faciəsi bəşəriyyət tarixinə Xatın, Lidis, Oradure soyqırımları ilə yanaşı düşən qanlı hadisədir.**

**1992-ci il, fevralın 25-dən 26-a keçən gecə Ermənistanın hərbi qüvvələri və Dağlıq Qarabağın erməni silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndi ətrafında yerləşmiş 366-cı motoatıcı alayın şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini tutmaqla bərabər Azərbaycan xalqına qarşı soyqırım siyasətini həyata keçirdilər. Fevralın 25-də axşam şəhərin alınması güclü artilleriya atəşləri, ağır hərbi texnika ilə müşayiət olundu. Nəticədə şəhərdə yanğın başladı, fevralın 26-da səhər saat 5-də şəhər artıq külə dönmüşdü. Təqribən 2500 nəfərdən ibarət əhali doğma evlərini məcburən tərk edərək azərbaycanlılardan ibarət yeganə rayon mərkəzi olan Ağdama istiqamət götürdü. Lakin bu niyyət baş tutmadı. Erməni silahlı qruplaşmaları motoatıcı alayın köməyi ilə Xocalı şəhərini darmadağın etməklə dinc sakinlərini xüsusi qəddarlıqla qırdılar.**

**Nəticədə 613 adam öldürüldü, onlardan:**

**63 uşaq, 106 qadın, 70 qoca idi;**

**487 adam yaralandı, onlardan:**

**76 uşaq idi, 1275 nəfər əsir, 150 nəfər itkin düşdü.**

**Bunun ardınca hərbi əməliyyatlar bölgədən kənara çıxaraq Azərbaycanın içərilərinə və Naxçıvan hissəsi də daxil olmaqla Ermənistan-Azərbaycan sərhədlərinə keçdi. 1992-ci ilin may ayından 1994-cü ilin may ayınadək Azərbaycanın daha 7 rayonu işğal olundu. Beləliklə, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 17 000 kv.km torpaq sahəsi işğal edildi ki, bu da ölkənin ümumi sahəsinin 20%-i idi.**

Xocalı faciəsi erməni etnomilli fenomeninin, etnoetikasının göstəricisi, əslinə daha uyğun müəyyənləşdirilmiş etnoterrorizm əxlaqıdır. Xocalıdakı erməni vəhşiliyi ərazilərin erməni olmayanlardan təmizlənməsi barədə özünün etnosiyasətinin etnopsixoloji xüsusiyyətinin göstəricisidir. Bununla yanaşı Xocalıda dinc sakinlərə qarşı erməni terroru bu xalqın zəifliyini, etnik xarakterini və əxlaqının zəifliyini göstərdi ki, nəticədə erməni etnomilli korporativ (faşist Y.H.) əxlaqının formalaşmasının real göstəricisidir.

Ermənilərin tarixi xəstəliyi fenomeni erməni cəmiyyətinin sosial-iqtisadi, demoqrafik və siyasi proseslərində həmişə həlledici əhəmiyyətə malik olub. “Nəhənglik” milli xəstəliyinin ermənilik fenomeninin sosial və tarixi-mədəniyyəti kimi öyrənilməsi ilə vaxtilə gürcülər, farslar, bizanslar, monqollar məşğul idilər, lakin tibbi-tarixi ədəbiyyatda onların müalicə üsulları arzuolunan nəticəni vermədi.

Rus dilindən tərcümə etdi:

**Yunis Hüseynov,**
*tarix üzrə fəlsəfə doktoru*

# AZƏRBAYCANIN QARABAĞ ƏRAZİSİNDƏ ERMƏNİ SAXTAKARLIQLARI

*«Tarix müəllim deyil, nəzarətçidir, o heç vaxt heç nə öyrətmir, amma dərsləri bilməməyə görə həmişə amansızcasına cəzalandırır».*

**V.O.KLYUÇEVSKİ**

**Artıq 26 ildən artıqdır ki,** Azərbaycanın Qarabağ ərazisinin **20 faizi** erməni faşist ünsürlərinin işğalı altındadır. Müvəqqəti olaraq işğal altında olan torpaqlarımızın dinc yolla azad olunmasına erməni faşist ünsürləri müxtəlif yollarla müqavimət göstərirlər. Bu ünsür tarixi saxtalaşdırmaq yolu ilə torpaqlarımıza qarşı əsassız iddialar irəli sürürlər. Lakin heç bir əsaslı tarixi fakt qarşıya qoya bilmirlər. Qoya da bilməzlər. Ona görə ki, erməni ünsürləri tarixi ərazimizə gəlmədilər. **XIX əsrin** əvvəllərində Rusiya imperiyasının köçürmə siyasətinin nəticəsi olaraq, erməni ünsürləri torpaqlarımızda peyda oldular.

Məlum olduğu kimi bu köçürmə Iran-Rusiya və Rusiya-Osmanlı Türkiyəsi ilə aparılan işğalçılıq müharibələrinin yekunu ilə sıx bağlıdır. Bu müharibələr və onların siyasi, iqtisadi və sosial nəticələri haqqında Azərbaycanın görkəmli tarixçiləri ilə yanaşı mən də yazdığım elmi əsər və məqalələrimdə ətraflı məlumatlar vermişəm. Əsas məsələ erməni saxtakarlıqlarını ifşa etmək, bu ünsürün bəşər tarixində heç bir mövqe tutmadığını sübut etməkdir. Havadarlarının fəal köməyi ilə müvəqqəti olaraq işğal edilmiş ərazilərimizdə erməni faşizmi saxtakarlıqlarla məşğuldur.

Erməni ünsürləri yaşadığımız müasir dövrdə baş verən bəzi hadisələrdən məharətlə istifadə edərək çirkin və məkrli niyyətlərinə nail olmaq istəyirlər. Belə ki, erməni ünsürləri hazırda tarixin siyasətləşdirilmiş elmə çevrilməsindən istifadə et-

mək istəyirlər. Bu mənada onlar **tarixi qaynaq və mənbələrə deyil, saxtakarlıqlara daha çox üstünlük verirlər**. Onlar bu yolla beynəlxalq ictimai şüuru öz xeyirlərinə dəyişdirməyə səy göstərirlər.

Beynəlxalq ictimai şüur (əgər belə demək mümkün olarsa) erməni saxtakarlıqlarına, qanlı cinayət əməllərinə əməli təsir göstərmir. Bəzən də onları dəstəkləməkdən çəkinmirlər. Bu isə müasir dünyamızda mövcud olan ikili yanaşmanın nəticəsidir.

Iran, Rusiya və digər dövlətlərin tarixçiləri yaxşı bilirlər ki, erməni ünsürləri **Cənubi Zaqafqaziyaya kənardan gəlmədir**. Onların vətəni yoxdur. Erməni alimlərinin özlərinin dedikləri kimi, vətən anlayışı ermənilərə yaddır.

Erməni tarixçisi V.Işxanyan **1916-cı ildə Sankt-Peterburqda yazdığı «Narodnosti Kavkaza» («Qafqaz xalqları»)** adlı məqaləsində göstərir:

**«Ermənilərin lüğətində heç vaxt vətən sözü olmayıb. Onlar tarix boyu Kiçik Asiyadan və Rusiyadan kənarda, Fərat çayının yuxarı qolu olan Qaraçay sahillərində, Frakiya və Mesopotamiyada pərakəndə dəstələr şəklində yaşamışlar».**

Bu iqtibas sübut edir ki, onların **Zaqafqaziya diyarına** heç bir dəxli yoxdur. Daha sonra **V.Isxanyan qeyd edir: - «Ermənilərin Azərbaycan və Dağlıq Qarabağ haqqındakı iddiaları saxta, qeyri-qanuni və əsassızdır».** Bütün bunlar erməni saxtakarlıqlarına verilmiş qiymətdir. Özü də erməni tarixçisi tərəfindən. **Eyni zamanda bu fikirləri başqa erməni tarixçi alimləri və amerikalı, Qafqaz tarixi üzrə məşhur mütəxəssis Tadeus Svyataxoviç də təsdiqləyir və təqdir edirlər.**

Belə misalları çox gətirmək olar. Erməni saxtakarlığı, ikiüzlülüyü ana bətnində formalaşır. Deməli, bu ünsür tamamilə cahil, savadsız, vəhşi, ilk növbədə şüursuzdur. Onlar əsas etibarilə soyğunçuluq və quldurluqla məşğul olublar. Bütün bunlar hazırda göz qabağında özümü sübut edir. Saxta tarix düzəlt-

mək, nəyə isə nail olmaq erməni ünsürlərinə xas olan əməldir. Onlar yaxşı bilirlər ki, erməni deyilən ünsürün keçmişi haqqında tarix də yadda qalan məlumat yoxdur. Erməni tarixçiləri etiraf edirlər ki, ermənilərin keçmişi haqqında əldə elə bir fakt yoxdur ki, onu tarix və ya salnamə saymaq mümkün olsun.

Erməni saxtakarlığı onun iç aləminin xəstə olması ilə əlaqədardır. Belə olmasaydı onlar Qarabağda saxtakarlıqlarla məşğul olmazdılar. Erməni saxtakarlıqlarının bariz nümunəsi, tarixdə heç vaxt mövcüd olmayan **«Böyük Ermənistan»** yaratmaq arzusudur. Bu arzu Azərbaycanın və başqa dövlətlərin torpaqları hesabına baş verə bilər. Erməni ünsürü  çox yaxşı başa düşür ki, bu arzu mümkünsüzdür.

Müvəqqəti olaraq işğal altında olan Azərbaycanın Qarabağ ərazisində saxta arxeoloji qazıntı işləri aparan erməni quldurları əldə etdikləri əşyaları özününküləşdirməyə cəhd edir. Lakin bu mümkün deyil, onların əldə etdikləri xırda-para (əgər varsa) əşyalar Azərbaycan alimləri tərəfindən çoxdan tam şəkildə aşkar edilmiş və dünya arxeoloji alimləri tərəfindən qiymətləndirilmişdir. Həmin arxeoloji tapıntılar bütövlükdə yerli sakinlərə, qədim albanlara və azərbaycan türklərinə mənsub olduğu sübuta yetirilmişdir.

Erməni ünsürləri gah **AZIX mağarasında,** gah da **AĞDAM ərazisində,** gah da **ŞUŞA ərazisində** saxta arxeoloji qazıntı işləri aparırlar. Amma özlərinə aid heç bir əşya tapa bilmirlər. Tapa da bilməzlər. Ona görə ki, Qarabağ ərazisində **Obezyan** cinsli meymun yaşamamışdır.

Qarabağ ərazisində (işğal ərazi nəzərdə tutulur) tarixən mövcud olan maddi-mədəniyyət abidələri, **Sasani imperiyasından Azərbaycan Alban dövləti də daxil olmaqla bütün maddi abidələrin** erməni ünsürünə heç bir aidiyyatı yoxdur. Ümumiyyətlə Azərbaycan ərazisində erməni ünsürünə xas olan adicə daş parçası da yoxdur. Yuxarıda qeyd edildiyi kimi bu ünsür ərazimizə gəlmədi. Yadelli indi özünü yerli kimi qələmə verməyə cəhd edir.

Erməni ünsürlərinin ən çox saxtakarlıqları Qarabağda **seçkilər və referendum keçirmələrində təzahür edir. Son referendum «ARSAX» referendumlardır.** Geniş izah etməyə ehtiyac yoxdur. Arsax türkmənşəli sözdür, erməni ünsürünə yaddır. Hətta bu söz **XVII-XVIII əsrlərdə** Rusiya dövlətində də məlum deyildi.

Göstərilən əsrlərdə ruslar Arsax və Qarabağ adlarını nəinki bilmirdilər, habelə bu adları eşitməmişdilər. **XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya siyasi, iqtisadi sahələrdə inkişaf etməyə başladı. Onun xammala ehtiyacı artdı.** Dənizə çıxmaq uğrunda mübarizə Rusiya dövlətinin dövlət siyasətinin başlıca istiqamətinə çevrildi. Bu yolda onun başlıca rəqibləri **isveçlilər və Osmanlı türkləri idilər. I Pyotr dövründə dənizə çıxmaq, Dünya dövlətləri ilə siyasi, iqtisadi əlaqələr yaratmaq əsasən həll olundu…**

**Rusiya ilə Isveç arasında başlanan Şimal müharibəsi (1700-1721-ci illər) Rusiyanın qələbəsi ilə başa çatdı, Rusiya Baltik dəhlizinə çıxışa nail oldu.** Bu qələbədən sonra **I Pyotr cənub istiqamətində hərbi layihələr üzərində düşünməyə başladı.** Onun maraq dairəsində **Avropada Iran ipəyi, nefti, pambığı, yunu, müxtəlif növ ədviyyatlar və eyni zamanda da Hindistandan gətirilən qiymətli qaş-daşlar əsas yer tuturdu.** Cənuba yürüş layihəsində Azərbaycanın qədim ərazisi olan, ruslara **Qarabağ xanlığı kimi məlum olan Qarabağ ərazisi xüsusi yer tuturdu.** Bu ərazi **Şimal-Cənub və Şərq-Qərb beynəlxalq ticarət yollarının kəsişdiyi məkanda yerləşirdi.**

Bildiyimiz kimi, Qarabağ adlanan ərazi haqqında sabit məlumat **lap qədimdən məlum idi.** Qarabağ toponimi haqqında tarix ədəbiyyatında kifayət qədər məlumatlar var. Mən də həmin məlumatlar əsasında Qarabağ toponimi barədə fikirlərimi bildirmişəm. Lakin onu qeyd etmək istərdim ki, **əldə olan məlumata görə Qarabağ toponimi ilk dəfə 1284-cü ildə Fazlullah Rəşidəddinin (1247-1318-ci illər) «CAMİƏLTƏ-**

**YARİX» əsərində qeyd olunmuşdur.** Arsax sözünün bölgəyə nə vaxt gətirilməsi tarixi məlum deyil. Təkrar edirəm Arsax toponiminin erməni ünsürünə heç bir aidiyyatı yoxdur.

**Elə yeri gəlmişkən deyim ki, Dağlıq Qarabağ məhfumu XX əsrin 20-ci illərində hansısa bir erməni daşnak ünsürünün ağzından çıxmış və bolşeviklər bundan istifadə edərək Dağlıq Qarabağ Muxtar vilayətinin təşkili üçün onu əsas götürülmüşlər.** Bu sahədə bütün saxtakarlıqlar, tarixi məsuliyyət o zaman Moskvada özlərinə siyasi hakimiyyət əldə edən erməni daşnaklarının və Kreml rəhbərlərinin üzərinə düşür.

Tarixdən məlumdur ki, adətən, keçmişdə işğalçı dövlətlər Qarabağ ərazisini ələ keçirməyə çalışmışlar.

Rusiyada **II Yekaterina** dövründən başlayaraq **ŞUŞA-QARABAĞ və Qarabağ xanı IBRAHIMXƏLIL xan haqqında** fikir dairəsi ətrafında geniş söhbətlər başlayır. Qarabağın ələ keçirilməsi üçün rus hakim dairələrində geniş işğalçılıq planları hazırlanır. Bu sahədə erməni ünsürləri xəyanətkar yolu tutmuşdular. Onlar sığınacaq üçün yer axtarırdılar. Eyni zamanda da Rusiya imperiyası Azərbaycan ərazisində özü üçün xristianlardan ibarət dayaq nöqtəsi yaratmaq istəyirdi.

**Bu sahədə ilk addım 1805-ci il 14-15 mayda imzalanan Kürəkçay işğalçı müqaviləsi oldu. Həmin bədnam sülh müqaviləsi Rusiya imperiyası ilə Qarabağ xanı Ibrahimxəlil xan arasında imzalanmışdır.**

**XIX əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyası ilə qacarlar sülaləsi arasında başlanan mübarizə, Şimali Azərbaycanın işğalına yol açdı və erməni ünsürlərinin torpaqlarımıza axınını sürətləndirdi… Nəticə göz qabağındadır…**

**Tarixi xronologiya sübut edir ki, Qarabağ uğrunda mübarizə 300 ildən çoxdur ki, davam edir.** Bu mübarizədə erməni saxtakarlığı əsas yer tutur.

Tarixçi alimlər yaxşı bilirlər ki, **qədim yunanlar bəşə-**

**riyyətə incəsənət, romalılar hüquq, yəhudilər isə Musanın 10 vəsiyyəti formasında əxlaq (mənəviyyat) bəxş etmişlər. Müsəlman dünyasının dünya xalqlarına bəxş etdiyi elm, mədəniyyət, incəsənət və digər elm sahələrindəki xüsusi mövqeyi hüdudsuzdur.**

Bəs erməni tayfası bəşər tarixinə nə verib? **Bu bədbəxtlər hara gediblərsə, özləri ilə fəlakət, yalan, saxtakarlıq, oğurluq, quldurluq, xəstəlik, əxlaqsızlıq və sair bədbəxtliklər aparmışlar.** Erməni tayfası həmişə total saxtalaşdırma ruhunda tərbiyə olunmuşlar. Indi bu tərbiyə sistemi Ermənistan deyilən dövlətdə (əgər dövlət demək olarsa) dövlət siyasətinə çevrilmişdir. **Deməli, Jan Koktonun dediyi kimi: - «Tarix mifə çevrilən həqiqətdir. Mif-tarixə çevrilən yalandır».**

Erməni tayfasının liderləri bunu yaxşı yadda saxlasınlar. Zaman keçdikcə yalanlar aşkara çıxarılır və beləliklə həqiqət öz yerini tapır. Qarabağda erməni tayfasına və onun tarixini əks etdirən maddi-mədəniyyət abidəsi yoxdur. Onlar Azərbaycan Alban dövlətinə məxsus olan maddi-mədəniyyət abidələrini özününküləşdirmək istəyirlər. Bu mümkünsüzdür. Həmin tarixi maddi-mədəni abidələr millilik baxımından buna imkan vermir. Bu yaxınlarda erməni tayfasından olan bir nəfərin müvəqqəti olaraq işğal altında olan **Kəlbəcər rayonunda orta əsrlərdə inşa edilmiş, Azərbaycan türklərinə məxsus məbəddə «dua»** oxunuşuna qatılması insanda nifrət hissini daha da artırdı. Utanmadan beş on erməni ünsürünün arasında dayanan erməni tayfasının məmuru olduqca miskin görünürdü. Onun qeyri-insani sifətində saxtakarlıq aydın hiss olunurdu…

Məlumdur ki, Azərbaycana qarşı erməni tayfasının apardığı müharibədə (aydındır ki, onun arxasında Rusiya Federasiyası durur) əsas məqsəd Qarabağımızın yuxarı ərazilərinin ələ keçirilməsi başlıca yer tutur. Tarixi faktlar, aparılan geniş miqyaslı araşdırmalar sübut edir ki, Qarabağın erməni ünsürünə heç bir aidiyyatı yoxdur. Qədim dövrlərdə bu ərazidə **albanlar, türkdilli tayfalar yaşamışlar**. Qarabağ Azərbaycan Alban

dövlətinin əyalətlərindən biri idi. Yuxarıda dediyim kimi Qarabağın erməni tayfasına heç bir aidiyyat yoxdur.

**XVIII əsrdən etibarən Rusiyaya köç edən erməni ünsürləri müxtəlif yollarla Rusiyanın hakim dairələrini ələ alır, dövlət orqanlarına soxulmağa başlayırlar**. Cənubi Zaqafqaziyada Rusiyanın köməyi ilə erməni ünsürlərinin sayı tədricən artmağa başlayır. Regionda fəlakətlərə yol açılır. **1828-1830-cu illərdə Cənubi Zaqafqaziyaya 200 mindən çox erməni ünsürü köçürülüb məskunlaşdırılmışdır.**

Rus diplomatları və tarixçiləri də erməni tayfalarının Cənubi Zaqafqaziya ərazilərinə köçürülüb gətirilmələrini dəfələrlə etiraf etmişlər. Rus diplomatı və tarixçisi **N.N.Şavrov 1911-ci ildə yazırdı:**

**Cənubi «Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənінin 1 milyondan çoxu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb».** Bu deyilənlər erməni saxtakarlığına ağır zərbədir. **Qafqazşünas N.N.Şavrovun bu etirafı** Rusiya imperiyasının müstəmləkəçilik mahiyyəti daşıyan qeyri-qanuni əməllərini açıq etiraf edilməsidir.

Erməni ünsürlərinin saxtakarlıqlarına aid daha bir misal:

**Yazıçı, Iranda Rusiyanın səfiri olmuş A.S.Qriboyedov Rusiya imperatoruna yazdığı məktublarında bildirirdi ki, «Əlahəzrət olmağa mərkəzi rus quberniyalarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır».**

Yerində və tutarlı deyimdir. Qarabağa gətirilən erməni ünsürünün indiki məkirli hərəkətləri yuxarıda deyilənləri bir daha sübut edir.

Qarabağın müəyyən ərazisində yaşayan erməni ünsürləri **XVIII əsrin əvvəllərində özlərini alban adlandırırdılar.** Özləri də bilmədən ermənilikdən imtina edirdilər. Ona görə ki, bu ünsürün yer üzərində yaşamağa mənəvi və fiziki haqqı yoxdur.

Erməni saxtakarlığının ən bariz nümunələrindən biri də

müvəqqəti olaraq işğal altında olan ərazilərimizdə xarici ölkələrin sakinləri olan erməni ünsürlərinin gətirilib yerləşdirilməsidir.

Bu erməni köçü haqqında ətraflı məlumat **LEYLA İLHAM qızı ƏLİYEVANIN 2014-cü ildə nəşr etdidiyi «XOCALIYA ƏDALƏT» kitabının II cildinin 170-171-ci səhifələrində verilmişdir.** Orada deyilir:

**«Işğal olunmuş ərazilərimizə son 10 ildə Suriyadan 78, İraqdan 47, İrandan 12, Rusiya Federasiyasından 31, Avstriyadan 19, Fransadan 11, Argentinadan 16, ABŞ-dan 17, Türkiyədən 21 erməni ailəsi gətirilib yerləşdirilmişdir.**

Bütün bu qeyri-qanuni və saxta immiqrasiya siyasətini erməni ünsürlərinin **Xankəndində** təşkil etdikləri **«Vətən çağırır» (?) seperatçı təşkilatının üzvləri həyata keçirmişlər.**

Erməni faşist ordusunun Qarabağın ərazisindən qeyd-şərtsiz çıxarılmaları haqqında **Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamələr bu günə qədər icra olunmayıb.**

**Həmin qətnamələrin ideoloji tövsiyyələri ilə yanaşı siyasi xarakterli tələbləri də var. Həmin qətnamələr bunlardır.**

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI

## Qətnamə 822

***30 Aprel 1993-cü il***

Təhlükəsizlik Şurası, Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurası Sədrinin 29 yanvar və 6 aprel 1993-cü il tarixli bəyanatlarına əsaslanaraq.

Baş Katibin 14 aprel 1993-cü il tarixli məruzəsini nəzərə alaraq, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlığını ifadə edərək, silahlı hərbi əməliyyatların genişlənməsini, xüsusilə yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyəcanla qeyd edərək,

belə vəziyyətin regionda sülh və təhlükəsizliyi təhdid etməsindən narahat olaraq,

çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda fövqəladə humanitar vəziyyətlə bağlı ciddi narahatlığını ifadə edərək,

Regionda bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçrilən sülh prosesini dəstəklədiyini bəyan edərək,

Silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərindən narahat olaraq qeyd edir:

1. Möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonun-

dan və Azərbaycanın bu yaxınlarda işğal olunmuş digər rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sülh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır;

3. Mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını yenidən təsdiq edir;

4. Baş Katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Fəaliyyətdə olan Sədri, həmçinin Müşavirənin Minsk qrupunun Sədri ilə məsləhətləşməklə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir;

5. Bu məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI

## Qətnamə 853

***29 iyul 1993-cü il***

Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupunun Sədrinin 27 iyul 1993-cü il tarixində dərc olunmuş məruzəsini nəzərdən keçirərək,

Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onlar arasındakı gərginliklə əlaqədar ciddi narahatlığını ifadə edərək,

Maraqlı tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq,

Hərbi əməliyyatların genişlənməsini, xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edilərək, Belə vəziyyətin regionda sülh və təhlükəsizliyi hələ də təhdid etməsini ilə əlaqədar narahat olaraq, Azərbaycan Respublikasında çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatlığını ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığın və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək:

1. Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər rayonlarının işğalını pisləyir;

2. Bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayon-

ların bombardman edilməsini pisləyir;

3. Bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş digər rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

4. Maraqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır;

5. Yuxarıdakı 3-cü və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq edir;.

6. 822 saylı (1993) qətnaməni həyata keçirmək üçün səylər də daxil olmaqla ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün davam edən səylərini bəyənir və hərbi əməliyyatların genişlənməsinin bu səylər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatlığını ifadə edir;

7. Yerləşdirilməsi cədvəli də daxil olmaqla ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin ATƏM-in regionda iştirakının təmin edilməsi təklifinin ATƏM çərçivəsində nəzərdən keçirilməsini alqışlayır;

8. Maraqlı tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə və ATƏM-in Minsk qrupu çərçivəsində, həmçinin birbaşa təmaslar vasitəsilə məsələnin birdəfəlik həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır;

9. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırki qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyə təkidlə çağırır;

10. Dövlətləri münaqişənin intensivləşməsinə və ya ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və

hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artan əziyyətlərini yüngülləşdirmək məqsədilə, regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir daha çağırır, bütün tərəflərin beynəlxalq humantar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir;

12. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və köçkün düşmüş şəxslərin öz evlərinə qayıtmasına kömək göstərməyi xahiş edir;

13. Baş Katibdən ATƏM-in Fəaliyyətdə olan Sədri, həmçinin Minsk qrupunun Sədri ilə məsləhəğləşməklə vəziyyətin inkişafı barədə Şuraya məruzələr təqdim etməyi davam etdirməyi xahiş edir;

14. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI

**Qətnamə 874**

***14 oktyabr 1993-cü il***

Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası Sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına ünvanlanmış 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyi təhdid edə biləcəyi ilə əlaqədar dərin narahatlığını ifadə edərək, 8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilmiş görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həllinə töhfə verəcəyinə ümidvar olduğunu ifadə edərək,

Azrəbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Münaqişə üzündən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar, xüsusilə Azərbaycan Respublikasında çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi ilə əlaqədar özünün ciddi narahatçılığını bir daha ifadə edərək:

1. Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna dəstək

məqsədilə Rusiya Federasiyası hökumətinin köməyi ilə həyata keçirilən birbaşa təmaslar nəticəsində əldə edilmiş atəşkəsi effektiv və daimi etməyə çağırır;

2. ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk qrupunun yorulmaz səylərini tamamilə dəstəklədiyini yenidən bəyan edir;

3. 28 sentyabr 1993-cü ildə ATƏM-in Minsk qrupunun iclasında hazırlanmış və Minsk qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun Sədri tərəfindən maraqlı tərəflərə təqdim olunmuş «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»ni alqışlayıb tərəflərin diqqətinə çatdırır və tərəfləri onu qəbul etməyə çağırır;

4. Münaqişədən irəli gələn və «Yeniləşdirilmiş cədvəl»də bilavasitə nəzərdən keçirilməyə bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsinin vacibliyinə əmin olduğunu ifadə edir;

5. bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması, rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla ATƏM-in Minsk qrupunun «Yeniləşdirilmiş cədvəli»ndə nəzərdə tutulan qarşılıqlı və təcili tədbirləri dərhal həyata keçirməyə çağırır;

6. ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, «Yeniləşdirilmiş cədvəl»də nəzərdə tutulduğu kimi, münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə tezliklə Minsk konfransını keçirməyə çağırır;

7. Baş Katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab verməyi və Konfransın açılmasından sonra məsələnin mahiyyətinə dair danışıqlar aparmaq üçün bütüq mümkün köməyi göstərməyi xahiş edir;

8. ATƏM-in yaratdığı müşahidə missiyasını dəstəkləyir;

9. Bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrdəki çağırışlarını təkrar edir;

10. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran, regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır;

11. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqınlara və köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmaqda kömək etməyi xahiş edir;

12. Baş Katibdən, ATƏM-in Fəaliyyətdə olan Sədrindən və ATƏM-in Minsk Konfransının Sədrindən Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bunlarla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrin verilməsini davam etdirməyi xahiş edir;

13. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI
## Qətnamə 884
***12 noyabr 1993-cü il***

Təhlükəsizlik Şurası,

30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tamamilə dəstəklədiyini təsdiq edərək,

ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının Fəaliyyətdə olan Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına ünvanlanan 9 noypbr 1993-cü il tarixli məktubunu və ona əlavələri nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhdid edə biləcəyi ilə əlaqədar ciddi narahatlığını ifadə edərək,

Atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların genişlənməsini və buna cavab olaraq ifrat güc tətbiq edilməsini, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını həyəcanla qeyd edərək,

Azərbaycan Respublikasının və regiondakı digər dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək məqsədilə güc tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək,

Son zamanda çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbay-

canın cənub sərhəddində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatlığını ifadə edərək:

1. Hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pisləyir;

2. Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün  lazımi vasitələrin münaqişəyə cəlb olunmuş qüvvələrə verilməməsini təmin etməyə çağırır;

3. ATƏM-in Minsk qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli Bəyannaməsini alqışlayır və atəşkəsin dayandırılması haqqında birtərəfli bəyanatlarla bağlı orada yer alan təklifləri yüksək qiymətləndirir;

4. Maraqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü ildə Vyanada keçirilmiş iclasında edilmiş düzəlişlərlə «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlərin Yeniləşdirilmiş cədvəli»nə uyğun olaraq hərbi əməliyyatları və düşmənçilik hərəkətlərini dərhal dayandırmağı, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələri birtərəfli qaydada çıxarmağı və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş başqa rayonlarından işğalçı qüvvələri çıxarmağı tələb edir;

5. Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna dəstək məqsədilə rusiya Federasiyası hökumətinini köməyi ilə həyata keçirilmiş birbaşa təmaslar nəticəsində əldə edilmiş atəşkəsi təcili bərpa. Onu effektiv və daimi etməyə, ATƏM-in Minsk prosesi və Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixli iclasında edilmiş düzəlişlərlə birlikdə «Yeniləşdirilmiş cədvəl» konteks-

tində münaqişənin danışıqlar vasitəsilə həllini axtarmağa təkidlə çağırır;

6. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, regionda sülh və təhlükəsizliyin sarsılmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır;

7. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də daxil olmaqla zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqın və məcburi köçkünlərə təhlükəsizlik və layiqli şəkildə öz evlərinə qayıtmaqda kömək etməyi xahiş edir;

8. Baş Katibə, ATƏM-in Fəaliyyətdə olan Sədrinə və ATƏM-in Minsk Konfransının Sədrinə Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini davam etdirmək barədə xahişini təkrar edir;

9. Bu məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

Yuxarıda qeyd olunan qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilməmişdir.

Hazırda Azərbaycanda güclü iqtisadiyyat, müasir hərbi texnika ilə silahlanmış, yüksək döyüş təcrübəsinə malik olan **Milli Ordu yaradılmışdır**. Silahlı qüvvələrimiz işğal altında olan torpaqlarımızı hər an azad etməyə qadirdir. **2016-cı il aprel döyüşləri bunu bir daha göstərdi. Erməni ünsürlərinin bel sütununu sındırıldı. Milli Ordumuz öz gücünü düşmənə göstərdi.**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Cənab İLHAM ƏLİYEV deyir:**

**«Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Azərbaycan öz sərhədləri daxilində tanınmışdır.**

**… Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, üstəlik daha bir erməni dövlətinin mövcud olması mümkün deyildir. Ermənistanın irəli sürdüyü ideyalar bundan ibarətdir ki, guya Dağlıq Qarabağın əhalisi öz müstəqilliyini təyin etmək istəyir. Halbu ki, ermənilər öz müqəddəratını artıq müəyyən etmişlər, onların müstəqil dövləti var – Ermənistan Respublikası. Dünyada ikinci erməni dövləti ola bilməz, deməli, Dağlıq Qarabağın müstəqilliyi yolverilməzdir. Dağlıq Qarabağ tarixən Azərbaycan ərazisidir və o, ancaq yüksək muxtariyyət statusuna malik ola bilər»…**

# AZƏRBAYCANIN İTİRİLMİŞ TARİXİ-ETNİK TORPAQLARI

**AZƏRBAYCAN** tarixən geniş əraziyə malik olan dövlətlərdən biri olmuşdur. Bu müəyyən əsrlərdə hazırlanan siyasi və iqtisadi xəritələrdə də özünün əksini tapmışdır. Lakin tarixin müəyyən inkişaf mərhələlərində, xüsusilə Şimali Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bu tarixi-etnik torpaqlarımızın bir hissəsi **Azərbaycan SSR** sərhədlərindən kənarda qaldi. Həmin torpaqlar - **AMASİYA, BASARKEÇƏR, EÇMƏDZİN, GÖYÇƏ, GÜMRÜ, İRƏVAN, SÜRMƏLİ, ŞƏMSƏDDİL, DƏRƏLƏYƏZ, ŞORAGÖL, YENİ BƏYAZİD, VERDİBASAR, ZƏNGİBASAR VƏ ZƏNGƏZUR, indiki ERMƏNİSTAN deyilən ərazi, BORÇALININ bir hissəsi, QARAYAZI ilə birlikdə GÜRCÜSTAN RESPUBLİKASINA və qədim Azərbaycan şəhəri Dərbənd ətrafındakı torpaqlarla birlikdə RUSİYA FEDERASİYASINA verildi. Mehriyə bitişik olan ərazimizin 1920-ci ildə Ermənistan deyilən quruma verilməsi nəticəsində NAXÇIVAN diyarı süni olaraq Azərbaycandan ayrı düşdü.**

Sovet hakimiyyəti illərində doğma torpaqlarımızın itirilməsi **1969-cu ilə kimi davam etdi. 1969-cu il iyulun 14-də ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN hakimiyyətə gəlməsi ilə torpaqlarımızın əldən çıxmasının qarşısı alındı.**

**Sovet İttifaqı** dövründə və başqa tarixi mərhələlərdə itirilmiş ərazilərimiz haqqında qısa tarixi məlumat vermək yerinə düşər.

**BORÇALI**. Borçalı tarixən azərbaycanlıların elliklə yaşadığı məkandır. Mahalın ərazisi əsasən dağlıqdır. Orta əsrlərdə burada türk dilli tayfalar, **XVI-XVII əsrlərdə** isə kütləvi surətdə Borçalıda azərbaycan türkləri məskunlaşmışdılar. Əlverişli iqlim və torpağa malik olan Borçalı mahalında əhali əkinçilik, maldarlıq, taxılçılıq, bostançılıq, bağçılıq və ipəkçiliklə məşğul olmuş-

lar.

Borçalı həmişə tarixi Azərbaycan dövlətinin tərkib hissəsi olmuşdur. **1736-cı ildə Bəylərbəyi Ziyadoğlının Nadir xan Əfşarın Muğanda şah elan olunmasına qarşı çıxması mahalın tarixində qanlı nəticələrə səbəb olmuşdur.** Ziyadoğlunun bu hərəkətindən qəzəblənən Nadir şah (**1736-1747**) **Borçalı və Qazax mahallarının** Gəncə bəylərbəyindən alaraq **KARTİLİ-KAXETİYA** çarlığına verdi.

**1747-ci il iyun ayının 20-də Nadir şah Xorasan yaxınlığındakı Xanbuşan yaylağında öz qohumları tərəfindən öldürüldükdən sonra** Borçalı mahalında müstəqil **sultanlıq yarandı.**

**1832-ci il məlumatına görə** Borçalının **145 kəndində 4092 həyət, 13762 nəfər kişi var idi. 1880-ci ildə Borçalı ayrıca qəza hüququ almışdır.** Borçalının mərkəzi hissəsində **1917-ci ildə 36615 nəfər əhali yaşayırdı ki, bu da azərbaycanlı əhalinin 93 faizini təşkil edirdi.**

**1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra Borçalı əhalisi yenidən Azərbaycanla birləşmək haqqında məsələ qaldırdı.** Təəssüflər olsun ki, o zamankı Gürcüstan hökuməti **alman ordusunun köməyilə azərbaycanlıların xoş niyyətinin qarşısını aldı...**

**Gürcüstanda və Ermənistan deyilən respublikada sovet hakimiyyəti bərqərar olduqdan sonra, hər iki dövlət arasında sərhədlərin müəyyənləşməsi məsələsi irəli sürüldü.**

**1921-ci il noyabr ayının 6-da hər iki respublika arasında imzalanan bəyannaməyə əsasən Borçalının LORİ ərazisi Erməni ünsürlərinə verildi. Bununla da tarixi-etnik ərazimiz itirildi.**

Gürcüstana qatılan Borçalı torpaqları **qəza hüququ əsasında idarə olunurdu.** Onun ərazisi-**2655 kv.km idi. 1929-cu ildə Gürcüstan tərkibində olan Borçalı qəzası ləğv edildi.** Qəza ərazisində **Marneule, Bolnisi** rayonları təşkil olundu.

**1988-ci ildə** Ermənistan deyilən dövlətin tərkibində olan Borçalı torpaqlarından erməni faşist ünsürləri azərbaycanlıları ta-

mamilə qovub çıxarmış və bütün əmlaklarını **evlərini, varidatlarını, mal-qarasını mənimsəmişlər.**

**Beləliklə də qədim torpaqlarımızın bir hissəsi "İTİRİLMİŞ TORPAQLAR"** sırasına düşdü.

**DƏRBƏND** – Dərbənd Azərbaycanın ən qədim şəhərlərindən biridir. Bu şəhər haqqında xalqımızın **deyimləri, əfsanələri var. Əfsanələrin birində deyilir ki, Dərbəndin yeddi qala darvazası olmuşdur. Bunlar – Bayır qapı, Carcı qapı, Orta qapı, Yengicə qapı, Daş qapı, Qala qapı və Quba qapılarıdır. Həmin qapılar şəhərin ayrı-ayrı küçələrinə açılırmış. Dərbənd qapılarına gələn elçilər yeraltıyolun biri ilə içəri gözübağlı aparılar, başqa bir qapıdan yola salınarmışlar.**

Bu günə kimi Dərbəndin salınma tarixi müəyyən edilməmişdir. Ehtimal olunur ki, Dərbəndin yerləşdiyi ərazidə e.ə.**VIII-VI əsrlərdə yaşayış məskəni** mövcud olmuşdur. Qədim dövrlərdə Albaniyanın **COLA** vilayəti ərazisində eyni adlı şəhər inşa olunmuşdur. Eramızın əvvəllərində həmin yaşayış məntəqəsi Albaniyanın (**Azərbaycanın**) iri yaşayış yerlərindən birinə çevrilmişdir. Böyük Qafqaz dağ silsiləsi ilə Xəzər dənizi arasında yerləşən, mühüm əhəmiyyətə malik olan "**Alban qapıları**" adlanan keçid də burada yerləşirdi.

**Tarixi məlumatlara görə iskiflər, alanlar, hunlar, xəzərlər və başqa tayfalar Cənubi Qafqaza və Ön Asiyaya** hücum edərkən həmin keçiddən istifadə etmişlər. Xarici hücumlardan qorumaq məqsədilə Dərbəndin ətrafına möhkəm divar çəkilmişdir. Həmin divarların daş kitabələrində həkk olunmuş yazılardan məlum olur ki, hələ o dövrdə Azərbaycanın ərazisi cənubdan şimala qədər **Adurbadaqan adlanırdı.**

Erkən orta əsrlərdə sahəsinə görə Dərbənd **Cənubi Qafqaz, Ön və Orta Asiyanın böyük şəhərlərini bütün sahələr üzrə geridə qoyurdu.** Şəhər hakiminin iqamətgahı və silahlı qüvvələr şəhərdə yerləşirdi. Dərbənd inzibati-siyasi və mədəni mərkəz idi. **"Kitabi-Dədə Qorqud" dastanında da Dərbəndin**

**adı çəkilir. XVII əsrdə alman səyyahı Adam Oleari və yenə həmin əsrdə yaşayan türk səyyahı Evliya Çələbi öz əsərlərində Dərbənddən söhbət açaraq göstərirlər ki, Dədə Qorqudun məzarı burada yerləşir. Bu məlumat "DƏRBƏNDNAMƏ" əsərində də qeyd olunmuşdur.**

Erkən orta əsrlərdə Dərbənd Şimal Qafqazı və Şərqi Avropa ölkələrini Orta və Yaxın Şərq ölkələri ilə birləşdirən ən mühüm ticarət mərkəzi idi. Artıq **V əsrdə Dərbənd Sasani canişinlərinin iqamətgahına çevrilmişdir.** Sasani hökmdarlarının müqavimətinə baxmayaraq **türkdilli tayfaların cənuba doğru hücumlarının qarşısı alınmaz oldu.**

**626-627-ci illərdə xəzərlər Cəbə xaqanının başçılığı ilə Dərbənd qalasını tutaraq, qala divarlarını və bürclərini dağıtdılar. Ərəblər Dərbəndi ələ keçirdikdən sonra burada 24 min silahlı qüvvə yerləşdirdilər. Dərbənddə pul da kəsilirdi.** Xarici ölkələrlə iqtisadi əlaqə saxlanılırdı.

Dərbənd **Sacilər, Səlairlər və Şirvanşahlar dövlətlərinin tərkibində olmuşdur.** Sonrakı dövrlərdə Dərbənd yenə də müharibə meydanına çevrildi.

**Əslən Dərbəndli olan I İbrahim 1382-ci ildə Şirvanda hakimiyyətə gəldikdən sonra** Dərbənd **Şirvanın ən mühüm siyasi və iqtisadi şəhərlərindən birinə çevrildi. 1509-cu ildə I Şah İsmaylı Dərbəndi tutaraq, İraqda yaşayan bayatlar tayfasının bir hissəsini buraya köçürdü.** Səfəvilər dövründə şəhərin müdafiəsi **Əfşar və ustaclı tayfalarına həvalə olunmuşdur.**

**XVIII əsrin ikinci yarısından başlayaraq Rusiyanın siyasi-iqtisadi cəhətdən inkişafı, onun işğalçılıq planlarını sürətləndirdi. 1722-ci il avqust ayının 23-də I Pyotr başda olmaqla rus qoşunları Dərbəndi tutdu.**

**1723-cü il sentyabr ayının 12-də Rusiya-İran, 1724-cü il iyun ayının 12-də Rusiya-Osmanlı Türkiyəsi arasında bağlanan müqavilələrə əsasən Dərbənd Rusiyaya birləşdirildi.**

**1735-ci il mart ayının 10-da İranla-Rusiya imperiyası arasında imzalanan Gəncə müqaviləsinə əsasən Dərbənd ye-**

**nidən Səfəvilər dövlətinə qaytarıldı.**

**1747-ci ildə mərkəzi Dərbənd olmaqla Məhəmmədhüseyn xan Dərbənd** xanlığını yaratdı. Xanlıq **Quba xanlığı ilə həmsərhəd idi.** Bundan istifadə edən Quba xanı **Fətəli xan 1759-cu ildə Dərbənd xanlığını Quba xanlığı ilə birləşdirdi.**

**1796-cı ildə general V.A.Zubov başda olmaqla 30 min nəfərlik rus ordusu Azərbaycan ərazisinə çıxarıldı. Həmin ilin may ayının 2-də ruslar Dərbəndi tutdu. Lakin 1797-ci ildə rus qoşunları Azərbaycan ərazisindən çıxarıldı.**

**1806-cı il iyun ayının 22-də rus qoşunları Dərbəndi yenidən işğal etdilər.**

Rusiya imperiyası **1830-cu ildə Bakı və Quba əyalətlərini əhatə edən və mərkəzi Dərbənddə yerləşən Dağıstan hərbi dairəsi təşkil etdi. 1840-cı ildə Xəzər vilayəti tərkibinə keçən Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətlərini birləşdirən Dərbənd qəzası yaradıldı. 1846-cı il inzibati islahat nəticəsində Dərbənd quberniyası təşkil olundu. Lakin, 1860-cı ildə Dərbənd quberniyası ləğv edildi.**

**1920-ci il mart ayının 25-də Rusiyanın XI ordusu Dərbəndi işğal etdi. 1921-ci ildə Dərbənd Dağıstanın tərkibinə daxil edildi.** Beləliklə, Dərbənd Azərbaycandan ayrı düşdü.

Dərbəndin qara günləri başlandı. Azərbaycan məktəbləri bağlandı. Minlərlə soydaşlarımız şəhəri tərk etmək məcburiyyətində qaldı. Bu iş yenə də djavam etməkdədir.

Dərbəndi, qədim şəhərimizi qələmə alarkən əfsanələrlə başlmışdım və əfsanə ilə də qurtarmaq istərdim.

Əfsanənin məzmunu belədir:

Bir xan qoşunla Dərbəndə hücum edir. Dərbəndlilərə bir nəfər azərbaycanlı qadın başçılıq edirmiş. Həmin qadın xana belə deyir:

**Dərbənd üstü barıdı,**
**Əlçatmaz, yuxarıdı.**
**Düşmən gəlsə basılar,**
**Tək deyil arxalıdır.**

Bu sözlərdən sonra xan öz niyyətindən əl çəkir…

**ŞƏRUR-DƏRƏLƏYƏZ**. Dərələyəz ən qədim dövrlərdən **Naxçıvan mahalının** mədəniyyət mərkəzlərindən biridir. Onun ərazisi **2304 kv.km-dir.** Burada olan maddi-mədəniyyət abidələri sübut edir ki, Dərələyəzin əhalisi türkdilli tayfalar olmuşdur. Diyarda xristianlığa aid heç bir əlamət yoxdur.

Dərələyəz **1747-ci ildə yaranmış Naxçıvan xanlığının 14 nahiyyəsindən biri idi – 1747-ci ildə Nadir şahın öldürülməsindən istifadə edən Kəngərli tayfasının başçısı Heydərqulu xan yerli feodalların köməyi ilə şahın naibi Ağahəsəni Naxçıvandan qovaraq xan elan olunmuşdur.** Ərazi bölgüsünə görə Dərələyəz **üç** hissəyə ayrılırdı. Bunlar, **Şərqi Dərələyəz, Qərbi Dərələyəz və Dərələyəzin özü idi.** Mahalda **102 kənd yaşayış məskəni var idi.**

**1828-ci il fevral ayının 10-da Rusiya imperiyası ilə qacarlar arasında imzalanan Türkmənçay sülh müqaviləsindən sonra** Irandan qovulan ermənilərin bir hissəsi Naxçıvan xanlığında yerləşdirildilər. Daha sonra, **1829-cu il sentyabr ayının 2-də Osmanlı Türkiyəsi ilə Rusiya tərəfindən imzalanan Ədirnə sülşünün şərtlərinə görə Türkiyədən qovulan erməni ünsürlərinin bir qismi də Naxçıvana gətirilib məskunlaşdırıldılar.**

Rusiya imperiyası tərəfindən **1870-ci ildə** yaradılmış və əhalisinin böyük əksəriyyətini **azərbaycanlılar təşkil edən Şərur-Dərələyəz və Naxçıvan qəzaları Irəvan quberniyasının tərkibinə verildi.** Rusiya zorla, süni surətdə erməni ünsürlərinə torpaq paylayırdı.

**1897-ci il məlumatına görə Şərur-Dərələyəz qəzasının ərazisi 2972,3 kv.km, əhalisi isə 76551 nəfər idi. Əhalinin 70 faizdən çoxunu azərbaycanlılar, qalan hissəsini azsaylı xalqlar təşkil edirdi.**

Sovet hakimiyyəti illərində torpaqlarımız kütləvi surətdə bölüşdürüldü. Ermənilərə **Günəş altında sanki yer axtarılırdı... Əsas hədəf əvvəllərdə olduğu kimi yenə də Şimali Azərbaycan torpaqları idi.**

**1929-cu il fevral ayının 18-də Zaqafqaziya Mərkəzi İcsraiyyə Komitəsi (MİK) Sovet hökumətinin göstərişi ilə, heç bir əsas olmadan, qədim ərazimiz olan Şərur-Dərələyəz qəzasını Azərbaycandan alıb erməni ünsürlərinə verilməsi haqqında qara ləkəli ədalətsiz qərar qəbul etdi...**

Bütün **XX əsr** boyu azərbaycanlıları erməni faşist ünsürləri Şərur-Dərələyəz torpaqlarından tamamilə, vəhşicəsinə **deportasiya** etmişlər.

**GÖYÇƏ** Ermənistan deyilən ərazidə, **Göyçə (qondarma Sevan gölü) gölünün şimal və şimal-şərq ərazisində yerləşən Göyçə** azərbaycan türklərinin qədim dövrləridən yaşadıqları ərazidir. Göyçə mahalı **maldarlıq, əkinçilik, bağçılıq, balıqçılıq və digər kənd təsərrüfatı məhsulları üçün əlverişli şəraitə malikdir.**

**Göyçə mahalında toxunan xalçalar dünya da məşhurdur.**

**Xanlıqlar dövründə Göyçə mahalı İrəvan xanlığının tərkib hissəsi idi. Rusiya-İran müharibələri Göyçə mahalına da ağır təsir göstərmişdir... 1849-cu ildə İrəvan quberniyasının tərkibinə daxil edilmişdir.**

**Göyçə Aşıq Alının, Aşıq Ələsgərin, Aşıq Həsənin, Aşıq Məhərrəmin, Aşıq İmranın doğma** vətən ocağıdır. Azərbaycan torpağıdır.

**İRƏVAN. (RƏVAN, 1956-cı ildən etibarən Erivan adlanır). İRƏVAN** orta əsrlərdən **1918-ci il may ayının 29-na kimi Azərbaycan şəhəri olmuşdur.**

Qədim Azərbaycan şəhəri olan İrəvan **XVI əsrin əvvəllərində ZƏNGİ** çayı sahilində uca dağlarla əhatə olunmuş düzənlikdə inşa edilmişdir. Türk tarixçi səyyahı **Evliya Çələbi yazırdı:**

**"Hicri 810-cu ildə (1407-1408) Əmir Teymurun sevimli əmirlərindən biri, tacir Xoca xan Ləhicanlı RƏVAN torpağına qədəm qoyduqda çox münbit məhsuldar torpaq görür. Öz ailə üzvləri ilə burada sakin olur. Gündən-günə düyü əkini hesabına varlanaraq bu böyük kəndin əsasını qoyur. Sonra**

**hicri 915-ci ildə (1509-1510) Şah İsmayıl (1501-1524-cü illərdə Azərbaycan Səfəvilər dövlətinin şahı olmuşdur) burada qala salınması haqqında vəziri RƏVANQULU xana göstəriş verir. O da 7 il ərzində böyük zəhmət hesabına burada qala inşa etdirərək adını RƏVAN qoyur. Zəngi çayının şərq sahilində yerləşən, daş və kərpicdən tikilmiş möhkəm, gözəl bir qaladır, amma hasarı yoxdur".**

Akademik **V.V.Bartold da İrəvanın kənd kimi Əmir Teymurun dövründə (XIV əsrin sonunda) meydana gəldiyini, XVI əsrdə Şah İsmayıl Xətainin hakimiyyəti dövründə şəhərə çevrildiyini və elə o vaxtdan RƏVAN adını daşıdığını təsdiq edir.**

Qədim Azərbaycan şəhəri olan İrəvanın tarixinin öyrənilməsi sübut edir ki, **XIX əsrin I yarısında** şəhərin mərkəzi hissəsində **dördkünc bazar, üç karvansaray, irili-xırdalı 138 dükan, 8 məscid fəaliyyət göstərirdi. Şəhərdə yüzlərlə gözəl yaşayış və inzibati binalar var idi.**

İrəvan şəhərinin **üç darvazası – Təbriz, Şirvan və Körpü darvazaları var idi.** Ümumiyyətlə, **1912-ci ildə** Qərbi Azərbaycan ərazisində əldə olan məlumatlara görə **110 məscid olmuşdur.** Hər bir məscidin nəzdində **mədrəsə var idi.**

**Hüseynəli xan** məscidinin nəzdində olan mədrəsədə **200 şagird təhsil alırdı. İrəvan xanlığı 1827-ci ildə Rusiya tərəfindən işğal edildikdən sonra da İrəvan şəhərinin əhalisinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. İşğal** ərəfəsində şəhərdə **5 min nəfər əhali yaşayırdı. 1828-ci ilə kimi, yəni 438 il ərzində** İrəvan şəhərini azərbaycanlı hakimlər idarə etmişlər. Xanlıq dövründə də bütün xanlar azərbaycanlı idi. Şəhər Səfəvilərlə Osmanlılar arasında müharibə meydanına çevrilmişdir. **I Şah Abbas 1604-cü il iyun ayının 8-də İrəvan şəhərini osmanlılardan azad etdikdən sonra şəhər əhalisinin bir hissəsini İrana köçürmüşdür.**

**1747-ci ildə İrəvan xanlığı yaranandan sonra İrəvan şəhəri xanlığın mərkəzi olmuşdur.** Rusiya tərəfindən işğal olunan

İrəvan şəhərinin qara günləri başladı. Yadelli erməni ünsürlərinin xanlığın ərazisinə gətirilib yerləşdirilməsi, Qərbi Azərbaycan əhalisinin say tərkibinə mənfi təsir göstərdi. **İran və Türkiyədən qovulan erməni ünsürlərinin bir qismi İrəvan xanlığının ərazisinə yerləşdirildi.** Şəhər erməni vilayətinin, İrəvan quberniyasının mərkəzlərinə çevrildi. Erməni ünsürləri İrəvan şəhərində nə qədər çox yerləşdirilmələrinə baxmayaraq, azərbaycanlılarar yenə də əhalinin əksəriyyətini təşkil edirdilər.

Erməni tarixçisi Zaven Korkodyan **1932-ci ildə yazdığı "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illərdə" adlı elmi əsərində göstərir:**

**"1883-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1886-cı ildə isə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2 faizi azərbaycanlı olmuşdur."**

Buradan aydın olur ki, ermənin özü də İrəvan şəhərinin **Azərbaycan şəhəri olduğunu təsdiq edirlər.**

Tarixi mənbələrdə göstərilir ki, bütün maniələrə baxmayaraq **1916-cı ildə** İrəvan qəzasında **74200 nəfər əhalinin 50 faizə qədəri azərbaycanlılar idi.**

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə hər iki xalq arasında sülh yaratmaq məqsədilə, 1918-ci il may ayının 29-da qədim Azərbaycan şəhərini – İRƏVAN şəhərinin paytaxtı olmayan Ermənistan deyilən respublikaya verilmisi haqqında gərəksiz qərar qəbul olundu.**

Mənə belə gəlir ki, həmin qərarın əsl mahiyyəti araşdırılmalıdır...

**ZƏNGƏZUR.** Zəngəzur Azərbaycanın tarixi ərazisidir. Qədim dövrlərdə **Zəngəzur Atropatena və Alban (Azərbaycan) dövlətlərinin tərkibində olmuşdur.** Cənubi Qafqazda **Sasanilərə** qarşı **V-VI əsrlərdə** baş verən üsyanlar Zəngəzur mahalını da əhatə etmişdir.

**VII əsrin** birinci yarısında Albaniya dövlətinin tərkibində olan Zəngəzuru **Xəzər xanlığı işğal etdi. Babəkin başçılığı ilə Ərəb Xilafətinə qarşı baş verən** üsyan Zəngəzuru da əhatə et-

mişdir. Xilafət tərəfindən burada da **İslam dininin yayılması həyata keçirilmişdir. XI əsrdə Səlcuqlar** mahalı işğal etdi. Sonrakı dövrlərdə - **XII-XIII əsrlərdə** Azərbaycan **Atabəyləri, Hülakülər, XV-XVII əsrlərdə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin tərkibində olmuşdur.**

Azərbaycanda xanlıqlar yaranan zaman Zəngəzur ayrı-ayrı vaxtlarda **İRƏVAN və QARABAĞ Xanlıqlarının tərkibində olmuşdur.**

**1828-ci il fevral ayının 10-da Rusiya ilə qacarlar arasında imzalanan Türkmənçay sülh müqaviləsinin şərtlərinə görə** Zəngəzur mahalı da Rusiya imperiyası tərkibinə daxil oldu. **1829-cu ildə Zəngəzur Qarabağ əyalətinin tərkibinə qatıldı.** Nəhayət, **1861-ci ildə** Rusiya tərəfindən Zəngəzur **qəzası yaradıldı.**

**1917-ci ilin martından 1918-ci ilin may ayına kimi** erməni daşnak ünsürlərinin azərbaycanlı və qismən də kürd əhalisinə qarşı **soyqırım törətdilər. On minlərlə azərbaycanlı həlak oldu, evlər, kəndlər dağıdıldı, xeyli soydaşlarımız doğma ata-baba yurdlarından didərgin düşdü.**

Cənubi Qafqazda **1918-ci il may ayının sonlarında üç müstəqil dövlətlər yaranandan sonra da** daşnak ünsürləri azərbaycanlılara qarşı soyqırımını dövlət səviyyəsində davam etdirmişlər.

**1918-ci ilin yayında və payızında daşnak** quldur dəstləri Zəngəzurda **115 kəndi dağıtmış və yandırmışlar. Azərbaycanlılara məxsus mal-dövləti, xırda və iribuynuzlu mal-qaranı qarət etmiş, 7729 nəfər azərbaycanlını amansızcasına qətlə yetirmişlər.**

Ermənistan SSR **1921-ci ildə** daha bir qərzanı ələ keçirə bildi. Sovet hakimiyyətinin fəal köməyi sayəsində **Azərbaycanın tarixi 8 qəzaları hesabına** quldur, müasir dövrün faşist dövləti, Ermənistan SSR təşkil edildi. Bu sonuncu 8-ci qəza **ZƏNGƏZUR idi.**

****************************

**1988-ci ilin** əvvəllərindən başlayaraq Ermənistan deyilən dövlətdən **250 mindən çox azərbaycanlıların deportasiyası həyata keçirildi.**

**DEPORTASİYA – azlıq təşkil edən millətin, xalqın və ya azlıq təşkil edən icmanın zorla, kütləvi surətdə, dövlət səviyyəsində öz ata-baba torpaqlarından köçürülməsi deməkdir.**

**1991-ci il avqust ayının 8-də Azərbaycanın qədim kəndi olan Nüvədidən azərbaycanlıların çıxarılması nəticəsində,** Ermənistan deyilən ərazidən azərbaycanlıların etnik təmizlənməsi başa çatdı.

**1918-ci ildə daşnak ünsürlərinin** əlində olan Ermənistanın cəmi **9 kv.km ərazisi var idi.** Sovet hakimiyyəti illərində bu ərazi **29,8 min kv.km çatdırıldı.** Göründüyü kimi **20,8 min kv.km** ərazimiz zorla alınaraq erməni ünsürlərinə verilib. Bu həmin torpaqlardır ki, yuxarıda onlar haqqında qısa da olsa söhbət açdıq. Əsas vəzifə itirilmiş torpaqları geri qaytarmaqdan ibarətdir...

**Siyasi, iqtisadi cəhətdən sürətlə inkişaf edən, hərtərəfli hərbi texnika ilə silahlanan Azərbaycan Milli Ordusu buna hazırdır. Bu işıqlı gün uzaqda deyil.**

**Azərbaycan Milli Bayrağı tezliklə Qarabağın hər yerində dalğalanacaqdır.**

**MATERİAL HAZIRLANARKƏN 2007-Cİ İLDƏ AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI “ELMİ MƏRKƏZİ” TƏRƏFİNDƏN NƏŞR EDİLƏN AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ 305, 306, 307, 308-Cİ SƏHİFƏLƏRİNDƏKİ MƏLUMATLARDAN, AZƏRBAYCAN SOVET VƏ COĞRAFİYA ENSİKOPEDİYALARINDAKI MATERİALLARDAN İSTİFADƏ EDİLMİŞDİR.**

# ERMƏNİ ÜNSÜRÜNÜN YENİ FIRILDAĞI

Qatı cinayətkar, özünün alçaq əməlləri ilə fəxr edən, hazırkı Ermənistan prezidenti hesab edilən S.Sərkisyan başda olmaqla, Dağlıq Qarabağda «hakimiyyət»də olan bir neçə faşist xisilətli erməni ünsürləri yeni fırıldağa əl atmışlar. Bu yaramaz ünsürlər, Azərbaycan Respublikasının ən qədim ərazisi olan «Dağlıq Qarabağda» qanunsuz, heç bir hüququ məna daşımayan «**Referendum**» keçirdilər. Erməni vələdüznaları «**referendumu**, törətdikləri qanlı cinayət – **XOCALI SOYQIRIMININ ƏSRİN dörddə biri ərəfəsində keçirməklə insanlığa layiq olmadıqlarını nümayiş etdirdilər.**

Erməni ünsürü **indiyə kimi torpaqlarımızda 20-ə qədər seçki və referendum keçirmişlər.** Amma onların bu qeyri qanuni hərəkətləri heç bir siyasi nəticə verməmiş və dünya dövlətləri tərəfindən rədd edilmişdir.

**2017-ci il fevral ayının 20-də erməni ünsürləri tərəfindən DQ-da keçirilən qondarma referendum diyarın adını dəyişdirməyə yönəldilmişdir. Dağlıq Qarabağ məfhumu – «ARSAX» məfumu ilə əvəz olunmalı idi.** Bu saxta tədbir bir daha sübut etdi ki, erməni ünsürlərinin «başbilənləri» tarixi bilmirlər. **Qoca tülkü balası kimi hara gəldi əl atırlar.** Hər dəfə də onların çirkin əlləri boşa çıxır.

Erməni millətçi **«tarixçiləri»** Azərbaycanın qədim tarixindən, dövlətçilik ənənələrindən, xalqımızın sosial tərkibindən, siyasi, iqtisadi, mədəni inkişafından xəbərsizdirlər. Dünyanın mütərəqqi **alimləri Azərbaycanın ən qədim insanların ilk məskəni olduğunu qəbul edir və bunu öz elmi əsərlərində əks etdirirlər. Biz fəxr edirik ki, Azərbaycan bəşər tarixinin ilk inkişaf beşiyidir.**

Bu dediklərimiz maddi **mədəniyyət abidələrində öz əksini tapmışdır. Azərbaycan ilk dövlətlərin yarandığı və inkişaf etdiyi ölkədir.**

**ARSAX. Qafqaz (Azərbaycan) Albaniyasının ən mühüm vilayətlərindən biri olmuşdur. Bu vilayət Azərbaycan ərazisi kimi lap qədimdən Sasani, Ərəb və Monqol imperiyalarının əsarətində olmuşdur. Arsax I-VI əsrlərdə alban Arsakilərinin, VI-VIII əsrlərdə isə albaniyanın böyük knyazları hesab olunan Mehranilərin hakimiyyəti altında olmuşdur. Xristianlığın qəbul edilməsinə qədər (313-cü il) Qafqaz Albaniyasında əhali bütpərəs idi. Xristianlıq Albaniyada dövlət dini olandan sonra bu din ARSAXDA da sürətlə yayılmağa başladı.** Onu da deyim ki, arsax **12 xırda** inzibati vahidə bölünmüşdü. Arsaxda **qarqarlar, utilər, hunlar, xəzərlər və basillər yaşayırdılar.** Deməli Arsaxın ən qədim əhalisinin sosial tərkibi belə idi. Bu tərkibdə erməni ünsüründən söhbət gedə bilməz. Ona görə ki, bu ünsür hələ **Cənubi Qafqazda yox idi. Təbiət təmiz idi.** Zaqafqaziyada ilk **apostol (yunanca Səfir) kilsəsi Qafqaz Albaniyasında təsis olunmuşdur. Bu kilsə ölkənin Gis kəndində inşa edilmişdur. Yunan tarixinin 43-cü ilində, albanlardan 270 il sonra erməni ünsürləri dinə gəldilər (43+270=313).**

Mənə belə gəlir ki, vətəni, torpağı, mərkəzi şəhəri və hökmdarı olmayan erməni ünsürləri hansısa bir **etnosun** tərkibində olarkən xristian dinini qəbul etmişlər.

Arsaxda bir neçə yepuskopluk təşkil olunmuşdur. Buna görə də burada dinin təsiri **Paytakaran və Uti vilayətlərinə və ümumiyyətlə Qafqaz Albaniyasının hər yerindən daha güclü idi.**

Əldə olan tarixi məlumatlar sübut edir ki, erməni kilsəsinin (**əgər bu kilsələr varsa**) **VI əsrə qədər keçirdiyi kilsə məclislərinin heç biri «erməni ərazisində» baş verməmişdir.** Bu bir daha sübut edir ki, bu ünsürlərin vətəni olmamışdır.

**Birinci məclis** – **365-ci ildə** FƏRAT çayına tökülən Arasani çayının sahilindəki Taron vilayətində;

**Ikinci məclis** – **447-ci ildə** VAN gölünün şimal ərazisində yerləşən Şapivanda;

**Üçüncü məclis** – **505-ci ildə** (Ehtimal etmək olar ki, Fərat çayı sahilində hansısa bir qəsəbədə);

**Dördüncü məclis** – **633-cü ildə** Fərat çayının yuxarı hissəsində Tayuk vilayətinin cənubunda Karina (Feodiosipol) şəhərində;

**Beşinci məclis** – **649-cu ildə** Göyçə gölündən qərbdə, Divin şəhərində;

**Altıncı məclis** – **726-cı ildə** Fərat çayına qovuşan Arasani çayının sahilində, Van gölünün şimalında yerləşən Apaxinik şəhərində;

**Son – yeddinci məclis-862-ci ildə Qafqazın cənub-qərb vilayətində, Kartveli çaruğı ərazisində Şirakavan vilayətində çağırılmışdır.**

Bütün bu deyilənlər bir daha sübut edir ki, erməni kilsə, məclisləri kiçik toplantı kimi, əhəmiyyətsiz olaraq **Fərat çayının sahillərində, Van gölü ətrafında keçirildiyindən onların «vətəni» də həmin ərazilər olmuşdur.** Azərbaycan tarixçiləri də bu faktı artıq sübut etmişlər.

Alban hökmdarları bir qayda olaraq **hunlar və xəzərlər arasında xristianlığı təbliğ etmək üçün Arsaxın din xadimlərindən istifadə edirdilər.** Bir məsələni də qeyd edim ki, Albaniya katalikosları çox zaman Arsax ruhanilərindən seçilirdilər. Onlar ölkənin yerli əhalisi kimi alban mənşəli idilər.

**Mənbələrdə Arsax «möhkəmlənmiş vilayət», «möhkəm ölkə» kimi tanınır.** Bildiyimiz kimi **VIII əsrdə Ərəb Xilafəti Albaniyada Mehranilər sülaləsinə son qoydular.** Bununla da Arsax Albaniyanın tərkibində əməvilər xilafətinə daxil oldu. Alban tarixçisi Musa Kalantaklı qeyd edirdi ki, **IX əsrdə Albaniya dövləti yenidən bərpa edilərkən Arsax da Albaniyanın tərkibində idi. Musa Kalantaklının «Alban tarixi» əsərinə tənqidi yanaşmaq lazımdır.**

**XII-XIII əsrlərdə Arsaxda XAÇIN** Knyazlığının yüksəliş dövrü başladı ki, onun da hökmdarı **mənşəcə alban olan Həsən Cəlal idi. XAÇIN** knyazlığı **XIII əsrin siyasi hadisələrinə müqavimət göstərə bilmədi.** Monqolların hərbi yürüşlərinn zərbələri altında süqut etdi. Arsax əhalisi ərəb işğalından sonra da xristi-

an adət və ənənələrini saxladı. Tarixi sənədlərdə deyildiyi kimi **Arsax əhalisi** ərəb xilafətinin və erməni kilsəsinin təzyiqi ilə qriqoryanlaşmağa məruz qaldı.

Arsax Albaniyanın tarixi vilayəti və tərkib hissəsi kimi çox inkişaf etmişdir. Əhali **maldarlıqla, əkinçiliklə, sənətkarlıqla, arıçılıqla, ovçuluqla** məşğul idi. **Arsax-Qarabağ cins atları ilə də şöhrət qazanmışdır.**

**Tarixçi A.R.Novoseltsev qeyd edir ki, «Ilkin orta əsrlərdə Albaniyanın əhatə etdiyi əraziyə, əsasən, indiki Azərbaycan Respublikasının, eləcə də Ermənistanın, Dağıstanın və Şərqi Gürcüstanın torpaqları daxil idi».**

Qarabağ əhalisinin maddi, təsərrüfat, mənəvi mədəniyyəti, inam və etiqadlarına aid olduqca zəngin etnoqrafik məlumatları hərtərəfli təhlil edən **İ.P.PETRUŞEVSKI qeyd edir ki: - «Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mədəniyyət olub yalnız Azərbaycan xalqına məxsusdur».**

Qarabağa kənardan gəlmə olan erməni ünsürləri **Dağlıq Qarabağın Arxasla əvəz olunmasına** həsr etdikləri saxta referendumu keçirərkən görəsən nəyi nəzərdə tuturlar? Əgər yenidən torpaq ələ keçirməyi nəzərdə tuturlarsa bu mümkün deyil. Torpaqlarımızın Qərb hissəsində erməni ünsürləri qondarma dövlətlərini – Ermənistanı havadarlarının köməyi ilə **XX əsrin əvvəllərində yarada bilmişlər…**

Ərazimizdə ikinci erməni dövlətinin yaradılması qeyri-mümkündür. Erməni ünsürlərinin Qarabağla əlaqəsi nə vaxtdan necə yaranmışdı və hansı mərhələlərdən keçmişdir?

**Ermənilərin Qarabağla əlaqəsi və bu ünsürün burada peyda olmaları müxtəlif dövrlərdə Azərbaycanın işğalı zamanı onların yadellilərə göstərdikləri «xidmətləri» və dini etiqadları ilə bağlı olmuşdur.**

Dəfələrlə elmi əsərlərimdə və məqalələrimdə vurğuladığım kimi Dağlıq Qarabağ məfhumu **XX əsrin 20-ci illərində uydurulmuşdur.** Hər bir ölkənin **dağı da, təpəsi də, dərəsi də, orma-**

**nı da, meşəsi də var. Dağlıq Qarabağ məfhumu rus bolşeviklərinin və erməni daşnakları tərəfindən uydurulmuşdur.**

Bəhanə o idi ki, diyarda alban mənşəli xristianlara muxtariyyat hüququ verilsin. **Bir ovuc erməni ünsürlərinə bu qondarma hüququn verilməsi milli yox, siyasi məna kəsb edirdi.** Erməni ünsürlərinə muxtariyyat hüququnun verilməsi tarixi cinayət idi. Zorla həyata keçirilən bu siyasi tədbir **Lenin** milli siyasətinin təntənəsi deyil, qara ləkəsi idi.

Erməni ünsürlərinin Qarabağa **(Dağlıq sözünü daha işlətməyəcəyəm)** köçürülməsi tarixi **1823-cü ildən başlayır.** Bu siyasi məna daşıyırdı. Rusiya imperiyası özü üçün erməni ünsürlərindən ibarət ərazimizdə dayaq yaratmaq siyasəti aparırdı. **1828-ci il fevral ayının 10-da Rusiya İmperiyası ilə qacarlar arasında imzalanan ədalətsiz, işğalçılıq mahiyyətini özündə əks etdirən Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən ermənilərin sərhədi keçməklə Rusiya ərazilərinə (Azərbaycana) keçmələri təmin edilir. Qacarlar məmləkətindən qovulan erməni ünsürləri şimali Azərbaycanın Qarabağ xanlığı, Irəvan xanlığı və Naxçıvan xanlığı ərazilərində yerləşdirilirdilər.**

**1829-cu il Rusiya ilə Osmanlı İmperiyası arasında imzalanan Ədirnə sülhündən sonra Türkiyədən Azərbaycan ərazisinə xeyli sayda erməni ünsürü köçürüldü. Onların bir hissəsi yenə Qarabağa gətirilib məskunlaşdırıldı.**

Azərbaycanın coğrafiyası haqqında qədim əyyamların qaynaq və mənbələrində ermənilər haqqında istənilən qədər məlumat var. Bu məlumatlar bir daha sübut edir ki, erməni ünsürləri **Cənubi Qafqaza Dəclə və Fərat çaylarının sahillərində yerləşən cəngəllik və bataqlıq ərazilərindən gəlmişlər.**

Öz yazısı, dili, dini, torpağı, paytaxtı və padşahı olmayan erməni ünsürləri yer üzərində, xüsusilə də, bizə qonşu ərazilərdə yaşamamışlar. Tarixən bu ünsür səyyar həyat tərzi keçirmiş, dağlıq ərazilərə sığınaraq öz varlıqlarını qoruyub saxlaya bilmişlər. Qarabağa soxulan erməni ünsürləri onun bir hissəsini (DQ) **«ARSAX»** deyərək dünyaya car çəkiprlər. Mənbələr isə başqa

məlumat verir.

Mənbələrin birində deyilir:

**Makedoniyalı Iskəndərin yaratdığı çoxmillətli imperiya dağıldıqdan sonra sagaların Aral dənizi sahillərində məskunlaşan Arsax qolu yaranmış olan hərc-mərclikdən istifadə edərək eramızdan əvvəl 255-ci ildə kiçik bir ərazini ələ keçirərək «ARSAX» adlı bir dövlət yaratdılar. Onlar öz varlıqlarını bir müddət qoruyub saxlaya bilmişlər». Tarixçi L.Qumilyov onları turanlı kimi xarakterizə edir və başçılarının adının da Arsax olduğunu bildirir.**

**ARSAX türkmənşəli sözdür. Dünyanın Qərb hissəsi deməkdir.** Erməni ünsürünün lüğətində belə bir söz yoxdur. Yuxarıda deyildiyi kimi Qarabağda **XIX əsrin əvvəllərinə kimi erməni ünsürü mövcud olmamışdır.**

Artıq elmi dəlillərlə sübut edilmişdir ki, Qafqaz Albaniyasının mövcud olduğu əsrlərdə onun ərazisində bir nəfər də olsun erməni ünsürü olmamışdır. **387-ci ildə balaca erməni siyasi qurumunun tarix səhnəsindən silinməsi hamıya məlumdur. 387-ci ildə Ermənistan adlanan qurum İRAN və ROMA arasında bölüşdürüldükdən sonra siyasi qurum kimi tarix səhnəsindən yox oldu.**

QARABAĞ toponiminin meydana gəlməsi **XII** əsrə aiddir. **Bu ad XIV əsrə qədər tam bərqərar olmuşdur. Həmin əsrin qaynaq və mənbələrində QARABAĞ anlayışı diyarın yeganə adı kimi işlənilməsindən xəbər verir. Azərbaycan sözü olan QARABAĞ, bu söz Qarabağın azərbaycan türklərinə mənsub olduğunu sübut edir.**

Erməni ünsürləri **it sümükdən əl çəkmədyi kimi, onlar da Arsax sözündən əl çəkmirlər.** Bir daha qeyd edirəm – Arsaxda erməni ünsürü yaşamamışdır. Bunu onlar da yaxşı bilirlər. Mən yeri gəlmişkən erməni tarixçisi **B.Isxanyandan bir misal gətirmək istərdim. O yazırdı:**

**«Ermənilərin həqiqi «vətəni» Rusiya hüdudlarından çox-çox kənardadır… Onlar dünyanın müxtəlif ərazilərinə sə-**

**pələnmişlər». Buradan aydın olur ki, erməni ünsürü həqiqətən vətənsizdir.** Belə olduğu halda Arsax erməni ünsürünə məxsus ola bilərdimi? **Əlbəttə yox!** Bir daha təkrar edirəm – **387-ci ildən 1918-ci ilə kimi erməni ünsürünün dövləti olmamışdır.**

**1126-cı ildə fars dilində yazılan bir sənəd diqqəti xüsusilə cəlb edir. Orada deyilir: - «Azərbaycan lap qədim əyyamlardan türklərin əlində olan bir ölkədir».**

**1284-cü ildə tarixçi Fəzullah Rəşidədinin (2247-1318) «CAMI-ƏT-TƏVARIX»** əsərində Qarabağ toponiminin adı çəkilir. O, yazırdı:

**«Qazan xan bu qış QARABAĞDA qışlamaq haqqında qəti qərara gəldi».** F.Rəşidəddin Azərbaycan toponiminə belə aydınlıq verir: **- Azər türkcə yüksək, uca, baycan varlıların, ulularын ölkəsi deməkdir».**

Iran tarixçisi **CƏMALƏDDİN FƏTİHİ** qeyd edir ki, **«Azərbaycan adı XXIII əsrlik tarixə malikdir».**

Ərəb tarixçiləri də Azərbaycan haqqında real fikirlər söyləmişdilər. **ƏT-TƏBƏRI** yazmışdır:

**«Azərbaycan ölkəsi həmədan, Zəncan şəhərlərindən başlayaraq Dərbəndə qədər davam edir, bu əraziyə AZƏRBAYCAN deyilir».**

Belə tarixi iqtibasların sayını çoxaltmaq olar. Azərbaycan ən qədim dövlətlər sırasındadır. Tarixi sənədlərdə deyilir ki, **Hülakilər və Cəlairlər** dövlətlərinin hakimləri Qarabağda istirahət edirdilər. **QAZAN xan və AQRA xan QARABAĞDA səltənət taxtına çıxmışdılar.**

**Bir daha qeyd edirəm DOĞMA QARABAĞIMIZA ARSAX adının verilməsi tarixi məlum deyil.** Qarabağ Azərbaycanın tərkib hissəsi kimi onun tarixi ilə həmyaşıddır. Deməli, Qarabağ qədimdir, **türkdilli xalqların vətənidir.**

Qarabağ Azərbaycanda olan doqquz iqlim qurşağının altısını özündə birləşdirir. Diyar mülayim iqlimə, zəngin bitgi və heyvanlar aləminə, həyat üçün misilsiz su mənbələrinə malikdir. Əlverişli təbii-coğrafi mövqedə yerləşən, **qərblə şərq, şimalla cə-**

**nub** arasında körpü rolu oynayan **Azərbaycanın Qarabağ ərazisi tarixi-etnoqrafik əyalət kimi Albaniya dövlətinin, VII əsrdən bütün Azərbaycanın birlikdə Ərəb xilafətinin** tərkibinə daxil olmuşdur. **IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Cəlairlər dövlətinin, XI-XII əsrlərdə Şəddadilər dövlətinin, XII-XIII əsrlərdə Atabəy-Eldənizlər dövlətinin, XIII əsrin ikinci yarısından XIV əsrə kimi Hülakülər (Elxanilər) dövlətinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. 1501-ci ildə Şah Ismayıl Xətainin yaratdığı Azərbaycan Səfəvilər dövlətinin 13 vilayətindən biri kimi şah tərəfindən təyin edilən bəylərbəyi tərəfindən idarə edilmişdir.**

**1727-ci ildə** Qarabağ bəylərbəyliyinin ərazisi Beyləqandan başlayaraq **Tiflisə** qədər böyük bir ərazini əhatə edirdi. Qarabağdan, onun **xalçalarından, milli geyimlərindən, sənət əsərlərindən, maddi-mədəniyyət abidələrindən danışarkən onu deməliyik ki, bütün bunların hamısı Azərbaycan xalqına məxsusdur.**

Qarabağ xanlığının yaranması, inkişaf tarixi haqqında çox yazılmışdır. Bu məsələyə qayıtmağa ehtiyac yoxdur. Qaldı Ermənistan deyilən qondarma siyasi qurum məsələsinə, bir neçə kəlmə demək istərdim. **«Ermənistanın» coğrafi adı antik və erkən orta əsr mənbələrində Fərat və Dəclə çaylarının yuxarı axarlarını əhatə edən ərazilərə aid edilir. Tarixdə baş verən müxtəlif miqrasiyalar, xüsusilə XIX əsrdə və XX əsrin əvvəllərində Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində erməni ünsürləri Cənubi Qafqazda yayılmış, 1918-ci ildə isə ermənipərəst qüvvələrin fəal köməyi ilə tarixi Azərbaycan torpaqlarında – Qərbi Azərbaycan ərazisində «Ermənistan» dövləti yaranmışdır.**

Xocalı soyqırımı ərəfəsində erməni ünsürlərinin Dağlıq Qarabağda referendum oyunu təşkil etməklə bir daha sübut etdilər ki, onlar **yer üzünün Əhrəməni və insanlığın düşmənləridirlər.**

**XX əsrin** sonunda erməni ünsürləri Rusiya Federasiyasının **Xankəndində yerləşən 366-cı motoatıcı alayının yaxından iş-**

**tirakı ilə XOCALI şəhərində soyqırımı törətdilər.** Dövrümüzün ən qəddar ünsürləri olan ermənilər **uşaqlara, qocalara, cavanlara amansız divan tutdular. 1992-ci il fevral ayının 25-dən 26-a keçən gecə, şaxtalı havada dinc Xocalı əhalisi soyqırıma məruz qaldı.**

Xocalı şəhərinə hücumda quduzlaşmış erməni ünsürlərinə, keçmiş erməni «prezidenti» R.Köçəryan və hazırki «prezident» hesab edilən S.Sərkisyan şəxsən başçılıq etmişdilər. Onlar dəfələrlə rəsmi surətdə etiraf etmişlər ki, biz fəxr edirik ki, Xocalı soyqırımında iştirak etmişik. Bununla da bu dələduzlar **xocalılara qarşı qanlı cinayət törətdiklərini etiraf edirlər.** Onların mühakiməsi **Nürnberq məhkəməsinin təkrarı olmalıdır.** Hər iki caninin və onların əlaltılarının mundar əlləri xocalıların müqəddəs qanlarına dəyişmişdir. Onlar mütləq öz layiqli cəzalarına çatacaqlar.

Köçəryanlar, sərkisyanlar, balayanlar mütləq yaxalanacaqlar, onları buraxmaq olmaz. Xalqlarımızın qəddar düşmənləri olan bu yanlar hələ azadlıqdadırlar. Bəşəriyyət necə susur. **Avropa Şurası da, digər beynəlxalq təşkilatlar da susurlar… Nürnberq məhkəməsi olmalıdır, mütləq olmalıdır. Buna heç bir şübhə yoxdur.**

Cinayətkarları bağışlamaq olmaz. Onların Xocalıda törətdiklər qətillər bəşəriyyətə qarşı törədilən soyqırımıdır. Erməni ünsürlərinə başçılıq edənlər və onların quldur hərbi birləşmələri **Xocalıdakı mülki əhaliyə qarşı soyqırıma görə birbaşa məsuliyyət daşıyırlar.**

Erməni ünsürləri **Azərbaycanın XOCALI şəhərində 613 nəfəri qəddarlıqla qətlə yetirmişlər.** Qətlə yetirilənlərdən:

**Uşaqlar – 63 nəfər;**
**Qadınlar – 106 nəfər**
**Qocalar – 70 nəfər;**
**8 ailə tamam öldürülüb;**
**25 uşaq hər iki validenini itirib;**
**130 uşaq hər iki valideynindən birini itirib;**
**487 nəfər müxtəlif dərəcədə yaralanıb. Onlardan:**

**76 nəfəri uşaqlardı;**

**1275 nəfər əsir götürülüb;**

**150 nəfər itgin düşüb.**

Bütün bunlar erməni ünsürlərinin insanlığa qarşı və bütövlükdə bəşəriyyətə qarşı qanlı əməlləridir.

İndiki erməni rəhbərliyi Qarabağda fitnə-fəsad törətməklə çürüməkdə olan siyasi mövqelərini qoruyub saxlamağa çalışırlar. Bu mümkün deyil…

**2016-cı il APREL döyüşləri** ermənilərin bel sütununu qırdı. Onların günəşi isə **ŞUŞANIN və müvəqqəti olaraq işğal etdikləri ərazilərimizin azad ediləcəyi zaman sönəcəkdir.** Düşmənin özü də bunu dərk edir. **Aprel döyüşləri Azərbaycan Milli Ordusunun zəfər yürüşünün başlanacağından xəbər verir.**

**Cəbrayılın COCUQ MƏRCANLI yaşayış məntəqəsində başlanan böyük quruculuq işləri düşmən üzərində böyük qələbəmizdən xəbər verir.**

**Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İLHAM ƏLİYEVİN həyata keçirdiyi siyasi və iqtisadi tədbirlər xalqımızı böyük qələbəyə doğru inamla aparır.**

**Ermənistan deyilən dövlətin hakim dairələri R.Koçaryan, S.Sarkisyan, Z.Balayan Azərbaycanın qədim şəhəri olan Xocalıda törətdikləri ağır cinayətlərlə fəxr edirlər. Bu ünsürlərin geydikləri hərbi paltar ən ağır cinayət törədən canilərin paltarıdır. Zori Balayanın yaramaz qələmindən ifadə edilən insanlığa layiq olmayan fikirlər onun təbiətinin mundarlığından xəbər verir. Söz yox ki, bu ünsürlər və onların ətrafında toplanan canilər Azərbaycan xalqının və bütövlükdə bəşəriyyətin qarşısında cavab verməli olacaqlar.**

# M.M.NƏVVAB VƏ C.MƏMMƏDQULUZADƏ QOLOŞAPOV HAQQINDA

**Qoloşapov kim idi?** Bu sualın əsl məntiqi cavabı **M.M.Həvvabın «1905-1906-cı illərdə erməni-müsəlman davası» əsərində və Cəlil Məmmədquluzadənin «Molla Nəsrəddin» jurnalında dərc edilmiş məqalələrdə verilmişdir.**

**M.M.Nəvvab** yuxarıda adı çəkilən tarixi salnaməsində göstərir ki, **1905-ci ildə Qarabağda və Şuşada** törətdikləri milli-qırğında biabırcasına məğlub olduqdan sonra, ermənilər belə qərara gəldilər ki, müsəlmanlara (azərbaycanlılara) qalib gəlmək üçün kiməsə arxalanmalıdırlar. Rusiya imperiyasının başbilənləri bölgədə əmin-amanlıq yaratmaq məqsədilə Şuşa qalasına nümayəndə heyəti göndərmək qərarına gəldilər. Onların arasında ruhən xəstə olan **Qoloşapov adlı bir nəfər general da var idi.**

Qoloşapov Tbilisi şəhərindən Şuşaya gələrkən o, hərtərəfli təlimatlandırılaraq erməni ünsürünün tərəfini saxlamaq tapşırığı almışdır. Başqa cür ola da bilməzdi. Sözün əsl mənasında Qoloşapov din qardaşlarının harayına gəlmişdir. Qoloşapov mənəvi cəhətdən yoxsul, əxlaqi cəhətdən də qüsurlu idi. M.M.Nəvvab qeyd edir ki, Qoloşapov Şuşaya qədəm qoyarkən, niyyətini gizli saxlamaq məqsədilə, erməni ünsürlərinə soyuq münasibət bəsləməyi əsas tutdu.

Şuşada bir ovuc erməni ünsürləri arasında öz iqtisadi vəziyyətinə görə müəyyən mövqe tutan **Kiki Kələntərov** Qoloşakovun xarakterini hərtərəfli öyrəndikdən sonra, onu ələ ala bildi. Kiki generalla söhbət etdikdən sonra bildi ki, o, ermənilərə köməyə gəlib. Kiki rüşvət verib, şəhərdə müəyyən vəzifə sahibi də oldu. Kuki Kələntərov müəyyən səlahiyyətlər əldə etdikdən sonra Şuşanın müsəlman əhalisinə müraciət edərək deyir:

**«Şuşada bu iki millət arasında ədalətli sülh yaratmaq üçün bir rəhbər təyin etməliyik. Mən çox fikirləşdikdən sonra belə qərara gəldim ki, bu vəzifəyə general Qoloşapovdan**

**başqa bir kəsi təyin etmək olmaz. Onu da qeyd etməliyəm ki, o, ilk gəlişində bizim erməni tayfasına yaxşı münasibət bəsləmədi, erməni kəndlilərini aldatdı, onunla birlikdə Şuşaya gələn kazaklar kənd əhalisinin övrətlərinə xəyanət etdilər… Lakin əlac yoxdur, onu rəhbər təyin edək».** M.M.Nəvvab bu iqtibasla Qoloşapovun və Kiki Kələntərovun simasını açıb göstərir.

Şuşa camaatı Kiki Kələntərovun riyakarlığına inanıb Qoloşapovun Şuşa şəhərinin general-qubernatoru seçilməsinə razı oldular…

Kiki Kələntərovun təşəbbüsü ilə Qoloşapov erməni ünsürlərinə «məxsusi olan məhəllədə, dəbdəbəli bir evdə yerləşdirildi. Onun əmrinə əsasən silahlı kazak dəstələri ermənilərin yaşadıqları ərazidə qərar tutdular. Kiki Kələntərov hər gün Qoloşapova zəngin ziyafətlər verir, ona xüsusi xidmət etmək üçün **2-3 nəfər** cavan erməni qadını da ayrılmışdır. Hərtərəfli təmin olunan Qoloşapov Kiki Kələntərovun və onun ətrafına toplaşan erməni daşnaklarının iyrənc fikirlərinin əsirinə çevrildi. Başqa cür ola da bilməzdi…

M.M.Nəvvab yazır: **- Qoloşapovun məsləhətilə Kiki Kələntərov ermənilərin yaşadıqları kəndlərə məktub yazıb bildirdi ki, hər bir erməni kəndi, əhalisinin sayına görə 30-100 nəfər silahlı dəstələrini təcili olaraq Şuşaya göndərməlidirlər. Beləliklə də qısa müddət ərzində Şuşada 7 min silahlı erməni quldur dəstəsi toplandı. Onların arasında Osmanlı Türkiyəsinin tabeliyində olan ermən quldur dəstələri də var idi**».

Bunlardan başqa Şuşa qalasında rusların **beş, ermənilərin isə altı topları da var idi.** Qoloşapov ermənilərlə belə qərara gəldi ki, milli qırğına **1906-cı ilin iyulun 12-də başlasınlar**. Əslində bu ünsürlərin məqsədi Şuşada və Qarabağda **soyqırımı törətmək idi**. General ermənilərə söz vermişdir ki, bir gün ərzində mənim qoşunumla birlikdə erməni silahlı qüvvələri Şuşada və onun ətrafındakı kəndlərdə yaşayan müsəlmanları tamamilə məhv edəcəklər…

**Ermənilər Qoloşapovun məsləhəti ilə milli qırğına**

**1906-cı il iyulun 12-də başladılar. Şuşada evlər dağıdılıb yandırıldı, günahsız adamlar həlak oldular.**

**Şuşalılar düşməndən iki dəfə az olmalarına və silah cəhətdən korluq çəkmələrinə baxmayaraq mərdliklə vuruşur və düşmənə ağır zərbələr vururdular. Onu da deyək ki, ermənilərə vurulan zərbə onlara ağır başa gəldi.** M.M.Nəvvab qeyd edir ki, İrandan, **Laçından Sultan bəy Paşa oğlunun və İbrahim bəy Əli Məhəmməd bəy oğlunun başçılıq etdikləri suvari qoşun hissələri şuşalıların köməyinə gəlmişdilər.**

Qoloşapovun xəyanəti onun özünə üçün və erməni ünsürləri üçün ağır nəticələrə səbəb oldu. Ermənilərdən küllü miqdarda – **10 min manat rüşvət alan** general Qoloşapov dövlətinin qanunlarına əməl etmədi. **Qafqaz qatili ləqəbi** alan bu cani nahaq qan tökülməsinə rəvac verdi. Haqq və ədalət uğrunda mübarizə aparan şuşalılar qara qüvvələrə ölümcül zərbə endirdilər.

**Beş gün ərzində gedən döyüşlərdə müsəlmanlar 18 nəfər itki verdilər, 21 nəfəri isə yaralandı.**

**Ermənilər isə 500-dən 700-ə qədər itki verdilər. Bu ünsürlərdən 287 nəfər ağır yaralandı. 31 nəfər kazak və rus əsgərləri də erməni fitvasının qurbanı oldular.**

Qoloşapov ermənilərlə müsəlmanlar arasında barışığa tələsirdi. O, verdiyi vədi həyata keçirə bilməmişdir. Erməni ünsürləri yenə də biabırcasına məğlub oldular. Qoloşapov qorxurdu ki, onu ermənilər öldürə bilərlər…

Şuşalılar Qoloşapovun dövlətə və millətə etdiyi xəyanətə görə Rusiya imperiyasının yuxarı dairələrinə ətraflı məlumatlar verdilər. Onun Qaladan kənarlaşdırılmasına nail ola bildilər. O, yenidən Tbilisi şəhərinə qayıtdı.

Şuşa ziyalıları müsəlmanlara qarşı etdiyi xəyanəti – Qoloşapova bağışlamadılar.

**«DİFAİ» ("MÜDAFİƏ")** partiyasının Şuşa şöbəsinin sədri, həkim **Əbdülkərim bəy Mehmandarovun təşəbbüsü və partiyanın qərarı ilə, qarabağlı, Hacıyev Hüsü Əli oğlu (1875-1938) Tbilis şəhərində 1906-cı il noyabr ayının 1-də**

**Qoloşapovu öldürdü. O, generala iki atəş açaraq şuşalılara göstərdiyi xidmətin əvəzini çıxdı.**

******************************************

Qoloşapovun **«Şuşa fəaliyyəti»** tanınmış Azərbaycan yazıçısı, satirik əsərlərin müəllifi olan **Cəlil Məmmədquluzadənin nəzərindən kənarda qalmamışdır. O, eyni zamanda da satirik «MOLLA NƏSRƏDDİN» jurnalının təsisçisi və redaktoru idi**. Qeyd etmək yerinə düşər ki, Cəlil Məmmədquluzadənin ədəbi irsinin təxminən üçdə iki hissəsi **1906-1930-cu** illərdə məşhur satirik jurnalı **«Molla Nəsrəddin»də nəşr olunmuş və oxuculara çatdırılmışdır.**

**Ədib** Qoloşapov haqqında jurnalın **28 iyul 1906-cı il 17 saylı nömrəsində iki məqalə çap etmişdir. Həmin məqalələr «QOLOŞAPOV»** və **«QOLOŞAPOVUN GERİ ÇAĞIRILMASI»** başlıqları altında verilmişdir. Hər iki məqalə **«BİR TİFLİSLİ» imzası ilə nəşr olunmuşdur.**

Hər iki məqalədə xəyanətkar Qoloşapovun Şuşada ermənipərəst mövqedə dayanması kəskin surətdə pislənilir.

**«Qoloşapov»** adlanan birinci məqalədə müəllif qeyd edir ki, **«Ey yaribivəfa Qoloşapov! Bu imiş məgər dostluğun şəraiti? Biz sənlə belə danışmışdıq? Heç bilirsənmi ki, qırırsan (Şuşa qalasının müsəlman camaatı nəzərdə tutulur – Y.H.), kimin evlərini top atəşinə tutursan, kimin məhəlləsinə od vurub yandırırsan? Məgər ay vəfasız Qarabağ müsəlmanlarını tanımırsan? Məgər qeyri müsəlmanları tanımırsan? Məgər müsəlmanlar sənin padşahın barəsində göstərdikləri sədaqətin əvəzidir ki, sən müsəlmanlar barəsində düşmən mövqeyi tutursan?»**

Eyni zamanda yuxarıda göstərilən iqtibas siyasi məzəmmət xarakteri də daşıyır. C.Məmmədquluzadə demək istəyir ki, ey bivəfa Qoloşapov mənim sözlərim qananlar üçündür. Qanmayana mən söz demərəm. «Qoloşapov»a material rusa qarşı hörmət və məhəbbət ruhu aşılayır. Rusiya imperiyasının **1904-1905-ci illər**

**rus-yapon müharibəsi dövründə müsəlmanlar başda müfti və şeyxülislamımız olmaqla müsəlmanlar məscidlərdə Rusiyanın qələbəsi naminə dualar edir, bu sahədə əllərindən gələni əsirgəmədikləri** Qoloşapovun kütləşmiş nəzərinə çatdırılır. Qarabağı top atəşinə tutmağın səbəbi artıq müsəlmanlara məlumdur. Qoloşapov sən nəfsini saxlaya bilmədin, erməni ünsürlərinin əlində alətə çevrildin, ay bivəfa general. Qoloşapovun mənəvi siması birinci məqalədə hərtərəfli təhlil olunur. Onun kimliyi aydınlaşdırılır.

**«Qoloşapovun geri çağırılması»** materialında şuşalıların Qoloşanovun onlara xəyanət etdiyinə görə qaladan qovulması səbəbləri əks olunur. Cəlil Məmmədquluzadə Qoloşanovun Şuşadan qovulmasını aşağıdakı kimi təsvir edir:

**««Kişinin» çörəyinə bais müfti və şeyxülislam cənabları, bir tərəfdən də Dağıstan müsəlmanlarının nümayəndələri oldular… Mən din xadimlərinə dedim ki, getməyin şikayətə, Qoloşapov bir qələtdir ki, edib. Müfti və şeyxülislam cənabları mənə qulaq asmadılar. Axırda müfti əfəndi mənə belə dedi:**

**Niyə getməyək, ay Molla? Bizim müsəlman qardaşlarımızı Şuşada qırsınlar, biz kənarda durub baxaq? Sənin qeyrətinə nə gəlib?»**

Deməli, müfti və şeyxülislam cənabları öz məqsədlərinə çatmaq üçün Tbilisi şəhərində yerləşən rus canişininin iqamətgahına getdilər və tələblərinin qəbul olunmasına nail oldular.

O zaman Rusiya imperiyasının Cənubi qafqaz canişini **Voronsov-Daşkov** idi. Onun əmri ilə qəddar Qoloşapov Şuşa qalasının general-qubernatoru vəzifəsindən geri çağırıldı. O, Şuşadan çıxmazdan qabaq Sərdara belə bir cavab göndərdi ki: **- «Başına dönüm ay sərdar, mənə tapşırılan hökmlərin dörddə birini həyata keçirmişəm. Bu nə işdir ki, məni belə bir vaxtda geri çağırırsınız?»**

Beləliklə də, Qoloşapov Şuşa qalasından kənarlaş-dırıldı. Onun Şuşadakı çox da mövcud olmayan qanlı fəaliyyəti biabırca-

sına sona yetdi.

Mən, bu yazımda Qoloşapovun Şuşa qalasında həyata keçirdiyi fəaliyyətinin təhlil və nəticələrini aydınlaşdırmağa çalışdım. Qismən də buna nail oldum. İndi Qarabağda, o cümlədən də Şuşa qalasında Qoloşapovdan da qəddar, insan qanına susayan erməni ünsürləri və onlarla həmfikir olan qeyri erməni cəlladları toplaşmışlar.

Bu ünsürlər unutmasınlar ki, Qoloşapovun aqibəti onlara da aiddir. Qoloşapov mərd, cəsarətli, vətənpərvər, elini, obasını canından da çox sevən azərbaycanlı tərəfindən məhv edilmişdir. Onun adı yuxarıda hörmətlə qeyd olunmuşdur.

# LƏYAQƏTSİZ ÜNSÜR

**Dünya şöhrətli fars şairi Sədi Şirazi** erməni ünsürü haqqında sərrast demişdir:

**Erməni yer üzünün Əhrəməni,**
**Ermənidir insanlığın düşməni.**

**Türk dünyasının məğrur sərkərdəsi və böyük dövlət xadimi ƏMİR TEYMUR:**

**«Tarix mənə iki şeyi heç vaxt bağışlamayacaq:**

**Birincisi, erməniləri bir ünsür kimi məhv etmək istəyimi; ikincisi isə, bunu etməməyimi».**

Belə tarixi fəlsəfi fikir və kəlimələr çoxdur. Ona görə ki, dünyada erməni ünsürü qədər alçaq, riyakar, ləyaqətsiz, qaniçən, yaltaq etnos yoxdur. Onların hamısı – **fəhləsi də, alimi də, rəhbəri də, qocası da, cavanı da, qadını da, uşağı da terrorçu və qatildirlər.** Bütün bunlar hazırkı dövrün reallığıdır. Vətəni, torpağı, elmi, mədəniyyəti, folkloru, paytaxtı olmayan ünsürü başqa cür də təsəvvür etmək olmaz. Hətta erməni «alimləri» də bunu etiraf edirlər.

Erməni tarixçisi **V.İşxanyan** da öz ünsürü haqqında tarixi həqiqətləri etiraf etmişdir. O, **1916-cı ildə** yazdığı **«Narodnosti Kavkaza»** məqaləsində belə yazır:

**«Ermənilərin lüğətində heç vaxt vətən məfhumu olmayıb. Ona görə ki, onlar tarix boyu Kiçik Asiyadan və Rusiyadan kənarda, Fərat çayının yuxarı qolu olan Qaraçay sahillərində, Frakiya və Mesopatomiyada dağınıq dəstələr halında səyyar həyat tərzi keçirmişlər. Ermənilərin Zaqafqaziyaya, ümumiyyətlə Cənubi Qafqaza heç bir mənsubiyyətləri yoxdur və ola da bilməz. Ermənilərin Azərbaycana və Dağlıq Qarabağ haqqındakı iddiaları puç və əsassızdır».** Bu fikri başqa erməni tarixçiləri də təsdiq edirlər.

Tarixi reallıqlarla barışmaq istəməyən erməni ünsürləri və

onların ideoloji rəhbərləri, o cümlədən **Zori Balayan, David Xerdiyan, Robert Koçaryan, Serj Sərkisyan və digər ünsürlər** Qarabağın Yuxarı hissəsinin ermənilərə məxsus olması barədə, öz alçaq niyyətlərindən əl çəkmirlər. Bunlar erməni ünsçürlərini iliyinə qədər zəhərləmişlər.

Yuxarıda qeyd etdiyim kimi ermənilərin Cənubi Zaqafqaziya ilə heç bir mənsubiyyəti yoxdur. Onlar regiona **XIX əsrin əvvəllərində Rusiya imperiyası gətiriliblər məskunlaşdırılmışlar.** Erməni ünsürləri yaxşı bilirlər ki, onlar **1813-cü il 12 oktyabr Gülüstan və 1828-ci il 10 fevral tarixlərində Rusiya ilə qacarlar arasında imzalanan sülh müqavilələrindən sonra torpaqlarımıza gətiriliblər.**

Xüsusilə erməni ünsürlərinin kütləvi surətdə Azərbaycan torpaqlarına axını **1828-1830-cu illərdə baş vermişdir.** Türkmənçay sülhündən, **1929-cu il sentyabr ayının 2-də Osmanlı Türkiyəsi ilə Rusiya arasında bağlanmış Ədirnə müqaviləsindən sonra Türkiyədə sığınacaq tapan erməni ünsürlərinin də Azərbaycan torpaqlarına gətirilib yerləşdirilməsi surətləndi. 1832-ci ildə QARABAĞDA əhalinin 91 faizndən çoxu Azərbaycan türklərindən ibarət idi.**

**Rəsmi məlumatlar sübut edir ki, 2 il ərzində (1828-1830-cu illərdə) Şimali Azərbaycan ərazisinə, o cümlədən də Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından isə 200 minə qədər erməni ünsürü köçürülmüşdü.** Bu köçürmə Qarabağda erməni ünsürünün say tərkibini süni surətdə artırmışdır. Köçürmə siyasətində əsas yer **Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarının əraziləri idi.**

Rusiya imperiyası erməni ünsürlərini öz ərazisinə buraxmırdı. İmperiya məmurları erməni ünsürünü yaxşı tanıyırdılar. Bilirdilər ki, onları Rusiya torpaqlarına buraxmaq cinayətdir. Gələcəkdə bu iş sağalmayan xəstəliyə çevrilə bilər.

Məsələn, **A.S.Qriboyedov Rusiya imperatoru I Nikolaya yazdığı məktublarının birində həyəcanla bildirirdi:**

**«Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında erməni-**

**lərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır».**

Haqlı sözdür. Qarabağa və digər ərazilərimizə gətirilən erməni ünsürləri **A.S.Qribayedovun** təxminən **160 il bundan əvvəl dediklərini** bizim torpaqlarımızda nümayiş etdirdilər. Qanlı cinayətə əl atdılar.

Tarixi araşdırmalar sübut edir ki, **ərəb işğalı dövründə (VII-IX əsrlərdə) Şimali Azərbycanda İslam dini yayılmışdır. Lakin Azərbaycanın qədim ərazisi olan Qarabağın dağlıq ərazisində yaşayan albanlar xristianlığı saxladılar.** Yuxarıda qeyd etdiyimiz kimi İran və Osmanlı Türkiyəsindən kütləvi surətdə gətirilən erməni ünsurləri **qriqorianlaşmanı sürətləndirdilər. Buna baxmayaraq Qarabağın dağlıq ərazisində yaşayan xristianlar Rusiya imperatoru I Pyotra yazdıqları məktubda özlərini alban adlandırırdılar.**

Bu çağırılmamış ünsürlər haqqında rus qafqazşünası **N.N.Şavrov** yazırdı:

**«Zaqafqaziyada 1 milyon 300 min nəfər erməninin 1 milyondan çoxu yerli deyildir. Onlar vilayətə bizim tərəfimizdən köçürülüb».** Erməni ünsürləri bunu bilirlər. Kənardan gətirilən ermənilərin yerli qriqoryanlaşdırılmış və erməniləşmiş **albanlarla bir yerdə yaşamalarının** təşkili siyasi məqsəd daşıyırdı. N.N.Şavrovun yazdığı kimi:

**«Ermənilərin inzibati idarəçilik sistemində möhkəmləndirilməsi, köçürülmə yolu ilə saylarının mexaniki surətdə artırılması və onların iqtisadi həyatda üstünlüklərinin təmin olunması eyni istiqamətdə həyata keçirilirdi».** Nəticədə **erməni ünsürləri Rusiya imperiyasının hərtərəfli köməyi və yaratdığı əlverişli şərait nəticəsində Qarabağın iqtisadi həyatında möhkəmlənə bildilər. Sovet İmperiyası dövründə bu iş daha geniş miqyas almışdır.**

Ermənilər dəfələrlə – **1905-1906, 1918-1920, 1988-1992-ci illərdə Azərbaycan xalqına qarşı kütləvi qırğınlar törətmiş-**

**lər. Bu GENOSİDİN həyata keçirilməsinə daşnakstyun partiyası rəhbərlik etmişdir.**

Ermənilər insanlığa düşməndir. Onlar özlərinin yaramaz əməlləri ilə ad qazanıblar. **Həmyerlimiz ÜZEYİR HACIBƏYOV** erməni ünsürləri haqqında yazırdı:

**«Ermənilərə etibar yoxdur. Ona görə ki, daşnaklar bu tayfanı etibarsız səviyyəyə çatdırıblar. Silahlı qətillər törətmək və müharibəyə səbəb olmaq üçün bunlar açıq və gizli işlər görüb bizi qafil edə bilərlər. Bu qəflər nəticəsində başımıza bəlalar gələ bilər?»**

Ermənilərin bu gün törətdikləri qanlı cinayətləri Ü.Hacıbəyovun **94 il bundan** əvvəl dediklərini bir daha sübut edir.

**XX əsrin XOCALI soyqırımı** ermənilərin ən böyük cinayətidir. Tarix boyu xalqımız bu cinayəti ermənilərə bağışlamayacaq. Xocalı soyqırımına başçılıq edənlər – **Zori Balayan, Serj Sərkisyan, Robert Koçəryan** və başqa qatillər törətdikləri əməllərə görə tam məsuliyyət daşıyırlar və mütləq mühakimə olunacaqlar. Bu yaramazlara və onların ixtiyarında olan silahlı quldur erməni birləşmələrinə kimlər kömək etmişlər? Hamı bunu bilir. Bir daha bunu yada salmaq yerinə düşər.

**1992-ci il fevralın 25-dən 26-a keçən gecə Ermənistanın quldur silahlı qüvvələri XANKƏNDİNDƏ yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli hərəkət edən xüsusi hərbi qurğu, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli silahlı qüvvələri ilə Xocalı şəhərinə hücum edib onu mühasirəyə aldılar. Qeyri bərabər döyüşdə əhalini kütləvi surətdə qırdılar, şəhər tamamilə dağıdıldı.**

**Bu soyqırımında Ermənistanın müdafiə naziri qəddar Seyran Ohanyan da iştirak etmişdir. Bu ünsür də törədilən genosidə görə məsuliyyət daşıyır.**

Xocalıda törədilən genosidin nəticələri olduqca ağırdı. Soyuq qış gecəsində silahsız əhaliyə amansız divan tutuldu.

**Nəticə belədir:**

**613 nəfər (bu rəqəm 1000-dən artıqdır) həlak oldu. Onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıllar idi. 8 ailə tamamilə qətlə yetirildi, 25 uşaq hər iki valideynini itirdi. 130 uşaq isə bir valideyninip itirdi. 487 nəfər müxtəlif dərəcədə yaralandı. Onlardan 76 nəfəri uşaqlardı. 1275 nəfər əsir götürüldü və 150 nəfərin taleyi bu günə kimi məlum deyil.**

**Xocalılara ermənilər tərəfindən verilən işgəncələri sözlə ifadə etmək olduqca çətindir.**

Erməni ünsürü barədə tarixdə saysız-hesabsız mənfi fikirlər söylənilmişdir. **V əsr tarixçisi mənşəcə alban olan Musa Kalantaklı** bu ünsürləri belə xarakterizə edir:

**«Ermənilər cinayətkardı, fəlakət yayandılar, həqiqətdən üz döndərənlərdi».**

**Erməni tarixçisi Gevorq Aslan 1914-cü ildə yazdığı «Ermənistan və ermənilər» kitabında yazmışdır:**

**«Ermənilərin dövlətçiliyi olmayıb. Onlar vətən hissi və siyasi əlaqələr ilə bağlı deyillər. Erməni vətənpərvərliyi yalnız yaşayış yeri ilə bağlıdır. Bir dövlət kimi heç vaxt mövcud olmayan «Böyük Ermənistan»ın yenidən yaradılması barədə xəyali ideya dünyanın haylarını birləşdirmək üçün ümumi məqsəddir».**

**Erməni şairi Yegişe Çarents: - Bizdə, yəni ermənilərdə ikiüzlülük ana bətnində formalaşır» .**

**Mənşəcə erməni olan Raffi: - «Ermənilərin rəsmi tarixində heç bir dəyərli və yadda qalan məlumat yoxdur. Erməni tarixi kilsə yazılarından kənara çıxa bilməyib».**

**Erməni tarixçisi Karakasyan: - «Ermənilərin keçmişi haqqında elə bir məlumat yoxdur ki, onu tarix və ya salnamə adlandırmaq mümkün olsun».**

**V əsrdə yaşamış Fafstos Buzand: - «Ermənilər xristian dinini zahirən qəbul etmişlər, ona görə ki, zərdüştlik ictimai-siyasi həyatın bütün sahələrində hələ də təzahür edir».**

**Rus diplomatı general Mayevski: - «Erməni xalqının qəhrəmanlığı barədə kimsə nəisə eşidibmi? Onların azadlıq**

**uğrunda döyüşlərinin adları haraya həkk olunub? Heç yerdə! Ona görə ki, ermənilərin «qəhrəmanları» öz xalqının xilaskarı olmaqdan çox cəlladları olublar»**

**Erməni Qriqoryan kilsəsinin Eçmiədzin Sinodunun Ali ruhani məclisinin, prokuroru A.Frankel: - «Tamahkarlıq, Fitnəkarlıq, andı pozmaq, satqınlıq, riyakarlıq və bir çox alçaq hərəkətlər ermənilərin əsas milli xüsusiyyətləridir. Ermənilərin qurur duya biləcəyi vətəni yoxdur. Yalnız o məlumdur ki, bu ünsür 1300 ildir ki, kölədir və hamının nifrət etdiyi tüfeyli və müftəxordu».**

Bütün bu iqtibasların əksəriyyəti erməni müəlliflərinin fikirləridir. Onlar təmsil etdikləri xalqı bəşəriyyətə olduğu kimi təqdim edirlər. Erməni ünsürü haqqında daha çox mənfi fikirlər söyləmək olar.

**Ermənilər haqqında Karl Marks, Fridrik Engels, V.L.Veliçko, A.S.Puşkin, Ata Dümanın və başqa görkəmli şəxsiyyətlərin həqiqi və tutarlı fikir və mülahizələri var.** Bu fikirlər mətbuat səhifələrinə çıxarılası deyil…

Ermənilərin **«fəxr etdikləri» Zori Balayanı** təhlil edərkən məlum olur ki, erməni ünsürünün bütün alçaq, yaramaz, qəddar və necə deyərlər insanlığa yad olan sifətlər onda cəmləşmişdi. Bu əclaf **türk dünyasına düşmən kəsilmişdir.** Onun damarlarında axan qan ən murdar, vəhşi heyvanın qanıdır. Zori iliyinə kimi zəhər çanağıdır, qatil və əclafdır. Vəhşi təbiətə malik olan bu ünsürün **Xocalıda** törədilən cinayətlərdən həzz aldığını nə ilə izah etmək olar?

**Bir sözlə alçaqlığı və vəhşiliyi ilə.**

Erməni faşistləri müvəqqəti olaraq torpaqlarımızın **20 faizini** yuxarıda göstərdiyim kim rus hərbiçilərinin köməyi ilə işğal etmişlər. **366-cı alay** bu işdə əsas qüvvə kimi çıxış etmişdir.

Erməni vəhşiləri Azərbaycan ərazisində təbiətə, maddi və mənəvi abidələrə ağır ziyan vurmuşlar. Onlar **Şuşa şəhərində 199 memarlıq abidəsinin əksəriyyətini yerlə yeksan etmiş və ya özünüküləşdirmişlər. Dəfələrlə Şuşa şəhəri haqqında yaz-**

**dığım elmi əsərlərimdə və məqalələrimdə göstərmişəm ki, Şuşa şəhərində 1950-ci ildə üç erməni ailəsi var idi. Sonralar bu ünsürlərin sayı cüzi miqdarda artdı.** Şuşa şəhərində **1950-ci ilin sonunda əhalinin 98 faizindən çoxunu azərbaycanlılar təşkil edirdi. Şəhərin işğalına kimi, yəni 1992-ci il may ayının 8-ə bu rəqəm demək olar ki, 10 faizə çatmışdı.**

Erməni silahlı quldurları müvəqqəti işğal etdikləri Azərbaycan ərazilərində **547 memarlıq abidəsi, o cümlədən 5 dünya, 393 ölkə və 149 yerli əhəmiyyətə malik olan memarlıq abidəsini, 205 arxeoloji abidə, 927 kitabxana, 808 klub, 85 musiqi məktəbi, 12 tarixi abidə, 22 muzey, 4 şəkil qalereyası, 10 mədəniyyət və istirahət parkı, 4 dövlət teatrı və 2 konsert müəssisəsini dağıtmış və ya qarət etmişlər.**

Ümumiyyətlə erməni quldurları işğal dövrü ərzində Azərbaycana **160 milyarddan artıq maddi ziyan vurmuşlar.**

Erməni faşistləri torpaqlarımızda törətdikləri **siyasi, iqtisadi, sosial mədəni** cinayətlərə görə tam məsuliyyət daşıyırlar. Ona görə ki, onlar müharibə canilərıdirlər.

**DÖRD GÜNLÜK (2-5 aprel) müharibə aydın surətdə göstərdi ki, Ermənistan daxilən iflas etməkdə davam edir. Ölkə daxilində və ondan kənarda yaşayan ermənilər daha S.Sərkisyana və onun ətrafına toplaşmış rüşvətxor hərbi canilərə inanmırlar. Onu da deyim ki, erməni diasporu da Ermənistan hakimiyyətindən üz döndərmişdir.**

**2016-cı il aprel ayının 14 və 15-də Türkiyənin İstambul şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatının XIII sessiyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin surətdə pisləmiş və müvəqqəti olaraq işğal etdiyi torpaqlarımızı qeyd-şərtsiz azad etməsini və silahlı quldur ordusunun işğal ərazilərimizdən tezliklə çıxarması haqqında qərar qəbul etmişdir. Cəbhə xəttində təmas qrupunun yaradılması buna parlaq misaldır.**

Ermənistanın şıltaqlığı ilə beynəlxalq təşkilatlar da barışmaq istəmirlər. Onlar da Azərbaycan torpaqlarının işğaldan ta-

mamilə azad edilməsini tələb edirlər. Ermənilər itirdikləri ilə barışmaq istəmirlər. Ermənistan rəhbərliyi artıq çıxılmaz vəziyyətdədir. Əgər onlar təmas xəttində təxribat törətməyə cəhd göstərsələr, bu onlar üçün faciəli olacaqdır.

Ermənistanın işğalçılıq hərəkətləri haqqında yazdığım bütün məqalələrim də dediyim kimi: **- Erməni işğalçılarının QİYAMƏT günü yaxınlaşır.**

Dörd günlük müharibə sübut etdi ki, Ermənistan beynəlxalq aləmdən təcrid olunmuşdur. Hətta üzv olduğu hərbi təşkilat da ona dəstək göstərmədi. **Belorusiya və Qazaxıstan** Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Ermənistanın işğalçı silahlı qüvvələrinin dərhal ərazimizdən çıxarılmalarını bildirdilər.

Müstəqil Dövlətlər Birliyinə daxil olan heç bir dövlət Ermənistana mənfi münasibətlərini dəyişmədilər. Ermənistanın siyasi iflası Azərbaycan Respublikasının **Prezidenti, Ali Baş Komandan cənab İLHAM ƏLİYEVİN elmi cəhətdən əsaslandırılmış xarici siyasətinin əyani nəticəsidir.**

İndi ermənilər Rusiyaya qarşı etiraz nümayişlərinə başlamışlar. Ermənilər İrəvan şəhərində Rusiya Federasiyasının dövlət bayrağını yandırmış, səfirliyini **yumurta atəşinə** tutmuşlar. Ermənilər acıqdan-açığa bildirirlər ki, Rusiya dörd günlük müharibədə nə üçün onlara kömək etmədi. Axı, Rusiya ilə Ermənistan arasında hərbi müqavilə var. Ermənilər hələ də başa düşmürlər ki, Azərbaycan Rusiya üçün daha münasib tərəfdaşdır. Azərbaycan **siyasi, iqtisadi, sosial və mədəni sahələrdə Rusiya ilə çox bağlıdır.**

**Belorusiya, Qazaxıstandan başqa Türkiyə və Pakistan da Azərbaycanın haqq işini açıq surətdə müdafiə etdiklərini bildirdilər.** Erməni quldurları artıq iflasa uğramışlar. Qarabağ məsələsinin tezliklə Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həlli və regionda möhkəm sülhün təmin olunması zamanı gəlib çatmışdır. İşğal olunmuş ərazilərimizdən erməni silahlı qüvvələri dərhal, qeyri-şərtsiz çıxarılmalı, doğma torpaqlarından, el-obalarından, isti ocaqlarından müvəqqəti olaraq ayrı düşən azərbaycanlılar geri qayıtmalıdırlar.

Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi müsbətə doğru irəliləyəndə, ermənilər, Dağlıq Qarabağın **status, yəni müstəqilliyi** oyununu ortalığa atırlar. Bu mümkün olan iş deyil. Bu oyun onlar üçün **status-kvonun** müddətini mümkün qədər uzatmaq məqsədini daşıyır. Ermənistanın indiki rəhbərlərinin taleyi məhz bundan asılıdır.

Aydın məsələdir ki, indi Ermənistan deyilən oyuncaq dövlət Qərbi Azərbaycan ərazisində bərqərar olub. Onlar qeyri-qanuni olaraq burada dövlət yaradıblar. Azərbaycan ərazisində **«ikinci oyuncaq erməni dövlətinin» yaradılmasına heç vaxt yol verilməyəcəkdir.**

Bunu erməni quldurları da yaxşı bilirlər. Dünyada elə bir **millət, xalq və azlıq qrup yoxdur ki, tarixdə onun iki dövləti olsun.** Bu ideya erməni ünsürlərinin xəstə təxayüllərinin məhsuludur.

# ŞANLI MİLLİ AZƏRBAYCAN ORDUSU İŞĞAL ALTINDA OLAN TORPAQLARIMIZIN BİR FAİZİNİ AZAD ETDİ

## ERMƏNİ PREZİDENTİ S.SƏRKİSYANIN QULAĞI KƏSİLDİ

**Əsrin dövrddə biri qədər torpaqlarımızın 20 faizini işğal altında saxlayan erməni quldurları mövcud danışıqların, xüsusilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il 822, 29 iyul 1993-cü il 853, 14 oktyabr 1993-cü il 874 və 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələrinin qərarlarına məhəl qoymayaraq işğal etdikləri torpaqları azad etməkdən müxtəlif bəhanələrlə boyun qaçırırlar.**

Təmas xəttində dəfələrlə təxribat törədən erməni quldurları və onların rəhbərləri, xüsusilə də simasını itirmiş, oyuncaq Ermənistan prezidenti hesab edilən S.Sərkisyan belə hesab edirdi ki, onlar törətdikləri hərbi cinayətlərinə görə cəzasız qalacaqlar. Mən erməni prezidentinin adını çəkməyi özümə rəva bilmədiyim üçün, sadəcə olaraq bu qulduru **«erməni prezidenti» kimi** qeyd edəcəyəm.

**2016-cı il aprel ayının 2-si fəxr etdiyimiz, güvəndiyimiz, Azərbaycan MİLLİ ORDUSUNUN zəfər yürüşü günüdür. Ordumuz nəyə qadir olduğunu əzəmətli zərbələri ilə düşmənə tarixi dərs verdi. Hərbi gücünü parlaq surətdə düşmənə göstərdi.** Erməni quldarlarının yol göstərici rolunu öz üzərinə götürən erməni prezidentinin murdar qulağı kəsilib lağıma tullandı.

**Son vaxtlar erməni işğalçı qoşunları təmas xəttində dəfələrlə hərbi təxribatlara əl atmış, hər dəfə də şanlı Milli Ordumuz tərəfindən məhv edilərək geri oturulmuşdur. İyirmi ildən artıqdır ki, erməni dövləti havadarlarının fəal köməyi və yardımı ilə Azərbaycana qarşı elan olunmamış müharibə aparır. Müqəddəs torpaqlarımızın 20 faizini işğal etməklə erməni qul-**

**durları, 1 milyondan artıq soydaşlarımız doğma el-obasından, ev-eşiyindən didərgin düşmüş və qaçqın həyatı keçirməyə məcbur olmuşlar. Xalqımız bu hadisəni yağı düşmənə tarix boyu bağışlamayacaq.**

Ermənistanın siyasi rəhbərliyi süquta uğrayan nüfuzlarını **«bərpa»** etmək üçün **2016-cı il aprelin 2-də** təmas xəttində vəziyyəti gərginləşdirməyə və dinc əhalini pulemyotlardan, iri çarxlı silahlardan və toplardan atəşə tutmağa başlayan erməni quldurları ordumuz tərəfindən layiqincə cəzalandırıldılar.

**1994-cü il atəşkəs rejimindən sonra ermənilərə ən ağır və öldürücü zərbə vuruldu. Erməni quldur ordusunun günəşi söndü. Onların bel sütunu isə qarşıdakı döyüşlərdə sındırılacaqdır. Çox qısa müddət ərzində rəşadətli Azərbaycan Milli Ordusu müvəqqəti olaraq işğal edilmiş torpaqlarımızın bir faizini düşməndən azad etməsi onun gücünü bir daha nümayiş etdirdi.**

Azad edilmiş ərazilər olduqca əhəmiyyətlidir. Bu çoxdan gözlənilirdi. Xaltaya və zəncirə yatmayan ermənilərə **aprel ayının 2-də vurduğumuz ölümcül zərbə qələbəmizin əsas mənbəyidir. Ermənilər bundan nə qədər gec deyil ibrət dərsi almalıdırlar.**

**2016-cı il aprel ayının 2-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, çox hörmətli, xalqımızın, dövlətimizin, vətənimizin fəxri olan CƏNAB İLHAM ƏLİYEV Azərbaycan Prezidenti yanında Təhlükəsizlik Şurasının iclasında demişdir:**

**«Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi**

**güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər».**

**XX əsrin** sonlarında Ermənistan deyilən ölkədə baş verən dövlət çevrilişi, **2014-cü ildən** başlayaraq erməni silahlı quldur ordusu tərəfindən cəbhə xəttində vəziyyətin getdikcə gərginləşdirilməsi və digər təxribatlar erməniləri ağır cəzalandırmağı tələb edirdi. Azərbaycan yenə də hadisələrə səbr və təkminliklə yanaşırdı. **ATƏT-in Minsk** qrupunun üzvləri də artıq dərk edirdilər ki, **Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli vaxtı artıq yetişib. Bu ideya onlarda 2015-ci ildən formalaşmışdır. Bu yaxınlarda** erməni prezidentinin **MOSKVAYA** görüşə gedərkən orada da ona **KREML** liderləri də bu erməni ünsürünə bildirmişdilər ki, münaqişənin həll olunma vaxtı çatmışdır və bu olduqca zəruridir. Minsk qrupunun həmsədrləri erməni ünsürlərinə açıq surətdə bildirmişdilər ki, **status-kvonu daha saxlamaq mümkün deyil. Lakin ermənilər bundan nəticə çıxarmadılar.**

Erməni quldurları **qeyri-konstruktiv mövqe** tutmaqla **beynəlxalq hüquq normalarını və beynəlxalq ictimaiyyətin rəylərini nəzərə almayaraq murdar əməllərini davam etdirirlər.** Onların bu hərəkət və davranışlarına baxmayaraq **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz prinsipial mövqeyini qətiyyətlə davam etdirir.**

**Cənab Prezidentimiz İlham Əliyev dəfələrlə demişdir ki:**

**«Azərbaycanın prinsipial mövqeyi var. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu ola bilməz. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur və ola da bilməz. O ki qaldı Dağlıq Qarabağda yaşayan erməni əhalisinə, onlar gələcəkdə Azərbaycan vətəndaşları kimi Azərbaycanda yaşaya bilərlər. Azərbaycan çoxmillətli, çox konfessiyalı ölkədir. Azərbaycan bu sahədə bir çox ölkələr üçün nümunədir, multikulturalizmin məkanıdır, tolerantlıq diyarıdır. Azərbaycan bütün beynəlxalq danışıqlarda təsiredici mövqe qazanmaqla işğalçı Ermənistanı çıxılmaz vəziyyətə saldı». Daha doğrusu onu baykot**

**etməklə siyasi aləmdə simasız vəziyyətdə qoymağa nail oldu. Onun işğalçı, qarətçi olduğunu sübut etdi.**

**Azərbaycan işğal altında olan tarixi torpaqlarını tezliklə azad edəcəkdir.** Buna şübhə yoxdur. Yağı düşmən bunu yaxşı başa düşür. Azərbaycan olduqca güclü orduya, təkmilləşmiş hərbi gücə, inkişaf etmiş müdafiə sisteminə malikdir. Bu isə hər şey – **ölkənin və əhalimizin etibarlı təhlükəsizliyi deməkdir.**

**Düşmən, məlum olduğu kimi Tərtər rayonu** istiqamətindən mülki əhaliyə qarşı daha amansız mövqe nümayiş etdirirdi. **Aprelin 2-dən 4-ə kimi** erməni quldur ordusu tərəfindən **Tərtər** rayonunun yaşayış məntəqələrini atəşə tutmaqla **şəhərdə 10, Qapanlı kəndində 42, Yuxarı Qaradağlı kəndində 35, Qaraağacı kəndində 17, Seydimli kəndində 1, Şıarx kəndində 35, Azad Qaraqoyunlu kəndində 5, Dəmirçilər kəndində 2, Çaylı kəndində 8 evə, ümumilikdə cəmi 155 yaşayış evinə ziyan vurmuşlar. Onlardan 16 ev tamamilə dağıdılıb.**

Düşmənin bu cür yaramaz hərəkətlərinə son qoymaq üçün **şanlı ordumuz** mülki əhalinin təhlükəsizliyinin təmin etmək, düşmənə öz gücünü göstərmək məqsədilə hərbi əməliyyatı genişləndirməyə məcbur oldu. Bir neçə saat ərzində Silahlı Qüvvələrimiz düşmən tərəfindən müvəqqəti işğal edilən **strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələrini düşməndən tamamilə azad etdi. Dəqiq atəş nəticəsində düşmənin yüzlərlə əsgər və zabitini, hərbi qərargah sistemini və xeyli hərbi texnikası məhv edildi. Düşmənin qəddi büküldü.**

**Cənab Prezidentimiz və Ali Baş Komandan İLHAM ƏLİYEVİN dediyi kimi:**

**«2016-cı il aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır». Eşq olsun Azərbaycan Ordusuna.**

Azğın düşmənə vurulan tutarlı zərbələr Goranboy, Tərtər rayonlarına və eyni zamanda da Naftalan şəhərinə təhlükə törədən ən mühüm yüksəkliklərin ordumuz tərəfindən azad edilməsi ilə nəticələndi. Bu yüksəkliklərdə yuva salan düşmən buradan Talış və Tap-

qaraqoyunlu kəndlərini müntəzəm olaraq atəşə tuturdu.

Ağdam-Tərtər-Ağdam və Xocavənd –Füzuli istiqamətlərində qəddar düşmənə vurulan ölümcül zərbələr bütün xalqımızın ruh yüksəkliyinə, şanlı qələbəmizin çox yaxın vaxtlarda əldə edilməsinə inamı daha da möhkəmləndirmişdir. **Azərbaycan Silahlı Qüvvələri** düşmənin bu istiqamətdə 6 tankını, 15 artileriya qurğusunu və möhkəmləndirilmiş «MANNERHEYM» xəttini tamamilə sıradan çıxardı. Düşmən sarsıldı.

Biz çox yaxşı bilirik ki, Azərbaycanın qədim ərazisi olan Yuxarı Qarabağda vuruşan erməni ordusudur. Onlar yad torpaqda hərbi əməliyyatlar aparırlar. Azərbaycan Ordusu isə öz müqəddəs torpaqları uğrunda vuruşurlar. Erməni əsgəri ölmək istəmirsə, **rədd olub Azərbaycan torpağından getsin.**

**Qarabağda qısa müddət ərzində əldə etdiyimiz qələbələr xalqımızın dövlətimizə, rəşadətli Azərbaycan Silahlı Qüvvələrinə inamını daha da artırmışdır. Torpaq müqəddəsdir. Onu heç kimə, hətta dosta da vermək olmaz.**

Bütün Azərbaycan xalqı kimi, **Qarabağlılar, o cümlədən də şuşalılar, qazanılmış parlaq qələbə münasibətilə Prezidentimiz, Ali Baş Komandan Cənab İlham Əliyevi, Ordumuzu səmimi qəlbdən təbrik edirik. Bu qələbə xalqımızla dövlətimizin sıx birliyinin bəhrəsidir. Xalqımızın çox hörmətli lideri, cənab İlham Əliyevin ətrafında möhtəşəm birliyinin nəticəsidir. Bu birlik bizi Şuşaya, Ağdama, Füzuliyə, Qubadlıya, Zəngilana, Laçına, Xankəndinə, Xocalıya, Əsgərana, Xocavəndə, Kəlbəcərə, Ağdərəyə, Cəbrayıla inamla aparır.**

Ordumuzun qarşısında duran əsas vəzifə düşməni bir nəfər kimi vurub torpaqlarımızdan çıxarmaqdır. Biz çox yaxşı bilirik ki, Azərbaycan **Silahlı Qüvvələri buna tamamilə qadirdir.** Onu da bilirik ki, Qarabağ məsələsini ordumuz **5-6 saata, bütün Ermənistanı tarmar etmək işini isə 5-6 günə həll etmək gücünə malikdir**. Bunu düşmənlərimiz də hiss edirlər. Erməni ünsürləri onu da bilirlər ki, nəinki Qarabağın Yuxarı ərazisi və eyni zamanda da yuva saldıqları, indi Ermənistan adlanan ərazi də Azərbaycanın

qədim ərazisidir. **Qərbi Azərbaycan torpaqlarıdır. İrəvan xanlığının ərazisidir, İrəvan qədim Azərbaycan şəhəridir, İrəvan xanlığının mərkəzidir.**

Erməni ünsürləri bu əraziyə gətirilib yerləşdirilmişlər. Onlar arzuolunmaz ünsürlərdir. Azərbaycan torpaqlarında ermənilərin yaşaması böyük günahdır. Müqəddəs, təmiz, bir sözlə **KƏRBALA torpağı kimi** müqəddəs olan torpaqlarımızda erməni ünsürlərinin əli xalqımızın qanına bulaşıb.

Mən şuşalı kimi fəxr edirəm ki, **Azərbaycan Ordusu** erməni quldurlarına ağır və ölümcül zərbələr vurmuşlar. Qələbənin **yaşıl işıqları yanmaqdadır.** Torpaqlarımız tezliklə azad ediləcək. Erməni prezidentinin düşdüyü vəziyyət göz qarşısındadır. Hərəkəti, davranışı, danışığı, sifəti tamamilə dəyişib, daha doğrusu yaramaz vəziyyətə düşüb. Bu yaramaz xalqımıza qarşı törətdiyi qanlı cinayətlərinə, **XOCALIDA** törətdiyi **soyqırımına** görə cavab verməli olacaqdır. Buna şübhə yoxdur.

Haqq- ədalət bizim tərəfimizdədir. İşimiz haqq işidir. Ona görə də biz qalib gələcəyik.

Mən sözümü **Prezidentimiz cənab İLHAM ƏLİYEVİN əzəmətlə** səslənən kəlamı ilə qurtarmaq istərdim:

**«Bundan sonra da düşmənin bütün təxribat hərəkətləri cavabsız qalmayacaq. Onlara layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpaqlarını müdafiə edirlər. Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaq».**

**Allah torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə canlarını qurban verən şəhidlərimizi rəhmət eləsin. AMİN!**

**Kitab çapa gedərkən Xocalı soyqırımının təşkilatçısı və Ermənistan xuntasının rəhbəri, cani S.Sarkisyan öz xalqı tərəfindən biabırcasına vəzifədən götürüldü… Bu belə də olmalı idi.**

# AZƏRBAYCAN-ALBAN DÖVLƏTİNDƏ XRİSTİANLIQ

**QISA ARAYIŞ. XRİSTİANLIQ yunanca Xristos mənasını verir, hərfi mənada isə padşah deməkdir. Xristianlıq dünya dinlərindən biridir. Avropa, Amerika, Afrika, Yaxın və Orta Şərqdə yayılmışdır. Hazırda bu dinə təxminən bir milyard üç yüz milyondan çox adam etiqad edir. Xristianlıq monofoist (tək Allahlılıq) dindir. Onun başlıca ideyaları İsa Məsihənın (İsus Xristos) günahları bağışlama missiyasına möhkəm inam; İsanın qiyamətdə zuhur edəcəyinə; qiyamət qopacağına, Allahın əvəz verəcəyinə və ilahi quruluş yaradılacağına inamlar təşkil edir.**

**Tarixi məlumatlara görə xristianlıq eramızın birinci əsrinin ikinci yarısında (təxminən 98-ci ildə) Roma imperiyasının şimal əyalətlərində ilk dəfə yəhudilər, sonralar isə digər etnik qruplar arasında yayılmağa başlamışdır.**

**Xristian kilsəsi böyük təşkilatdır. Hər yerdə çoxlu kilsələri mövcuddur. Roma imperatoru I Konstantin 325-ci Ümumdünya kilsə məclisi çağırdı. Həmin məclisdə «Din rəmzi» qəbul edildi. Beləliklə də xristianlıq dövlət dininə çevrildi. 395-ci ildə Roma imperiyasının iki hissəyə bölünməsi nəticəsində Şərq və Qərb xristian kilsələrinin yaranmasına səbəb oldu. Bizans kilsəsi ilə Roma kilsəsi arasında baş verən münaqişə 1054-cü ildə rəsmi olaraq Qərb və Şərq kilsələrinə bölündü. O dövrdən Qərb kilsəsi katolik kilsəsi (yəni ümumdünya kilsəsi), Şərq kilsəsi isə provaslav kilsəsi (yəni həqiqi din kilsəsi) adlandırılmağa başladı. Beləliklə də 1054-cü ildən sonra hər iki kilsə müstəqil oldu.**

**1096-1270-ci illər arasında baş vermiş səkkiz səlib yürüşlərinə katolik kilsəsi başçılıq etmişdir. Səlib yürüşləri milyonlarla insanın qırğınına səbəb oldu. Bununla yanaşı avropalılar Şərq ölkələrinin texniki, təsərrüfat, mənəvi və məişət**

**nailiyyətləri ilə tanış olub onları mənimsədilər.**

**Sonralar alman təcavüzkarları səlib yürüşlərindən Pribaltika və slavyan xalqlarına qarşı istifadə etmişlər. Sözün əsl mənasında onlara qarşı genosid törətmişlər.**

**2016-cı il aprelin 2-də Almaniya Federativ Respublikasının reyestağında uydurma erməni soyqırımını qəbul edərkən onlar almanların keçmiş cinayətkar hərəkətlərini yada saldılarmı? Alman deputatlarının belə bir yalançı qərar qəbul edərkən nəyi əsas tutdular. Alman təcavüzkarları milyonlarla müxtəlif xalq və millətin ölümünə bais olmuşlar. Elə İkinci Dünya müharibləsində alman faşistlərinin törətdikləri genosid qırğınları onlar üçün tarixin ən ağır cinayəti deyilmi? Keçmişi ləkəli olanlar tarixin ibarət dərslərini unutmamalıdırlar. Tarix heç vaxt insan qanına susayanları bağışlamamış və indi də bağışlamır.**

**Tarixi mənbə və qaynaqlarda xəbər verilir ki, indiki müstəqil Azərbaycan Respublikasının ərazisində bizim eradan əvvəl IV əsrin ikinci yarısında – III əsrdə Qafqaz Albaniyası adlanan dövlət yaranmışdı. Bu dövlət eyni zamanda da Dağıstanın cənub ərazilərini də özündə birləşdirirdi. Çox maraqlıdır: - Alban dövləti əgər Azərbaycan ərazisində yaranmışsa, nə üçün onu minilliklər ərzində Qafqaz Albaniyası adlandırılmışlar. Mənə belə gəlir ki, qədim Alban dövlətini ALBAN-AZƏRBAYCAN dövləti adlandırılması vaxtı gəlib çatmışdır.**

Qədim dünya tarixçiləri – **Strabonun, Pulutarxın, Böyük Plinin** məlumatlarına görə **Zaqafqaziyada, Kür çayının sol sahilində alban adlanan tayfalar məskunlaşmışdılar.** Böyük Plinin məlumatında bildirilir ki, **«albanlar xalqı Qafqaz dağlarına yayılmışlar və onların yaşadıqları torpaqlar olduqca geniş ərazini əhatə edir. Bu ərazi Kür çayına kimi uzanır».**

**VIII əsrdə** yaşamış alban tarixçisi **Musa Kalantaklı** yazırdı ki, Albaniyanın mərkəzi şəhəri əvvəlcədən **QƏBƏLƏ,** sonralar isə **Partav (indiki BƏRDƏ) şəhəri olmuşdur.** Eramızın

ikinci yüzilliyindən başlayaraq Albaniyada **xristianlıq yayılmağa başlamışdır.**

**Arşakirdlər sülaləsindən olan alban çarı Urnayır** ölkədə xristianlığı dövlət dini elan etdi. Musa Kalantaklı bildirir ki, **yunan tarixinin 43-cü ilində, albanlardan 270 il sonra ermənilər dinə gəldilər.**

Buradan belə bir nəticə çıxır ki, ermənilər ilkin orta əsrlərdə də səyyari həyat keçirmişlər. Musa Kalantuklunun **«Alban ölkəsinin tarixi»** əsərinin hansı dildə yazılması da hələlik məlum deyil. Bir məsələ aydındır ki, müəllifin ölümündən sonra əsərin üzü köçürülərkən ona mənasız əlavələr edilmiş, türkdilli xalqların xeyrinə olan tarixi məlumatlar ixtisar edilmişdir. Daha dəqiq desək kitabın üzü köçürülərkən erməni ünsürləri saxtakarlığa əl atmışlar.

Yuxarıda qeyd etdiyim səlib (Xaç) yürüşləri haqqında yazılan tarixi məlumatlar **müsəlmanlara qarşı, xüsusilə də İslam dininə qarşı yalan, böhtan və nifrətlə zəngindir.** Bu mənfi hallar onunla əlaqədardı ki, işğalçılıq və qarətçilik mahiyyəti daşıyan səlib yürüşlərinə haqq qazandırılsın. Əlbəttə, bu mümkün olan iş deyildir. Səlib yürüşləri zamanı işğal olunmuş müsəlman ölkələrində dini ənənələrə hörmətsizlik siyasəti yeiridilirdi.

Məlum olduğu kimi Qafqaz, o cümlədən də **Alban-Azərbaycan dövləti** ərazisi **Sasani İranının və Bizansın dağıdıcı hücumlarına məruz qalmışdır.** Elə bu şəraitdə dini vəziyyət də mürəkkəb xarakter daşımaya bilməzdi. Alban-Azərbaycan dövlətində xristianlıqla yanaşı, **büdpərəstlik və zərdüştilik də təsir güclərini saxlayırdı.**

Başqa dinlərlə yanaşı Alban-Azərbaycan dövləti ərazisində **zərdüştilik dini geniş yayılmışdır.** Tarix ədəbiyyatında deyildiyi kimi, bu din **təqribən 3500 il bundan əvvəl yaşamış ZƏRDÜŞTÜN adı ilə bağlıdır. XII əsrdə yaşamış məşhur müsəlman din xadimi və tarixçi Məhəmməd ibn Əbdül Kərim əş-Şəhrəstani qeyd edir ki, «Zərdüşt bin Burəni şah Gəş-**

**tasib bin Ləhrəspin dövründə zühur etmişdir. Onun atası Azərbaycandan, anası isə Reydəndi, adı da Dağdəveyh idi».**

**224-cü ildə Sasani dövləti** yarandıqdan sonra Sasani şahı I **Şapur** Zərdüşt dininin ölkədə və ondan asılı olan bütün əyalətlərdə zorla yayılması haqqında fərman vermişdir. Alban-Azərbaycan dövlətində də **ZƏRDÜŞT** dini zorla yayılırdı. I Şapurun göndərdiyi **700 kahin xristian kilsələrini dağıtmışlar.**

Xristianlığın Alban-Azərbaycan dövləti ərazisində mövqeyi xeyli güclü olması birmənalı olaraq qəbul edilməlidir. Bu vəziyyət İslam dininin meydana gəlməsinə kimi davam etmişdir. Tarixi məlumatlar da bunu təsdiq edir. Alban-Azərbaycan xristian kilsəsi nəinki bu ərazidə, eyni zamanda da bütün xristian dünyasında ən qədim kilsələrdən biri kimi uzun müddət fəaliyyət (**1836-cı ilə kimi**) göstərmişdir.

Alban-Azərbaycan kilsəsi **551-ci** ildə Bizans kilsəsi ilə əlaqələrini tamamilə kəsərək özünü tam müstəqil elan edir. Kilsənin mərkəzi **Qəbələdən Bərdə şəhərinə köçürülür.** Alban-Azərbaycan tarixçilərinin tutarlı məlumatlarına görə miladdan sonra **I-II əsrlərdən etibarən xristianlığın ilk təbliğatçıları Qüdsdən və Suriyadan həvarilər və onların şagirdləri Alban-Azərbaycan ərazilərinə yayılır və burada ilk xristian icmaları yaradılır. Lakin onlar təsir gücünə malik deyildilər.**

Alban-Azərbaycan ərazisində xristianlığın yayılması o dövr üçün mütərəqqi hal kimi dəyəndirilməlidir. Bu din ölkə ərazisinin bütövlüyünə, dövlətin möhkəmlənməsinə və digər sahələrin inkişafına müsbət təsir göstərirdi. Urnayırdan sonra onun varisləri bu məqsədlə xristianlığı geniş təbliğ edirdilər.

**Yeri gəlmişkən onu qeyd edim ki, Müstəqil Azərbaycan Respublikasının ərazisində mövcud olan, XVIII-XIX əsrlərdə inşa olunan xristian kilsələri qədim Alban-Azərbaycan kilsələrinin bünövrəsi üzərində tikilmişdir.**

Sasani şahları Alban-Azərbaycan xristian kilsəsinə xüsusi qayğı ilə yanaşır, ruhani təbəqələrinə böyük imtiyazlar verirdilər. Bərdə şəhəri öz ilahiyyatçıları ilə məşhur idi. Onlar dini

elmlərlə bərabər dünyəvi elmləri də hərtərəfli mənimsəmişdilər. Xristianlığın Alban-Azərbaycan ərazisində yayılması, əhalinin etnik və mədəni birliyinin təşkilində mühüm rol oynamışdır. Kilsə dili olaraq yerli dildən istifadə olunmuşdur.

**Ərəb işğalının başlanması Alban-Azərbaycan ərazisinə yeni bir din – İslam dini gətirdi.** İslam dininin yayılması Alban-Azərbaycan xristian kilsəsinin sosial vəziyyətini sarsıtdı. Beləliklə də **VII əsrin** ikinci yarısından başlayaraq Alban-Azərbaycan ərazisində xaçpərəstlik öz əvvəlki mövqeyini kəskin surətdə itirməyə başladı. Ölkənin düzən ərazisində yaşayan əhali İslam dinini qəbul etdi. Bununla belə dağlıq ərazidə yaşayan xristian albanlar xristianlığı saxladılar. İndi Qarabağın bir sıra ərazisində yaşayan yerli xristianlar albanlardan törəyənlərdir. Elmi məqalələrimin birində yazmışam ki, Azərbaycan ərazisində və o cümlədən də onun qədim ərazisi olan **QARABAĞDA (dağlıq məhfumu qondarma olduğu üçün qeyd etmirəm)** nə **obezyan** və nə də **şinpanze** cinsli meymun cinsi yaşamamışdır.

**Qarabağ ərazisində neandertal meymun növü yaşamışdır.**

**Alban-Azərbaycan ərazisində xristianlığın yayılmasının həm müsbət, həm də mənfi cəhətlərini qeyd etmək lazımdır. Əvvəla, xristianlıq yerli əlifbanın, ədəbiyyatın, mərkəzləşdirilmiş dövlətin yaranmasını və inkişafını surətləndirmiş, iqtisadi, siyasi və mədəni birliyə və inkişafa mane olan dini pərakəndəliyə qismən son qoymuş və bütövlükdə ictimai, fəlsəfi biliklərin inkişafına kömək göstərmişdir. Digər tərəfdən isə xristian kilsəsi əhalinin iqtisadi, siyasi və sosial təbəqələşməsinə mənvi təsir göstərmişdir.**

Azərbaycan ərazisində, o cümlədən də Qarabağda erməni ünsürünə aid heç bir xristian kilsəsi yoxdur və ola da bilməz. Folkloru, mədəniyyəti, torpağı, paytaxt şəhəri olmayan ünsürün hansı mənəvi və dini dəyəri ola bilər?

# AZƏRBAYCANLILARIN MART SOYQIRIMI – 100

## QANLI CİNAYƏTLƏR

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımın 100 illiyı 2018-ci ilin martında tamam olur. Bu soyqırım uzun illər araşdırılmamış, səbəb və nəticələri xalqdan gizli saxlanılmışdır. Sovet hakimiyyəti bu barədə danışmağı yasaq etmişdi. Hətta ermənilərin qanlı cinayətlərinin canlı şahidləri olan minlərlə insana haqsız olaraq divan tutulmuşdur.

Azərbaycan Respublikası müstləqillik əldə etdikdən sonra xalqımıza tutulan haqsız divanların olduğu kimi dünya ictimaiyyətinə çatdırılması sahəsində olduqca böyük işlər görülmüşdür. Bu iş indi də davam etdirilir.

Soyqırım haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 26 mart 1998-ci il tarixli fərman vermis və fərmanda baş verən soyqırımlarının səbəb və nəticələri hərtərəfli şərh olunmuşdur. Ulu öndər həmin fərmanda martin 31-ni azərbaycanlıların soyqırım günü elan etmişdir.

Azərbaycanda milli-demokratik hərəkatın başlanması, Müsavat partiyasının xalq arasında nüfüzunun artması erməniləri qorxuya salmışdı. Ona görə də onlar “Müsavat” partiyasına qarşı düşmən mövqedə dayanmışdılar. Əsas məqsəd “Müsavat”ın sosial bazasını və Bakı şəhərinin müsəlman əhalisini məhv etməkdən ibarət idi. Əlbəttə, ermənilərin məqsədi "Böyük Ermənistan" yaratmaq idi. Daşnaklar bu sahədə Aərbaycanın tarixi-etnik torpaqlarını hədəf seçmişdilər.

Daşnaklar məkrli niyyətlərini həyata keçirmək üçün Birinci Dünya müharibəsinın müxtəlif cəbhələrindən beş min erməni əsgərini Bakıya gətirmişdilər. Bakıda **"Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 min nəfərlik ordunun 70 faizi ermənilərdən ibarət idi**. Tərkibi, əsasən, ruslardan ibarət olan Xəzər dəniz donanmasının matroslar arasında da azərbay-

canlıların əleyhinə təbliğat aparılmışdı. **Şamaxıda və Muğanda** da ehtiyat hərbi hissələr yaradılmışdı.

Bu işlərin fəal iştirakçısı olan H.Əsriyants sonralar qeyd edirdi ki**,** 1918-ci ilin fevralında T.Əmirov bizi çağırıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdarlıq siqnalından sonra biz hücum edib, "Müsavat"ın qərargahını tutmalı idik və belə də oldu.

Təxribat törətmək məqsədi ilə martin **30-da Bakıda İnqilabi Müdafiə Komitəsi** yaradıldı. Bu komitəyə S.Şaumyan başçılıq edirdi. Martın 30-da axşam saat 5-də onun şəxsi göstərişi ilə atəş səsləri eşidildi. "Daşnaksütyun" partiyası və **Erməni Milli Şurası** ilk atəşdən sonra Bakı Sovetini müdafiə etməyə başladılar.

**1918-cı il mart** faciəsi belə başlandı və üç gün davam etdi. Bu milli qırğın günlərində bir-birinə nifrət edən siyasi partiyalar vahid cəbhədə birləşdilər. Sənədlərdə qeyd edilir ki, **martın 30-da** axşam Bakı Soveti hərbi dəstələri başçılarının təcili iclası keçirildi. İclas vaxt itirmədən əhalini qırmaq haqqında qərar qəbul etdi. Bu hərbi silahlı quldurlara A.Mikoyan başçılıq edirdi. O Mikoyan ki şərəfsiz ölümünə kimi Kremldə yüksək vəzifələrdə olmuşdu... Erməni silahlı qüvvələri xüsusi tapşırıqlarla Bakının məhəllələrinə göndərilir və Azərbaycan əhalisini kütləvi surətdə qırmaq əmri aldılar. Əhalini qorxutmaq üçün qadınlara, qocalara, cavanlara qarşı ən ağır cinayətlərə əl atırdılar... **1918-ci ilin martın 31**-də İçərişəhərin alınması hərbi əməliyyatı başlandı. **Əməliyyata ermənilər başçılıq edirdilər. Üc gün ərzində (30 mart - 1 aprel) qətl və qaratlərdən sonra 15 mindən çox azərbaycanlı öldürüldü.**

Azərbaycanlı əhaliyə qarşı soyqırım torədən erməni qüvvələrinin formalaşdırılması, silahlandırılması Erməni Milli Şurasının sədri A.Çulxəndyanın adı ilə bağlıdır. Onun təşəbbüsü ilə Rusiyanın tərxis olunmus əsgərlərindən silahlar dəyər-dəy-

məzinə alınıb, daşnaklara verilirdi. 1918-ci ilin ilk aylarında erməni hərbi dəstələri özlərini sərbəst aparır və istədikləri nalayiq hərəkətlər edirdilər. Bü isə gələcək soyqırıma hazırlıq idi. Azərbaycanın müstəqilliyi uğrunda ilk qan məhz Bakı şəhərində töküldü. Tarixi sənədlər araşdırılarkən aydın olur ki, daşnak qüvvələri mart soyqırımını, törətməkdə məqsədləri o idi ki, Azərbaycan əhalisini fiziki cəhətdən məhv etsinlər, onun mənəviyyatına son qoysunlar.

Azərbaycanlıların soyqırımı Bakı ilə məhdudlaşmadı. Daşnak quvvələri **Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Kürdəmirdə, Salyanda, Qarabağda** va başqa qəzalarda da soyqırım törətdilər. Aprel ayında Şamaxı əhalisinə qanlı divan tutuldu. Mart ayının birinci yarısında Şamaxıya məlumat gəldi ki, Bakıdan bura qoşun, toplar, pulemyotlar və çoxlu sayda hərbi sursat gətirilir. Canlı qüvvənin əksəriyyəti ermənilərdən ibarət idi. Bu cinayətkar hissəyə S.Şaumyandan göstəriş alan S.Lalayan başçılıq edirdi.

S.Lalayanın quldur daşnak dəstələri martın **15-də** səhər tezdən Şamaxıya hücum edərək azərbaycanlıların yaşadıqları əraziləri şiddətli top atəşinə tutdular. Onu da xüsusilə deməliyəm ki, mart soyqırımında Şamaxı qədər dəhşətli zərbələrə məruz qalan ikinci bir bölgə təsəvvürə gəlsin. Şamaxı torpağında törədilən qətl və talanların bir çox sahələri hələ də tam açılmamış qalır.

**Haşiyə. Aprel ayının 2-də** Şamaxıda baş verən qanlı hadisələri öz gözü ila görmüş ərəb taciri ve səyyahı **Ləl Üzeyir** qeydlərində yazmışdı: "**Burda insanları dilsiz-ağızsız və köməksiz gördüm. Şamaxı tənhalıqda alışıb-yanırdı. Ermənilər az güllə atırdılar. Onlar qorxu və hay-küylə insanları bir yerə toplayır və sonra onlardan ocaq qalayırdılar. Müəllif sözünə davam edərək qeyd edir: “Mən ilk dəfə idi ki, insanların, uşaq və qocaların, hamilə qadınların diri-diri yandırdıqlarını gördüm**".

Şamaxı soyqırımı haqqında xarici ölkələrin o cümlədən

də, Azərbaycan Respublikasının Dövlət Arxivində çoxlu sənədlər var. Həmin sənədlər ermənilərin vəhşiliklərini özündə əks etdirir. Ermənilərin Şamaxıda törətdikləri əməllər onların mənəviyyatlarını, əxlaqsızlıqlarını, ləyaqətsizliklərini və alçaq ünsür olduqlarını sübut edir.

**Şamaxı soyqırımı özündə əks etdirən tarixi sənədlərin birində göstərir. "Şamaxıda 1918-ci il martın 21-də Cümə məscidində fəaliyyət göstərən "Quran məktəbi" adlı müsəlman dini qrupuna divan tutuldu. Dini qrupun başçısının iki ayağı kəsildi. Dilini ağzından çıxardıb doğradılar". Bu vəhşilik S.Lalayanın göstərişi ilə törədilmişdi. O, Şamaxıda çox qanlar tökülmüşdür.Azərbaycanın ziyalılarını təhqir etdikdən sonra onları qətlə yetirilmişdi.**

**Haşiyə. Bir erməni S.Lalayanın qanlı əməllərinin birini belə qələmə almışdı: "Şamaxıda qırğın törədən S.Lalayanın quldur silahlı dəstələri duma deputatı Məmməd Əliyevi ələ keçirdilər. Ona əmr edildi ki, diz çöksün. Lakin Məmməd Əliyev diz çökmədi. S.Lalayanın əmri ilə ilk gülləni onun ayağına vurdular. Deputatın ikinci oğlunu tuta bilmədilər. S.Lalayanın əsgərləri Rusiyanın Dövlət Dumasına seçilən azərbaycanlı deputatı döyə-döyə, təhqir edə-edə güllələdilər".**

**S.Lalayan Şamaxı şəhərində azərbaycanlıların qiymətli əşyalarını da qarət etmişdi. Şamaxılıların 124 kıloqram zərgərlik məmulatını, 2500 qədim xalçanı və digər qiymətli əşyaları ələ keçirib satmışdır. Quldur S.Lalayan 1918-ci il noyabr ayının 21-də ingilis generalı Tomsonun əmri ilə həbs edilib, Gəncə həbsxanasına göndərildi və noyabr ayının 23-də it kimi orda öldü.**

Şamaxı soyqırımı zamanı Bakı Sovetinin qoşunları **72** kəndi dağıtdılar. 10341 nəfər azərbaycanlını öldürdülər. Əhaliyə o dövrün qiyməti ilə bir milyard manatdan çox maddi ziyan dəydi.

**Mart qırğınından sonra Şamaxı şəhəri uzun müddət**

**özünə gələ bilmədi. Hadisələrdən sonra Şamaxıda 15 min nəfər əhalinin 80 faizindən çoxunu azərbaycanlılar təşkil edirdisə, 1921-ci ildə onların sayı 1700 nəfərə enmişdi.**

**Quba qəzasında soyqırımı törədən quldurlar S.Şaumyan tərəfindən geniş səlahiyyətlər almışdılar. Onlara S.Şaumyanın sag əli olan Hamazasp başçılıq edirdi. Ermənilər aprel ayında Quba qəzasında 122 müsəlman kəndini dağıtdılar,16672 nəfəri qətlə yetirdilər. Onlardan 387 nəfəri yəhudi idi. Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də erməni daşnak dəstələrindən böyük ziyan çəkmişdilər. Daşnak birləşmələri mart qırğını zamanı Bakı quberniyasından sonra Azərbaycanın başqa ərazilərini də ələ keçirmək istəyirdilər. Ermənilər Lənkəran qəzasında 40 kəndi dağıdaraq 13 mindən çox insanı öldürürdülər.**

**Mart qırğını ərəfəsində İrəvan quberniyasında Andronikin və Dronun quldur erməni dəstələri 300-dən çox azərbaycanlının yaşadığı kəndi yandırıb, 100 minlərlə azərbaycanlını öldürdülər və əmlakınını qarət etdilər.**

**Mart-aprel aylarında daşnakların rus bolşevikləri ilə birlikdə azərbaycanlılara qarşı törətdikləri kütləvi soyqırımın 100 illiyı 2018-ci ilin mart ayında tamam olur. Bu siyasi akt indi də davam edir. Xocalı soyqırımı erməni ünsürlərinin öz himayədarları ilə birlikdə törətdikləri vəhşiliyin parlaq nümunəsidir. Ermənilər həmişə xalqımıza qarşı soyqırım aktını “böyük qardaşları”nın fəal köməyi ilə törətmişlər. Bununla da ermənilər Sədi Şirazinin dediyi kimi:**

**“Erməni yer üzünün əhrəməni,**
**Ermənidir insanlığın düşməni”.**

Erməni fırıldaqçıları hər il aprel ayını 24-nü özlərinin “genosid” günü kimi qeyd edirlər. Bu fırıldaq erməni rəhbər-

lərinin, erməni diasporunun uydurmasıdır. Tarixdə belə hadisə baş verməmişdir. Əgər erməni “genosidi” olsaydı, onda yer üzündə erməni qalmazdı.

**Tarixi faktlar sübut edir ki, Birinci Dünya müharibəsi ərəfəsində dünyada mövcud olan ermənilərin sayı təxminən 3 milyon olmuşdur. Onların 100 mini Cənubi Qafqazda, 100 mini İranda, 400 mini Türkiyədə yaşayırdı. Ermənilər deyirlər ki, 1,5 milyon erməni Türkiyədə soyqırımına məruz qalıb. 400 min hara, 1 milyon yarım hara? Erməni fırıldağı burdan aydın görünür.**

Erməni xisləti artıq dünyaya məlumdur. Qan tökmək, kiminsə torpağına, əmlakına göz dikmək onların qanlarına yerimişdir. Söz yox ki, ermənilər nə vaxtsa öz əməllərinə görə cavab verəcək və layiqli cəzalarını alacaqlar. Yaxşı bilirlər ki, onların dövlətçiliyi olmayıb. Bu, ünsürdə vətən hissi və siyasi əlaqələrlə bağlı deyil. Eməni vətənpərvərliyi yalnız yaşayış yeri ilə bağlıdır. Bu sözlər bir nəfər erməi tarixçisinin sözləridir. Mənə belə gəlir ki, bu fikrin izaha ehtiyacı yoxdur. Ermənilər yaltaq, ikiüzlü və qorxaqdırlar, azadlıq hissi onlara yaddır. Köləliyə daha çox meyl göstərirlər.

Ermənilər unutmasınlar ki, Azərbaycan xalqının qisası dəhşətli olacaq...

# HERODOTUN «KOR OĞULLARI» HAQQINDA SKİF ƏFSANƏSİ VƏ «KOROĞLU» TÜRK EPOSU ARASINDA SÜJET PARALELLƏRİ

**Gənc alim ZAUR HƏSƏN oğlu HƏSƏNOV 2005-ci ildə nəşr etdirdiyi 480 səhifəlik elmi əsəri olan «ÇAR SKİFLƏR» (Çar Skiflərin və qədim oğuzların etno-dil, eyniləşdirilməsi) adlı əsərinin VIII fəslinə yuxarıda göstərilən başlıq vermişdir.**

Əsərlə tanışlıq göstərir ki, müəllif iskiflərə (skiflərə) aid olan qədim qaynaqlara, mənbələrə və rəvayətlərə diqqətlə yanaşılmış və nəticədə iskiflərin qədim tarixi hərtərəfli araşdırılmış və elmi məlumatlar əldə olunmuşdur. Onu da  qeyd edim ki, Z.Həsənovun elmi tədqiqatının əsasını dilçilik araşdırmaları təşkil edir. Eyni zamanda müəllif Herodotun bizə miras qoyub getdiyi iskif əfsanələrini qədim türk tarixi ənənələri ilə qarşı-qarşıya qoyur və məqsədyönlü elmi nəticələr çıxarır.

Iskiflərin tarixinə həsr olunan bu əsərin ən böyük elmi əhəmiyyəti bir də ondadır ki, Heredotdan əvvəl Azərbaycan ərazisində oğuzdilli iskif tayfalarının məskunlaşmaları və bu tayfaların **«İskif çarlığı»** dövlətin yaranması tarixi dəlillərlə ardıcıl olaraq şərh olunur. Diqqəti cəlb edən ən mühüm yeniliklərdən biri də odur ki, əsərdə iskiflərlə türklərin dil qohumluğu, adət və ənənələrinin birliyinin aşkara çıxarılmasıdır. Deməli, əsər iskifşünaslığın yeni mərhələsi kimi də dəyərlidir. Bu mənada əsər iskifologiyada yeni mərhələnin başlanmasına göy işıq saçır.

Gərgint elmi əməyin bəhrəsidir ki, əsərdə mədəniyyətlərin eyniləşdirilməsi və müqayisəli təhlili yalnız etnik dil baxımından deyil, eyni zamanda ümumiləşdirməni, siyasi iqtisadi, sosial, məişət səviyyələrində təhlil olunur, bütün bunlar qədim əcdadlarımızın güzəranlarının rəngarəng olduğunu aşkara çıxarır.

Z.Həsənov əsərində elə məqamlara toxunur ki, onlar bəzi hallarda birmənalı qarşılanmaya da bilər. Bu isə təbiidir, yalnız belə cəsarətli fikir və düşüncələr ətrafında elmi fəaliyyətlə məşğul olanlar rəy söyləyə bilərlər…

Zaur həsənov Herodotla yanaşı elmi əsərində **Fəzlullah Rəşid-əd Dinin (1247-1318) «OĞUZNAMƏ»** əsərinə müraciət etməsi də xüsusi əhəmiyyət kəsb edir.

Herodotun **iskif dastanları və türk dastanı «KOROĞLU»** arasında, Koroğlunun dəniz atları və **yunan-Çin qaynaqlarının xəbər verdiyi eyni varlıqlar arasında məna bağlılığı,** Koroğlunun **Çənlibeli və Kor oğluların xəndəyi** (onlar öz ərazilərinin ətrafına xəndək qazmışdılar) arasında eynilik, - bütün bunlara diqqət yetirmək lazımdır. Ona görə ki, onlar ilk dəfə oxuculara  şərh olunur…

Deməli, gənc alim **Zaur Həsənov elmi araşdırmalarında həm tarixçi, həm dilçi, həm ədəbiyyatşünas, mifoloq və hətta filosof kimi diqqəti cəlb edir.**

Herodot «Çar iskiflər» və «Kor oğulları» arasındakı münaqişədən bəhs edərkən yazırdı ki, iskiflər müharibələrdə əsir tutduqları adamların hamısını kor edirdilər. Eyni zamanda da o, göstərirdi ki, iskiflər əkinçi deyil, köçəri həyat tərzi keçirirdilər. Iskiflərin bu qullarından və qadınlarından yeni gənc nəsli yaranmışdır. Herodot daha sonra xəbər verir ki, həmin gənc nəsil öz mənşələrindən xəbər tutan kimi iskiflərə müqavimət göstərməyə başladılar. Üsyan etmiş kor oğullarının etnik mənsubiyyətindən söhbət açan Herodot qeyd edir ki, onların anaları çar iskiflərdən idilər.

Türk dastanında **KOROĞLUNUN atasının adı ALIDIR.** Z.Həsənov Alı adının etimologiyasına belə izahat verir: - **Alı-sırf türk sözüdür. Cəmiyyətin aşağı təbəqəsi deməkdir.** Bu iskiflərdə ki, **qul mənasına tamamilə uyğun gəlir.** Bunlardan əlavə Alı məfhumu əsir alınmış, məğlub edilmiş mənasında da onunla müqayisə oluna bilər. Herodotun adını çəkdiyi qullar (Kor Alı tabelər) iskiflərə də yad deyil, amma asılı vəziyyətə düşən tayfalar idilər.

**Herodotun «Kor oğulları» haqqındakı iskif əfsanəsinin və türk dastanı «Koroğlu»da baş verən hadisələrin eyniləşdirilməsindən söhbət açan Zaur Həsənov** qeyd edir ki, hər iki hadisələrin baş verdiyi coğrafi məkan **Qara dənizin şimal sahillərini, Midyanı (Azərbaycanı), Cənubi Qafqazı, Mərkəzi və Kiçik Asiyanı əhatə edir.**

«Koroğlu» dastanı ilə «Kor oğulları» haqqında əfsanənin oxşarlığı hər iki hadisənin müqayisəsi tam aydınlığı ilə üzə çıxır. Müqayisə belədir:

| | |
|---|---|
| Herodotun «TARİXİNDƏ e.ə. V əsrdə ilk dəfə iskif söyləyicilərinin dilindən qələmə alınmış «Iskif əfsanəsi» hansı mövzulardan ibarətdir? | İlk dəfə XIX əsrdə, yəni Heredotdan 2400 ildən çox sonra türk aşıqlarının dilindən yazıya alınmış «Koroğlu» dastanı hansı mövzulardan ibarətdir? |
| 1.Hadisələrin baş verdiyi tarix – e.ə. VII əsr. | Hadisələrin baş verdiyi zaman göstərilmir, mifik dövrlərdən başlanır. |
| 2.Əfsanənin yazıya alındığı yer: - Ola bilər ki, Midya və Iranın sərhədi və ya Qara dənizin şimal sahilləri | Dastanın yazıya alındığı yer: - Qafqaz, Mərkəzi Asiya və Anadolu. |
| 3.Hadisələrin mərkəzi məkanı Qara dənizin şimal sahilləridir. | Hadisələr Mərkəzi Asiya və Cənubi Qafqazda davam edir. Dastanda baş verən hadisələrin ərazisi Qafqaz, Mərkəzi Asiyadır. Dastanda Qara dənizin Şimal sahilləri, Ton çayı, Şimali Qafqazın mineral suları xatırlanır. |
| 4. Işğalçılar əsir aldıqları adamları (kişiləri) mehtər edərək onları kor edirdilər. | Hökmdar ona tabe olan ilxıçısını kor edir. |
| 5.«Kor oğulları» tabeçiliyə və zülmə qarşı üsyan qaldırırlar. | Kor edilmiş Alı kişinin oğlu Rövşən paşalara və bəylərə qarşı üsyan qaldırır. |
| 6.Üsyan ümumxalq xarakter daşıyır. | Üsyan ümumxalq xarakteri daşıyır. |
| 7.Üsyana kor oğullardan biri başçılıq edir. | Üsyanın başçısı kor edilmiş Alı kişinin oğludur. Onun adı Rövşəndir. Koroğlu kimi tanınır. |
| 8.Üsyanda iştirak edənlər iskif qadınları ilə ailə həyatı qurmuşlar. | Üsyanın başçısı Koroğlu və onun görkəmli silahdaşları hakim təbəqə- |

| | |
|---|---|
| | nin qızları ilə ailə həyatı qurmuşlar. |
| 9.Herodotun əfsanələrinin birində səmadan yerə düşən müqəddəs qılıncdan bəhs olunur. İskiflərdə müharibə tanrısının rəmzi həmin qılıncdır. | Koroğluya da səmadan müqəddəs qılıncın materialı göndərilir. Qılınc Misri qılınc adlanır. |
| 10.Herodotun iskif əfsanələrində iskiflər suya və dənizə sitayiş edirlər. | Dəniz müqəddəs qüvvə kimi iki at yaradır və onlar Koroğluya güc verirlər. Bütün döyüşlərdə ona yardımçı olurlar. |

Göstərilən cədvələ əlavə etməklə, Zaur müəllimin bu barədə fikirlərinə istinad etmişəm…

«Koroğlu» dastanında **QIR ATLA DUR ATIN** dəniz madyanından törəmələri bildirilir. Onu da deyim ki, «Koroğlu» dastanında atlar mövzusu **OĞUZ xanın** həyat və fəaliyyəti ilə sona çatır. **Rəşidəddin «OĞUZNAMƏ»sində göstərir ki, Oğuz xanın iki atı var idi. Həmin atlar oğurlanır, Oğuz xan atları tapmayınca sakitləşmir.**

**«Koroğlu» dastanında ÇƏNLİBEL-HERODOTUN «Kor oğulların»da xəndək haqqında** Herodotun tarix haqqında yazdığı IV cildinin **20 səhifəsində** «Kor oğulları»nın qazdıqları xəndəkdən geniş bəhs olunur. Herodot onu **«kimmer»** səddi adlandırır. **«Koroğlu» dastanında bu ÇƏNLİBELDİR.** Dastandan bildiyimiz kimi bu xüsusi seçilmiş yerdir **(Şuşa kimi)**. Bu məkan Koroğlunun atası **Alı kişinin məsləhəti ilə seçilmiş müqəddəs məkandır.** Hətta ən güclü düşmən ordusu Çənlibelə ayaq basa bilməzdi.

**Əsərdə deyilir:**

**«…Çənlibel Koroğlu ilə onun düşmənləri arasındakı sərhəd ərazisini müəyyən edən xəndək, yaxud da xəndək ağzında yerləşən QALA olub… Müdafiə xəndəyi haqqında rəvayət – Herodotun təsvir etdiyi «Kor oğulları»nın qazdığı xəndək və türklər arasında geniş yayılmış bütün «Koroğlu» dastanının qollarında xatırlananlar barəsindəki rəvayətlər tam eynidir».**

«Koroğlu» dastanı Azərbaycan xalqının siyasi-ictimai dünyagörüşünün, ayrı-ayrı tarixi hadisələrə, fəlsəfi-etik baxışların axarında zənginləşmişdir.

**«Koroğlu» dastanının Iskif ənənələri əsasında mifik və realist baxımdan nəzərdən keçirilməsi çox hadisələrdən – Koroğlunun müqəddəs bulaqdan su içməsindən, onun fövqəltəbii gücə və səsə malik olmasından xəbər verir.**

«Koroğlu» dastanında əsas mifi xarakter daşıyan məsələlərdən biri də yuxarıda dediyimiz kimi atlar məsələsidir:

**MİF yunan sözü olub rəvayət mənasını verir.** Azərbaycan xalqının qədim və zəngin **fəlsəfi mifləri var.** Alı kişi uzun müddət **Həsən xanın** at ilxısını saxlayırdı. Günlərin birində dostlarından biri Həsən xana qonaq gəlir və ondan at istəyir. Xan ilxıçını çağırıb bir cüt at gətirməyi əmr edir. Alı kişi dəniz madyanının balaları olan bir cüt atı Həsən xanın hüzuruna gətirir. Qonaq atları bəyənmir. Bundan hiddətlənən xan Alı kişinin gözlərinin çıxarılmasını əmr edir və həmin atları ona verir… Alı kişi evə gəlib atların tövləyə aparılmasını oğlu Rövşənə tapşırır. Eyni zamanda ona dönə-dönə bildirdi ki, tövlənin hər yerini elə örtsün ki, **40 gün ora işıq düşməsin**. Atlar üçün həmin müddətə lazım olan yem və su ehtiyatı da təmin olunur. Alı kişi bilirdi ki, atlardan birinin **(Qıratın)** bir cüt qanadı olacaq. O biri atın **(Duratın)** qanadı olmasa da onun da tayı bərabəri olmayacaq. Amma bu iş baş tutmur. Koroğlu **39 gündən sonra** tövlənin yuxarı hissəsindən kiçik deşik açır və görür ki, atların birinin qanadları var. Işıq düşən kimi qanadlar əriyib yox olur. Məncə bu **mifin reallığa çevrilməsi deməkdir.**

«Koroğlu» dastanında miflərdən biri də **«Qoşabulaq»dır**. Alı kişi oğlu Rövşənə bu bulaq haqqında danışır və deyir ki, **yeddi ildən bir bulaq cümə axşamı iki ulduzun görüşdüyü zaman coşub daşır və ağ köpük əmələ gətirir. O köpükdə kim çimsə, içsə aşıq olar. Dünya onun nərəsindən lərzəyə gələr. Həmin su mənim gözlərimin yenidən sağalmasına məlhəmdir. Koroğlu suyun köpüyündən özü üçün**

**istifadə etsə də, atasına gətirə bilmir. Bu da mifin reallıqla tamamlanmasına işarədir.**

Alı kişi oğlu Rövşənə son anda belə vəsiyyət edir:

**Bala, ay keçər, il dolanar, sənin adın məğribdən məşriğə qədər bütün dünyaya yayılar… Nə qədər ki, Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, Çənlibel də sənin məskənindir, heç kəs sənə döv gələ bilməz. Amma bu həndəvərlərdə igid bir qaçaq var. Adına Dəli Həsən deyərlər. Özünü ancaq ondan qoru… Get, sənin adını KOROĞLU qoydum. Alı kişi bu sözləri deyərək əbədiyyətə qovuşur… Alı kişinin bu vəsiyyəti tam reallığı əks etdirir. Azərbaycan kişisinin dünyagörüşünü sübut edir.**

«Koroğlu» dastanında ən maraqlı ideyalardan biri də odur ki, o, Koroğlu dəlilərinin sayını **7777 sonsuzluq rəqəmi ilə şərtləndirilir.**

**«ÇAR SKİFLƏR»** əsərində müəllif Azərbaycan dastanları ilə ən qədim xalqların **(iskiflərin, yunan, Roma, Çin)** dastanları ilə qarşılıqlı əlaqəsi, xalqımızın hələ açılmayan tarixi sirlərinin üzə çıxarılması yolunda uğurlu addım hesab etmək olar. Bu təqdirə layiqdir. Əsər bir daha qeyd edirəm ki, gərgin elmi əməyin məhsuludur. Türkologiyada mühüm və cəsarətli addımdır.

Mən Zaur Həsənovun **«Çar Skiflər»** əsərinin **IX fəslindən biri – VIII fəslin ətrafında söhbət açdım**. Hər bir fəsil elmi cəhətdən olduqca dəyərlidir. **XXI əsrin** ən böyük uğurlarından biridir.

# AZƏRBAYCAN RESPUBLİKASININ ERMƏNİ FAŞİST ÜNSÜRLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ YURD YERLƏRİMİZİN QISA TƏHLİLİ

## ŞUŞA İNZİBATİ RAYONU

**ŞUŞA İNZİBATİ RAYONU may ayının 8-də erməni-rus birləşmiş qüvvələri tərəfindən işğal edilmişdir.**

Şuşa şəhərinin ərazisi **34 kv.km,** rayonun ərazisi isə **289 kv.km-dir**. **1840-cı ildən 1965-ci ilə kimi Şuşa rayonunun ərazisi 4911 kv.km olmuşdur.** Şuşa şəhəri dəniz səviyyəsindən **1500-1800 metr** yüksəklikdə yerləşir.

**2018-ci il yanvar ayının 1-ə olan məlumata əsasən Şuşa rayonunun əhalisi 33 min 735 nəfər olmuşdur. Əhalinin 24 min 565 nəfəri şəhər, 9 min 170 nəfəri kənd əhalisinin payına düşür.**

Inzibati rayon **Kiçik Qafqazda, Qarabağ dağ silsiləsinin** suayrıcısı boyu yerləşir. Rayonun mərkəzi **Şuşa** şəhəridir. Şəhərin əsası **1750-ci ilin avqust ayının sonunda və ya sentyabr ayının əvvəllərində CAVANŞIRLƏRIN** tayfa başçısı **PƏNAHƏLI xan tərəfindən qoyulmuşdur.**

Rayonda **1 şəhər, 1 şəhər tipli qəsəbə, 12 kənd ərazi dairəsi, 37 kənd yaşayış məntəqəsi vardır.**

**Şuşa ərazisi dağ üzərində yerləşir.** Şəhər **3 tərəfdən** hündür dağlarla əhatə olunmuşdur. Diqqətlə baxanda adama elə gəlir ki, Şuşa səmadan asılıdır. Dağ üzərində yerləşən şəhərdə orta istilik yanvar ayında **-$4^0$C-dən $1^0$C-yə qədər, iyulda $16^0$-$19^0$C arasında dəyişir. İl ərzində əraziyə orta hesabla 700-800 mm yağıntı düşür.** Rayonda əkinçilik, maldarlıq, tərəvəzçilik, bağçılıq, bostançılıq və quşçuluq təsərrüfatları inkişaf etdirilmişdir. Torpağın münbitliyi bol məhsul əldə etməyə geniş şərait yaradır. Rayonun zəngin fauna və florası vardır.

Şuşa Azərbaycanın **elm, mədəniyyət, incəsənət, ədəbiyyat mərkəzi olmuşdur. Memarlıq abidələri Şuşanın şöhrət**

**tacı idi.** İşğala qədər **rayonda 250-dən çox tarixi abidə və muzeylər var idi. Şuşanın özündə 50-ə qədər tarixi abidə vardır.** Bütövlükdə götürdükdə Şuşa tarixi muzey idi.

Işğala qədər Şuşa rayonunda 7 məktəbəqədər uşaq tərbiyə müəsissəsi, 22 ümumtəhsil məktəbi var idi. Onlardan 1 ibtidai, 4 doqquzillik, 17 orta ümumtəhsil məktəbi idi. Bunlardan əlavə rayonda 2 musiqi məktəbi, 1 tibb məktəbi, 1 kənd təsərrüfatı texnikumu, 1 mədəni maarif texnikumu, 1 orta texniki peşə məktəbi, 6 mədəniyyət evi, 12 klub, 26 kitabxana, 22 kinoqurğu fəaliyyət göstərirdi.

**Şuşanın Qala divarları, bürcləri, məscid və müqəddəs dini ocaqları, dağ-daş arasında yerləşən İbrahimxəlil xanın istirahət düşərgəsi, xan sarayı, xan nəslinə mənsub olan imarətlər, yaşayış binaları** Şuşanın inciləri və şöhrəti idi.

**Şuşadan kənarda 300-dən artıq** tarixi memarlıq abidələri, yer adları vardı.

Erməni faşist ünsürləri Şuşanı işğal etdikdən sonra **yüzlərlə maddi-mədəni abidələri, məscid və müqəddəs ocaqları, bir sözlə nə vardısa hamısını məhv etmişdilər. Bu isə hərbi cinayətdir.** Şəhər ətrafında və rayonun kəndlərində yerləşən **qəbiristanlıqların dağıdılması** erməni ünsürlərinin quduzlaşmış xisilətinin bariz nümunəsidir.

Erməni faşistləri ilə ölüm-dirim mübarizəsində **195 nəfər soydaşımız şəhid olmuş, 165 nəfər yaralanmış, 58 nəfər əsir düşmüş və girov götürülmüşdü.**

**5 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

Işğal nəticəsində erməni quldurları **17 sənaye və tikinti sahələrini, 103 mədəni-maarif müəssisələrimi və sairəni yerlə yeksan etmişlər.**

Erməni faşist ünsürləri Şuşa şəhərində əslində maddi-mədəni abidələrə qarşı vandalizm siyasəti həyata keçirmişlər. Bunun üçün onlar tezliklə dövlətimiz və xalqımız qarşısında cavab verəcəklər.

## XANKƏNDİ ŞƏHƏR ƏRAZİ DAİRƏSİ

**XANKƏNDİ ŞƏHƏR ƏRAZİ DAİRƏSİ** Qarqar çayının sahilində Qarabağ dağ silsiləsinin Şərq ətəklərində yerləşir. Şəhərin ərazisi **8 kv.km-dir.**

Xankəndi şəhər inzibati vahidinə daxildir. Qışı soyuq iqlim tipinə mənsubdur. Yayda havalar isti və nisbətən quraqlıq keçir.

Şəhərə il ərzində orta hesabla **536 mm yağıntı düşür.** Xankəndinin əsasını Qarabağ xanı Mehdiqulu xan qoymuşdur. Ona görə də Xankəndi adlanır. Sovet hakimiyyəti dövründə, yəni DQMV-i yaradılandan sonra, yaşayış məntəqəsinə daşnak S.Şaumyanın adı verilmişdir. **1923-cü il iyulun 7-dən 1991-ci il noyabr ayının 26-a** kimi həmin daşnakın adını daşıyan şəhərin adı bərpa olunaraq Xankəndi adlandırıldı.

Xankəndi şəhərinin ətrafında Dəmir dövrünə aid kurqan və orta əsrlərə məxsus küp qəbirlər müəyyən olunmuşdur. Bu tapıntılar o dövrün qədim türkdilli sakinlərinə məxsusdur.

Onu da deyim ki, **1923-cü il iyulun 7-dən şəhər daşnak quldurlarının yuvasına çevrilmişdir.**

## XOCALI İNZİBATİ RAYONU

Tarixi qaynaq və mənbələrdə **XOCALI** Azərbaycanın ən qədim yaşayış məntəqələrindən biri kimi qeyd olunur. Xocalı rayonu Kiçik Qafqazda Qarabağ dağ silsiləsinin şimal-şərq yamaclarında yerləşir. Rayonun ərazisi **936 kv.km-dir.**

**Xocalı rayonunda 1 şəhər, 1 qəsəbə, 17 kənd ərazi dairəsi, 50 kənd yaşayış məntəqəsi yerləşir. Mərkəzi Xocalı şəhəridir. Şəhər və kəndlərdə qış soyuq və quraqlıq, yay isə isti keçir.**

Rayonun torpaq qurşağı münbit və məhsuldardır. **Fauna və florası zəngindir. Əkinçilik və maldarlıq üçün əlverişli**

**şərait vardır. Qarqar və Badara çayları Xocalı rayonunun ərazisindən axır.**

**Xocalı rayonunun ərazisində 905-ci ilə aid Alban məbədi, 1356-1357-ci illərə aid dairəvi məbəd, XVIII əsrə aid Əsgərən qalası və divarlar, e.ə. XIII-VII əsrlərə aid mədəniyyət abidələri olan XOCALI-GƏDƏBƏY mədəniyyət nümunələri vardır. Bunlardan başqa rayonun ərazisində Azərbaycan Alban dövlətinə məxsus olan kilsə (VIII əsr) və orta əsrlərdə inşa edilən Xocalı türbəsi (XVII əsr) son dövrlərə qədər qorunub saxlanılırdı.**

Ümumiyyətlə, Xocalının erməni faşistləri tərəfindən işğalına kimi rayonun ərazisində **28-dən çox** mədəni abidə var idi. **Bunların hamısı albanara və azərbaycanlı türklərinə məxsusdur.**

**1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistanın quldur silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRI-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transpartyoru (yerini tez-tez dəyişən hərbi qurğu), 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xüsusi canlı qüvvəsi ilə XOCALI şəhərini mühasirəyə aldılar. Erməni faşist ünsürləri müasir silahlarla şəhərə hücum edərək şəhəri yerlə-yeksan edib onu yandırdılar. Xocalı əhalisinə amansız divan tutdular.**

Bu vəhşi hadisədə Ermənistan deyilən qurumun indiki «prezidenti» **hərbi canı S.Sərkisyan və digər erməni quldur ünsürləri fəal iştirak etmişlər.**

Ermənilər tərəfindən **XOCALI şəhərində soydaşlarımıza qarşı törədilən SOYQIRIMIN nəticəsi belədir:**

**613 nəfər həlak olmuşdur. Onlardan:**

**63 nəfər uşaq;**

**106 nəfər qadın;**

**70 nəfər qocalar;**

**8 ailə tamamilə məhv edilmişdir;**

**25 uşaq hər iki valideynini itirmişdir;**

**130 uşaq hər iki valideynindən birini itirmişdir;**

**487 nəfər yaralanmışdır, onlardan:**

**76 nəfər uşaqdır;**

**1275 nəfər əsir götürülmüşdür;**

**150 nəfər itgin düşmüşdür.**

**Ümumiyyətlə Xocalı soyqırımında həlak olanlar 1000 nəfərdən çoxdur.**

**10 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

## XOCAVƏND İNZİBATİ RAYONU

**XOCAVƏND İNZİBATİ RAYONU 1991-ci il noyabr ayının 26-da Hadrut və Martuni rayonlarının birləşməsi nəticəsində yaradılmışdır.**

Inzibati rayon Kiçik Qafqazda Qarabağ dağ silsiləsinin cənub və cənab-şərq yamaclarında yerləşir. **Rayonun ərazisi 1458 kv.km-dir. Rayonda 1 şəhər, 2 qəsəbə, 38 kənd ərazi dairəsi, 81 kənd yaşayış məntəqəsi var.**

Xocavənd rayonu **1991-ci il fevral ayının 18-də erməni faşist ünsürləri tərəfindən işğal olunmuşdur.**

Qışı mülayim, yayı isti keçir. Illik yağıntının miqdarı **400-800 mm-dir. Torpaq örtüyü münbitdir. Rayonda əkinçilik, maldarlıq və digər sahələr inkişaf etmişdir.**

**Arxeoloji qazıntılar zamanı rayonun ərazisində qədim dövrlərə aid çoxlu maddi-mədəniyyət abidələri tapılmışdır. Xocavənd şəhərində XVII əsrə aid türbə də var.**

Erməni quldur ünsürləri Xocavənd şəhərini işğal edərkən dinc sakinlərə divan tutmuş, şəhər və kəndlərdə **mədəni-maarif müəssisələrini, qədim irsi yerlə-yeksan etmişlər.**

Erməni vəşhiləri Xocavənd rayonunda da yaşayış evlərini qarət etmiş və yandırmışlar.

# AĞDAM İNZİBATİ RAYONU

**AĞDAM İNZİBATİ RAYONU** Qarabağ dağ silsiləsinin şimal-şərq ətəkləri ilə Kür-Araz ovalığı arasında və qismən də Qarabağ düzündə yerləşir.

**Rayonun ərazisi 1150 kv.km təşkil edir. Rayonun mərkəzi AĞDAM şəhəridir.** Rayonda **1 şəhər, 14 qəsəbə, 34 kənd ərazi dairəsi, 123 kənd yaşayış məntəqəsi vardır.** Ağdam şəhəri erməni faşistləri tərəfindən işğal edilib dağıdılmışdır. Ona görə də rayonun mərkəzi müvəqqəti olaraq rayonun **QUZANLI kəndində yerləşir.**

Rayonun yer sətinin quruluşu əsas etibarilə düzənlikdir. Rayonun ərazisindən **Xaçın və Qarqar çayları axır.** Ərazidə tikinti üçün müxtəlif xammal ehtiyatları var. Iqlimi mülayimdir. Ən çox yağıntı dağətəyi sahələrə düşür. Rayonda əkinçilik, heyvandarlıq, pambıqçılıq, bağçılıq, tərəvəzçilik, üzümçülük və digər sahələr inkişaf etdirilmişdir. Işğala qədər Ağdam öz pambığı ilə də məşhur idi.

Rayonun ərazisində qədim dövrlərə aid çoxsaylı maddi-mədəniyyət abidələri var. Qarabağ xanlarının məzarları da Ağdamda **Imarət adlanan məkanda yerləşir…**

**1993-cü il iyul ayının 23-ə qədər, yəni işğal gününə kimi Ağdam rayonunda 34 uşaq bağçası və körpələr evi var idi. 89 ümumtəhsil məktəbi, o cümlədən 16 ibtidai, 36 doqquzillik və 37 orta məktəb fəaliyyət göstərirdi.**

Bunlardan başqa rayonda **4 fəhlə gənclər orta, 1 qiyabi orta, 2 kəndli gənclər orta, 3 texniki-peşə məktəbi, 71 kitabxana, 13 mədəniyyət evi, 27 klub, 24 kino qurğu, dram teatrı və ölkəşünaslıq muzeyi var idi.**

Erməni faşist quldurlarına qarşı aparılan qanlı mübarizədə **ağdamlılar 538 nəfər şəhid vermişdir. 587 nəfər isə müxtəlif dərəcədə əlil olmuşdur.**

**17 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdü.**

Ağır döyüşlərdən sonra **1993-cü il iyul ayının 23-də Ağdam rayonu havadarlarının köməyi ilə erməni ünsürləri tərəfindən işğal olundu.**

## CƏBRAYIL İNZİBATİ RAYONU

**CƏBRAYIL İNZİBATİ RAYONU** Qarabağ dağ silsiləsinin cənub ətəkləri ilə Araz çayı arasında yerləşir. Cənub ərazidə o Iran Islam Respublikası ilə həmsərhəddir.

**Rayonun ərazisi 1049,8 kv.km-dir. Mərkəzi Cəbrayıl şəhəridir. Rayonda 1 şəhər, 4 qəsəbə, 22 kənd ərazi dairəsi, 92 kənd yaşayış məntəqəsi var.**

**Cəbrayıl rayonu 1993-cü il avqust ayının 23-də erməni faşist ünsürləri tərəfindən işğal olunmuşdur.** Düşmənə qarşı aparılan döyüşlərdə **347 nəfər şəhid olmuş, 172 nəfər isə əlil olmuşdur.**

**4 nəfər Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

Iqlimi mülayimdir, təsərrüfat üçün əlverişlidir. Meşələrdə müxtəlif heyvanlar yaşayır. Əkinçilik, maldarlıq, quşçuluq, baramaçılıq inkişaf etdirilmişdir. Rayonda üzüm emalı, çörək zavodu və xalçaçılıq emalatxanası var idi.

Rayonda **10 mədəniyyət evi, 49 klub, 28 kinoqurğu, 58 kitabxana fəaliyyət göstərirdi.** Işğala qədər rayonda **66 ümumtəhsil məktəbi mövcud idi. Onlardan 16 ibtidai, 25 doqquzillik, 25 orta məktəb idi.**

**Rayonun ərazisində qədim dövrlərə aid tarixi-memarlıq abidələri də var. Daş dövrünə aid Şıxlar mağarasını, XII əsrdə inşa olunmuş Qız qalasını, XI-XII əsrlərə məxsus Xudafərin körpüsünü, XIV əsr Şıxlar, XVII əsr Xubayarlı türbələrini, XIII-XIV əsrlərə aid Dağ Tuması mağarasını, Orta əsrlərə aid Ağoğlan qəbiristanlığını və XIX əsrdə inşa olunan Sultan Allahverdi hamamını misal göstərmək olar.**

**2016-cü ili naprel ayı Cəbrayıl rayonunun tarixində**

**böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, 2016-cı il 2-5 aprel günləri Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır.** Bu tarixi gündə **Şanlı Azərbaycan Milli Ordusu Cəbrayıl rayonunda ən mühüm əraziləri erməni faşist ünsürlərindən azad edərək onlara ağır zərbə vurdu. Beləliklə də erməni ünsürünün hərbi gücünün boş və əfsanə olduğu aşkar oldu.**

**Aprel döyüşlərində erməni ünsürlərinin bel sütunu sındırıldı və onların günəşi söndü. Milli Ordumuz döyüşlərin gedişinində erməni ünsürləri tərəfindən müvəqqəti olaraq işğal altında saxladıqları COCUQ MƏRCANLI kəndi tamamilə faşist erməni ünsürlərindən təmizləndi. Olduqca çox qısa müddətdə kənddə böyük quruculuq işləri həyata keçirildi.**

**Cocuq Mərcanlı da yaşayış binaları, məktəb, mədəni-maarif və səhiyyə müəssisələri tikilib istifadəyə verildi. Bu işi indi də sürətlə davam etdirilir.**

**Cocuq Mərcanlıda ŞUŞANIN Gövhər Ağa məscidinin tikilib istifadəyə verilməsi çox şeydən xəbər verir. Cocuq Mərcanlıda parlayan yaşıl işıq Şuşaya doğru uzanan yoldan xəbər verir. Bu isə o deməkdir ki, erməni ünsürləri tərəfindən müvəqqəti olaraq işğal olunmuş torpaqlarımız tezliklə azad olunacaq və hamımız öz ata-baba torpaqlarımıza qayıdacağıq.**

Erməni faşist ünsürləri yaxşı bilir ki, Azərbaycan torpağında onlara yer yoxdur.

## KƏLBƏCƏR İNZİBATİ RAYONU

**KƏLBƏCƏR İNZİBATİ RAYONU** Kiçik Qafqazın mərkəzi hissəsində yerləşir. **Ərazisi 1936 kv.km-dir. Mərkəzi Kəlbəcər şəhəridir. Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 53 kənd ərazi dairəsi 145 kənd yaşayış məntəqəsi var.**

**Kəlbəcər rayonunun səthi dağlıqdır. Ərazidə Mirovdağ, Şərqi Göyçə, Mıxtökən, Qarabağ dağ silsilələrinin və**

**habelə Qarabağ yaylasının bir hissəsi yerləşir.**

**Rayonun iqlimi dağ-yaylaq iqlimidir. Qış soyuq, yay isə mülayim keçir. Kəlbəcər Azərbaycan Respublikasının ən qədim ərazisidir.**

**Kəlbəcər rayonu nadir faydalı qazıntılara malik olan yurd yerimizdir. Burada civə, qızıl, müxtəlif tərkibli metallar, mineral sular var. Kəlbəcər istisuyu böyük müalicə əhəmiyyətinə malikdir.**

**Rayonun ən böyük çayı Tərtər çayıdır. Bazarçay və Xaçınçay da rayonun ərazisindən axır.**

**Rayonun mərkəzi və şərq hissələrində enliyarpaqlı ağaclar – palıd, fıstıq, vələs var. Dağlarda və meşələrdə dağ keçisi, cüyür, qonur ayı, meşə donuzu, nadir quşlar yaşayır.**

Kəlbəcər əsasən kənd təsərrüfatı rayonudur. Təsərrüfatın başlıca sahələri heyvandarlıq və tütünçülükdür.

**Rayonda 2 məktəbəqədər tərbiyə müəssisə, 8 ibtidai, 43 doqquzillik, 26 orta məktəb, 9 mədəniyyət evi, 27 klub, 55 kitabxana, 17 kinoqurğu fəaliyyət göstərirdi.**

**Kəlbəcər rayonu qədim memarlıq abidələri ilə də zəngindir. Istisu ətrafında Tunc dövrünə aid yaşayış məskəni, Yayıcı (672-ci il), Çormanlı (X əsr), Çıldıran (XII əsr), Qozlu (Xatırvənk məbədi, 1204-cü il), Bazarkənd (1251-ci il), Həsənriz (1283-cü il) kəndlərində olan Alban məbədləri, 635-ci ilə aid Müqəddəs Yaqub kilsəsi, 1238-ci ilə aid Gəncəsər monastrı, 1668-ci ilə aid kilsə və XVII əsrə aid Uluxan qalası da Kəlbəcər ərazisindədir.**

**Kəlbəcər rayonu 1993-cü il aprel ayının 2-də faşist erməni quldur ünsürləri tərəfindən işğal olunmuşdur. Düşmənə qarşı döyüşlərdə 217 nəfər şəhid olmuş, 49 nəfər həlak olmuşdur.**

**2 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

**Kəlbəcərdə 400-dən artıq insan üçün xüsusi əhəmiyyəti olan bulaq mənbələri var.**

# FÜZULİ İNZİBATİ RAYONU

**FÜZULI İNZİBATİ RAYONU** Qarabağ dağ silsiləsinin cənub-şərq ətəkləri ilə Araz çayı arasında yerləşir. Rayon cənubda Araz axarı boyu Iran Islam Respublikası ilə həmsərhəddir. Inzibati rayonun ərazisi **1390 kv.km-dir.**

**İnzibati rayonda 2 şəhər, 16 qəsəbə, 27 kənd ərazi dairəsi, 82 kənd yaşayış məntəqəsi var. Mərkəzi şəhəri Füzuli şəhəridir. Şəhər erməni faşist ünsürləri tərəfindən 1993-cü il avqust ayının 23-də işğal edildiyi üçün rayonun mərkəzi müvəqqəti olaraq Horadiz şəhərinə köçürülmüşdür.**

Füzuli rayonunun səthi Araz çayına tərəf alçalan maili düzənliklərdən ibarətdir və **Hərəmi** düzünə aiddir. Şimal-qərbdə ərazi Qarabağ dağ silsiləsinin cənub-şərq ətəkləri alçaq dağlıqdır. Rayonun şərq ərazisində isti quru, şimal-qərbdə isə quru mülayim hava şəraiti üstünlük təşkil edir.

**Illik orta yağıntının miqdarı 400-600 mm-dir. Rayonun torpağı münbütdür. Əkinçilik, maldarlıq, üzümçülük və digər kənd təsərrüfatı məhsulları üçün yaxşı şəraiti vardır.**

**Rayonda 22 bağça, 75 ümumtəhsil orta məktəb, 2 texniki peşə məktəbi, 69 kitabxana 20 mədəniyyət evi, 45 klub və 17 kinoqurğu fəaliyyət göstərirdi.**

**Füzuli rayonunun ərazisində Paleolit (qədim Daş dövrü) dövrünə aid tarixi memarlıq abidələri var. Azıx və Tağlar mağara yaşayış düşərgələri, Qarğabazarda 1684-cü ilə aid karvansaray, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsi, şəhərdə Hacı Ələkbər məscidi və digər memarlıq abidələri var idi.**

Erməni faşist ünsürlərinə qarşı aparılan döyüşlərdə **Füzuli döyüşçülərindən 528 nəfər şəhid olmuş, 1309 nəfər döyüşçü və mülki əhali əlil olmuşdur.**

**Düşmənə qarşı aparılan döyüşlərdə əsgəri igidliyə görə 6 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşlər.**

# LAÇIN İNZİBATİ RAYONU

**LAÇIN İNZİBATİ RAYONU Azərbaycan Respublikasının cənub-qərbində, Kiçik Qafqaz sıra dağlarına məxsus olan Qarabağ dağ silsiləsinin suayrıcı ilə Qarabağ yaylası arasında yerləşir.**

**Rayonun ərazisi 1875 kv.km-dir. Mərkəzi Laçın şəhəridir. Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 47 kənd ərazi dairəsi, 125 kənd yaşayış məntəqəsi var idi.**

Laçın rayonunun səthi dağlıq və dağlıq yayladır. **Dəlidağ, Qızılboğaz** dağları rayonun ən böyük dağlarıdır. Dağlarda **YURA-ANTROPOGEN** çöküntüləri geniş yayılmışdır.

**Civə, müxtəlif tərkibli metallar, tikinti materialları rayonun əsas faydalı qazıntılarıdır. Rayonun ərazisində mineral su mənbələri də var. Qış bir çox ərazidə quru və mülayim isti və soyuq keçir. Ərazidə illik yağıntının miqdarı 600-900 mm-dir. Həkəri çayı qolları ilə rayonun ərazisindən keçir. Torpaq məhsuldardır.**

**Rayonun bitgi örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, palıd, vələs, fıstıq və digər enliyarpaqlı ağaclardan ibarətdir.**

**Laçın rayonunun heyvanlar aləmini dağ keçisi, cüyür, meşə donuzu, sincab, süleysin və başqa vəhşi heyvanlar təşkil edir.**

**Iqtisadiyyatın əsasını heyvandarlıq və əkinçilik təşkil edir.**

**Işğala qədər Laçın rayonunda 1 məktəbəqədər tərbiyə müəssisəsi, 17 ibtidai, 36 doqquzillik, 36 orta məktəb, 1 kənd peşə-texniki məktəb, 54 klub, 67 kitabxana, 34 kinoqurğu fəalyyət göstərirdi.**

**Rayonun Hocaz kəndində V əsrə aid mağara məbədi, Cimcimli kəndində XIV əsrə aid Məlikəjdər türbəsi, Zeyvə kəndində XVII əsrə aid Kafir qalası, yenə orada XIX əsrə aid Sultan Baba türbəsi və Şeyx Əhməd türbələri, Hüsüllü**

**kəndində XVIII əsrə aid Həmzə Sultan Sarayı, Həkəri çayı üzərində XVIII əsrə aid körpü, Güləbird kəndində adsız türbə və digərləri memarlıq abidələrinin şanlı səhifələrini təşkil edirlər.**

**Laçın rayonu 1992-ci il may ayının 18-də faşist erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.** Düşmənə qarşı aparılan silahlı mübarizədə **259 nəfər şəhid, 225 nəfər əlil olmuşdur.**

Düşmənə qarşı döyüşlərdə fərqləndiklərinə görə **6 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşlər.**

## QUBADLI İNZİBATİ RAYONU

**QUBADLI İNZİBATİ RAYONU Kiçik Qafqazın cənub-qərb ərazisində yerləşir.**

**Rayonun ərazisi 800 kv.km-dir. Ərazisi dağlığdır. Qarabağ yaylasının cənub-şərq kənarları olan Yazı düzü Bazar və Həkəri çayları arasında 450 metrə qədər alçalır. Qarabağ dağ silsiləsi cənubda maili İncə düzünə keçir.**

**Rayonun mərkəzi Qubadlı şəhəridir. Rayonda 1 şəhər, 30 kənd ərazi dairəsi və 94 kənd yaşayış məntəqəsi var.**

**Ərazidə qış quraq və əsasən mülayim, yay isə adətən isti keçir. İllik orta yağıntı 400-600 mm-dir.**

**Qubadlı rayonunda işığala qədər 1 məktəbəqədər tərbiyə müəssisəsi, 17 ibtidai, 31 doqquzillik , 15 orta ümumtəhsil və 1 texniki-peşə məktəbi fəaliyyət göstərirdi.**

Qubadlı əsasən kənd təsərrüfatı rayonudur. Əkinçilik, heyvandarlıq, taxılçılıq və tütünçülük sahəsində inkişaf etmişdir. Rayonun torpaq örtüyü dağ-meşə torpaq tipləridir. Meşələrdə **palıd, fıstıq, vələs ağacları bitir. Meşə və dağlarda canavar, tülkü, boz dovşan, süleysin, oxlu kirpi, kəklik, turac, qırqovul, göyərçin yaşayır.**

Qubadlı rayonunun ərazisindən **Həkəri və Bərgüşad**

**çayları axır.**

**Qubadlı rayonunda 111 mədəni-maarif müəssisəsi, 60 kitabxana, 10 mədəniyyət evi, 28 klub, 6 səyyar klub, 23 kinoqurğu fəaliyyət göstərirdi.**

**Qubadlı rayonu 31 avqust 1992-ci ildə faşist erməni quldur ünsürləri tərəfindən işğal edilmişdir. Döyüşlərdə 232 nəfər şəhid olmuş, 146 nəfər isə müxtəlif dərəcələrdə əlil olmuşlar.**

**Rayonun ərazisində IV əsrə aid abidə və ibadətgah, V əsrə aid Göy qala, Xələc kəndində XV-XVI əsrlərə aid məscid, Gürcülü kəndində XVII əsrə aid türbə, Qubadlı şəhərində və Mirlər kəndində XVIII əsrə aid məscidlər, Mahmudlu kəndində Mədət bulağı, körpü və Bazar çayı üzərində 1867-ci ilə aid Laləzar körpüsü və başqa memarlıq abidələri vardır.**

## ZƏNGİLAN İNZİBATİ RAYONU

**ZƏNGİLAN İNZİBATİ RAYONU Araz çayının sol sahilində yerləşir. Ərazisi 707 kv. km-dir. Mərkəzi Zəngilan şəhəridir. Rayonda 1 şəhər, 5 qəsəbə, 20 kənd ərazi dairəsi, 79 kənd yaşayış məntəqəsi var.**

**Zəngilan rayonu 1993-cü il oktyabr ayının 29-da müasir dövrün əyani faşizmi olan erməni quldur ünsürləri tərəfindən işğal olunmuşdur.**

Rayonun səthi qərbdə dağlıq, şərq ərazidə isə düzənlikdir. Mülayim iqlim qurşağına malikdir. İllik yağıntının miqdarı **400-500 mm-dir**. Yağıntının əsas hissəsi yaz fəslinin sonunda düşür. Rayonun ərazisindən axan **Həkəri. Oxçu, Bəsit çayları Araz çayının hövzəsinə aiddir. Əlverişli çəmən torpaq örtüyü var. Ardıc və saqqızağacı meşə sahələri var. Dövlət Təbiət qoruğunda nadir Şərq çinarı mühafizə olunurdu.**

**Heyvanlardan cüyür, meşə donuzu, ayı, quşlardan turac, kəklik və digərləri meşə və dağlarda yaşayırlar.**

**Rayonun kənd təsərrüfatının əsas sahələrini üzümçülük, tütünçülük, heyvandarlıq təşkil edir.**

İşğala qədər **Zəngilan rayonunda 9 məktəbəqədər tərbiyə müəssisəsi. 19 ibtidai, 27 doqquzillik, 15 orta məktəb, 1 texniki-peşə, 1 musiqi məktəb, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub və 22 kinoqurğu var idi.**

**Rayonun ərazisində Əminxanlı kəndində XII əsrə aid Qız qalası, 1304-1305-ci illərə aid Şərifan qülləsi, XIV əsrə aid Hacalı qülləsi, XIX əsrə aid rayon mərkəzində məscidlər var idi.**

**Erməni faşist ünsürlərinə qarşı aparılan silahlı mübarizədə Zəngilanlı döyüşçülər 191 nəfər şəhid vermiş, 110 nəfər əlil olmuşdur.**

**Düşmənə qarşı aparılan döyüşlərdə igidlik göstərdiklərinə görə 2 nəfər ən yüksək ada - Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

**MATERİAL AZƏRBAYCAN SOVET VƏ COĞRAFİYA ENSİKOPEDİYALARINDA OLAN MATERİALLAR ƏSASINDA HAZIRLANMIŞDIR**

# «QARABAĞ XANLIĞININ İQTİSADİYYATI» DİSSERTASİYASI HAQQINDA MÜLAHİZƏLƏRİM

**QISA ARAYIŞ. «QARABAĞ XANLIĞININ İQTİSADİYYATI» elmi əsərin müəllifi M.M.MUSTAFAYEVDİR. Əsər əl yazması hüququndadır. Dissertasiya ön sözdən, doqquz fəsildən ibarətdir. Əsər yazılarkən müəllif 140 ədəbiyyatdan istifadə etmişdir.**

**Müəllif qeyd edir ki, dissertasiyanı 1941-ci ildə iyunun 22-də faşist Almaniyasının Sovet İttifaqına qarşı müharibəyə başlaması ilə əlaqədar olaraq dissetasiyanın müdafiəsi mümkün olmamışdır. Hərbiçi olan M.M.Mustafayev özünün dediyi kimi elmi işin müdafiəsinə 8 ildən sonra nail ola bilmişdir.**

**M.M.MUSTAFAYEV 1949-cu ildə Gürcüstanın paytaxtı TİFLİS şəhərində, İ.V.STALİN adına Dövlət Universitetinin elmi şurasında dissertasiyasını müdafiə etmişdir.**

**1949-cu ildə M.M.Mustafayev hərbi xidməti ilə əlaqədar Almaniyada olarkən, Berlin şəhərində dissertasiyasını kitab halında nəşr etdirmişdir.**

**M.M.Mustafayev uğurlu müdafiəsinə görə iqtisad elmləri üzrə alimlik adına layiq görülmüşdür.**

Elmi materialı yazılarkən dövrlə əlaqədar olaraq **birinci, səkkizinci və doqquzuncu fəslin üzərində dayanmaq məqsədə uyğun olmadığından, altı fəsillərin təhlilinə yer verməyi əsas tutmağı daha faydalı hesab etdim.** Əlbəttə, yuxarıda qeyd etdiyim fəsillər də **XX əsrin 40-cı illəri üçün elmi və metodiki cəhətdən əhəmiyyətlidir.**

**Əsərin ikinci fəsli: – «QARABAĞ XANLIĞININ TƏBİİ – COĞRAFİ ŞƏRAİTİ» adlanır.** Müəllif Qarabağ xanlığının ərazisi, digər qonşu xanlıqlarla sərhədlərini, rus işğalına kimi **(1828-ci ilə qədər)** xanlığın ərazisinin qorunub saxlanmasını, **XIX əsrin əvvəllərindən** başlayaraq Qarabağda fasiləsiz olaraq

dağıdıcı müharibələrdən ətraflı bəhs olunur.

Xanlığın etnik və əhalisinin say tərkibi haqqında məlumat verilir. **1823-cü** ilin siyahiyaalınma məlumatına görə Qarabağ xanlığında **90000 əhalinin yaşaması və xanlıqda** cəmi bir şəhər **– Şuşa şəhəri, 636 kənd olduğu göstərilir.**

**Dissertasiyada** Qarabağ dağlar ölkəsi kimi də təsvir olunur. **Böyük Kirs, Kiçik Kirs, Mirov, Saxsağan, Xonaşen, Ziyarət, Ala qaya və başqa dağ silsilələrinin adları çəkilir.**

Qarabağ xanlığının **meşəlik, çəmənlik və otlaq əraziləri, iqlim şəraiti, torpaq və bitgi örtüyü dissertasiyada ətraflı təsvir olunur.** Təbii şəraitin müxtəlifliyi, eyni zamanda da dağlıq və dağətəyi ərazilərdə iqlimin müxtəlifliyi nəzərə çatdırılır.

Dissertasiya müəllifi Qarabağ xanlığında peyda olan məliklər haqqında da öz fikrini bildirir. Bu məsələyə biz tarixi baxımdan **mənfi yanaşmağı vacib sayırıq.** Hiss olunur ki, M.M.Mustafayev məliklər haqqında məlumatı əldəqayırma «tarixçi» olan Raffinin məliklər haqqındakı saxta cızmaqaralarından götürmüşdü.

**Halbu ki, xəmsə məlikləri haqqında tarixçi Mirzə Adıgözəlbəyin «QARABAĞNAMƏ»sində daha ətraflı tarixi məlumat verilmişdir. (Bax: – həmin əsər: - səh. 36-37).**

**Əsərdə quru və çay yolları haqqında da ətraflı məlumat verilir. Çaylarda balıqçılığın inkişafı göstərilir. Ümumiyyətlə çay və su təsərrüfatlarının çətinlikləri təhlil edilir. Suvarma işlərində çayların əhəmiyyəti xanlıqda mühüm yer tuturdu.**

Qarabağ xanlığına məxsus olan zəngin meşələrdə müxtəlif heyvan və quş növləri yaşayırdı. Bir sözlə, **fauna və florası zəngin olan Qarabağın meşə və düzləri xanlığın zəngin sərvət mənbəyi idi. Dissertasiyada deyildiyi kimi:**

**“Qarabağ xanlığının meşələri xeyli ağac növləri ilə zəngindir. Palıd, vələs, fıstıq, çinar, fındıq, qovaq, sərv, göçə, ağcaqayın, qaraağac, bunlardan başqa da cır armud, al-**

**ma, zoğal, qoz və başqa ağac növləri var». Meşələrdə Qafqaz maralı, sığın, cüyür, dağkeçisi, ayı, canavar, çaqqal, tülkü, dovşan, oxlu kirpi və başqa heyvanlar da yaşayır".**

Xanlıq dövründə Qarabağın yeraltı sərvətlərindən az istifadə olunurdu. **Elmi əsərdə deyilir:**

**«Qarabağ xanlığının yeraltı sərvətindən – mis, əhəng daşı, taxıl üyütmək üçün dəyirman daşları üçün saf daş ehtiyatları, dulus gili, zəy və sairə var idi.».**

Lakin bu təbii ehtiyatlar istifadəsiz qalmışdır.

Təsərrüfatın inkişafı üçün quru yolların əhəmiyyəti dissertasiyada hərtərəfli təhlil olunur. Haqlı olaraq deyilir ki, yollar bir o qədər də əlverişli deyilidir.

**«Qarabağ xanlığında gediş-gəliş üçün üç rahat yol var idi. Bu yollardan biri Gəncədən Şuşaya, ikincisi Şuşadan Kür çayı vasitəsi ilə Nuxaya (Şəkiyə: - Y.H), üçüncüsü isə Şuşadan Araz çayı ilə İrana gedirdi. Qonşu xanlıqlarla da əlaqə saxlamaq üçün quru yollar var idi. Nəqliyyat vasitəsi kimi uzunqulaqdan, qatırdan, atdan, dəvədən geniş istifadə olunurdu.»**

**DİSSERTASİYANIN ÜÇÜNCÜ FƏSLİ QARABAĞ XANLIĞININ TARİXİNƏ HƏSR OLUNMUŞDUR.** Burada müəllif xanlığın yaranmasının zəruriliyindən, **Pənahəlı xanın Nadir şahın sarayından vətənə – Qarabağa gəlməsindən, xanlığı yaratmaq üçün apardığı mübarizədən geniş bəhs olunur.**

Qarabağ uğrunda qonşu dövlətlərin işğalçılıq meyllərindən, diyarın qədim Azərbaycan ərazisi olmasından, erməni ünsürlərinin bölgəyə gətirilməsindən, **ALBAN mənşəli məliklərin** müqavimətlərinin qırılmasından geniş bəhs olunur. Əlbəttə burada dövrün siyasi-iqtisadi təsiri də hiss olunur…

İran şahı **Nadir şahla PƏNAHƏLİ-xanın münasibətlərindən söhbət açan M.M.Mustafayev yazır:**

**«Nadir şahın şübhəli baxışları kinli idi. Qardaşının taleyini (edamını) yaşamamaq üçün Pənahəli xilasını onun**

**yanından qaçmaqda görür. Şah Pənahəlini və onun yoldaşlarını tutmaq məqsədilə silahlı atlı dəstəsi göndərirsə də heç bir nəticə əldə edə bilmir».**

Gələcək Qarabağ xanı Şəki və Şirvan ərazilərində yaşayaraq əlverişli dövrün yetişməsini gözləyir. Onu da deyim ki, belə bir dövr gəlib çatdı. **1747-ci ildə Nadir şah Xorasan yaxınlığında yerləşən Xanbuşan yaylağında öz qohumları və yaxın adamları tərəfindən öldürüldü.** Bu hadisədən sonra Pənahəli xan üzə çıxdı və xanlığın yaradılması işinə başladı.

Bu iş üçün küllü miqdarda vəsait lazım idi. Nadir şah tərəfindən vaxtilə **Xorasana sürgün edilən qarabağlılara şərait yaratmaq, ordu təşkil etmək və digər dövlət əhəmiyyətli işləri həyata keçirmçk üçün maliyyə ehtiyatı yaratmaq tələb olunurdu.** Bütün bunların uğurla həyata keçirilməsi üçün Pənahəli xan maliyyə ehtiyyatı yaratmağa başladı. O, Qarabağa **200 nəfərlik atlı ilə gəlmişdi. Bu işdə onlar Pənahəliyə yaxından köməklik edirdilər.** Pənahəli yardım üçün – **Şəki, Şirvan, Gəncə, İrəvan və Qarabağ vilayətlərinin hakim dairələrinə müraciət edirdi. Lakin müsbət cavab almırdı.**

Bir neçə tarixçilər, o cümlədən M.M.Mustafayev də Pənahəlinin bu fəaliyyətini **xoşagəlməz mənada «qarət, quldurluq» kimi qələmə verirlər. Mən bununla heç cür barışa bilmərəm. Hadisələrin sonrakı gedişi dediyimi bir daha sübut edir. Məsələn, Şəki xanı Hacı Çələbinin Bayat qalasına hücumu, qala divarları yaxınlığında Hacı Çələbi xanın tamamilə məğlub olması deyilənlərə sübutdur. Bir sıra yerli tayfalar da Pənahəli xana düşmən münasibət bəsləyirdi. Xana sədaqətli Zəngəzur mahalının hakimi Qara Murtuza bəy idi. O, Pənahəli xana çətin günlərdə dayaq olmuşdu.** Dissertasiyada birmənalı olaraq, deyilir ki, Pənahəli xan Qarabağ xanlığının banisidir, heç bir kənar fərman olmadan o, **1747-ci ildən xanlıq adını əldə etmişdir.**

M.M.Mustafayev Pənahəli xana yüksək qiymət verir. Lakin mən tarixçi alim kimi bir məsələyə də öz münasibətimi bil-

dirmək istərdim. Son zamanlar bəzi tarixçi alimlər öz əsərlərində xoşagəlməz fikirlər səsləndirirlər. **Onlar iddia edirlər ki, M.M.Mustafayev və ondan əvvəl Qarabağ xanlığına aid əsər yazanlar Pənahəli xanı quldur adlandırırdılar. Güya onların sözündən belə çıxır ki, Qarabağ kişiləri quldur olmuşlar. Belə ifadələr tarixçi alimə, ziyalıya yaraşmaz.**

**M.M.Mustafayev yazır:**

**«Görkəmli hərbi istedadı və dövlət xadimliyi ilə Pənah xan Azərbaycan tarixində xüsusi yer tutur. O, 1763-cü ildə Şirazda dünyasını dəyişmiş və ata-baba mülkü olan Ağdam şəhərində yerləşən İMARƏT adlı müqəddəs yerdə torpağa tapşırılmışdır»**

**M.M.Mustafayev Fətəli xan Əfşarın və Ağa Məhəmməd Şah Qacarın Qarabağ xanlığına hərbi yürüşlərini dolğun sürətdə qələmə almışdır. Hərbi qüvvələrə də münasibət bildirmişdir. Elə burada qeyd etdim ki, alim Qarabağ xanlığının siyasi tarixini deyil, onun iqtisadi tarixini yazmağı əsas vəzifə kimi, qarşısına qoymuşdur. Buna baxmayaraq o, tarixi baxımdan da olduqca, böyük yeniliklər əldə edə bilmişdir.**

**Müəllif elmi əsərində Qarabağ xanlığının qonşu dövlətlərlə əlaqələrinə müəyyən qədər yer verir.**

Əsərdə M.M.Mustafayev **1805-ci il may ayının 14-də Rusiya imperiyası ilə Qarabağ xanlığı arasında imzalanmış Kürəkçay sülh müqaviləsinə, 1806-cı il 12 iyunda Qarabağ xanı İbrahimxəlil xanın özü başda olmaqla, ailə üzvləri və yaxın adamları ilə birlikdə (ümumiyyətlə 35 nəfərdən çox: Y.H) rus hərbiçiləri tərəfindən öldürülməsi, Mehdiqulu xanın hakimiyyətə gəlməsi və nəhayət, 1822-ci ildə Qarabağ xanlığının varlığına son qoyularaq onun Rusiya imperiyasının əyalətinə çevrilməsinə də tam aydınlıq gətirir.**

**Alim bununla da əsərində Qarabağ xanlığının siyasi tarixini yekunlaşdırır. Sonra xanlığın iqtisadi həyatının araşdırılmasına başlayır.**

**DİSSERTASİANIN DÖRDÜNCÜ FƏSLİ KƏND TƏSƏRRÜFATI adlanır.** Müəllif qeyd edir ki, Qarabağ xanlığında iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edirdi. Onun aparıcı sahələri əkinçilik və maldarlıq idi.

**«Qarabağ xanlığında torpaq fondu təxminən 1.354.000 desyatin idi. Əkinə yararlı torpaq sahələri isə 100 min desyatin təşkil edirdi. Xanlıqda hər adam başına orta hesabla 1,1 desyatin əkinə yararlı torpaq sahəsi düşürdü. Xanlıqda əkin sahələrini genişləndirmək üçün meşələrdən də istifadə olunurdu. Deməli, ağaclar kütləvi surətdə kəsilir və sahələr əkin üçün istifadə olunurdu».**

Xanlıqda torpağı əkib-becərmək üçün **xışdan, kotandan, dırmıxdan, beldən və digər əmək alətlərindən istifadə olunurdu.** Əkin sahələrini suvarmaq üçün **arxlardan istifadə olunurdu.** Əmək alətlərinin inkişaf səviyyəsi aşağı olduğu üçün kəndli yüksək məhsul əldə edə bilmirdi. Xarici hücumlar da kəndlinin əməyinə ağır zərbə vururdu. Bütün bunlar haqqında dissertasiyada hərtərəfli məlumat verilir.

Dissertasiyada Qarabağ xanlığının bol meyvə bağları haqqında məlumat diqqəti cəlb edir. Əkin üçün istifadə olunan kotanlar və taxıl döymək üçün xırmanlar da elmi işdə qələmə alınmışdır. Əkinçilikdə növbəli əkin sisteminə də xüsusi diqqət verilirdi. Əkinçilikdə **buğda, arpa, çəltik, darı, pərinc, pambıq, kətan üstünlük təşkil edirdi.** İqlim şəraiti ilə əlaqədar olaraq **tütünçülüyə də müəyyən qədər yer verilirdi.**

**M.M.Mustafayev yazır:**

**«1822-ci ildə Qarabağ xanlığında 2200 çətvər (bir çətvər – 250 putdur) buğda, 11000 çətvər arpa, 2250 çətvər çəltik, 400 çətvər darı, 250 çətvər pərinc, 550 çətvər pambıq, 50 çətvər kətan, 5 çətvər küncüt, 7 batman gənəgərçək əkilirdi.**

**Hər il xanlıqda orta hesabla 220000 çətvər buğda, 143000 çətvər arpa, 33750 çətvər, 26000 çətvər darı, 1750 çətvər pərinc, 400 çətvər kətan, 1100 çətvər pambıq, 50 çət-**

**vər küncüt istehsal olunmuşdur».**

Kənd təsərrüfatını hərtərəfli təhlil edən alim iqtisadi həyatda maldarlığın mühüm rol oynadığını qeyd edir. **1832-ci ildə Qarabağ əyalətində iribuynuzlu davarının sayı 100 min, xırdabuynuzlu (qoyun və keçi) mal-qaranın sayı 300 min idi. Həmin ildə əyalətdə 20000 at, 2200 eşşək, 100 dəvə, 250 ayğırı və 1400 madyanı olan 11 atçılıq zavodu var idi.**

Qarabağ xanlığında **ipəkçiliyin vəziyyətindən bəhs edən M.M.Mustafayev göstərir ki, 1832-ci ildə Qarabağ xanlığı ərazisində 1600-ə qədər çəkillik var idi. İldə orta hesabla 1700 pud barama əldə olunurdu. Qeyd olunan ildə Qarabağ əyalətində 2500 arı pətəyi var idi. Hər il 600 pud bal və 200 pud mum istehsal edilirdi.**

Dissertasiyada demək olar ki, kənd təsərrüfatının bütün sahələri öz əksini tapmışdır. Bu sahələr Qarabağın iqtisadiyyatını tədqiq edən tədqiqatçı alimlər üçün əlverişli mənbədir.

Onu da deyim ki, Qarabağ xanlığının iqtisadi həyatını elmi səviyyədə araşdırarkən və ona həyat bəxş edən **ilk tarixçi – iqtisasçı alim M.M.Mustafayev olmuşdur. O, alim ki, 1941-1945-ci illər müharibəsinin qanlı döyüşlərində iştirak etmiş və yüksək hərbi rütbəyə nail olmuşdur.**

**DİSSERTASİYANIN BEŞİNCİ FƏSLİ QARABAĞ XANLIĞININ KUSTAR SƏNƏTKARLIQ SƏNAYESİ ADLANIR.** Müəllif qeyd edir ki, **xalça, palaz, cecim və məfrəş toxunması** xanlıqda geniş yayılmışdır. Bu işlə ancaq azərbaycanlılar məşğul olurdular. Əsas xammal **yun idi.** Yun **parçalardan** müxtəlif paltarlar toxunur, **xurcun və çuval hazırlanırdı.** Alim qeyd edir ki, **1832-ci ildə** yuxarıda adları qeyd olunan məhsulların istehsalı ilə kəndlərdə **1200 nəfər adam məşğul idi.**

Qarabağ xanlığında **kustar** sənayesinin şərəfi və aparıcı sahəsi **xalçaçılıq idi.** Keyfiyyətinə və yaraşığına görə Qarabağ xalçaları yalnız **Cənubi Zaqafqaziyada deyil, xaricdə də məşhur idi.**

Xalçaçılıq **ŞUŞA** şəhərinin şöhrətini durmadan artırırdı.

Qarabağ xalçaları həm **bazar üçün və həm də sifarişlə toxunurdu. Əsərdə vurğulanır ki, 1832-ci ildə Şuşada 324 usta və fəhləsi, 132 dəzgahı olan 42 ipək toxuculuq müəssisəsi var idi.** Həmin kustar sənaye müəssisələrində **dəsmal, çalma, müxtəlif bəzəkli parçalar toxunurdu.** Əsərdə müəllif **1829-cu** ildə Şuşa toxuculuq müəssisələrinin illik gəlirləri haqqında maraqlı faktlar irəli sürür.

Xalçaları, palazları, cecimləri və başqa məhsulları hazırlamaq və onlara yaraşıq vermək üçün Şuşa boyaqçıları rəngləri müxtəlif bitgilərdən – **qoz ağacının yarpaqlarından, onun yetişməmiş meyvələrindən, palıd ağacının, gicitkən bitgisinin yarpaqlarından, narın qabığından, alma ağacının nazik budaqlarının qabığından və başqa təbii bitgilərdən istehsal edirdilər. Həmin maddələr** xalq texnologiyası üsulu ilə – **suda qaynatmaq yolu ilə əldə olunurdu.** Bu işdə Qarabağ boyaqçıları xüsusi təcrübəyə malik idilər. Əsərdə qədim xalq sənətkarlığı, onun növləri barədə olduqca maraqlı faktlar var.

**Dabbaqlıq da xanlıq ərazisində mühüm yer tuturdu. Dabbaqlar gamış, öküz, inək, qoyun və keçi dərilərindən istifadə edir** və yüksək keyfiyyətli dərilər hazırlayırdılar. **At** dərisindən istifadə olunmazdı. Əsərdə dəridən hazırlanan məmulatlar haqqında geniş məlumat var.

Dissertasiyada **su dəyirmanları (taxıl üyütmək üçün), dulusçuluq, sabun bişirmə, kərpic istehsalı** ətrafında maraq doğuran faktlar var. Müəllif qeyd edir ki, orta əsrlər Qarabağ kustar sənayesinin mərkəzi **ŞUŞA şəhəri idi.** Şəhərdə öz sənətini dərindən bilən sənətkarlar var idi. Sənətkarlıq irsi xarakter daşıyırdı. Şəhərdə kustar üsulla **barıt da istehsal olunurdu.**

Şuşada **qızıl və gümüşdən zərgərlər müxtəlif bəzək əşyaları** düzəldirdilər. **Pənahabadi adlı pul da kəsilirdi.**

M.M.Mustafayev Şuşa şəhərində peşələr və bu peşələrdə çalışanlar haqqında da əsərində **1823-1832-ci illəri əhatə edən 53 peşə növünü verməklə çox böyük iş görmüşdür.**

**DİSSERTASİYANIN ALTINCI FƏSLİ TİCARƏT**

**VƏ TİCARƏT KAPİTALI. SƏLƏMÇİLİK ADLANIR.** Müəllif qeyd edir ki, xanlığın ilk dövrlərində əhalinin əsas hissəsi kənd təsərrüfatı ilə məşğul olduğundan daxili ticarət zəif idi. Bunun səbəbləri də əsərdə izah olunur.

**XVIII sonu – XIX əsrin** əvvəllərində Qarabağ xanlığında təsərrüfat **əmtəə-pul** xarakteri daşıyırdı. Daxili və xarici ticarətin mərkəzi və aparıcı qüvvəsi **ŞUŞA** şəhəri idi.

Əkinçi məhsulları, mal-qara ilə, küstar sənaye məhsulları da kənd təsərrüfatı məhsulları ilə mübadilə olunurdu.

Bazar günlərində Şuşa şəhərinin yaxınlığında yerləşən kəndlərin sakinləri öz məhsullarını satmaq və lazım olan kustar sənaye məhsullarını almaq üçün Şuşaya axışırdılar. Bazar alış verişi həm şəhərin daxilində və həm də **QALA** divarlarının yaxınlığında təşkil olunurdu.

**M.M.Mustafayev məlumat verir ki,** bazarda çoxlu kənd təsərrüfatı və kustar sənaye məhsulları satılırdı. **Alim yazır:**

**«1823-cü ildə bir çətvər buğda 18 manat 90 qəpik, bir çuval arpa 6 manat 30 qəpik, bir çuval darı 5 manat, bir batman yağ 15 manat, quzu dərisi 10 manat, bir girvənkə ipək 4 manat, bir batman yun sapı 15 manat, kilim 10 manat idi».**

Xanlıq dövründə ticarət xan xəzinəsinin əsas gəlir mənbəyi idi. Əmtəə-pul münasibətləri və ticarət inkişaf etdikcə Qarabağ xanlığının beynəlxalq ticarət əlaqələri də durmadan artırdı. Qonşu xanlıqlarla, o cümlədən xarici dövlətlərlə ticarət genişlənirdi.

Dissertasiyada Qarabağ xanlığının xarici ticarət mənzərəsi aşağıdakı kimi verilir.

«**Xanlıq dövründə Şəki, Şirvan, Gəncə, Naxçıvan, İrəvan xanlıqlarından, eyni zamanda da Tiflis və Dərbənddən Qarabağ xanlığı rus pulu ilə 90000 manat dəyərində mal alırdısa, Təbriz, Ərdəbil, Xoy, Urmiya xanlıqlarından (İran da daxil olmaqla) buraya rus pulu (gümüş) ilə 1.40000 manatlıq mal ixrac edirdi**».

Qarabağ xanlığında siyasi, iqtisadi, mədəni, mənəvi və so-

sial həyat inkişaf etdiyi dövrdə xanlıq rus istilasına məruz qaldı.

Bildiyimiz kimi ticarətdə **PUL** başlıca yer tutur. Xanlıq dövründə **xan** pulları ilə yanaşı İran tüməni də müəyyən dövrdə dövriyyədə olmuşdur. Əsərdə qeyd edildiyi kimi Qarabağ xanlığında **borc və sələmçilik də mövcud olmuşdur. İslam şəriəti sələmlə pul borc verilməsini haram hesab edir.** Xanlıqda borc sələmçiliyi ilə varlı adamlar, **tacirlər, ağalar, bəylər və digər imkanlı adamlar məşğul olurdular**.

Beləliklə, dediklərimiz, qeyd edilən misallar göstərir ki, **M.M.Mustafayevin əsəri– «QARABAĞ XANLIĞININ İQTİSADİYYATI»** xanlığın təbii-coğrafi şəraitini, sosial-ictimai və iqtisadi həyatını hərtərəfli öyrənmək baxımında dəyərli mənbədir.

**SON OLARAQ: - onu da deməliyəm ki, əsərin yazıldığı tarixi dövr hər bir tarixçi, tədqiqatçı alim tərəfindən mütləq nəzərə alınmalıdır. Hər bir xırda qüsura hay-küylə yanaşılmamalıdır. Hazırda aramızda olmayan elm adamlarına hörmətlə yanaşılmalıdır. Axı biz də….**

# ŞUŞA ŞƏHƏRİNDƏ AŞAĞIDAKI MƏHƏLLƏ BULAQLARI VAR

***XAN QIZI MƏHƏLLƏ BULAĞI.*** Bulaq Qarabağ xanlığının sonuncu xanı olan Mehdiqulu xanın yeganə övladı olan ***Xurşidbanu Natəvan*** tərəfindən çəkdirilmişdir. Bulağın mənbəyi ***Sarıbaba dağından başlayır.*** Bulağın çəkilişi ***1872-ci ilin aprel ayında başlanmış və 1873-cü ilin avqust ayının 18-də başa çatdırılmışdır.*** Bulaq ağ mərmər sal daşlarla tikilmiş və 8 gözdən ibarətdir. Şuşalılara xidmət edirdi. Bulağın suyu içdikcə içilirdi. Saxsı borularla çəkilən su əvəzolunmaz təbii nemət idi.

Sonralar həmin saxsı borular tunc borularla əvəz edildi...

***ÇUXUR MƏHƏLLƏ BULAĞI.*** Bulaq məhəllə məscidi ilə müqəddəs ocağın qarşısında yerləşən meydançanın üç yol ayrıcında yerləşir. Bulağın iki gözü var. Bulaq 1791-ci ildə inşa olunmuşdu. Əldə olan məlumata görə bulaqı məhəllənin varlı adamları tərəfindən inşa olunmuşdur.

***KİÇİK QURDLAR MƏHƏLLƏ BULAĞI.*** Bulaq küçənin yolu üzərində yerləşir. Bu bulaq da ***XIX əsrin*** sonlarında inşa olunmuşdu. Bulaq xeyriyyə məqsədilə tikilmişdir. Iki gözü var.

***KÖÇƏRLİ MƏHƏLLƏ BULAĞI.*** Bulaq üç yol ayrıcında yerləşir. Başqa məhəllə bulaqlarına nisbətən kiçik idi. Bir gözlü idi. Bulaq məhəllənin imkanlı adamları tərəfindən inşa olunmuşdur.

***AĞA DƏDƏ TƏZƏ MƏHƏLLƏ BULAĞI.*** Bulaq həmin məhəllənin hündür yerində inşa edilmişdir. Deyilənə görə bulaq ehsan məqsədilə ***XIX əsrin sonlarında*** tikilib istifadəyə verilmişdir. Bulağın iki gözü var. Bulaq Ağa Dədə adlı varlı şuşalı tərəfindən inşa olunmuşdur.

***HACI YUSİFLİ MƏHƏLLƏ BULAĞI. XIX ƏSRİN*** sonu-***XX əsrin*** əvvəllərində, məhəllənin imkanlı sakini ***Kərbalayı Səhliyalı*** tərəfindən inşa etdirilib, küçə sakinlərinə hədiyyə olunmuşdu. Bir gözlü idi.

***BÖYÜK QURDLAR MƏHƏLLƏ BULAĞI.*** Bulaq hamamqabağı məhəlləsinin sol tərəfində yerləşir. ***XX əsrin*** əvvəllərində inşa olunmuşdur. İki gözlü idi. Bulaq məhəllə varlılarından biri tərəfindən xeyriyyə məqsədilə inşa etdirilmişdir. Susanın işğal olunduğu günə ***(8 may 1992-ci ilə)*** qədər şuşalılara xidmət edirdi.

**GÖVHƏR AĞANIN AŞAĞI CÜMƏ MƏSCİDİNİN ARXA HİSSƏSİNDƏ TİKDİRDİYİ MƏHƏLLƏ BULAĞI**

Bulaq Qarabağ xanı İbrahimxəlil xanın qızı ***Gövhər ağa*** tərəfindən ***XIX əsrin*** ikinci yarısında, onun inşa etdirdiyi aşağı Cümə Məscidinin qarşısında tikilmişdir. Ehtimal etmək olar ki, bulaq məscidin gəliri hesabına, xeyriyyə məqsədilə tikilib camaata hədiyyə olunmuşdur. Baxımsızlığa görə bir müddət fəaliyyətini dayandırmışdır. ***XX*** əsrin ***60-cı*** illərində yenidən bərpa olunub istifadəyə verilmişdir. Iki gözlü və bol sulu idi.

***MEYDAN BULAĞI.*** Bulaq Şuşanın mərkəzi meydanında inşa edildiyinə görə meydan bulağı adlanır. Bulaq ***1920-ci*** ilin ortalarında tikilib istifadəyə verilmişdir. Təxminən iki metr hündürlüyündə yonulmuş daşın qabaq və arxa hissəsində su gözləri var. Bulağın üst hissəsində səliqə ilə yonulmuş Ay formasında daş var. Daşın ortasında isə yarım ay və ulduz rəmzi var. 1941-1945-ci illər müharibəsindən sonra həmin fiqurlar bulağın üzərindən götürüldü.

***ŞOR SU MƏHƏLLƏ BULAĞI.*** Bulağın suyu bir qədər şor olduğu üçün belə adlanır. Bulaq ***1854-cü ildə*** Şuşa varlısı ***Rəsibala Zəkəriyyə oğlu*** tərəfindən çəkilmişdir. Susa şəhəri erməni quldurları tərəfindən işğal olunan günə kimi bulaq fəaliyyətdə idi.

***Bulaq erməni faşistləri tərəfindən dağıdılmışdır.***

***SUSA QALASININ KƏNARINDA ÇOXLU TƏBİİ BULAQLAR VAR. ONLARIN BƏZILƏRI MÜALICƏVI ƏHƏMIYYƏTƏ MALIKDIR.***

***TURŞSU MİNERAL SU BULAĞI.*** Bulaq Şuşa şəhərindən 17 kilometr cənub-qərbdə, ***Zarıslı dərəsindən 1700 metr*** hündürlükdə yerləşən ərazidən çıxır. Elmi tədqiqatlar sübut etmişdir ki, ***Yura (Kelt dilində meşə deməkdir)*** və ***Tabaşir*** dövrlərinə malik

olan süxurlara aiddir. Suyun tərkibi təbii mikroelementlərlə zəngindir. Ürək-damar, mədə-bağırsaq, qan çatışmazlığına, qaraciyər, öd yolları, öd kisəsi və bir sıra xəstəliklərin müalicəsi üçün əvəzsiz əhəmiyyətə malikdir.

***QOTUR BULAQ.*** Şuşalıların, Qarabağın və bu bulaq haqqında məlumatı olan Azərbaycan əhlisinin ən çox sevdikləri bulaqdır. Bulaq ilin ***6 ayı gəlir, 6 ayında isə quruyurdu.*** Yaz və yay ayları uca qaya arasından axan gur su dəri, yara xəstəliklərinə, oynaq ağrılarına, qoturluğa və dəmrov xəstəliklərinə mərhəm idi. Tərkibində çoxlu təbii minerallar var. Qoturluq xəstəliyinə tutulanlar bulaqda 2-3 dəfə çimdikdən sonra tamamilə sağalardılar.

Bütün dəri xəstəlikləri olanlar Qotur bulaqda şəfa tapırdı. Bulağın suyu payız fəslinin əvvəllərində və qış aylarında quruyur. Bu isə təbiətin dərk olunmaz möcüzəsi idi.

***İSA BULAĞI.*** Şuşadan 4 kilometr aralıda, qalın meşə ərazisində idi. Bulaq onu çəkib adamlara bəxş edən azərbaycanlı ***İsa*** adlı bir nəfərin adını daşıyır. Bulağın ətrafı yaz və yay aylarında təmtəraqlı olardı. Əsl istirahət məkanı idi. Bulağın suyu şəffaf, sərin və içməli idi...

***ŞIRLAN TURŞUSU BULAĞI.*** Bulaq Şuşa şəhərindən ***18 kilometr*** qərbdə, ***Sarıbaba dağının*** ətəyində yerləşir. Bir çox xəstəliklərin müalicəsində istifadə olunurdu.

Yuxarıda qeyd etdiyim bulaqlardan başqa ***Şuşanın ətrafında xeyli miqdarda*** xırda bulaqlar da var. Bu bulaqların hamısı ***Allahın bizə bəxş etdiyi təbiətin əvəzolunmaz nemətləridir.***

**Şuşa ətrafında 100-dən çox şəfalı bulaq var.**

# ON YEDDİ MƏHƏLLƏNİN İLKİ

**Orta əsrin əvəzolunmaz tarixi yadigarı olan Şuşadan hər dəfə yazarkən hey fikirləşirəm, bu şəhərin nəyindən yazım?**



Çuxur məhəllədən bir görünüş

## Bulaq və pir

Əvəzolunmaz təbii gözəlliyindənmi, könül oxşayan küçələrindənmi, dünya memarlığının təkrarolunmaz incisi olan möhtəşəm binalarındanmı, şəhərin ilan kimi qıvrılaraq bir-birini tamamlayan küçələrindənmi? Mehriban və xeyirxah, nəcib, mərd və cəsarətli sakinlərindənmi?...

Səmadan asılı şəhər haqqında yazmaq, onu təsvir etmək həm çətin və həm də şərəflidir.

Qarabağ xanlığının banisi Pənahəli xan Şuşanın binə olunduğu məkanı seçərkən özünün dövlət xadimliyini, sərkərdəlik məharətini bir daha nümayiş etdirmişdir. Şəhəri çiyninə alıb səmaya qaldıran əzəmətli dağlar sanki onu bütün dünyaya nümayiş etdirmək istəyir. Çəmənlər, ormanlar, otlaqlar, su mənbələri və bir sözlə, həyat üçün lazım olan nə varsa hamısı şəhərin daxilində ol-

ması Şuşanı başqa qala şəhərlərindən fərqləndirən ən mühüm əlamətlərdir. Şuşanın daşı da, torpağı da tariximizin yaddaşıdır.

Şuşa - musiqi beşiyidir. **XIX əsrdə Şuşa** daha geniş şöhrət tapmağa başladı. Təsadüfi deyil ki, **XIX əsrin ikinci yarısında Şuşanı Azərbaycanın milli-mədəniyyət mərkəzi, milli musiqimizin beşiyi və Cənubi Qafqazın konservatoriyası adlandırırdılar.** Bu sahələrdə demək olar ki, şəhərin on yeddi məhəlləsinin özünəməxsus yeri və payı vardı. Bütün bunları ayrı-ayrılıqda təsvir etmək olduqca çətindir.

Şuşanın mədəni, iqtisadi, siyasi və sosial həyatı yalnız və yalnız azərbaycanlılara məxsusdur. Şuşanı dünyanın çox şəhərləri ilə müqayisə edirlər. Amma onu qeyd etmək istərdim ki, dəniz səviyyəsindən Şuşadan da yüksəklikdə yerləşən şəhərlər var. Şuşa bütün cəhətləri ilə həmin şəhərlərdən bir də onunla fərqlənir ki, **həmin şəhər qalalar Şuşa qədər elm, mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri bəşəriyyətə bəxş etməmişdir. Bu Şuşaya məxsus mənəvi nemətdir.**

**Şuşa** qədim Azərbaycan torpağında bina edilmişdir. Əldə olan məlumatlar sübut edir ki, **1750-ci ilə kimi** qala şəhərin yerləşdiyi ərazidə yaşayış olmamışdır. Uca dağlar qoynunda yerləşən ərazi qalın meşəlikdən ibarət idi. Pənahəli xanın adamları ərazidə kəşfiyyat işləri apararkən, təbiətin möcüzəsi ilə qarşılaşmışlar. Ərazinin qalın dumana qərq olması, üç tərəfdən uca dağlarla əhatə olunan ərazi xüsusilə möcüzə idi. Belə bir ərazidə xanlığın üçüncü paytaxtının inşası məqsədə müvafiq sayıldı. **Qarabağ xanlığının möhtəşəm qala şəhər paytaxtının bünövrəsi qoyuldu. Bu hadisə 1750-ci ilin avqust ayının sonuna və sentyabrın əvvəllərinə təsadüf edir.**

Dağların qoynunda yerləşən ərazidə ən böyük çətinlik axar təbii suyun olmaması idi. Yalnız **2-3 su mənbəi var idi. Bu isə gələcəkdə qala şəhərin əhalisinin suya olan tələbatını ödəyə bilməzdi. Pənahəli xanın göstərişi ilə ərazidə kənkanlar bir neçə quyu qazdılar və bu quyulardan bol şirin su çıxdı. Bu hadisədən sonra ərazi meşəlikdən və kol-kosdan təmizlənməyə başlandı.**

Ərazinin coğrafi mövqeyi olduqca müxtəlif idi. Hündür əra-

zilər çökəkliklərlə, iri qayalıqlarla, bir sözlə, inşaat işlərinə çətinlik törədən yamaclarla əhatələnirdi. Şimaldan cənuba doğru irəlilədikcə hündür ərazilər düzənliklə, **çuxur** ərazilərlə əvəz olunurdu.

**1750-ci ilin payızının əvvəllərində inşasına başlanan Şuşa qalasının ilk məhəlləsi, tarixin canlı şahidi olan ÇUXUR məhəllədir.** Məhəllə ərazisinə görə başqa məhəllələrdən əsaslı surətdə fərqlənir. Ərazi şəhərin aşağı hissəsində yerləşdiyi üçün Çuxur məhəllə adlanır.

**ŞUŞA rayonunun ərazisi 289 km$^2$-dir.** Bu rəqəm bizə sovet sistemindən qalmışdır. **1923-cü il iyul ayının 7-də qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edildikdən sonra Şuşa rayonunun ərazisi heç bir əsas olmadan əsaslı surətdə ixtisar edilərək, vilayətin keçmiş paytaxtına və Əsgəran rayonuna verilmişdir. Daha dəqiq desək Şuşa rayonunun ərazisi də əhalisi kimi erməni ünsürlərinin represiyasının qurbanı olmuşdur.** Bu cəza tədbirləri Şuşanın siyasi, iqtisadi, mədəni və sosial həyatına ağır təsir göstərmişdir…

**Heç bir siyasi ədəbiyyatda Şuşa şəhərinin ərazisi öz əksini tapmır. Bu isə təəssüf doğurur. Mənim bildiyimə görə (dəqiq) şəhərin yerləşdiyi ərazi 34 km$^2$-dir.**

**ÇUXUR MƏHƏLLƏNİN ərazisi belədir:**

**TORPAQ MEYDANDAN sol tərəfə doğru uzanan yol xanlıq araya doğru ilan kimi qıvrıla-qıvrıla gedir. Xanlıq ara (indiki MERDİNLİ) Çölçala məhəlləsinə çatanda üç yol ayrıcında başa çatır. Burada həmin yol yenidən aşağıya doğru istiqamətlənir və XANLIQ deyilən ərazi ilə əhatələnir. Şəhərin cənub-şərq hissəsindən yenidən ÇUXUR məhəlləyə doğru buruların TORPAQ MEYDANDA sona yetir.**

**YUXARIDA XANLIQ sözlərini işlətdim. Bu onunla əlaqədardır ki, Qarabağ xanlarının qohumlarının böyük əksəriyyəti həmin ərazidə məskunlaşmışdılar. İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın imarəti və digərlərinin də imarətləri Çuxur məhəllədə yerləşir.** Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın da Saray imarəti burada – Çuxur məhəllədədir.

İlk yaşayış məhəlləsi kimi Çuxur məhəllə **XVIII əsrin ikinci yarısından etibarən sürətlə inkişaf edərək, Şuşanın 17 məhəllələri içərisində özünəməxsus yer tutur.**

Çuxur məhəllədə mənim dəqiq hesablamalarıma əsasən **242-yə** qədər yaşayış binası, bir **məscid və bir saqqaxana (PİR) binası var.** Əlbəttə bu rəqəmlər cüzi miqdarda çox və az da ola bilər. Mənə belə gəlir ki, dəqiqdir. Hər evin həyətində isə **3-dən 6-ya qədər evlərin uçuqlarını da əlavə etsəm, onda ÇUXUR MƏHƏLLƏDƏ, ən azı 726 yaşayış binasının olması məlum olar. Həyətlərdə xaraba qalmış evləri mən üçdən hesablayıram.**

**HAŞİYƏ. Mənim ata evinin həyətində 6 dağılmış ev yerlərinin qalıqları 1992-ci ilin may ayının 8-ə kimi qalırdı.** Həmin evlərin demək olar ki, əksəriyyəti **XX əsrin 30-cu illərinə kimi məhv edilmişdir.**

Onu da deyim ki, **İkinci Dünya müharibəsi dövründə də (1939-1945-ci illər) Şuşanın siyasi, iqtisadi, mədəni və sosial həyatı böyük tənəzzülə məruz qalmışdır.**

Çuxar məhəllənin bütün küçələri mərmər daşlarla səliqə ilə döşənmişdir. Məhəllə məscidinin, saqqaxananın və bulağın qarşısında yerləşən meydanın səliqəsini sözlə izah etmək mümkün deyil. Məhəllənin ən mühüm problemləri, milli bayramlar və dövrün siyasi hadisələri burada qeyd edilirdi.

Məhəllə məscidinin alt mərtəbəsində üç otaq var. Otaqların biri böyük, ikisi isə ona nisbətən kiçik idi. Böyük otaqda bayram və dini mərasim günlərində ümumi məhəllə ehsanları verilərdi. Məscidin üst mərtəbəsində də bir qədər fərqli olaraq yenə də üç otaq var. Məhəllənin iki hamamı da vardı.

**Məhərrəmlik** mərasimi günlərində məsciddə və saqqaxanada saysız-hesabsız insan olardı. Hətta qonşu rayonlardan da bura ziyarətə gələrdilər. Onlar məscid və saqqaxanaya nəzir üçün qiymətli hədiyyələr və pul verərdilər. **Bahar və Qurban bayramları da 1920-ci ilə kimi Şuşanın bütün məhəllələrində olduğu kimi Çuxur məhəllədə də yüksək səviyyədə keçirilmişdir.** Qadağa illərində **(1920-1967)** həmin bayramlar məişət şəraitində, qapalı qeyd olunardı.

**1967-ci ilə kimi Bahar bayramı milli bayram hüququ aldıqdan sonra yenidən təmtəraqlı keçirilməyə başlandı. Qurban bayramı isə müstəqilliyimiz əldə edildikdən sonra sərbəst surətdə qeyd olunmağa başladı.**

Çuxur məhəllədə üç mərtəbəli binalar olduqca az idi. Demək olar ki, yaşayış binalarının **99,5 faizi iki mərtəbəli, ərzaq saxlamaq üçün alt otaqları olan bir mərtəbəli binalar idi.** Otaqlar həcmcə geniş, hündür, işıqlı, aynabəndli və üzü Qibləyə baxarlı idi. Bütün bu əlamətlər onu sübut edir ki, Şuşa əsl Azərbaycan-müsəlman şəhəridir.

Məhəllə küçələri olduqca səliqəli və təmiz olardı. Hər bir küçənin sakini öz evinin ərazisini təmiz saxlayardı. Mən ömrümün **57 ilini doğma şəhərim, Kərbalam olan Şuşada keçirmişəm. Heç bir küçədə səliqəsizlik görməmişəm.** Küçələrin sakinləri səliqə-səhmana xüsusi diqqət verərdilər.

Məhəllə sakinləri bir-birinə qarşı olduqca səmimi idilər. Böyüyə, kiçiyə, ağsaqqala, ağbirçəyə xüsusi hörmət var idi. Məhəllə ağsaqqalları özlərinin davranışları, bir sözlə şəxsi nüfuzları ilə gənclərə mənəvi cəhətdən müsbət təsir göstərirdilər. Ağsaqqalların əyləşib söhbət etdikləri küçələrdən biz keçib məktəbə və ya digər bir əraziyə getməzdik. Yolumuzu başqa yerdən salardıq. Şuşanın bütün məhəllələri kimi Çuxur məhəllə də sözün əsl mənasında azərbaycanlılar məhəlləsi idi. 1950-ci ilin ortalarına kimi Çuxur məhəllədə bir nəfər də olsun qeyri millətin nümayəndəsi yaşamamışdı. Sonradan məhəllədə iki erməni ailəsi peyda oldu. Bu ünsürlər özlərini «QAXTAQAN» (qaxtaqan erməni sözü olub qaçqın mənasını verir) adlandırırdılar. Bir sözlə qarşımızda çaqqal kimi ulayıb, tülkü kimi quyruq bulayırdılar.

Şuşanın əhalisinin azərbaycanlılardan ibarət olmasını onun mövcud olduğu tarix sübut edir. Şəhərdəki bütün məhəllələrin, küçələrin, maddi tarixi abidələrin, imarətlərin, məhəllə bulaqlarının adları dediklərimizi bir daha sübut edir.

Çuxur məhəllə yarandığı ilk günlərdən xarici müdaxilələrə qarşı mübarizənin bütün ağırlığını öz çiynində daşımışdır. Ona görə ki, qalaya yalnız bu ərazidən girmək olardı. **Qacar Məhəmmədhəsən xanın, Fətəli xan Əfşarın, Ağa Məhəmməd şah Qa-**

**carın** işğalçılıq yürüşlərinin qarşılarının alınmasında Çuxur məhəllə olduqca böyük xidmət göstərmişdir.

Əlbəttə, bu səbəbsiz deyil. Şuşanın ərazisi mərmər qayalar üzərində, təmiz və saf, bərəkətli, müqəddəs torpaq üzərində yerləşir. Bu ərazi ləkədən xalidir. Deməli, torpağın müqəddəsliyi hər şey deməkdir. Əlimizdə dəmir əsa, ayağımızda polad çarıq gəzsək müstəqil Azərbaycanımızın, onun əbədi və ayrılmaz ərazisi olan **Qarabağımızın və onun zümrüd tacı olan Şuşamızın müqəddəs torpağı kimi nemət tapa bilmərik. Torpağın müqəddəsliyi, təmiz və gözəlliyi onun yetirdiyi barında, bərəkətindədir. Ona görə ki, bu bar təmiz torpağın yetirdiyi nemətdir. Barın təamı qüvvətli, yararlı olanda ondan qidalananlar da güclü, qüvvətli, namuslu, qeyrətli, istedadlı, qorxmaz, vətənpərvər, düşmənə qarşı amansız olurlar. Belə adamlar vətənini, doğulub boya-başa çatdığı torpağının şərəf və şöhrətinin bütün dünyaya yayır və müqəddəsləşdirir.**

Bu baxımdan Şuşanın bütün məhəllələrinin və o cümlədən də Çuxur məhəllənin sakinləri də tarixin qanlı-qadalı günlərində belə hərəkət etmişdilər. Yuxarıda göstərildiyi kimi, cənubdan gələn işğalçılara, xüsusilə də Ağa Məhəmməd şah Qacarın işğalçılıq və qarətçilik yürüşlərinin qarşısının alınmasında Çuxur məhəllə sakinlərinin göstərdikləri qəhrəmanlıq unudulmazdır.

**TOPXANA** adlanan ərazidən Şuşanın qala divarlarını Qacar topçuları dağıdan zaman divarları gecə qaranlığında yenidən bərpa edən çuxur məhəllənin sakinləri idi. **Ağa Məhəmməd şah Qacarın söyüşlərinə cavab verənlər kim idi? Əlbəttə, Çuxur məhəllə döyüşçüləri.** Təssüflər olsun ki, onların haqqında əlimizdə tutarlı məlumat yoxdur. Qala divarlarının bir hissəsi Çuxur məhəllə ərazisində yerləşir.

**İbrahimxəlil xanın oğlu Məhəmmədhəsən ağanın evinin qarşısındakı divarın sağında və solunda nəzarət bürcləri var idi. Məlum olduğu kimi Şuşanın qala divrlarının ümumi uzunluğu 2,5 kilometrdir. Yeri gəlmişkən demək istərdim ki, Şuşa qalasının tarixini bilməyən və ümumiyyətlə tarixi hadisərədən xəbərdar olmayan bəzi adamlar öz cızma-qaralarında Şuşanın qala divarlarının uzunluğunu 3,5 kilometr kimi**

**qeyd edirlər. Bu isə bağışlanılmaz qüsurdur.**

Çuxur məhəllədə ən böyük, yaraşıqlı, dünyada tayı-bərabəri olmayan bina, Şuşa varlısı **Hacı Qulunun mülküdür. Bina üç mərtəbədən ibarətdir. Mülkün geniş həyətində müxtəlif meyvə, bəzək ağacları, çoxlu gül kolları var idi. Mülkün eyvanı genişliyi ilə diqqəti cəlb edirdi. Onun ətraflı daş hasarla əhatələnirdi. Geniş qapısı xüsusi zövqlə quraşdırılmışdır. Qapının ortasında mis dəmir parçasının üzərindəki DƏQQÜLBABI (qapını döymə) döyməklə binaya daxil olmaq mümkün idi.**

**Dəqqülbablar** digər binaların da ana qapıları üzərində də var idi. Biz dəqqülbabın mənasını bilmirdik. Sonralar öyrəndim ki, **dəqq ərəb sözü olub, çalma, döymə, vurma, dəqqülba isə qapını döymə mənalarını bildirir.**

İki mərtəbəli binalar da hasarla əhatələnirdi. Bir mərtəbəli kürsülü evlər isə daş çəpərlə əhatələnirdi. Məhəllənin bütün həyətləri cənnət bağına bənzəyirdi. Hamı çalışırdı ki, həyətlər, küçələri, yaşıllığa, gül-çiçəkliyə bürünsün. Çuxur məhəllə həyətlərində **tut ağaclarının sayı daha çox idi. Həyətlərdə alma, armud, heyva, gavalı, gilas, gilənar, alça ağacları da çoxluq təşkil edirdi. Məhəllədə armud yetişəndə küçələrdən yemiş iyi gələrdi…**

Həyətlərdə meyvələr yetişəndə qonşular bir-birinə pay verərdi. Bu el adəti idi. Çuxur məhəllədə xeyli sayda mədrəsə və mollaxana fəaliyyət göstərmişdir. Bu orta əsr təhsil müəssisələrində sosial vəziyyətindən asılı olmayaraq bütün uşaqlar təhsil alırdılar. Şuşada fəaliyyət göstərən **mədrəsələr XIX əsrdə təşkil edilmişdir. Mədrəsələrə adətən şagirdlər 16 yaşında qəbul olunurdular. Mədrəsələrdə dini və dünyəvi elmlər tədris olunurdu. Şuşada mədrəsənin qurtaranların bir çoxu, İranda fəaliyyət göstərən ali tipli mədrəsələrdə təhsillərini davam etdirirdilər.**

Mollaxanalar Şuşada XIX əsrin əvvəllərindən XX əsrin 20-ci illərinə kimi fəaliyyət göstərmişdir. Mollaxanalar məhəllənin bir çox evlərində və məscidin nəzdində təşkil edilmişdir. Bu təhsil müəssisəsinə 9-10 yaşlı uşaqlar qəbul olunurdu. Mollaxanalar mədrəsələr üçün şagird hazırlayırdı.

Şuşanın bütün məhəllələrində mövcud olan **mədrəsə və mollaxanalarda dini və dünyəvi elmləri dərindən bilən müəllimlər dərs deyirdilər.** Həmin təhsil müəssisələrini bitirənlərdən bir çoxu **1940-cı illərin sonuna kimi Şuşa məktəblərində dərs demişlər.**

Mən onları yaxşı tanıyırdım… Onlar Sovet Azərbaycanında məşhur olan partiya, sovet işçilərinə, elm və mədəniyyət xadimlərinə dərs demişdilər. Sovet sistemi onların əməyinə demək olar ki, heç bir qiymət vermədi…

Çuxur məhəllədə məşhur sənət və peşə adamları da vardır. **Müəllimlər, həmkimlər, incəsənət xadimləri, zərgərlər, dərzilər, dəmirçilər, toxucular, papaqçılar, boyaqçılar, saatsazlar, dülgərlər, bənnalar, qalayçılar, dabbaqlar, silahqayıranlar, nalbəndlər, çəkməçilər, sərraclar və digər mütəxəssislər var idi.**

**1920-ci ildən başlayaraq həmin sənət sahələri kəskin surətdə sıradan çıxmağa başladı.** Məhəllədə tariximizin yaddaşı olan maddi-mədəni abidələrə münasibət dəyişdi. Sakinlərin inanc yeri olan müqəddəs yerlər dağıdıldı, məscidimiz ərzaq və sənaye məhsulları anbarına çevrildi. Məhəllə hamamlarının qalıqları yellə yeksan edildi.

Məscidin qiymətli kitabları yandırıldı. Məhəllə ziyalıları vəhşicəsinə öldürüldü və ya sürgün olundular. Onların günahı nə idi? Sovet sisteminin haqsızlıqlarına və erməni soyqırımına dözməmələri idi. Sovet Rusiyası tərəfindən dövlət müstəqilliyimizin ləğv edilməsi və bolşeviklər tərəfindən (**rus və erməni bolşevikləri**) Azərbaycan və digər xalqlara qarşı soyqırımı törədənlərə qarşı nifrət bəsləmələri idi. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda, o cümlədən, Şuşada və onun ətrafında yerləşən yaşayış məntəqələrində ermənilər Sovet hakimiyyətinin onlara verdiyi səlahiyyətlərdən istifadə edərək adamlara qanlı divan tuturdular.

**1920-1937-ci illərin cəza tədbirlərinin qurbanları olan şuşalılar, o cümlədən, Çuxur məhəllə ziyalılarının əksəriyyəti ƏHMƏD AĞAOĞLUNUN 1906-cı ildə yaratdığı «DİFAİ» (Müdafiə) partiyasının üzvləri idilər.**

Şuşanın yaşlı sakinləri söyləyirdilər ki, erməni vəhşiləri şu-

şalıları kütləvi surətdə güllələyib, şəhərin yuxarı hissəsində yerləşən su anbarlarına doldurub üzərlərini daşla örtürdülər.

1960-cı ilin əvvəllərində həmin ərazidə tikinti işləri aparılarkən çoxlu miqdarda insan sümükləri aşkar edilmişdir. Bu qanlı hadisəni bütün şuşalılar yaxşı bilirdilər. 1918-1920-ci illər soyqırımı zamanı Şuşada yüzlərlə soydaşımız məhv edilmişdir.

Bundan əlavə şuşalı ziyalılar bilirdilər ki, xalqımızın qəddar düşməni olan S.Şaumyan və onun quldur dəstələri **1918-ci ilin mart qırğını dövründə nəinki Qarabağ və Şuşada, Şamaxıda 16 min, Qubada 16 min dinc sakini qətlə yetirmişdilər. Qubada 4 min azərbaycanlı, 12 min ləzgi və dağ yəhudisi öldürülmüşdür.**

Bu idi Şuşa ziyalılarının günahı. Onlar ermənilərin insanlığa yad olan qanlı əməllərinin bağışlaya bilmirdilər. Vətəni, mədəniyyəti, mərkəz şəhəri və yadda qalan siyasi xadimi olmayan erməni ünsürünü bağışlamaq olarmı? **Qətiyyətlə deyirəm, yox! Bağışlamaq olmaz!**

Yuxarıda göstərdiyim həyətlərdəki xaraba qalmış evlərin də çoxu, cəza tədbirlərinə məruz qalanların, ya da qonşu ölkələrə qaçıb canlarını qurtaranlarınkı idi. bütün bu siyasi hadisələr Şuşanın bütün məhəllələrində azərbaycanlı əhalisinin sayının kəskin azalmasına səbəb oldu…

**XX əsrin ortalarından etibarən** erməni ünsür quldurları şuşalılara qarşı siyasi taktika və strategiyalarını dəyişdilər. Vilayət partiya komitəsinin rəhbərləri azərbaycanlı kadrlarını müxtəlif bəhanələrlə yüksək vəzifələrdən azad edir, onlara partiya cəzaları verməklə, şəhərdən getmələrinə təsir göstərirdilər. Belə rəhbər işçilər cılız erməni buyruğunun qulu olanlarla əvəz olunurdular…

**Şuşa camaatı İDRİS MƏHƏRRƏMOVUN Şuşa Rayon Partiya Komitəsinin birinci katibi, SAVALAN ƏŞRƏFOVUN Rayon Xalq Deputatları Sovetinin sədri olduqlarını yaxşı xatırlayırlar.** Onların hər ikisi geniş dünyagörüşünə, hərtərəfli biliyə, təşkilatçılıq qabiliyyətinə və yüksək əxlaqi keyfiyyətlərə malik olan kadrlar idilər. Onların rəhbərliyi dövründə Şuşa rayonun siyasi, iqtisadi, sosial və mədəni həyatında böyük uğurlar qazanmışdır. Bu inkişaf Çuxur məhəllənin də həyatında aydın hiss olunurdu.

Məhəllədə mədəni quruculuq işləri sürətlənmişdir. Tarixi abidə kimi məscid və saqqaxana əsaslı təmir edilmişdir. Məscidin alt otaqlarında tikiş sexi açılmışdır. Azərbaycanlı kadrlar yüksək vəzifələrə irəli çəkilirdilər. Yaxşı yadımdadır, Rayon Partiya Komitəsində ikinci katibi vəzifəsinə soxulan bir erməni ünsürü (qəsdən adını çəkmirəm) partiya iclasında məntiqsiz çıxış edərkən dedi ki, hazırda partiya üzvlərinin say tərkibində xeyli dəyişiklik baş verib. Ermənilərin say tərkibi bir qədər də artsa, onda birinci katib məsələsinə yenidən baxıla bilər. **İdris müəllim** onun bu mənasız çıxışını gülümsəməklə qarşıladı. Bildirdi ki, mən sənin siyasi cəhətdən yararsız olduğunu bilirəm, bu barədə sənə dəfələrlə rəsmi xəbərdarlıq da etmişəm.

Rayonda olan **5** erməni kəndlərində **60-70** erməni məskunlaşdırmışdır. Bu kəndlərin heç biri rayonun iqtisadi həyatında yadda qalan mövqe tutmur. Həmin kəndlərdə bilirsən ki, **60 nəfər** erməni yaşamır. Çox yaxşı deyiblər ki, sarsaq adamlar özləri barədə həmişə yüksək fikirdə olurlar.

Rayonun **13 min nəfər əhalisinin azərbaycanlılar olması, partiya üzvlərinin 95 faizdən çoxunu da azərbaycanlı olması sənin vəzifəni də şübhə altına alır. Açıq deməliyəm ki, Rayon Partiya Komitəsinin ikinci katibi də azərbaycanlı olmalıdır.**

İclasda qınaq obyektinə çevrilən erməni ünsürü yaltaqlanaraq, səhv etdiyini, fikrini düzgün ifadə etmədiyi üçün birinci katibdən və partiya iclasının iştirakçılarından dəfələrlə üzr istədi.

Mən də Çuxur məhəllənin nümayəndəsi kimi həmin partiya iclasında iştirak edirdim.

İdris Məhərrəmovun və Savalan Əşrəfovun prinsipiallıqları vilayətin daşnaq rəhbərlərinin xoşuna gəlmədi… Onlar başqaları ilə əvəz olundular. Lakin şuşalıların yaddaşında onlar indi də yaşayırlar. Ədalətli, vətənini, xalqını, el-obasını sevən insanlar dünyasını dəyişsələr də xalqı tərəfindən heç vaxt unudulmurlar. **Allah onların hər ikisinə rəhmət eləsin! Müqəddəs məzarları nurla dolsun! AMİN!**

**XX əsrin 60-cı illərindən başlayaraq bütün Şuşa məhəllələrində ali təhsilli milli kadrların sayı artmağa başladı.** Bu mədəni yüksəliş **Şuşada 1992-ci il mayın 8-ə kimi davam etmişdir.**

Ali təhsilli müəllimlərin, həkimlərin, mühəndislərin, memarların, hüquqşünasların, iqtisadçıların sosial tərkibində köklü dəyişikliklər baş verdi.

Orta məktəblərin onuncu siniflərini qurtaranlar respublikamızın və SSRİ-nin aparıcı ali məktəblərinə kütləvi surətdə qəbul olunurdular. Onların arasında Çuxur məhəlləli şagirdlər də az deyildi. Məhəllə sakinləri çoxuşaqlı ailələrdən ibarət idi. Hər ailədə **5-10 uşaq var idi. Mən bu yazımda onların adlarını qeyd etsəm böyük siyahı alınar.** Müxtəsər desəm çoxuşaqlı ailələrin övladlarının çoxu ali məktəblərə qəbul olunurdular. Müəllimlər, həkimlər, mühəndislər, iqtisadçılar və hüquqşünaslar onların içərisində çoxluq təşkil edirdilər.

Çuxur məhəllədən olanlar arasında elmlər doktoru, müxtəlif elimlər üzrə fəlsəfə doktorları da var. Onlar bu ada gərgin elmi araşdırmalar sayəsində layiq görülmüşlər.

Məhəllə uşaqları tarixin sərt sınaqlarından məğrurluqlu çıxmışlar. **1941-1945-ci illər müharibəsi, mühəribədən sonrakı iqtisadi və sosial gərginlik bizi məktəbdən ayıra bilmədi. Mən də daxil olmaqla, yaşıdlarım da Şuşanın qarlı və boranlı günlərində ayaqlarımıza köhnə parça bağlayıb üstündən corab geyib məktəbə gedirdik. Amalımız təhsil almaq idi. Bu yoldan bizi heç bir çətinlik çəkindirə bilməzdi.**

Valideynlərimizin, xüsusilə də humanist, qayğıkeş müəllimlərimizin bizə olan münasibətləri həvəs dairəmizi artırdı. Bütün bunlar xoşbəxt gələcəyə inamımızı gücləndirdi. İndi onların heç biri həyatda yoxdur.

Həyatımızın ən ağır günlərində bizə mənəvi dayaq olan müəllimləri – **Mirzə Xosrov Axundovu, Ağa Kazımovu, Keymah Bəhmənovu, Keykavuz Bəhmənovu, Mərdan Əliyevi, Tofiq Əliyevi, Diliş Mehdiyevanı, Rüstəm Zeynalovu, Müzəffər Süleymanovu, Allahverdi Nağıyevi, Yaqub Quliyevi, Zəhra Məmmədovanı** unutmaq olarmı? Onların əziz xatirəsi həmişə bizim qəlbimizdə yaşayıb və bundan sonra da yaşayacaqdır. Belə müəllimlər olmasaydı bəlkə biz…

**XX əsrin 40-50-ci illəri** həmişə yaddaşımızdadır. Dərsliklər və digər dərs ləvazimatları çatışmırdı. Məhəllə uşaqları bir-birin-

dən faydalanırdılar. Kimdə dərslik vardısa hamımız növbə ilə ondan istifadə edirdik. Bu adət halı almışdı.

Məhəllə sakinləri həyətyanı təsərrüfatın inkişafına xüsusi fikir verirdilər. Axşam üstü mal-qara otlaqlardan qayıdanda Çuxur məhəlləni sanki onların nəfəsi qızdırırdı. Qoyun-quzunun mələşməsi küçəni böyük bir kəndə bənzədirdi. Süd, qatıq, yağ, tərəvəz və bostan məhsulları (yemiş, qarpışdan başqa) məhəllənin həyətyanı təsərrüfatından alınırdı. Ailələrin maddi tələbatı ödənildikdən sonra artıq qalan məhsulları **satmaq üçün bazara çıxarırdıq. Bazarda hər məhəllənin öz alıcısı var idi.**

Çuxur məhəllə sakinləri qış ehtiyatlarının əksər hissəsini həyətyanı təsərrüfat hesabına toplayırdılar. Kartof, yağ, pendir, bəhməz, ilçal, meyvə qurusu, müxtəlif mürəbbələr daxili təsərrüfatın məhsulları idi. Məhəllənin **Qayabaşı** adlanan ərazisində yaşayan ailələrin bəziləri **qoruq** adlanan geniş və münbit torpağa malik olan ərazidə **buğda, arpa, darı və noxud əkirdilər.** Taxılı **ulaq və ata qoşulan vəvlə döyürdülər.** Məhəllədə bu iş **1960-cı ilə kimi davam etdi.**

Qoruq və ümumi otlaq sahələrinin camaatın əlindən alınıb erməni ünsürlərinə məxsus olan kolxozlara verilməsi **Şuşada bütün həyətyanı təsərrüfatlara mənfi təsir göstərdi.** Nəticədə həyətyanı təsərrüfatlar tədricən aradan çıxmağa başladı…

Dövlət həyətyanı təsərrüfata bilərəkdən zərbə vurdu. **Nəticədə 1963-cü ildə Sovet imperiyasında dözülməz ərzaq böhranı başladı. İmperiya uzun müddət yol verdiyi səhvi düzəldə bilmədi…**

Çuxur məhəllədə adət və ənənələr milli kökə sıx bağlı idi. **BAHAR BAYRAMI** açıq formada məişət şəraitində yüksək səviyyədə qeyd olunurdu. Şuşalılar Bahar Bayramını qarşılamaq üçün əvvəlcədən hazırlıq görürdülər. Bayram üçün lazım olan ərzaq məhsulları tədarük edirdilər. Bayram günlərində ərzaq məhsulları alınmazdı. Dövlətlə əlaqəsi olan bəzi ünsürlər bu işə göz qoyurdular. Onların fitnə-fəsadı ilə bayram süfrəsi açılan zaman **«çağırılmamış qonaqlar»** qəflətən peyda olurdular. Onlar utanmadan deyirdilər: **«Gəldik ki, görək bayram axşamı tonqal qalamısınız, ya yox? Süfrənizdə vəziyyət necədir?»**

Biz işimizi əvvəlcədən müəyyənləşdirirdik. Bayram süfrəsi üçün lazım olan ərzaq məhsullarını etibarlı yerlərdə gizlədirdik. Süfrəyə çox sadə yeməklər: - **ətsiz aş, çörək, çay, su və qənd qoyardıq.** Bir neçə ev yoxlanılandan sonra iş dalınca gələnlər başqa məhəllələrə baş çəkirdilər. Hamı ayıq-sayıq idi, gələnlər əliboş gedərdilər…

Yoxlama saatlarında qaçıb qonşulara xəbər verərdik ki, ələ keçən olmasın. Ara sakitləşəndən sonra həyət qapıları (**darvazalar**) bağlanardı, bayram tonqalı alışdırılardı… Bax, beləcə bayramımızı keçirərdik.

Yuxarıda dediyim kimi, **1967-ci ildən sonra Bahar Bayramı sərbəst qeyd edilməyə başlandı. Qurban bayramı isə milli müstəqilliyimiz əldə edildikdən sonra milli hüququnu qazandı. Hər il Qurban bayramı yüksək səviyyədə, respublikamızda yaşayan bütün millət və xalqların fəal iştirakı ilə qeyd edilir. Onlar milli bayramımız olan Bahar bayramını da öz milli bayramları kimi qeyd edirlər. Azərbaycan xalqı da onların milli bayramlarını öz bayramları hesab edir və təntənə ilə qarşılayırlar. Bu göz qarşısındadır.**

**Sözün əsl mənasında MULTİKULTURALİZMİN bariz nümunəsi budur. Azərbaycan xalqının mədəni və mənəvi göstəricisi budur.**

**Şuşanın** və o cümlədən də **on yeddi məhəllənin də özünəməxsus xüsusiyyətləri var.** Bu barədə mən «**Şuşa**» qəzetinin **2015-ci il 30 noyabr tarixli 22-ci və 15 dekabr tarixli 23-cü nömrələrində nəşr olunan MƏHƏMMƏDƏLİ BƏY BAHARLI VƏ ONUN «ƏHVALATI QARABAĞ» ƏSƏRİ** sərlövhəli **məqaləmdə ətraflı söhbət açmışam. Ona görə də təkrara yol verməmək üçün bu sahədə bildiklərimi qısaca olaraq qeyd edəcəyəm.**

**XIX əsrin ikinci yarısında Çuxur məhəllədə MƏHƏMMƏD** adlı güclü, məğrur, cəsarətli və qorxmaz pəhləvan yaşayırdı. Kənardan gələn pəhləvanların heç birinə məğlub olmamışdır. O, Çuxur məhəllənin güclü gənclərindən ibarət gənc pəhləvanlar qrupu yaratmış və onlara güləşin sirrlərini öyrətmişdir. Məhəmmədin yetirmələri Şuşanın idman həyatında mühüm işlər görmüş-

lər. Bayram günlərində onlar məhəllə meydanında və **CIDIR DÜZÜNDƏ camaatın** qarşısında çıxış edərdilər. Bu hal Məhəmmədin vəfatına kimi davam etmişdir.

**XX əsrin 50-ci illərindən sonra məhəllə** uşaqlarından ibarət futbol komandası da təşkil olunmuşdur. Lakin onun tərkibi tez-tez yeniləşirdi. Yəni daimi deyildi.

**Bahar bayramı ilə əlaqədar milli idman oyunları da çox hallarda mövsümi xarakter daşıyırdı.**

**XX əsrin 70-80-ci illərində voleybol (ingilis sözü olan voleybol – havada topu qaytarmaq mənasındadır)** idman oyununda Çuxur məhəlləli **ƏŞRƏF HÜSEYNOV** Şuşanın yığma voleybol komandasının ən yüksək göstəriciyə malik oyunçu olmuşdur. Bu sahədəki xidmətləri və ümumiyyətlə Şuşanın idman işlərinin qoyuluşunda və inkişafındakı xidmətlərinə görə o, **«ƏMƏKDAR BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN XADİMİ» adına layiq görülmüşdür.**

Məhəllə uşaqları və yeniyetmələri məhəllə daxilində bir-biri ilə idmanın müxtəlif sahələri üzrə yoldaşlıq görüşləri də keçirirdilər. Bu da onlarda çeviklik, məğrurluq, dostluq, yoldaşlığın, fiziki və mənəvi keyfiyyətlərin möhkəmlənməsinə təsir göstərirdi. Bir daha qeyd edim ki, əsas məqsəd **oxumaq, oxumaq və yenə də oxumaq** idi. Çünki həyat bizi çox çətin həyat sınaqlarından keçirmişdir.

Doğrudan da, həyat hər bir kəs üçün əsl məktəbdir. İnsanın ömrü boyu sədaqətli dosta ehtiyacı var. Biz də lap gənc yaşlarımızdan özümüzə dost seçmək ehtiyacını hər an hiss edirdik. Dostu tez-tez dəyişməzdik. Bunu özümüzə sığışdırmazdıq. **«Yaxşı dost əvəzolunmaz xəzinədir».**

**Mən də özümə sədaqətli dost seçməkdə heç vaxt tələsməmişəm.** Həmişə yoldaşlıq etdiklərimə səbrlə yanaşmışam. Onları səbrlə dinləmişəm, **xoş günlərini sevinclə qarşılamışam. Kədərli günlərini özümünkü hesab etmişəm.** Məhəlləmizdən kənarda da **dost və yoldaş axtarmışam.**

**Əgər mərdlik göstərsən, giley-güzardan, paxıllıqdan, böhtandan və digər mənfi keyfiyyətlərdən uzaq olarsansa sənin yoldaşların və dostun da olar. Mərd və xoşxasiyyət insan-**

**lar həyatın nemətidir.**

**Bir dəfə İSGƏNDƏR MAKEDONUYALIDAN** soruşurlar**: - «Az müddətdə bu qədər böyük bir dövləti hansı xasiyyətinə görə ərsiyə gətirdin?» O, fikirləşmədən məğrurluqla belə cavab verir: - «Düşmənlərə lütf etmək, dostlara kəramət göstərməklə».**

Həmişə tamahkarlardan uzaq olmağa çalışmışam. Kinli adamlarla yaxınlıq etməmişəm. Belə adamlar insanlığa layiq deyildir. **Kinli adamların ürəyi həmişə kinlə dolu olar, özü haqqında yüksək fikirdə olmaqla, başqaları haqqında həmişə böhtan, şər söyləyir.** Əlbəttə, belələri ilə də qarşılaşmışam. Təklikdə ona öyüd-nəsihət də vermişəm… Lakin, lakin…

Qəlbi xəstə olanlar dünyanın ən bədbəxt adamlarıdır. Onların qəlbində başqalarına qarşı xoş niyyət ola bilməz. **Paxıllıq başqalarının uğurlarına qısqanclıqla baxmaq onların amalıdır. Uğur əldə edənlərə qarşı açıqdan-açığa ləyaqətsiz hərəkət etmək insanda təəccüb hissi doğurur. Hətta belə hərəkətlər mötəbər yerlərdə də baş verir.** Cəmiyyətdə nüfuzu olmayan, xidməti işində **yadda qalan, izi olmayan bəzi adamların bu və ya başqa sahələrdə adının çəkilməsi heç də onların uğuru deyildir… Xoşbəxt o insandır ki, zəhmətinin əsl bəhrəsini qazanır.**

Mən zəhmətlə yoğrulmuş həyatımdan olduqca razıyam. Nə əldə etmişəmsə gərgin əməyimin hesabına etmişəm. Heç kəsdən sədəqə ümmamışam. Bütün uğurlarım sədaqətli dostlarımın uğurlarıdır. Tariyel Kazımov, Bilal Axundov, Akif Məhərrəmov, Saleh Heydərov, Zahid Cəfərov, Səyyaf Quliyev, Bayram Rzayev, Vasif Quliyev, Şükür Nəsibov, Rəfael Məmmədov və Rəsul İsmayılov kimi sədaqətli dostlarımın uğurlarıdır. Bütövlükdə əziz və hörmətli şuşalıların uğurlarıdır.

Bu mehribanlıq, dostluq, sədaqət və humanistlik Şuşa torpağından bizim **qanımıza və iliyimizə hopmuşdur.** Adlarını qeyd etdiyim dostlarımın hər biri **zəngin mənəvi aləmə malikdirlər.** Qəlbləri insanlıq naminə döyünür. Mən olarla fəxr edirəm. Hər birinin xoşbəxt ailəsi var. **Müstəqil Azərbaycan dövləti üçün sədaqətli övladlar böyüdüb tərbiyə etmişlər. Övladları müxtəlif ali təhsillidir. Həkim, müəllim, hüquqşünas və sair**

**peşə sahibidirlər.** Onların özləri də yüzlərlə kadrlar yetişdirmişlər. Mənalı həyatlarını şərəfli peşəyə **müəllimliyə sərf edən** dostlarım həmişə var olsunlar.

Çuxur məhəllə Şuşanın iqlimində də fərqli idi. **Təzə məhəllədə meyvələr** Çuxur məhəlləyə nisbətən **bir ay gec yetişirdi.** Təqribən təzə məhəllə bizim məhəllədən **200 metr yüksəklikdə yerləşirdi. Yay aylarında hava burada daha sərin, qış isə soyuq keçirdi.**

**34 km$^2$ əraziyə malik olan Şuşanın təbii möcüzəsi də bu idi.**

**ÇUXUR MƏHƏLLƏ** Şuşanın ən səfalı ərazisində yerləşir. Küçə **Cənub-Şərq** istiqamətində **250-300 metr hündürlüyündə olan qaya ilə sona çatırdı. Qoruq adlanan ərazi həmin qayaların üzərində geniş** sahələri əhatə edir. Oradan bir qədər yuxarıda **40-50 metr hündürlükdə LEYLİ qayası dağ silsiləsi başlayırdı.** Qaya xüsusi təbii gözəlliyə malik idi. Onun yuxarı hissəsi insanların oturub istirahət etmələri üçün əlverişli idi. Sanki, oturacaqlar elə əvvəlcədən hazırlanmışdı. Qayanın arxa hissəsində çox da böyük olmayan çəmənlik var.

Məhəmmədhəsən ağanın evi Leyli qayasının arxa hissəsində ucaldılmışdı. Xan oğlunun imarəti **iki mərtəbəli, geniş aynabəndli, 20-ə qədər otaqdan ibarət idi. Həmin otaqların birində Ağa Məhəmməd Şah Qacar öz adamları tərəfindən qətlə yetirilmişdir.**

**LEYLİ** qayasının qarşısı **TOPXANAYA, QIZIL QAYAYA, ŞUŞA qalasının Şərq tərəfində yerləşən BAĞRIQAN DAĞINA** və digər mənzərəli dağ silsilələrinə baxır. Ona görə də həm yerli camaat və həm də yay aylarında şəhərə istirahətə gələnlər bu ərazidə təbiəti seyr etməyə böyük həvəs göstərirdilər. **Bu yerlər cənnətməkan idi.**

Məhəllə uşaqları və yeniyetmələr boş vaxtlarını burada keçirməyi sevirdilər. Bir sözlə, mənalı günlərimiz bu yerlə bağlı idi. Müxtəlif quş dəstələri də ərazinin səmasında uçardılar. Xüsusilə **Tərlan və qartalların uçuşları insanlara xüsusi zövq verirdi.** Onların balalarına havada uçmaq, qida əldə etmək qaydaları öyrətmələri xüsusilə maraqlı idi… Bu yırtıcı quşların təlim üsulları

xüsusi qaydalara əsaslanırdı.

**Topxanaya, Qızıl qayaya, Qotur bulağa, İbrahimxəlil xanın kəmənd mülkünə və digər tarixi yerlərə** yol Çuxur məhəllədən keçirdi.

**Daşaltı çayına getmək üçün məhəllənin əsas yolundan əlavə QIRX pilləkan, QAYA yolu və KƏHRAT yolları da var.** Yalnız Çuxur məhəllədən keçməklə həmin yollara çıxmaq olardı.

Leyli qayasının sağ tərəfində Şuşa qalasının əsas qapılarından biri yerləşirdi. Qapının dəmir dirəklərinin oyuq yerləri qalmaqda idi.

Valideynlərim məni dünyaya gətirmişlər. Lakin, mən **ÇUXUR** məhəllənin müqəddəs torpağı üzərində böyüyüb boya-başa çatmışam. Müqəddəs məkan olan bu torpaq mənim **KƏRBALAMDIR, KƏBƏMDİR**, ömür **zirvəmdir. Onun qarşısında baş əyirəm. Çünki Gün də baş əyir torpağa, batmaq üçün.**

# XALQIMIZIN NOVRUZ BAYRAMI

*Bütün türk dünyasının, Şərq xalqlarının xeyli hissəsi hər il Novruzu yüksək səviyyədə bayram edir. Bu, həmin xalqların milli bayramıdır və qədim zamanlardan gələn milli adət və ənənələrimizlə, xalqın milli təfəkkürü ilə sıx bağlıdır. Müəyyən dövrlərdə* **Novruza** *müxtəlif don geyindirilib, o, müxtəlif fərziyyələrlə əlaqələndirilib.*

*Novruz bayramının tarixi çox-çox qədimlərə gedib-çıxır. Mənbələr sübut edir ki, hələ 12 min il bundan əvvəl baharın gəlişi ilə əlaqədar* **NOVRUZ** *qeyd olunurdu. "Novruz" fars sözüdür. Çox maraqlıdır, necə olub ki, bu adı alıb?*

*Bəşər tarixinin ilk bayramlarından, ən əziz və müqəddəs günlərindən biri, bəlkə də, birincisi olan yeni ilin başlanğıcı, baharın gəlişinin ilk günü və bu günün milli adət və ənənələrə uyğun olaraq qarşılanması və keçirilməsi təbii görünür. Şərq xalqları -* **ərəblər, farslar** *və başqaları Novruzu öz adlarına çıxmağa, özününküləşdirməyə çalışmışlar.*

**Qədim şumerlərin tarixinin, adət və ənənələrinin araşdırılması sübut edir ki, onlar müxtəlif ictimai münasibətlər, inam və dünyagörüşləri ilə bağlı olan çoxsaylı el şənlikləri - yeni il, qurban vermə, andiçmə, müqəddəs yerləri ziyarət etmə kimi bayram şənlikləri keçirmişlər. Babillər yeni ilin gəlişini öz dövlətlərinin varlığı kimi bayram edirdilər.**

**Novruz yeni il bayramıdır. Baharın gəlişidir. Yazın gəlişi ilə qış fəsli ömrünü başa vurur, bütün təbiət oyanır, hər yerdə canlanma və yeni həyat başlanır. Azərbaycan xalqı Novruzu - yeni il, yeni gün, yaz fəslinin ilk günü Bahar bayramı kimi qeyd edir.**

**Eramızdan əvvəl VI əsrin birinci yarısında Midia dövlətinin süqutundan sonra "Avesta" İran imperiyasının dini - hüququ mərasimi qanunlar kitabı oldu. Beləliklə də, qədim bayram - "YENİ İL" bayramı farslar tərəfindən də**

**qeyd olunmağa və fars dilində Novruz kimi adlandırılmağa başlandı. Bununla da bayramın məzmunu qaldı, adı isə tərcümə olunaraq "Novruz" adlandırıldı.**

*Yazda gur leysan yağışları yağır, ətraf aləm təmizlənir, sel-su küçələri, yolları, dağ-daşları təmizləyir. Yaz yağışlarını Azərbaycan xalqı baharın ən yüksək neməti kimi qarşılayır. Bu yağışları xalqımız nemət bolluğu və bərəkət yağışları hesab edirlər.*

*Maraqlısı budur ki, ulularımız Yeni il şənliyi anlayışında kainatın dövr etməsini, hərəkətini və bu dövretməni də dəqiq hesablayaraq nəzərə alıblar. Novruza - təzə ilə keçid günü gecə ilə gündüz bərabərləşir, yəni, təzə ildən uzana-uzana gələn günlər, dekabr ayından qısalmağa başlayır, martın 21-də bərabər olur və bununla da il yenidən təzələnir.*

## NOVRUZ BAYRAMI İLƏ BAĞLI İNANCLAR VƏ SÖYLƏMƏLƏR

*Qədim adət və ənənələrimiz indi də Novruz bayramı şənliklərində yaşadılır. Hər şeydən əvvəl, bu ənənə Novruz-Bahar bayramı ilə sıx bağlı olan inanc və söyləmələrdə özünü göstərir.*

*Ulularımız Novruzu özlərinə xas olan qəribə tərzdə qeyd edərmişlər. Məsələn, onlar xırda gölməçələr düzəldib, onu su ilə doldurur, onun ətrafına yığışıb, yeni ilin gəlişini səbirsizliklə gözləyirdilər. Onlar gölməçələrə balıqlar buraxırdılar. Belə hesab edirdilər ki, Baharın gəlişini balıqlar həssaslıqla hiss edir. Bahar təbiətə gələn kimi balıqlar gölməçələrdə atılıb-düşür və gecə ilə gündüzün bərabərliyini bildirirdilər. Əcdadlarımız bununla da bilirdilər ki, köhnə il başa çatdı, təzə il təbiətə qədəm qoydu.*

*"Bahar gəldi" deyib tonqalların ətrafında mahnı oxunur, şənlik təşkil olunurdu. Bildiyimiz kimi, beş çərşənbə olur.* **Onlardan biri yalançı (yəni, dörd çərşənbə üçün hazırlıq),** *dördü isə doğruçu, yəni, Bahara qədər keçirilən çərşənbələrdir.* **Birinci doğruçu çərşənbə Su çərşənbəsi adlanır.** *Su çərşənbəsi ilə bağlı olan inanclar və sınamalar belədir:*

**Yuxuda su görmək aydınlıqdır;**
**Qaynar suyu torpağa tökməzlər;**
**Su dəhnəyə, insan arxaya bağlıdır;**
**Su axarında salınan el-oba**
**barlı-bərəkətli olar;**
**Od üstə su tökməzlər;**
**Su müqəddəsdir və sair.**

**İkinci çərşənbə Od çərşənbəsidir.** *Onunla bağlı atalar sözləri, alqışlar, qarğışlar bir deyil, beş deyil:*

**Ocağın həmişə qaynar olsun;**
**Ocağın odlu, süfrən dadlı və bərəkətli olsun;**
**Oddan pay verməzlər;**

**Üçüncü çərşənbə Yel çərşənbəsidir.**

*El arasında* **"Boz ay"** *adlanır. Bu çərşənbəni "Külək oyadan çərşənbə", "Yelli çərşənbə" də adlandırırlar. Qədim etiqadlara görə, bu çərşənbədə oyanan külək əraziləri gəzir, oyanmış suyu-odu hərəkətə gətirir, yuxuya getmiş torpağı oyadır. Ulularımız küləyi də müqəddəs saymış və ona sitayiş etmişlər:*

**Yel aparan yelinki, yerdə qalan mənimki;**
**Yelnən gələn, selinən gedər;**
**Yeldən gələn gülünən gedər;**
**Yel olmasa sel olmaz;**
**Yel bağlayanı sel açar;**

**Dördüncü çərşənbə Yer çərşənbəsidir.**

*Buna "İlaxir çərşənbə" və yaxud "Torpaq çərşənbəsi" də deyirlər. Axır çərşənbədə insanlar, yoxsulluq və məhrumiyyətlərdən qurtarmaq üçün özlərində yeni qüvvə və bacarıq tapırlar. Əkinçilər torpaq sahələrinə çıxır, əkiləcək yerlərdə kütləvi şənliklər keçirirlər. Mal-qara otlaqlara çıxarılır.*

***Torpaq haqqında aşağıdakı deyimlər var:***
**Torpağı göz bəbəyi kimi qoru;**
**Torpağa əyilən namərdə əyilməz;**
**Torpaqdan pay olmaz;**
**Torpağın bərəkətli olsun;**
**Torpağın qədrini bilməyən ulaya-ulaya qalar;**
**Torpaq ümumbəşəri nemətdir;**
**Torpağa səcdə etmək lazımdır;**
**Günəş batanda torpağa baş əyir.**

# NOVRUZ QARABAĞDA VƏ ŞUŞADA DA TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNARDI

*Bahar bayramının gəlişi xanlıq dövründə olduqca yüksək səviyyədə qeyd olunardı. Bayramın gəlişinə* **40 gün** *qalmış böyük hazırlıq işləri görülərdi. Evlərdə, həyətlərdə, küçələrdə təmizlik işləri aparılar və həyət-baca səliqə-sahmana salınardı.*

*Çərşənbələrdə milli yeməklər hazırlanardı. Qohumlar bir-birinin evinə gedər, qocalara, xəstələrə baş çəkərdilər, sovqat aparardılar. Səməni göyərtmək adət idi.*

*Milli bayramlarımızın içərisində birincisi Novruz bayramıdır. Bu bayram xalqımızın mənəvi yaradıcılığının yekunudur. Novruz bayramı Qarabağda lap qədim dövrlərdən keçirilməyə başlanmışdır. Əkinçilər, çobanlar bayramı özlərinə xas olan tərzdə qeyd edərdilər. Taxıl əkiləcək torpaq sahələrində, mal-qara saxlayanlar isə otlaqlarda, çəmənlik və dağ ətəklərində Novruzu qeyd edər, yeni ildə* **Ulu** *tanrıdan bol məhsul diləyərdilər.*

*Qədim adət və ənənələrimizi araşdıranlar indiyə kimi Qarabağda Novruzun bayram edilməsini ayrıca tədqiq etməmişlər. Bu məsələ, demək olar ki, ümumi səpkidə öyrənilmişdir. Qarabağda Novruz haqqında az-çox fikir söylənilmişdisə də, onun tarixi nəzərə alınıb dəqiqləşdirilməmişdir. Şərq müəlliflərinin Novruz haqqında verdikləri məlumatlar da dolaşıqdır. Beləliklə də, tarixi həqiqət ortada itib-batmışdır. Onların məlumatları əfsanə xarakteri daşıyır və qəbul oluna bilməz.*

*Qətiyyətlə demək olar ki, Novruz bayramı Azərbaycan xalqının mədəni həyatının məhsuludur. Onu da deyək ki, Midiya mədəniyyətini Azərbaycan xalqı yaratmışdır. Deməli, Novruz bayramı və digər adət və ənənələrimiz də o vaxtdan mövcud olmuşdur.*

*Qarabağda Novruz bayramı milli adət və ənənələrə söykənərək icra olunardı. Bu adət və ənənə "AVESTA"da yoxdur. Qarabağlılar Novruz bayramına işıq, haqq və ədalətin qələbəsi kimi baxır, onu mənəvi ruhunda yaşadır və nəsildən-nəslə ötürürdü-*

*lər. Hamı Novruz bayramını böyük mənəvi zövqlə qarşılayır, təmiz və səliqəli paltar geyir, evləri, həyət və küçələri təmizləyir, şamlar yandırır, şirin nemətlər hazırlayırdılar. Orta əsrlərdə Novruzun gəlişi, onun adət və ənənələrinin icra olunması* **Nizamül-mülkün "Səyahətnamə"sində xəbər verilir. Orda deyilir ki, bayrama bir neçə gün qalmış carçılar bazarlarda car çəkir və saray qapılarının hamının üzünə açıq olduğunu bildirirdilər. Bundan sonra padşah taxtından enib, möbidi möbidanın (muğların böyüyü, baş ruhani) qarşısında diz üstə çökərək əhalinin şikayət və arzularını dinləyirmiş. Qarabağ elləri Novruzun gəlişini təbiətin və həyatın dirçəliş günü kimi qarşılayıb, şənlik edərdilər. Gündüz ilə gecənin bərabərləşdiyi gün xalqımızın əhval-ruhiyyəsinə yeni güc verir.**

*Qarabağ xanlığı dövründə* **(1747-1822-ci illər)** *Novruz bayramı ən yüksək səviyyədə qeyd olunardı.* **Bayram 12 gün davam edərdi.** *İnsanlar bir-birinin evinə gedər, getdikləri evlərə hədiyyə aparardılar. Bayram ərəfəsində çərşənbələrdə, bayram günü imkansız ailələrə göstərilən maddi köməklik onlara kasıblığı sanki unutdurardı. Qarabağda, xüsusən də, Şuşada Novruz bütün sahələrdə misli-bərabəri olmayan səviyyədə qarşılanıb, qeyd olunardı.*

**Çərşənbə axşamlarında Şuşanın məhəllələrində və evlərin həyətlərində bayram tonqalları qalanardı. Şuşalılar çərşənbə və bayram axşamı alovlandırdıqları tonqallarda tut, alma, nar, heyva, gavalı, meynə və başqa bar verən ağacları yandırmazdılar.** *Bu, günah hesab olunardı. Yeniyetmələr Şuşanın ərazisində və ətraf yerlərində bitən, quru çırpıları və yabanı bitkilərin qalıqlarını əvvəlcə toplayır, çərşənbə gecələrində və bayram axşamı onlardan istifadə edirdilər. Bu sahədə çətənə və qanqal kolları olduqca sərfəli idi. Onlar yandıqca güclü partlayış törədirdilər, qığılcımları isə havaya qalxıb, ulduz kimi ətrafa səpələnirdi.*

*Şuşalılar tonqalı müqəddəs sayırdılar. Ailə üzvləri, qohum-qonşular tonqal ətrafına toplaşıb, şənlik edər və onun üzərindən hoppanardılar. Bu, kişilər və cavanlar tərəfindən icra olunardı. Tonqal üzərindən hoppananlar:*

**Ağırlığım-yorğunluğum odlara,**
**Dədəm gəlsin, yaz gəlsin,**
**Evimizə yaz gəlsin.**

**Ağ saqqalım işıqdır,**
**Bahara yaraşıqdır.**

*Yeri gəlmişkən, deməyi vacib sayıram ki, hər il ölkəmizdə keçirilən bayram şənliklərində çərşənbə və bayram tonqalları üstündən atılanlar* **"Ağırlığım-uğurluğum odlara"** *deyirlər. Bu isə düzgün deyil. Uğurluğu, yəni, həyatda qazanılan müsbət cəhətləri, alova, oda verib məhv etmək olmaz.* **"Uğurluğum" sözü "yorğunluğum"** *məhfumu ilə əvəz olunmalıdır. Yazın gəlişi eyni zamanda sağlamlıq və gümrahlıq deməkdir.*

*Şuşada Novruz mərasimləri ardıcıl xətt üzrə, bir-birini tamamlayan mərasim və oyunlarla icra olunardı. Əlbəttə, bu işə təcrübəli el ağsaqqalları, babalar, atalar, nənə və analar rəhbərlik edərdilər. Bu işlərə bahara ən azı* **40 gün** *qalmış başlanardı.*

**Səməni** *göyərtmək Novruzun ən ülvi və müqəddəs mərasimlərindən biridir. Bütün Azərbaycan xalqı kimi şuşalılar da səməni həm yaşıllığın, həm də əkinçiliyin rəmzi hesab edirdilər. Səməninin varlığı da, həyat verəni də, mənası da taxıldır. Qarabağ mahalının əhalisi səməni göyərtməklə yeni gələn ildə bol məhsul əldə edəcəklərinə inanırdılar.*

*Səməni göyərtmək üçün ən yüksək buğda növündən istifadə edirdilər. Səməni göyərtmək üçün ana və nənələrimiz oxuyurdular:*

**Səməni, ay səməni,**
**Göyərdərəm mən səni.**
**Sən gələndə yaz olur,**
**Yaz olur, avaz olur.**

**Səndən mən can istərəm,**
**Damara qan istərəm.**

**Qanım təmiz gərək,**
**Dostuma canım gərək.**

*Şuşada ailələrin arzu və istəklərinin həyata keçirilməsi və xəstələrin şəfa tapıb sağalmaları üçün səməni nəzir edərdilər. Səməni yetişib, döyülmə həddinə çatanda qohum və tanışlar, qapı-qonşular nəzir deyənin evinə toplaşıb, xüsusi avadanlıqlarla, daha doğrusu, kustar texnologiyalarla onu həlimi çıxana qədər əzərdilər. Məhsul hazır olduqdan sonra onu böyük həcmli mis teştə töküb, ocağın üzərinə qoyaraq müəyyən həddə kimi ağzını yenə də mis qapaqla örtərdilər.*

*Məhlul təxminən səkkiz saata qədər ocağın üstündə bişərək rəngini dəyişərdi. Teştin kənarlarında səməni halvası yarananda onun hazır olması məlum olurdu. Səməni halvası xüsusi dada malikdir. Səmənidən edilən nəzir, adətən, Novruzun ilk günündə icra olunardı. Səmənini xüsusi qablarda (kasalarda) qohumlara, məhəllə sakinlərinə nəzir kimi paylayırdılar.*

*Şuşada bişirilən səməni Azərbaycanın hər yerində məşhur idi. İstər dadına, istərsə də rənginə görə. Nəzir sahibi nəzir üçün hazırlanan səmənidən qonşu Ağdam, Bərdə, Yevlax, Ağcabədi və Füzuli rayonlarındakı qohum və tanışlarına da pay aparırdılar. Onu da deyim ki, səməni Şuşanın bir neçə məhəlləsində bişirilirdi. Həm nəzir üçün, həm də bayramın gəlişi üçün. Adətə görə, Şuşa şəhərində məskunlaşan beş-on erməni əhalisinə nəzir kimi bişirilən səmənidən verilməzdi. Hətta bu əziz günlərdə onları bulaq başına da qoymazdılar. Ona görə ki, İslam dininə görə onlar murdar hesab olunurdu. Müsəlman Şərqində də yağış yağıb kəsdikdən sonra da erməniləri bulaq başına qoymazdılar. Bunu bu ünsürlərin özləri də yaxşı bilirdilər. Həmin günlərdə onlar gözə görünməzdilər.*

*Bayram mərasimləri Şuşada* **1920-ci** *ilə kimi, yəni, Sovet rejimi qurulana qədər davam etmişdir. Şuşada bayram mərasimləri* **"Kosa-kosa"** *adı ilə məlum olan xalq mərasimi ilə başlayardı.* **XIX əsrin ikinci yarısında - XX əsrin 60-cı illərində yaşayan ağsaqqal-qocalar, "Kosa-kosa", "Qodu-qodu", "Qapı-**

**pusma" və digər mərasimlər** *haqqında gənc nəslə maraqlı söhbətlər edər və tövsiyyə edərdilər ki, bu mərasimləri unutmasınlar.*

**Kosa - qışın** - *antropomorfizmi (mifik təfəkkürdə insan xassələrini təbiət qüvvə və hadisələrinə aid etmə),* **Keçi isə yazın** - *zoomorfizmidir (heyvanları müqəddəsləşdirən dini etiqad). "Kosa-kosa" mərasimində Keçi Azərbaycanda bu sahədə keçirilən mərasimlərdə "Keçəl" rolunda çıxış edir. Şuşada "Kosa-kosa" mərasimi insanların çox oldu-ğu yerlərdə* **- Bazar başı meydanda və Çuxur məhəllədə təşkil olunardı.** *Mərasim iştirakçıları Kosa və Keçəlin torbalarına bayram hədiyyələri qoyardılar.*

*Bayram günü Şuşada axar su sahəsinə getmək adət idi. Bu işdə kəhrizlər və təbii çeşmələr mühüm yer tuturdu. Su başında* **"Çillə kəsmək"** *mərasimi təşkil olunardı. Gənclərin və uşaqların çilləsini xüsusi, ağbirçək, el arasında böyük nüfuzu olan qadınlar icra edərdilər. Bayram günü çillə kəsdirənlər sübh çağı kəhriz və çeşmələrin ətrafına toplaşardılar.*

*Çilləkəsən qadın hamıdan əvvəl orda olardı. Mərasimi başlamaq üçün dualar və suyun şərəfinə mədhnamələr oxunardı. Sonra çilləkəsən qadın və ya onun köməkçisi suyun təbiətdəki əhəmiyyəti barədə mərasim iştirakçılarına ətraflı məlumat verərdi.*

*Çillə kəsilərkən ilk olaraq çilləsi kəsilən üç-dörd qurtum su içərdi. Sonra onun hər iki əlinin baş barmaqları qırmızı sapla bir-birinə bağlanardı. Çilləçi mərasim iştirakçılarına xeyir-dua dilədikdən sonra əlindəki qayçı ilə barmaqlardakı sapı kəsib, suya ataraq deyərdi:* **- "Yeni ildə sənə gələn xata-balanı su aparsın".**

*Baharın gəlişi ilə bağlı mərasimlərdən biri də mart ayının* **21-də** *üfüqdən boylanan Günəşin qarşılanması mərasimi idi. Şuşalılar Günəşin çıxmasını müxtəlif ərazilərdə* **-Cıdır düzündə, Çanaqqala ərazisində, Leyli qayasının ətrafında, Üçmıx təpəsində və digər ərazilərdə qarşılayırdılar. Bağrıqan dağının zirvəsindən Günəşin şüaları görünən kimi böyük şənlik başlanırdı.** *Hamı bir-birini Günəşin təbiətə qədəm qoyması münasibətilə təbrik edər, yeni ildə hamıya xoşbəxtlik və hamar həyat ar-*

*zulayardılar. Şəhərin küçələrində cavanlar Günəşin şaninə mahnılar oxuyaraq Günəş mərasimini sona çatdırardılar. Günəş mərasimi* **"Qodu-qodu"** *rəvayəti ilə də bağlı idi:*

*Bu mahnı Baharın ilk günlərində Şuşada havanın buludlu və çiskinli olduğu günlərdə oxunardı. Onu da deyim ki, bu mərasimi icra edənlər maska geyər, bir sözlə, elə edərdilər ki, onları heç kəs tanımasın.*

*Şuşada xanlıq dövründə Novruz bayramı günlərində* **"Günəşi həvəsləndirmək üçün"** *həyətlərdə, küçə və meydanlarda axşamlar tonqal qalayır və evlərdə şamlar yandırardılar. Əlbəttə, bu da mifik adət və ənənələrlə bağlı idi.*

*Novruz bayramına hazırlıq işlərindən biri də şirniyyat hazırlamaq idi. Şuşada bütün şirniyyatlar -* **paxlava, şəkərbura, suxarı, qoğal və sair ev şəraitində** *hazırlanardı. Heç bir bayram şirniyyatı bazar və dükanlardan alınmazdı. Çox təəssüf olsun ki, indiki dövrdə, səməni də daxil olmaqla Novruz şirniyyatları əksər hallarda bazar və dükanlardan alınır. Deməli, onların ətri evlərimizdən gəlmir... Qohum və tanışlar evdə hazırladıqları həmin məhsullardan pay aparırdılar. Mənim yaxşı yadımdadır, ötən əsrin yetmişinci illərində Şuşanın küçələrindən keçərkən bayrama hazırlaşan ailələrin hazırladıqları şirniyyatların qoxusu insanı məftun edirdi. Sanki küçələr mətbəx rolunu oynayırdı...*

*Mərasimlərdən biri də* **"Qapıpusma"dır.** *Yeni arzularla bağlı olan bu mərasim Şuşada axşam çıraqlar yandırıldıqdan sonra başlanırdı. Bu işdə cavan oğlan və qızlar iştirak edirdilər. Həmin gün evlərdə hamı xoş sözlər deməklə qulaq falına gələnləri razı salmaq istəyirdilər. Həmin mərasim zamanı həyət qapıları açıq olardı. Qulaq falından razı qalanlar ev sahiblərinə alqış edərdilər.*

*Novruz mərasimlərindən biri də* **yumurta** *döyüşdürmək idi. Bu işin həvəskarları sağlam xoruz və toyuqların yumurtalarına xüsusi üstünlük verirdilər. Hətta belə yumurtaları əldə etmək üçün əvvəlcədən Şuşanın ətrafında yerləşən kəndlərə gedərdilər. Şuşalılar bayram yumurtalarını boyamaq üçün soğan və ağac qabıq-*

*larından istifadə edərdilər. Əldə edilən yumurtalar döyüş mərasimi başa çatdıqdan sonra ehtiyacı olan insanlara paylanardı.*

*Çərşənbə və bayram axşamlarında alovlandırılan tonqallar zamanı qoz, palıd, tut ağaclarına qonan gecəquşunun* **(İsaq-Musaq)** *oxuması mərasimə xüsusi gözəllik və məzmun bəxş edərdi. Doğrudan da, təbiət insan üçün hər şeydir, desəm, səhv etmərəm. Allaha şükür edirəm ki, mən bu mənzərənin şahidi olmuşam. Qaranquşların gəlişi, novruzgülü, qarçiçəyi təbiətin ilk bahar müjdəçiləri idilər.*

*Novruzun gəlişi ilə bağlı olan adət və ənənələrimizdən biri də nişanlı oğlan və qızlara bayram hədiyyələrinin aparılması idi. Bu mərasim milli adət və ənənələrimizə tam uyğun formada icra olunardı. Bayramlıq hədiyyələri qiymətli əşyalarla bəzədilərdi. Nişanlı qızlar nişanlılarına müxtəlif növ corablar toxuyardılar.*

*Şuşada sonuncu çərşənbə və bayram axşamlarında* **Torbaatma** *mərasimi də maraqlı olurdu. Torbaatma məhəllələrdə icra edilərdi. Torba atanlar üçün əvvəlcədən hazırlıq aparılırdı.* **Şəkərbura, paxlava, rəngli yumurta, qoz, fındıq, iydə, şabalıd, qovurğa və sair torbalara qoymaq üçün xüsusi qablarda yerləşdirilirdi. Torba atan uşaqlar çalışırdılar ki, onları tanıyan olmasın. Yeri gəlmişkən deyim ki, indiki dövrdə torba papaqla əvəz olunmuşdur. Yadda saxlamaq lazımdır ki, papağı torba ilə əvəz edib, onu ayaq altına atmaq olmaz. Bu, günahdır. Papaq xalqımız arasında qeyrət və namus rəmzidir. Papaq mərd kişi başında olar. Arzu edərdim ki, gələcək Novruz bayramlarında belə hərəkətlərə yol verilməsin...**

*Bayram günlərində mərhəmət hissi daha güclü olardı. İmkanlı adamlar az imkanlı ailələrə bayram payı alıb-göndərərdilər. Elə tədbirlər görülərdi ki, çərşənbə və bayram axşamlarında kasıb süfrəsi olmasın. Bu adət Şuşada xanlıq dövründən gələn adət idi. Bayram hədiyyəsi alan ailələr onun kim və ya kimlər tərəfindən göndərildiyini bilməzdilər. Hədiyyələri aparan şəxs onun kim tərəfindən hədiyyə edilməsini heç kəsə deməzdi. Adət belə idi.*

**Şuşada belə bir adət də var idi ki, Novruz axşamı süfrəyə yeddi nemət - securing səməni, süd, su, suxarı, sirkə, sarımsaq və süddaş qoyulardı. Bunlara baş hərfləri "S" ilə başlanan yeddi nemət deyilərdi.**

*Qarabağın hər yerində olduğu kimi Şuşada da ailə üzvlərindən və ya qan qohumlarından birini itirənlər bayram keçirməzdilər, hüzürlü hesab olunardılar. Yaxın olan həmyerliləri bayram günündə onlara hərtərəfli köməklik göstərərdilər. Bayram axşamı özlərinə hazırladıqları təamlardan onlara pay aparar və dərdlərinə şərik olardılar. Bu, onlar üçün böyük təsəlli idi.*

*Tarixin qədim dövründən gələn və xalqımız tərəfindən həmişə əziz tutulan Novruz bayramı Şuşada çox yüksək səviyyədə keçirilirdi. El gəzintiləri, ümumi oyunlar, şənliklər insanları bir-birinə yaxınlaşdırırdı, onların arasında mehribanlıq yaradırdı. Yaşlılar nağıl edirdilər ki, bayram günləri Cıdır düzündə cavanlar "Yallı" oynayar, at çapar, pəhləvanlar güləşər və tamaşaçılara mədəni xidmət göstərilərdi. Şuşalıların böyük əksəriyyəti ailə üzvləri ilə birlikdə bu mərasimlərdə iştirak edərdilər.* **"Qodu-qodu"** *mərasimi də olduqca maraqlı və yaddaqalan olurdu. İki nəfər müqəvva düzəldirdi. Müqəvvanın yuxarı hissəsində Günəşin şəkli əks olunurdu. Müqəvvaya çox ayaq əlavə edir və ona qırmızı parçadan don geyindirirdilər. Sonra müqəvvanı başları üzərinə qaldıraraq Şuşanın Rastabazar hissəsindən başlayaraq bütün küçələri gəzdirə-gəzdirə aşağıdakı mahnını gur səslə oxuyurdular:*

**Qodu-qodunu gördünmü,**
**Qoduya salam verdinmi?**
**Qodu burdan gedəndən**
**Qırmızı gün gördünmü?**

*Qodunun arxasınca gedən dəstə həmin mahnını təkrar edərək ucadan oxuyurdu. Mərasimdən bir-iki gün sonra Şuşada hava açılırdı. Günəş təbiətə sanki yeni həyat bəxş edirdi. Baharın*

*ilk günlərində Şuşa qalasında yağış yağır, duman və çiskin şəhəri öz ağuşuna alırdı. Qodunun qollarına müxtəlif əşyalar da taxırdılar.*

*Bahar bayramı günlərində Şuşa gəncləri müxtəlif oyunlar icra edirdilər. Açıq havada, göy otların üzərində oynadığımız milli oyunlar məhəllə uşaqlarını bir yerə toplayırdı.* **Bu oyunlar - "Çilingağac", "Dirədöymə", "Sacayağı", "Gizlənpaç", "Yoldaş, səni kim apardı", "Orta mərə", "Beldən hoppanma" və ya "Eşşəkbeli", uzununa və hündürlüyə tullanmaq, "Kəndirdartma", "Fırfıra hərlətmə", "Qaçış", "Kim tapar", "Beş daş"** *və sair oyunlar idi.*

**"Çilingağac"** *oyununda iki nəfər iştirak edirdi. Bu, təxminən 13-15 sm uzunluğunda fındıq və ya gərməşov ağacından çilik, yenə də həmin ağaclardan 35-40 sm uzunluğunda hamar ağacdan ibarət olan hərəkətli oyun növüdür. Püşkə əsasən bir nəfər qalib olardı. O biri oyunçu isə qalib oyunçu tərəfindən vurulan çiliyi havada tutmaqla qalib sayılırdı. Bu isə bir o qədər də asan deyildi. Çilik uzaq məsafədə yerə düşərdi. Əsas məsələ çiliyin uçuş istiqamətini müəyyənləşdirib tutmaq idi.*

***"Dirədöymə"*** *gənclərdə qüvvə və dözüm tələb edirdi. Bu oyunda iki və dörd nəfər iştirakçı olur. Torpaq üzərində böyük dairə cızırdıq. Dairənin içərisində göndən hazırlanmış kəmər düzərək oyuna başlayırdıq. Bu oyunda da püşk mühüm yer tuturdu. Püşkü uduzanlar dairənin içərisində dayanaraq, onun ətrafında olan qaliblərlə əl-ələ tutaraq bir-birini dairənin içərisinə və ya kənara çəkməyə çalışırdılar. Güclülər dairədən oyunçuları növbə ilə çəkib-çıxarırdılar. Əgər dairənin içərisindəki oyunçulardan biri rəqibini dairənin içərisinə çəkirdisə, qalib kimi komandalar yerlərini dəyişirdilər. Kəmərləri ələ keçirənlər rəqiblərini bel qurşağından aşağı yaxşıca kötəkləyirdilər.*

***"Giçlənpaç"*** *oyunu da maraqlı idi. Bu oyunda təxminən səkkiz-on nəfərə qədər oyunçu iştirak edirdi. Gizlənən oyunçuları tapmaq üçün gözünü yuman gözünü açaraq oyunda iştirak edənləri axıra kimi tapmalı və qalib gəlməli idi. Oyunda ilk tapılan*

*sonrakı mərhələdə tapıcı rolunu icra edirdi.*

*"**Yoldaş, səni kim apardı?**" oyunu da bizim çox sevdiyimiz əyləncələrdən biri idi. İki komandanın iştirak etdiyi bu oyunda hər tərəfdən beş nəfər (bəzən də çox) oyunçu iştirak edərdi. Tapan komandanın bir nəfərinin gözlərini təmiz dəsmalla bağlayırdılar. Aparan komandanın bir nəfər üzvü onun qolundan tutaraq müəyyən məsafəyə qədər aparmalı idi. Bu müddət ərzində tapan aparanın kim olduğunu tapmalı idi.*

*"**Orta mərə**" oyununu iki mərhələ üzrə icra edirdik. Düzənlik ərazinin hündür hissəsində mərə (çala) qazırdıq.*

*Çalanın diametri 50-60 sm-dən çox olmurdu. Ora müəyyən sayda qoz atırdıq. Qozlar mərəyə cüt sayda düşməli idi. Qozu mərəyə cüt sayda salan oyunçu yoldaşı ona həmin sayda qoz verməli idi. Əks təqdirdə, mərəyə qozlar tək sayda düşərdisə, həmin qozlar rəqibə çatırdı.*

*Orta mərənin başqa bir növü də var. Bunun üçün düzənlik ərazidə, yuxarıda göstərdiyim həmcdə, 8 sm dərinliyində çala qazılır. Həmin çalanın içərisinə uzunluğu 40-50 sm olan hamar və möhkəm ağac qoyur, sonra həmin ağacın çalada olan hissəsinin üzərinə 5 sm uzunluğunda olan çiliklər qoyurduq. Çiliklərin sayı 5-dən çox olmamalı idi. Oyun hazır olduqdan sonra bir nəfər ağacı ayağı ilə vuraraq onun üzərinə düzülmüş çilikləri kənara səpirdi. Kim çilikləri uzaq məsafəyə yayırdısa, o, qalib hesab olunurdu.*

*"**Beldən hoppanma**" da maraqlı əyləncələrdən biri idi. Oyunda iki komanda iştirak edir. İştirakçıların sayını komandalar özləri müəyyən edirlər. Oyunda püşkə əsasən uduzan tərəfdən bir nəfər əllərini dizlərinə qoyaraq əyilir, rəqib komandaların üzvləri (təxminən 5-8 nəfər) növbə ilə onun üzərindən tullanırdılar. Tullananlar müəyyən olunmuş xəttə düşə bilmədikdə məğlub olub, yerlərini dəyişirdilər. Buna biz öz aramızda "Eşşəkbeli" də deyirdik.*

*"**Uzununa və hündürlüyə tullanma**" hamıya məlum olduğu üçün bu barədə geniş izahata ehtiyac yoxdur. Uğur əldə edən*

*qalib hesab olunurdu.*

***"Kəndirdartma"da** 5-8 nəfər iştirak edir. Komandaların üzvlərindən kimlər müəyyən xəttə kimi çəkib-gətirilirdisə, onlar məğlub hesab olunurdular. Oyunda ən güclülər iştirak edirdilər.*

***"Fırfıra".** 15 sm uzunluğunda hamar, 2-3 sm qalınlığında çubuğu alovda ütürdük. Sonra 2 sm eni, 1 sm qalınlığında diametrli çubuğu yaxşıca hamarlayırdıq. Sonra çubuğun boş hissəsinə 7-8 sm uzunluğunda nazik kartonu tən ortadan deşib, ağacın boş hissəsinə mıxça ilə birləşdirirdik. 4 sm enində iki vərəqi kəsib, yapışqanla kartonun yuxarı və aşağı hissələrinə yapışdırırdıq. Onu qaçaraq hərəkətə gətirir və ya hündür qayaların üzərinə çıxararaq bu əyləncəni davam etdirirdik. "Çuxur məhəllə"nin aşağı hissəsində belə yerlər çox idi.*

***"Qaçış".** Bahar bayramı günlərində, Şuşanın aşağı hissəsində "Qoruq" adlanan düzənlikdə bir-birimizlə fərdi və ya kollektiv surətdə qaçış yarışları keçirər və qalib gəlmək üçün səy göstərərdik. Ona görə də sağlam və cəld olardıq.*

***"Kim tapar".** İki nəfərin oynadığı bu əyləncə bahar hədiyyələri ilə bağlı olardı. İştirakçılar əllərinin birində, sol və ya sağ əlində, kiçik bir əşya tutardı. Sonra hər iki əlini irəli uzadaraq qarşıdakı oyunçuya müraciət edərək deyərdi: "Hansı əlimdədir?" Əgər tapan məqsədinə nail olardısa, uduzan ona paxlava, suxarı, şəkərbura və başqa bayram hədiyyələri verərdi.*

**"Beş daş".** *Bu oyun* **altı mərhələdən ibarətdir.** *Oyunda* **qızlar iştirak edir.**

**Birinci mərhələdə -** *daşlar oturaq halda qarşıya atılır, oyunçu daşın birini götürür, onu havaya ataraq, daşları yerdən götürüb sol əlinə yığır.*

**İkinci mərhələdə** - *oyunçu daşları yerdən iki-iki götürür.*

**Üçüncü mərhələdə** - *oyunçu daşın birini tək, qalan üçünü isə birlikdə götürür.*

**Dördüncü mərhələdə** - *oyunçu daşın dördünü birlikdə qarşısına qoyur və sonra onları birlikdə götürür.*

**Beşinci mərhələdə -** *oyunçu daşların birini əvvəlki mərhə-*

*lələrdə olduğu kimi yuxarı ataraq hamısını əlinə yığır və sona kimi onları yuxarı ataraq daşları iki əlində cəmləşdirir.*

**Altıncı mərhələdə -** *oyunçu daşları yerə atır, sol əlinin baş və şəhadət barmaqlarını körpü kimi yerə dayayıb dörd daşı bir-bir ordan keçirir.*

*Əgər oyunçu hər hansı bir mərhələdə nöqsana yol verərdisə uduzmuş olurdu.*

*Ola bilər ki, bəzi əyləncələri mən qələmə ala bilməmişəm.*

*Şuşada yadımda qalan və heç bir zaman unutmadığım hadisələrdən biri də bahar gəzintiləri idi. Həmin gəzintilər Şuşanın "Rastabazar"ından başlayaraq "Şeytanbazar"a, ordanda "Cıdır düzü"nə kimi uzanıb-gedərdi.*

*Şuşanın adlı-sanlı ağsaqqalları, alicənab, hörmətli el adamları bahar gəzintilərinə xüsusi gözəllik və məzmun verərdilər. Bütün bunlar XX əsrin 60-cı illərinin sonundan 1992-ci ilin may ayının 8-ə kimi davam etmişdi.*

**Şuşada bahar gəzintilərinə təravət və gözəllik verənlər kimlər idi? Seyid Sadıq Həsənov, Mirzə Xosrov Axundov, Həsən İxfa Əlizadə, Ağa Kazımov, Mərdan Əliyev, Rüstəm Zeynalov, Tofiq Əliyev, Hüseyn Kərimov, Rza Hüseynov, Əsəd Səfərov, Hüseyn Hüseynov, Səməd Heydərov, Səttar Məhərrəmov, İdris Məhərrəmov, Əyıb Dolçayev, Yəhya Novruzov, Həsən Ələkbərov, Əbdüləli Bədəlov, Hilal Axundov, Məhərrəm Quliyev, Əyyub Kazımov, Cümşüd Ağayev, Ağalar Cəfərov, Bəylər Əliyev, Sabir Zeynalov və sair.**

*İndi iyirmi altı ildir ki, şuşalılar Bahar bayramını Şuşasız qeyd edirlər. Əlbəttə, Şuşa qalasındakı kimi yox!..*

# QƏLƏMƏ ALDIM Kİ, UNUDULMASIN...

*Şuşadan söhbət düşəndə bu şəhər-qalanı təsvir etmək mümkün deyil. Ona görə ki, təbiətin möcüzəsi olan bu diyarın hər qarış torpağı, çəmənliyi, ormanı, yaylağı, dağı, dərəsi, təpəsi, meşəsi, sıldırım qayaları ayrı-ayrılıqda hələ də açılmamış sirli tarixdir. Ozü də tayı-bərabəri olmayan bəşəri tarixdir. Dəfələrlə vurğuladığım kimi:*

**Şuşa bir qaladır,**
**Torpağı Kərbəladır.**
**Vüqarlı dağ qartalıdır,**
**Doğma Qarabağımızın**
**Baş tacıdır.**

*Şuşa özünün təbii mənzərəsi, yer adları və memarlıq abidələri ilə də başqa şəhərlərdən fərqlənir. Bu isə təbiidir. Deməli, Ulu Tanrı Şuşa qalasından təbii gözəllikləri əsirgəməmişdir. Xalqımızın belə bir deyimi var:* **"Yurd yeri viran olsa da, əzizdir, cənnətin özündən də gözəldir".** *Doğulduğun, boya-başa çatdığın ana yurdu heç bir nemətlə əvəz etmək mümkün deyil. Şuşa Azərbaycanın ayrılmaz və əbədi tərkib hissəsidir. Hamı bunu bilir. Şuşa bütün azərbaycanlıların, o cümlədən də, biz şuşalıların cənnət-məkan yeridir. Ona görə də Şuşamızı ana yurdu adlandırır və onu Ana müqəddəsliyi ilə müqayisə edirik.*

*Məlum səbəblərə görə biz Şuşaya gedə bilmirik. Amma şəhər öz yerindədir, sahiblərini və sakinlərini intizarla gözləyir. Doğma yurda qayıtmağımıza az vaxt qalır. Siyasi alverin girdabına düçar olan Şuşa rus qoşunlarının köməyi ilə erməni quldurlarının əlinə keçmiş və onlar şəhərimizi qarət və talan etmişlər. Quldurlar şəhər daxilin də və onun ətraf ərazilərində tarixi yerlərimizi vəhşicəsinə məhv etmiş və onlara tarixdə heç vaxt mövcud olmayan erməni adları vermişlər. Daşnaklar yaxşı bilirlər ki, on-*

*ların bu vəhşi hərəkətləri tarixi baxımdan olduqca saxta və qəbuledilməzdir.*

*Dəfələrlə qeyd etdiyimiz kimi, ermənilər bəşər tarixində yalnız satqınlıqları və xəyanətləri ilə iz qoymuşlar. Onların folkloru, dastanları, nağılları, müxtəlif deyimləri və sair yoxdur. Ermənilər mənəvi nemətləri başqa xalqlardan oğurlamaqla məşğul olmuş və indi də belədir.*

*Şuşada və onun ətrafında tarixən xalqımız tərəfindən müəyyən olunmuş yer və yurd yerləri azərbaycanlıların təfəkkür ifadəsinin təzahürüdür.*

*Artıq hamıya məlumdur ki, Rusiya imperiyası İrəvan xanlığını ləğv edərək onun yerində oyuncaq erməni vilayəti, XX əsrin əvvəllərində isə erməni dövləti yaratdı. Bununla da Cənubi Qafqazda indiki bəlaların əsası qoyuldu. Rusiya imperiyası, ardınca SSRI və nəhayət, onun hazırda varisi hesab olunan Rusiya Federasiyası regionda öz məqsədlərini həyata keçirmək üçün həmişə ermənilərdən istifadə etmişdir. Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə ərəfəsində Rusiyanın kobud şəkildə müdaxiləsi nəticəsində qondarma Dağlıq Qarabağ problemi yaradıldı. Bu uydurma problemin əsasında nə durur? Azərbaycan Respublikasının ən qədim, əzəli və ayrılmaz ərazisi olan Qarabağın dağlıq hissəsini ələ keçirmək. Digər tərəfdən Cənubi Qafqazda siyasi və iqtisadi dayaqlarını itirən Rusiya yenə də ermənilərdən istifadə edərək regionda sabitliyi pozmaq və laxlamaqda olan mövqelərini onların vasitəsilə qoruyub-saxlamaq məqsədi güdür. Rus ordusunun və silahının köməyi ilə ermənilər torpaqlarımızın 20 faizini işğal etmiş və müvəqqəti olaraq hələlik bu ərazini işğal altında saxlayır. Amma bu, müvəqqəti xarakter daşıyır. Biz yuxarıda qeyd etdiyimiz kimi yurd yerlərimizə tezliklə qayıdacağıq. Mütləq qayıdacağıq. Ermənilər, o cümlədən də, hazırda hakimiyyətdə olan daşnaklar çox yaxşı bilirlər ki, başqalarının iştirakı ilə işğal etdikləri torpaqları heç də uzun müddət əldə saxlaya bilməyəcəklər. Digər tərəfdən də onu bilirlər ki, "Ermənistan" deyilən ərazi tarixən Azərbaycan ərazisidir. İrəvan şəhəri İrəvan xanlığı-*

*nın mərkəzi olub, onun adı ilə* **"İrəvan xanlığı"** *adlandırılmışdır.*

*Bəli, bu torpaqlar bizimdir, onlardan Azərbaycan xalqının qoxusu və nəfəsi gəlir. Vətən, torpaq məhfumu ermənilər üçün olduqca yaddır. Ona görə ki, onlar* **qaxtaqandırlar,** *yəni qaçqındırlar.*

**Müstəqil Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü kobud surətdə pozulmuşdur. Bu, 1975-ci ildə Finlandiyanın mərkəzi Helsinkidə Avropada təhlükəsizlik və əməkdaşlığa dair keçirilən müşavirənin (ATƏM) yekun aktına tamamilə ziddir. Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının imzaladıqları yekun aktında aşağıda göstərilən öhdəliklər öz əksini tapmışdır:**

**1) Suveren bərabərlik, suverenliyə aid hüquqlara hörmət edilməsi; 2) zor işlətmək, yaxud zor gücü ilə təhlükə yaratmamaq; 3) sərhədlərin toxunulmazlığı; 4) dövlətlərin ərazi bütövlüyü; 5) mübahisələrin dinc yolla nizama salınması; 6) daxili işlərə qarışmamaq; 7) insan hüquqlarına və azadlıqlarına, o cümlədən, fikir, vicdan, din və məsləkə hörmət edilməsi; 8) hüquq bərabərliyi və xalqların öz taleyini həll etmək hüququ; 9) dövlətlər arasında əməkdaşlıq; 10) beynəlxalq hüquq üzrə öhdəliklərin vicdanla yerinə yetirilməsi.**

*Həmin siyasi öhdəlikləri təsdiq edən dövlətlər öz vədlərinə əməl edirlərmi? Əlbəttə, yox! Ohdəlikləri imzalayanlardan yalnız siyasi cəhətdən iflasa uğrayan SSRI tarixə qovuşmuş, onun varisi isə Rusiya Federasiyasıdır. Onun əməlləri Qarabağda, Gürcüstanda, Ukraynada və digər regionlarda hamıya məlumdur. ABŞ başda olmaqla digərləri barədə də eyni fikirləri söyləmək olar. Ərəb ölkələrini xarabazara çevirən onlar deyilmi?*

*Ermənilər beynəlxalq müşavirələrdə yuxarıda göstərilən yekun aktının 8-ci bəndindən bərk yapışırlar. Bu ünsür artıq torpaqlarımızda qeyri-qanuni yolla öz dövlətlərini yaratmışlar. İkinci dəfə də dövlət yaratmaq cəhdlərinə nə ad vermək olar? Sadəcə olaraq bu, siyasi əxlaqsızlıqdan başqa, bir şey deyil. Onların məskunlaşdıqları ərazilər bizimdir və heç şübhə yoxdur ki, biz*

*ora sahib çıxacağıq.*

**ETNOS anlayışı ermənilər üçün olduqca yaddır. Etnosa aid əlamətlərin heç biri onlara xas olan amil deyil. ETNOS - müəyyən ərazidə ümumi, nisbətən sabit mədəniyyət, dil, psixika xüsusiyyətlərinə malik olan, eləcə də özlərinin birliyini və başqa etnik qruplaşmalardan müəyyən dərəcədə fərqlənmələrini dərk edən tarixən formalaşmış insan birliyidir. Bu əlamətlərin heç biri ermənidə yoxdur, ola da bilməz. Erməni "başbilənləri"nin dedikləri kimi, onlar dünyanın hər tərəfinə yayılmışlar. Hətta erməni adı da saxtadır.**

**Belə olduğu halda, erməni "mentalitetindən" danışa bilərikmi? Əlbəttə, yox! MENTALİTET - insan şüurunun elə bir qatıdır ki, orda adətlər, ənənələr, dünyanın intellektual tərzdə dərk olunmasının tarixən müəyyənləşdirilmiş yolları, yəni, başqa sözlə, xalqın mənəvi adətlər komplekti kök salmışdır. Vətəni, mədəniyyəti, təmiz qanı və saf adət və ənənəsi olmayan ünsürdən həmişə xəyanət gözləmək olar.**

*Ozümün gördüklərim, bildiklərim və eşitdiklərim haqqında müəyyən fikir və mülahizələrim barədə də söhbət açmaq yerinə düşər. Bunlar Şuşanın daxilində və onun ətraf ərazilərində mövcud olan yer və maddi-mədəniyyət adlarıdır. Əvvəlcə onu qeyd edim ki, bu işdə mənə kömək edən* **Firudin Əşrəfova, Vasif Quliyevə, İlham Əşrəfova və Süleyman Məmmədova** *öz minnətdarlığımı bildirirəm.*

**Şuşada olan məhəllələrin adları - Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyuluq, Hacı Yusifli, Merdinli, Qazançılı, Çölqala, Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı və Təzə məhəllələrdir.**

**Şuşa hamamları - 18 hamam.**

**Şuşanın hər bir məhəlləsinin məscidi olmuşdur.**

*Onların sayı 17 idi. Bunlardan əlavə, iki məscid - Yuxarı və Aşağı Gövhər ağa məscidləri də var. Digər müqəddəs dini ocaqlar da mövcud idi. Onların sayı da 17-dir.*

# ŞUŞANIN QALA DİVARLARI VƏ BÜRCLƏRİ

**Şuşada xanların, onların övladlarının, qohumlarının ali ruhani təbəqələrinin, bəylərin, ağaların, tacir və digər sosial təbəqələrin imarətləri. Çoxsaylı mədrəsələr, mollaxanalar və məktəblər.**

**Sənətkarlara məxsus emalatxanalar, tacir dükanları. Bazar başı, Rasta Bazar, Şeytana Bazar, Aşağı Bazar, məhəllə bulaqları, karvansaralar, əczaxanalar və digər sosial xidmət sahələri. Şəhərin daxilində olan körpülər, tağbənd kanalizasiya sistemi.**

**Tarixən ulularımız tərəfindən müəyyən edilmiş yer adları. Şuşa qalasının ətraf ərazilərində: Topxana, Qotur bulaq, Qırxpilləkan, Cıdır düzü, Potu və Potu keçidi, Kərim yatağı, İbrahimxəlil xanın qaya istirahət kompleksi, Damcılı kaha, Şuşa kahası, Ağzıyastı kaha, Uçmıx təpəsi, Gəlin qayası, Xəzinə qayası, Qara kaha, Əmcik kaha, Daş xırman, Dovşanlı meşəsi, Qızıl qaya, Şiş qaya, Ağabəyim ağa tərəfindən Daşaltı çayı üzərində salınmış körpü, Ağa körpüsü, Ağabəyim ağa tərəfindən Daşaltı çayının sağ sahilində inşa edilmiş istirahət kompleksi, Çaxmaq meşəsi, Bağrıqan dağı, Şor bulaq, İsa bulağı, Qaya bulaq, Qara qaya və ya Xanölən səngər, Dəvəbatıran və Lilli göl, Daşaltı çayı sahilində inşa edilmiş və Qarabağ xanı İbrahimxəlil xana məxsus 7 su dəyirmanı, Yaranmış adlanan ərazidə İbrahimxəlil xan tərəfindən inşa edilmiş körpü və su dəyirmanları, Dövtələb, Çanaqqala, Dabbaqxana kaha keşməsi, Yarma keçidi, Qaya yolu, Zoğallı meşə, Şuşa şəlaləsi, Kəhrat yolu, Mirzə Həsən qəbiristanlığı, Rus məzarlığı, Tülkü dərəsi, Gəncə, İrəvan, Xəlifəli və Muxətər qala darvaza-ları, Daşaltı və Xəlifəli dərələri, Xəlifəli zayı ğzərində salınan kürpğ, Böyük və Kiçik Kirs dağ silsilələri, Xəlifəli və Daşaltı çayları, Daşaltı çayının sağ sahilində yerləşən Şəmilin bağı və bulağı, Xəlifəli çayının sol sahilində yerləşən Əlihü-**

**seyn bağı və səkili bulaq, Böyürtkənli dərə, Qartallı qaya, Sarı Baba dağı və yaylası, İmam Əli kahası, Xarı bülbül talası, Qızlar gölü, Eminli düzü, Qanlı kəmənd, Sulu kaha, Fındıqlı meşə, Əjdaha bulağı, Dolayı bulaq, Böyük tala, Kiçik tala, Topxanada tək armud ağacı, Kömçəli bulaq, Saxsı bulaq, Fətəli xan səngəri, Malıbəyli kəndi ərazisində Çinar bulaq, Fındıqlı meşəsi və bulağı, Ağvan təpəsi, Ağvan kurqanları, Üçbulaq, Ağvan düzü, Zarıslı kəndi ərazisində - Qızıl qaya, Bahar bənd, Xan yalı, Kartof yalı, Topgörməz ərazi, Əsgər dərəsi, Nəbilər, Səbətkezməz qayaaltı keçidi, Rus ölən dərə, At qoruğu, Kor Mürsəlin dəyirmanı və karvansarası, Humay qaya, Qara kaha, Cəfər bulağı, Kəblə Abbas bulağı, Göy bulaq, Qoşa bulaq, Lomba bulaq, Gəlin uçan qaya, Əjdər ölən bulaq, Mıxtökən ərazi, Əlikli tala, Buğa daşın döşündə Ələm ağacı. Ağac beşbarmaq formasında idi. Şırlan kəndi ərazisində Turşsu mineral su mənbələri. Turşsu yaşayış məntəqəsində yaylaq və mineral su mənbələri və şirin su bulaqları, Əsgəran qala kompleksi.**

*Sahəsi 234 kvadrat kilometr olan Şuşa şəhəri dünyanın nadir incisidir. Sahəsinin kiçik olmasına baxmayaraq, dünyada elə bir şəhər tapmaq olmaz ki, onun ərazisi Şuşa qalasının ərazisi kimi maddi-mədəni cəhətdən zəngin olsun. Bu mənada Şuşanın hər qarış torpağı, daşı canlı tarixdir, təbii panoramadır. Yaşı 264 il olsa da, min illərə bərabər inkişaf yolu keçmişdir. Budur, Şuşanın tarixdə tutduğu mövqe. Elmimizin, mədəniyyətimizin, ədəbiyyat və incəsənətimizin mərkəzi kimi Cənubi Zaqafqaziyada ön mövqedə dayanan Şuşa qalası öz məğrurluğunu həmişə saxlamış və indi də saxlamaqdadır.*

*Hazırladığımız bu materialda əsas məqsəd ondan ibarətdir ki, Şuşada, onun daxilində və ətrafında olan yurd və yer adları yaddaşlarda qalsın... Əlbəttə, bunlar hamısı deyil.*

# SİZİN QANINIZ ÇOXDAN TÖKÜLMƏLİ İDİ...

*Görkəmli Azərbaycan yazıçısı, alim, filosof, ictimai xadim* ***Mirçə Fətəli Axundov 1812-ci ildə Azərbaycanın Şəki şəhərində anadan olmuş və 1878-ci il mart ayının 10-da Tiflis şəhərində dünyasını dəyişmişdir.***

**M.F.Axundov** *Şərq dünyasında ilk dəfə dram janrında əsərlər yazmışdır. Ədibin* **"Təmsilat"** *adı altında birləşdirilmiş komediyaları* **1859-cu ildə Tiflis şəhərində nəşr olunmuşdur. "TƏMSILAT"** *ərəb sözü olub təmsilin cəmi mənasını bildirir.*

*Biz bu yazıda M.F.Axundovun bir komediyasından söhbət açacağıq. Ona görə ki, həmin komediyada dövrümüzlə səsləşən maraqlı fikirlər var. Bu komediya* ***"Sərgüzəşti- mərdi-xəsis" (Hacı Qara)*** *komediyasıdır. Müəllif əsərində o dövrün ictimai, siyasi və sosial məsələlərinə geniş yer verir. O cümlədən də komediyada bir neçə erməni ünsürlərinin surətləri təsvir olunur.*

*Bildiyimiz kimi Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən* ***1828-ci ildə*** *işğal edildikdən sonra nəinki cəmiyyətin əməkçi sosial təbəqələrinin, eyni zamanda da bəylərin və digər imtiyazlı təbəqələrinin də sosial vəziyyəti pisləşdi.*

*"Hacı Qara" komediyasında sosial cəhətdən müflüsləşən bəylərdən biri* ***Heydər bəydir.*** *Onun ailə həyatı qurmaq üçün pulu yoxdur. Keçmiş xoş günlərini xəyalında canlandırır. Heydər bəy hey düşünürdü: "****Guya ki, mən Banazor ermənisiyəm ki, gərək gün çıxandan axşama qədər kotan sürəm, ya ləmbaranlıyam ki, qurd (barama) bəsləyəm və ya ləkəm ki, kəndlərdə çərçilik edəm. Mənim atam Qurban*** *bəy bu işləri görməyib, mən ki, onun oğlu Heydər bəyəm, mən də etməyəcəyəm".*

*Heydər bəy öz dərdini Əsgər bəylə bölüşür... Əsgər bəy dostuna məsləhət görür ki, nişanlısını götürüb qaçmaq fikrindən əl çəksin, çünki hamı bütün Qarabağ bilir ki, o qızı ata-anası sənə verib, götürüb qaçmağın səbəbi nədir?*

*Uzun söhbətdə sonra Səfər bəy və Əsgər bəy Heydər bəyə*

*başa salırlar ki, onlarla birlikdə* ***Təbrizə*** *gedib mal gətirib satsınlar və gəlir əldə etsinlər. Amma onların Təbrizə gedib satlıq mal almağa pulları yoxdur. Əsgər bəy yoldaşlarına məsləhət görür ki, pul əldə etmək üçün* ***ağcabədili tacir Hacı Qaradan borc pul götürsünlər. Təbrizdən gətirdikləri malları satıb Hacı Qaranın pulunu verdikdən sonra, əldə olunan qazancı öz aralarında bölüb vəziyyətlərini yaxşılaşdıra bilərlər.***

*Eyni zamanda Əsgər bəy öz öhdəsinə götürür ki, Hacı Qaranı da Təbrizə mal almaq üçün özlərinə şərik edə bilər. Rus işğalından sonra şimali Azərbaycanla Cənubi Azərbaycan arasında siyasi və iqtisadi əlaqələr saxlanılması qadağan edilmişdir. Ona görə də* ***Araz çayının o tayından mal gətirmək qaçaqçılıq hesab olunurdu.***

*Əsgər bəy Hacı Qara ilə görüşüb ondan borc pul alır və onun özünü də qaçaq mal gətirmək üçün Arazın o tayına getməyə razı salır.*

*Hacı Qara bir tacir kimi uzaqgörən, çətin şəraitdən məharətlə çıxmağı bacaran, xeyir və şərini bilən bir şəxsiyyətdir. M.F.Axundov əsərin qəhrəmanı olan Hacı Qaranı çətin sınaqlardan çıxararaq onun simasını açıb göstərə bilmişdir. Məhz ona görə ki, M.F.Axundov bütün komediyalarında təsvir etdiyi hadisələri real həyatdan götürülmüş və şahidi olduğu ictimai-sosial problemləri qələmə almışdır.*

*Beş hissədən ibarət olan Hacı Qara komediyasının üçüncü hissəsi daha maraqlı və yadda qalandır. Bu bölümdə* ***Heydər bəy, Əsgər bəy, Səfər bəy*** *və əsərin qəhrəmanı* ***Hacı Qara*** *Təbriz şəhərindən mal alıb Araz çayını keçmək üçün çayın sahilinə gəlirlər. Onların əhval-ruhiyyələri yüksəkdir. Çünki istədikləri qədər mal alıb atlara yükləmişlər. Əldə olunacaq məbləğ də bu əhval-ruhiyyəni daha da artırırdı.*

*Arazı keçmək üçün yolda dayanan rus kazaklarının diqqətini yayındırmaq və sonra çayı keçmək lazım idi. Bəylər bu işin öhdəsindən gələ bildilər. Onlar çayın sahilindən uzaqlaşandan sonra on nəfər erməni silahlıları çayın sahilinə yaxınlaşırlar.*

*Erməni ünsürlərinin başçısı Ohan lovğalanaraq yanında olan ermənilərə deyir: - "Siz mənim yanımda dayanın, tüfənglərinizi hazır vəziyyətdə saxlayın, mən nə vaxt desəm atəş azın. Mal aparanlar bizi görən kimi yüklərini töküb qaçacaqlar. Müqavimət göstərsələr hamısını tikə-tikə doğrayacam".*

*Ermənilərdən Sərkis adlı bir nəfər yüzbaşı Ohandan icazə alıb qabağa gedir. O, vahimə içərisində geri qayıdaraq: - Yüzbaşı evinə od düşsün qaçaqlar gəlirlər. Onların qabağında ucaboylu, qıvraq, silahlı oğlan var. onun gözlərindən qan damır. Gələnlər cəmi üç nəfərdir. Ermənilər onları görən kimi vahiməyə düşürlər. Heydər bəyin irəli çıxıb, ermənilərə meydan oxuması yüzbaşını qorxuya salır. O, erməniyə xas olan yaltaqlanmağa başlayır. Biz gedirik gəl yoluna davam et. Yalvarıram, nahaq qan tökmə. Ohan yüzbaşı qorxu içərisində, dili dolaşa-dolaşa öz adamlarını səsləyərək geri qayıtmağa çağırır. Eyni zamanda yüzbaşı yanındakı ermənilərə dönə-dönə tapşırdı ki, Murova heç bir söz deməsinlər.*

*Heydər bəy ermənilərə hücum edərkən Sərkisin papağı başından yerə düşür. O, papağını götürmək üçün geri dönmək istəyir. Ohan yüzbaşı əsəbi halda çığırır, a gədə qoy qalsın. Heydər bəy qaçan ermənilərə deyir ki, əgər bizi gördüyünüzü bir adama desəniz, qulağınızı küçük qulağı kimi kəsəcəyəm. Ermənilər qaçıb uzaqlaşandan sonra Hacı Qara Heydər bəyə deyir ki,* ***a kişi niyə erməniləri buraxdın, niyə qollarını bağlatdırıb qamışlığa tullatmadın. İndi gedib üstümüzə adam göndərəcəklər. Sən bilmirsən onların yüz hiyləsi var? Məsəl var deyirlər ki, "Erməni tülkü kimi yaltaq, çaqqal kimi quyruq bulandlrir".***

*Nəhayət komediyanın dördüncü bölümündə iki erməni Hacı Qara ilə nökəri Kərəməli ilə qarşılaşırlar. Hacı Qara erməniləri sıxma-boğmaya salır. Ermənilər Hacı Qaranın hədələri qarşısında aciz qalaraq, yalvarmağa başlayırlar. Onlar and-aman edərək bildirirlər ki, biz yol kəsən, qan tökən deyilik. Əgər biz bu günə kimi bir adamın bir quruşunu yemişiksə bizim qanımız sənə halaldır, gəl tök.*

*Hacı Qara bu sözdən sonra ermənilərə tutarlı və məntiqi cəhətdən, lakonik bir cavab verir:*

***"Sizin qanınız çoxdan tökülməli idi. Amma bu vaxta kimi tökən olmayıb. İndi sizi əcəl çəkə-çəkə mənə tərəf gətirib. Ozgəyə quyu qazan, özü düşər. Çox adamların evini yıxıbsınız. İndi cəzanıza çatarsınıç".***

*M.F.Axundov tacir Hacı Qaranın adından dediyi yuxarıdakı fikir fəlsəfi məna kəsb edir. Erməni ünsürü yer üzərində çox nahaq qan töküb, evlər yıxıb, fitnə-fəsad törədib. Amma layiqli cavablar da alıblar.* ***Sədi Şirazi demişkən: -"Erməni yer üzünü əhrəməni, ermənidir insanlığın düşməni".***

**"Sərgüzəşti-mərdi-xəsis"** *M.F.Axundovun ədəbi yaradıcılığının ən yüksək mərhələsidir. Dramaturgiya tariximizin mənalı nümunələrindən biridir. Müəllif özü də sağlığında bunu etiraf edərmiş.*

*Yuxarıda dediyimiz kimi "**Hacı Qara**" komediyasının mövzusunu müəllif real həyatdan götürüb qələmə almışdır. Komediya* ***1852-ci ildə yazılmış və 1873-cü ilin aprel ayının 17-də tamaşaya qoyulmuşdur.***

*M.F.Axundov komediyada adları çəkilən azərbaycanlıların taleyinə biganə qalmır. Sona kimi onların həyatını təsvir edir və bununla da olduqca xeyirxah niyyətini həyata keçirir. Deməli, mütəfəkkir oxucunu intizarda saxlamır. Məsələn Heydər bəy surətini buna misal göstərmək kifayətdir.*

*Mirzə Fətəli Axundovun öz əli ilə yazılan əl yazmalarında "**Hacı Qara**" komediyasının sonuncu-beşinci bölümü belə başlayır:*

***"Məclis Azərbaycanlılara məxsus olan toyla başlayır. Heydər bəy toy paltarlarında xalça üzərində əyləşmişdir. Onun yanında sağdış və soldışın ətrafında isə qohumları və dostları əyləşmişlər. Xanəndələr milli oyun havaları çalır, oğlan və qızlar rəqs edir toy məclisini daha da canlandırırlar. Heydər bəy məmnundur. Ona görə ki, o, uzun müddət həsrətində olduğu istək və arzusuna çatmışäır".***

***Heydər bəy - "Allah kəràminə şükür! Mən həyatda istədiyimə nail oldum deyərək sevgilisi Sonaya deyir, bundan sonra mən səndən ayrılmayacam".***

*M.F.Axundovun "Hacı Qara" komediyasının bir sıra motivlərindən söhbət açdıq. Əsas məsələ erməni yaltaqlığını, qorxaqlığını və riyakarlığını şərh etmək idi.*

## BƏS CƏHƏNNƏMƏ KİM GETMƏLİDİR?

*Mirzə Cəlil Məmmədqulzuadə* **"USTA ZEYNAL"** *hekayəsini 1905-ci ildə qələmə almışdı. Bu tarixi baxımdan mürəkkəb bir dövr idi. Ona görə ki, bir tərəfdən rus-Yapon müharibəsi və ikinci bir tərəfdən də birinci Rusiya brjua demokratik inqilabi Rusiya imperiyasını kökündən sarsıtmışdı.* **1904-1905**-*ci illər rus-Yapon müharibəsində Rusiyanın biabırcasına məğlub olması imperiyanın ucqarlarında milli-azadlıq hərəkatının yüksəlişinə səbəb oldu. İctimai şüurun yeni mərhələyə daxil olması, qələm sahiblərinin də milli ədəbi yaradıcılıqlarına səmərəli təsir göstərdi. İctimai və sosial həyatın bütün sahələrində yaranan müsbət əhval-ruhiyyə Mirzə Cəlil Məmmədquluzadə yaradıcılığında milli ruhun təşəkkülünə yol açdı. Ədib, öz yaradıcılığında erməni ünsürünün ifşasına geniş yer verir və bu ünsürün çirkin əməllərini aydın surətdə oxuculara çatdırırdı.*

*Erməni ünsürünün yararsızlığı, qorxaqlığı, satqınlığı başqalarının qoltuğuna sığındıqlarını, nahaq qanlar tökülməsinə bais olmalarını Mirzə Fərəli Axundov hələ 1852-ci ildə qələmə aldığı* **"Sərgüzəşti-mərdi-xəsis" (Hacı Qara)** *komediyasında parlaq şəkildə təsvir etmişdir:* **-"Sizin qanınız çoxdan tökülməli idi"** *deyərək əsərinə fəlsəfi məna vermişdir.*

*M.F.Axundovdan 53 il sonra (1905-ci ildə) Mirzə Cəlil Məmmədquluzadə də Azərbaycanın başqa mütəfəkkirləri kimi, erməni ünsürünə* **"Usta Zeynal"** *hekayəsində geniş yer vermişdi.*

*Hekayənin qısa məzmunu belədir ki, Muğdusi Akop adlı bir erməniyə Tiflis şəhərindən böyük oğlu tərəfindən teleqramma gəlir. O, Tiflisdən çıxdığını bildirir. Ermənin oğlu Moskvada təhsilini bitirib evlərinə gəldiyini valideynlərinə xəbər verirdi. Amma Akopun evinin otaqlarından birinin divarının suvağı uçub döşəməyə tökülmüşdü. Təcili olaraq həmin otaq təmir edilib qaydaya salınmalı idi. Akopun hesablamalarına görə oğlu üç günə Tiflisdən evlərinə gələ bilərdi. Otağı səliqəyə salmaq üçün məharət-*

*li usta tapmaq lazım idi.*

*Muğdusi Akopun qonşuluğunda öz işini bilən, səliqəli, adlı-sanlı usta Cəfər adlı bir suvaqçı yaşayırdı. Akop usta Cəfərin evinə gedib, onu səslədi. Ona cavab verildi ki, usta Məhəmməd Ağanın evində işləməyə gedib, onun işini görə bilməyəcək.*

*Ozünü itirən Akop dükan qonşusu olan Hacı Rəsulun yanına gedib, dərdini ona söylədi və ondan kömək istədi. Oz xeyirxahlığı ilə hamının hörmətini qazanan Hacı Rəsul Akopun təlaş keçirdiyini görüb, onu sakitləşdirərək dedi:*

*"İrandan Usta Zeynal adlı bir nəfər məharətli suvaqçı usta gəlib, o sənin otağını istədiyin kimi təmir edər"*

*Hacı Rəsul adam göndərib Usta Zeynalı çağırtdırdı. Akop usta ilə razılığa gəldi ki, iki günə otağı təmir edəcək, əmək haqqı isə hər günə iki manat olacaqdır. Bu sövdələşmədən sonra Akop, erməniyə xas olan "əda" ilə bildirdi ki, əgər Usta Zeynal dediyi şərtə vaxtında əməl etsə, əlavə olaraq ona altı arşın yarım mahud da verəcək-dir* **(bir arşın Azərbaycanda 75 sm idi-Y.H.).**

*Usta Zeynal olduqca məğrur, saf, milli-adət və ənənələrinə hörmətlə yanaşan şəxsiyyət idi. İranın Zəncan vilayətində özünün səliqəli işinə görə böyük nüfuz sahibi idi. Qabarlı əlləri, alın təri ona bu hörməti qazandırmışdır. Lakin Akop kimi bir fırıldaqçının lovğa-lovğa danışması və ona əlavə maddi təminatlar vəd etməsi Usta Zeynalın xoşuna gəlmədi...*

*Usta Zeynal şəyirdi Qurbanla birlikdə Akopun evinə gəldi, otağı nəzərdən keçirərək bildirdi ki, sabah axşama kimi işi qurtara bilməyəcək, Akop Usta Zeynalın ayağına düşüb yalvarmağa başladı. Lakin usta dediyindən dönmədi... Suvaq üçün lazım olan materialları alıb gətirmək məqsədilə Usta Zeynal səyirdi Qurbanı təsərrüfat dükanına göndərdi. Özü isə ermənininin aynabəndində oturub qəlyanını (çubuğunu) çəkməyə başladı. Qurban lazım olan materialları alıb gətirdikdən sonra, Usta Zeynal ayağa durub "işə başladı". O, üzünü Akopa tutub dedi: -"Bu evi sizə kim tikib, yaxşı tikməyib, usta bilmirdi ki, Akop evi fırıldaq yolu ilə ələ keçirib". Akop kəkələyə-kəkələyə dedi ki, ev atamdan qalıb.*

*Birdən usta Zeynal nə fikirləşdisə, köməkçisi Qurbana dedi:-"Durma, tez get bizə saxsı ləyən var, küpə var, onları və bir parç da götür gəl". Qurban ayağa durub asta-asta ustasıgilə getməyə başladı. Bunu görən Akop, Usta Zeynala bildirdi ki, dediyin şeylər bizdə var, gətirmək lazım deyil. Usta Zeynal Akopa bildirir ki, eybi yoxdu, Qurban bu saat gələr. Amma Usta Zeynal insanlıq naminə ermənıyə demədi ki, sənin əşyaların mundardı, mən onlara əl vura bilmərəm, mən müsəlmanam.*

*Vaxtı uzatmaq məqsədilə Usta Zeynal Akopdan soruşdu ki, sənin uşağın necə il oxuyub. Akop cavab verdi ki, on dörd il oxuyub. Usta Zeynal bir qədər ara verdikdən sonra Akopdan soruşdu ki, xətti necədir? Erməni xətt sözünü başa düşmədi, Usta Zeynal dedi ki, yazısını soruşuram.*

*Akop utana-utana dedi ki, yaxşı olar. Usta Zeynal cavabında bildirdi ki, nə qədər yaxşı olsa da bizimkilərə çata bilməz.*

*Akop nə edəcəyini bilmirdi, o, Usta Zeynalın qarşısında yararsız bir ünsürə zevrilmişdi. Usta Zeynal Akopu susdurmaq, məhv etmək üçün əlavə etdi:*

*"Sizin niyə padşahınız yoxdu?" Akop bunu gözləmirdi, cavab vermədən otaqdan çıxdı... O, başa düşdü ki, Usta Zeynal nəyə işarə edir...*

*Qurbanın suvaq üçün hazırladığı gəc qurumuşdu, bu iş bir neçə dəfə təkrar olunmuşdu. Bu Usta Zeynala xüsusi ləzzət verirdi. Ona görə ki, o, erməni tamamilə rəzil bir vəziyyətə salmışdı...*

*Usta Zeynal söhbət edir, qəlyan çəkir, Qurban isə suvaq üçün gəc düzəldir, amma iş görülmürdü. Akop özünü tamamilə itirmişdi, nə edəcəyini bilmirdi, fırıldaqçı, lovğa erməni ustanın əlində aciz qaldığını artıq hiss etməyə başlamışdı. Erməni acizanə bir vəziyyətdə Usta Zeynala bildirdi ki, xahiş edirəm iş görün. Usta Zeynal ayağa durub ləyəndəki gəcə əl vurub dedi, Qurban gəc quruyub, yenisini düzəlt. Usta Zeynal köməkçisi Qurbanla bir günün ərzində Akopun otağının uçan divarının yalnız bir hissəsini suvadılar.*

*İşin ikinci günü, Usta Zeynal Qurbana ermənilərin donuz*

*əti yemələrindən danışarkən Akop otağa girib Usta Zeynaldan xahiş etdi ki, iş görsün, az danışsın. Usta Zeynal ermənıyə ciddi surətdə bildirdi ki, bir mənə de görüm o zəhrimarda nə görmüsünüz ki, ondan əl çəkmirsiniz, zəhəriniz olsun.* **"Ay Akop adamın adam xörəyi olar, heyvanın da heyvan".**

*Bu sözləri eşidən Qurban, mənalı-mənalı Usta Zeynaldan soruşdu:*

**"Ay usta, bu bədbəxtlər nə üçün dönüb müsəlman olmurlar, haqq yoluna qayıtmırlar, nahaq qanlar tökülməsinə bais olurlar". Usta Zeynal köməkçisinin sualına fəlsəfi məna daşıyan belə bir cavab verdi:**

**"Ulu Tanrı iki dünya yaradıb. Biri Cənnət, biri isə Cəhənnəm. Əgər bu ünsürlər müsəlmanlığı qəbul etsələr, onda cəhənnəmə gedən olmaz". Qurban başa düşdü ki, əgər ermənilər müsəlmanlığı qəbul etsələr, bəs cəhənnəmə kim gedəcək? Ora boş qalar?**

*Deməli, Cənnət bizim üçün, Cəhənnəm isə erməni ünsürləri üçün yaradılmışdır.*

*Akopun lovğalığı, "var-dövlət" sahibi olması ilə fəxr etməsi onun başına bəla gətirdi, Usta Zeynal özünün ağlı və düşüncəsi ilə bu ünsürü məhv etdi. Nə edəcəyini bilməyən Akop hacı Rəsulun yanına gedib dərdini ona söylədi...*

*Usta Zeynal yenə də köməkçisi Qurbana erməni cinayətlərindən geniş söhbət edirdi. Ona* **1905-1906**-*cı illər erməni-müsəlman davasmdan danışırdı. Ermənilərin xəyanətlərini açıb göstərirdi...*

*Usta Zeynal əsəbi halda əlindəki malanı yerə qoyub, Qurbana dedi ki, yenə gəc düzəltsin, amma, gördü ki, küpədə su yoxdu, su axıb-yerə tökülüb. Qurban Usta Zeynala mənalı-mənalı baxaraq dedi ki, küpədə sınıq var. Usta Zeynal küpəyə diqqətlə baxaraq:*

**Bıı küpə bizim deyil, erməninin küpəsində su gətirdin, ay Qurban bütün aləmi mundarladın. Usta Zeynal qabaqda, Qurban isə arxada Akopun evindən çıxıb təmizlənmək məq-**

**sədilə evlərinə getdilər... Akopun arvadı elə bildi ki, onlar işi qurtardıqları üçün gedirlər. Amma bu belə deyildi... Usta Zeynal təmizlənmək üçün evə gedirdi...**

*Bu zaman Akop Hacı Rəsulun dükanında onunla söhbət edirdi. Hacı Rəsul, ermәniyə deyirdi ki, "Usta Zeynalı çoxdan tanıyır. O, Allah bəndəsidir, qeyrətlidir, sadiqdir, işgüzardır, zirək və yüksək dərəcədə ağıl, kamal sahibidir. Mömün adamdır və heç vaxt namazının vaxtını gecikdirməyib. Sənin otağını dediyin vaxtda təmir edəcək". Amma Usta Zeynal Akopun işini yarımçıq qoydu.*

*Mirzə Cəlil Məmmədquluzadənin* **"Usta Zeynal"** *hekayəsinə sovet ideologiyası tərəfindən başqa don geyindirilmişdir.*

*Qısaca olaraq qeyd etməliyəm ki, Usta Zeynala dini-xurafat damğası vurmaq olmaz. Ona görə ki, o, məntiqi düşünür, erməni ünsürünün əsl simasını yaxşı dərk edir, onun evində işləməyi, özünə rəva bilmir. Elə ilk andan ermәninin lovğalığını görür və onu ələ salır. Daha doğrusu, dərindən düşündükdə görürük ki, bəşəri əzəməti özündə birləşdirən sadə əmək sahibi olan USTA ZEYNAL CƏLİL MƏMMƏDQULUZADƏNİN qələmi ilə erməni ünsürünün bu günki, fitnə-fəsadlarını 114 il bundan əvvəl görüb və hiss etmişdir. Bu danılmaz tarixi həqiqətdir...*

# ŞUŞADA XALQ DEYİMLƏRİ

Qədim diyarımız – **Azərbaycanda, el-obalarımızda** ulu müdriklərimizin tarix boyu yaratdıqları **fəlsəfi deyimlər, mərasimlərimiz, nağıllarımız, lətifələrimiz, təsniflərimiz, bayatılarımız, atalar sözlərimiz, tapmacalarımız, dastanlarımız şifahi və yazılı folklorlarımızın nadir dəyərləridirlər.**

**Folklorlarımızda** xalqımızın müqəddəs istək və arzuları, azadlıq uğrunda mübarizə tarixi, **adət və ənənləri, məğrurluğu, yenilməzliyi, dünyagörüşü öz əksini tapmışdır. Bütün bu mənəvi sərvətlər müstəqil Azərbaycan Respublikasının qədim və ayrılmaz hissəsi olan QARABAĞDA da tarixən yaranmış və xalq deyimlərində formalaşmışdır.**

**ŞUŞA müdrikləri və ziyalıları – din xadimləri - Seyid Xəlil Abbasov, Sadıq Həsənov, ziyalalırdan Mirzə Xosrov Axundov, Ağa Kazımov, Keymah və Keykavuz Bəhmənov qardaşları, Mərdan Əliyev, Tofiq Əliyev, Rüstəm Zeynalov, Məhərrəm Quliyev, el ağsaqqalları – Rza Hüseynov, Səttar Məhərrəmov, Zülfüqar Cəfərov, Vəli Rzayev, Şahmar Hüseynov (çayçı) Hüseyn Hüseynov, Səməd Heydərov, Ağalar Cəfərov və başqaları el mərasimlərində** Şuşa adət və ənənələrindən geniş söhbət açar və onların təbliğinə xüsusi fikir verərdilər.

Onların deyimləri həmişə şuşalılar tərəfindən böyük maraqla qarşılanardı. Bütün bunlar XX əsrin ikinci yarısında biz gənclərin milli vətənpərvərlik ruhunda formalaşmağımıza güclü təsir göstərirdi. O dövrdə yuxarıda adlarını çəkdiyim müdriklərin deyimləri və duyumları haqqında bir qədər ətraflı söhbət açmaq daha maraqlı olardı. Eyni zamanda da **müsəlman dünyasının müqəddəs ayı olan RAMAZAN (RƏMƏZAN) ayında onların ruhlarına töhfə olardı.**

Insan ömründən söhbət açarkən onlar deyərdilər: - **Ağartı (süd, qatıq, qaymaq, şor və sairə)** qidasından fasiləsiz isti-

fadə edənlərin ömrü uzun olar, nadir hallarda xəstələnər. Dağ havası insanı gümrah saxlar tez qocalmağa imkan verməz.

**ALNI** geniş olan ağıllı və zəkalı olar. Ağıllı adamın dili açardır. Ağıl sözün gövhəridir. Fikirləşmədən deyilən söz sabun köpüyü kimidir. Ağsaqqal olan yerdə urvat, ağbirçək olan yerdə isə mürvət olar.

**Deyərdilər** – bağ olan yerdə bağban da olar, bar da. Adətən çox bilən, dünyagörüşü geniş olanlar az danışar, az bilən isə çox danışar. Böhtan danışan imansız, ləyaqətsiz olar.

**Xoşbəxt** o kəsdir ki, əli açıqlıq edir, ehtiyacı olanlara təmənnasız kömək edir.

**VƏTƏNƏ** kəm baxana el də kəm baxar. Vətənini itirən vətənsiz qalar. Yüz il qürbətdə qalmaqdansa beş gün vətəndə yaşamaq daha şərəflidir. Vətənsiz ölən kəfənsiz olar. Vətən cənnət, qəriblik cəhənnəmdir.

Qanmazın qanacağı ağzını açanda məlum olar. Şuşa da güclü qar yağanda deyərdilər: - Qar bar gətirər, bu il hər şey bol olacaq. Həqiqətən də belə olardı. Qar bol yağanda nemət də bol olardı. Mən bunu görmüşəm.

Şuşalılar tarixən qonaqpərvər olmuşlar. Onların evlərinin qapıları qonağın üzünə açıq olardı. **Deyərdilər**; - qonaq gələn evdə bərəkət olar. Qonağın ruzusu qonaq gəldiyi evə özündən qabaq gələr. Şuşalılar qonağın gəlişi səbəbini soruşmazdılar. Bu yaxşı hal hesab olunmazdı.

**Tutarlı** həqiqi söz baş yaran daşa bənzər. Dağın varı qar olar. Bu kəlamı deyərkən bizə əzəmətli **Böyük Kirs dağını göstərərdilər.** Dağın tacı zirvə, onun örtüyü isə duman olar. Dili şirin olanın özü də şirin olar. Dosta xor baxan nadan olar. Dostluq təmənnasız olar. Dostu sayda yox, sambalda ararlar.

**ELM** yaşda yox başda olar. Elmin aynası isə yaddaşdır. El yığılıb bir olsa, dağ oynadar yerindən. Elin sözü bir olsa zərbi kərən sındırar.

**Əqidə** olan yerdə həmişə ədalət olar. Soyunu danan, əqidəsindən də dönər. Zatı olanın adı və şöhrəti də olar. Zatı olan

şöhrət, ad-san qoyub gedər. Zəhmətin ətri tərdə olar, zəhməti sevən varlı olar, başqalarına möhtac olmaz.

**Insanı** nahaq söz yandırar. Işıq olan yerdə firəvanlıq olar.

**Yayda** düşünən qışda üşüməz. Yalan olan yerdə xeyir-bərəkət olmaz. Yalançı adam hörmətsiz olar. Belə adamlar sifətlərindən məlumdur. Yaxşı adam qan duruldar. Başqasında xoş əhval-ruhiyyə yaradar.

Yaxşılığa-yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq isə mərd kişinin işidir. Yaxşılıq adda qalar, yamanlıq isə yadda.

Kamallı adam, kəlamlı olar. Kəm ağıl kinli olar.

Şuşalılar gecə ev süpürməzdilər. Deyirdilər, gecə süpürülən evdə xeyr-bərəkət olmaz. Gözü ac olanın ömrü də az olar, gözü vətəndə olanın, özü də vətəndə olar.

Mərdanəlik mərdliyin təcəssümüdür. Müdrik söz həmişə ömür uzadar. Müdriklərlə oturub-duranlar müdrik olarlar. Bu həqiqətdir.

Namuslu adam ölü olsa da diridir. Belə insanlar həmişə xatirələrdə yaşayır. Nəvəsi çox olan baba və nənə pir olar, nigah bünövrəsi haqq və ədalətin rəmzidir.

Oğula qeyrət zatdan, qıza ismət süddən keçər. Oğul ailənin piri, düşmən çəpəridir. Oğul vətən üçün dünyaya gəlir. Oğul vətənin qeyrət tacıdır.

Pirə gələn qurbanlıq qoyunu və başqa nəziri geri qaytarmazlar. Bu günahdır. Paxılın axırı olmaz, həmişə hörmətsiz olar, paxıl adamın məlhəmi yoxdur.

Sevdirən də dildir, söydürən də. Sirr saxlayan mərd, səxavətli olar, söz hikmətli və fəlsəfi məna daşımalıdır. Belə olmasa dəyəri olmaz. Söz ağlın keşməsidir. Sözü hər bir məclisə uyğun söyləmək lazımdır. Söz insanın görən gözü, vuran əli və döyünən ürəyidir. Yaxşı söz insanın qanında yox, iliyində olmalıdır. Sözü müdrik olanın özü də müdrik olar. Sözü qanana deyərlər, nadana yox. Qılınc yarası sağalar, söz yarası sağalmaz.

Təvazökarlıq, sadəlik soydan, tərbiyədən asılıdır. Torpa-

ğa bağlı olan başqasına əyilməz.

Şuşada **Bahar bayramının son çərşənbə axşamında yalan danışmaq qəbahət hesab olunurdu.** Hər evdə xoş sözlər söyləmək el adəti idi. Mart ayında ağac kəsmək günah sayılırdı. Bu ayda ağaca balta vuran günaha batar. Şuşalılar **dağdağan, zoğal, tut, xançinar, əncir, sərv, heyva, alma, armud, gilənar, gilas və digər meyvə və giləmeyvə ağaclarına balta və dəhrə vurmazdılar.**

**Boğaz heyvana daş atmaq, vurmaq şuşalılara yad idi, yanında balası olan heyvana da toxunmazdılar. Deyərdilər: - dolu yağdıqda evin ilk uşağı dolunun birini tez götürüb yeməlidir ki, dolu dayansın, əkinə-biçinə, bar verən ağaclara ziyan dəyməsin. Xəstə adama dərman alıb bağışlamaq olmazdı. Az miqdarda da olsa haqqı ödənilməli idi. Şuşada ailə üzvləri istisna olunmaqla heç kəsə, yəni xəstə olana dərman hədiyyə edilməzdi. Bu adət hazırda da belədir.**

Çörəyi, xörəyi bir qədər duzlu bişirən qadın ailəyə həddindən artıq sədaqətli olduğuna sübut kimi qiymətləndirilirdi. Təndirdə çörək bişirən qadın, Şuşa adəti üzrə, xəmir yoğurmaqdan əvvəl yuyunardı.

Şuşada evlər süpürülüb təmizlənərkən zibili erkən, müəyyən yerlərə atardılar. Mənim yadımdadır, qonşulardan kimsə xəmir yoğurmaq üçün başqasının evinə maya üçün gəlməzdi. Hamıda xəmir yoğurmaq üçün ehtiyat maya olardı. Başqasına maya vermək evin bərəkətinin verilməsi kimi qiymətləndirilirdi.

Evdə, məktəbdə və ictimai yerlərdə kimi hıçqırıq tutardısa, deyərdilər: - nə oğurlamısan? Sözün mənasını başa düşməyən təəccüblənərdi… onda ona deyərdilər, yarım stəkan soyuq (bulaq suyu) su iç. Həmin an hıçqırıq kəsilərdi.

Şuşada belə bir adət də var idi. Indi də bu adət davam etdirilir. Anadan təzə doğulan uşağı qırxı çıxmamış görməyə getməzdilər. Bunun düşəri-düşməsi olardı.

Şuşada gün batdıqdan sonra ulayan iti qapıda saxlamaz-

dılar. Eyni zamanda onu öldürməzdilər. Çörəyi duza batırıb onun qabağına qoyar və deyərdilər: - Bu qapıya gündüz gəlmisən gündüz get, axşam gəlmisən axşam get. Iti ya səhər və ya da axşam qapıda görməzdilər. Sağ-salamat hara isə çıxıb gedərdi. It quduranda da belə edərdilər. Mən bütün bunların canlı şahidi olmuşam.

Günəş üfüqdə olarkən toyuğun banlaması da pis əlamət kimi qəbul olunurdu. Ona görə də banlayan toyuğun başını kəsib basdırardılar.

**1941-1945-ci** illər **Böyük Vətən müharibəsi dövründə** Şuşada insanlar **dəmrov** düşürdülər. Bu xəstəlik adətən üzdə olardı. Ona görə də şuşalılar deyirdilər ki, yavan çörək yeyən dəmrov xəstəliyinə tutularlar.

Şuşada belə bir adət də var idi: - Gözəgəlimli uşaqların, sol biləyinə və ya yaxasına göz muncuğu bağlayardılar ki, onlara pis nəzər xələl gətirməsin. Nəzərə gələn adamdan pis gözün mənfi hallarını zərərləşdirmək məqsədilə üzərliyi duzla birlikdə xəstənin başına hərləyib yandırırdılar. Üzərliyin tüstüsünü xəstəyə iylədər, yanmış üzərliyin kömrünü xəstənin qaş və alın nahiyyələrinə sürtərdilər. Müvafiq dualar oxuyardılar.

Ailələrdə uşaqlara sarımsaq, soğan və digər tərəvəz növləri yedirdirdilər. Deyərdilər ki, sarmısaq çox yeyənin dişləri sağlam və möhkəm olar. Pis xəstəliyə tutulmaz. Uşaqlara isti qovurğa, kartof yeməyi qadağan edirdilər. Ona görə ki, həmin isti qidalar dişlərə mənfi təsir edir, onun sağlamlığına zərbə vurur.

Yaxşı yadımdadır, qonşulardan kiminsə gözü qızarıb ağrısaydı qız uşağı olan ananın südündən üç gün, gündə üç dəfə, səhər, günorta və axşam ağrıyan gözlərə ana südü damcıları tökərdilər. Bu olduqca xeyirli idi. Xəstəlik tez və sürətlə sağalardı. Dədə Qorqud dastanında deyildiyi kimi…

Yaz fəsli başlayanda şuşalılar uşaqlarına sarmısaqlı qatıq içirdirdilər. Bu iki mərhələdə – axşam yatanda və səhər tezdən icra olunardı. Deyərdilər: - sarmısaqlı qatıq bədəni təmizləyir.

Müəyyən xəstəliklərin tez sağalması üçün itburnu meyvəsindən, yarpızdan, göçə ağacının çiçəyindən və sairədən də istifadə etmək Şuşada adət idi.

Şuşalılar sifəti qırmızı adamı xoşlamazdılar. Deyərdilər belə adam aravuran, sözgəzdirən, xain və paxıl olurlar. Bu hal erməni ünsürlərinə daha çox xas idi…

*************************************

Şuşa deyimləri duyumları yuxarıda qeyd etdiklərimlə bitmir. Mən onların az, çox az bir hissəsini qələmə aldım. Qələmə aldım ki, unudulmasın, yaddan çıxmasın, itib-batmasın… Mənəviyyatımızın bir hissəsi olan **əfsanələr, əsatirlər, xalq mərasimləri, nağıllar, lətifələr, təsniflər, bayatılar, laylalar və digər folklor nümunələrimiz yaddan çıxmasın. Axı bütün bunlar xalqımızın əsrlər boyu yaratdığı, qoruyub saxladığı mənəvi nemətlərdir.**

Sonda **ŞUŞADA XARI BÜLBÜL GÜLÜ VƏ BƏNÖVŞƏ çiçəyi gülləri barədə də** bildiklərimi qeyd etmək istərdim.

Kim deyirsə ki, Xarı Bülbül gülü yalnız Şuşa ərazisində bitir, bu düz deyil. Bu gül Azərbaycan Respublikasının çox yerində bitir. Amma Şuşa Xarı Bülbül gülü ilə onların arasında olduqca böyük fərq var. Şuşa Xarı Bülbülünün rəngi tünd məxmər rəngində olub, arı boydadır. Könül oxşayır başqa yerlərdə bitən Xarı Bülbül balaca və solğun rəngdədir. Şuşa Xarı Bülbülü vüqarlı və əzəmətlidir. ŞUŞANIN özü kimi. Gül Bülbülə, Bülbül də gülə yaraşır.

**Xarı Bülbül gülü haqqında əldə olan rəvayətə görə, bir gün bülbül öz sevdiyi gülün görüşünə getmək qərarına gəlir. Elə bu zaman güclü külək əsməyə başlayır. Külək o qədər güclü əsirmiş ki, hündür ağacları kökündən çıxarıb kənara atırmış. Rəvayətə görə küləyin məqsədi gülü bülbülün qarşısında alçatmaq idi.**

**Külək nə qədər güclü əsirdisə, gül ona tabe olmurdu. Məqsədinə çatmaq üçün var qüvvəsi ilə bülbülə çatmaq və**

**onunla görüşməyə tələsirdi. Gülün bu əzmkarlığını görən külək heyrətə gəlir. Külək güldən soruşur: Ay zərif və incə gül sən hansı cəsarətlə mənə tabe olmaq istəmirsən, sənin gücün hardandır?**

Gül küləyin sualına belə cavab verir: - «**Bu gücü mənə bülbülə olan məhəbbətim verib. Ona görə də bu məhəbbətin gücü məni heç kimin qarşısında əyilməyə qoymur». Bülbül də öz sevgilisi gülün görüşünə tələsirdi. Güclü külək tədricən zərif gülün müqavimətini zəiflətmişdi. Çünki o tək qalmışdı. Gül bülbülü sanki köməyə çağırırdı. Ən çətin anda bülbül özünü sevgilisi gülə çatdırır.**

Bülbül sinəsini küləyin gücü qarşısında yavaş-yavaş əyilən gülün köksünə söykəyir. Küləyin bütün şıltaqlığına baxmayaraq bülbül gülün əyilməkdə olan qamətini düzəldir. Lakin gülün xarı tikanı bülbülün ürəyinə sancılır. Çünki gülün tikanı yuxarıdan aşağıya uzanır. Beləliklə də bülbül həlak olur, amma gülün əyilməsinə imkan vermir. Özünü məhəbbəti uğrunda şəhid edən bülbülün canı gülün ləçəyinə hopur.

Beləliklə, gülün adı Xarı-Bülbül qalır. Diqqətlə baxanda məlum olur ki, gülün bir ləçəyi üstündə elə bil canlı bülbül yatıb… Əfsanənin məzmunu bununla başa çatır.

**BƏNÖVŞƏ ƏFSANƏSI HAQQINDA.** Qədim əfsanələrin birində belə deyilir: - **Adəmlə Həvva GÜLŞƏN** bağına gəzməyə çıxmışdılar. Güllər və çiçəklər onları salamlayırdılar. Bənövşə boyca balaca olduğuna görə nə qədər baş əydisə heç nə hasil olmadı.

Bənövşə bundan pis vəziyyətə düşdü. Boyunun balacalığı ona dərd, qəm-qüssə gətirdi, boynu büküldü. Hər dəfə Adəmlə Həvvaya həsrətlə baxmağa başladı və beləliklə də boynu buruq qaldı. Günlər, aylar, illər bir-birini əvəz etdi. Bənövşənin köksünə xal düşdü. **Bənövşə gah ağardı, gah göyərdi, gah da hirsindən-hikkəsindən qan kimi sifəti qızarıb-qaraldı. Bu ünvanla ömrü-günü gödəldi. Axırda ilin yaz fəslində bir ay ömrü qaldı. Buna baxmayaraq bu bir ay ərzində onun ətri**

**Gülşən bağını öz ağuşuna aldı. Əfsanədə deyilir ki, Adəmlə Həvva yeddi gün yeddi gecə bənövşənin ətrinin təsiri ilə əncir ağacının dibində yatmış vəziyyətdə qaldılar.**

Bənövşə çiçəyi haqqında başqa bir əfsanədə isə belə deyilir: - **Deyirlər ki, gözəl, güllü çiçəkli bir çəməndə bənövşə adlı bir çiçək bitir. Bu çiçək özünü həmişə ağır aparır, məğrurluğunu nümayiş etdirirdi.**

Bir gün çəmənzarlığa səs yayılır ki bülbül bənövşəyə vurulub. Bütün güllər və çiçəklər bu hadisəyə təəccüb edirlər. Axı bülbül qızıl gülün aşiqi idi. adətən bənövşə kol dibində bitdiyindən ona hərarətlə baxırdı. Kolların, xüsusilə də böyürtgən kolunun əsarətindən xilas olmaq istəyən bənövşə bülbülün sevgisini qəbul etdi. Kollar bənövşənin dönüklüyünə təəccüb etmədilər.

Kollar bülbülün vəfasızlığına bələd idilər. Hər gün bənövşə bülbüllə gəzintiyə çıxır, özünü xoşbəxt və sərbəst hiss edirdi. Bənövşə kolların ona qarşı sədaqəti demək olar ki, tamamilə unutmuşdu.

Əfsanədə deyilir ki, bir gün bənövşə ilə bülbül dağları, çəmənləri, ormanları gəzib, gülə-gülə geri qayıdırdılar. Elə bu vaxt güclü külək əsməyə başlayır. Küləyin güclü əsməyi onları çəmənə gəlməyə imkan vermir. Zərif çiçək olan bənövşə tamamilə əldən düşmüşdü. Bunu görən bülbül özünü çəmənliyə verib çiçəklərin arasında gizlənib, özünü küləkdən qorudu. Böyük çəmənlikdə tək qalan bənövşə küləyin təsirindən az qaldı ki, məhv olsun. Bənövşə çiçəkləri köməyə çağırırdı. Amma köməyə gələn yox idi. Bənövşənin düşdüyü ağır vəziyyəti qara kol uzaqdan seyr edirdi. O özünü bənövşənin harayına yetirdi, onu məhv olmağa qoymadı. Bənövşə başını aşağı əydi, onun köksünə sığındı.

**O vaxtdan, bənövşə xəcalətindən başını qaldırmır. Həmişə başını əyərək kola söykənir.**

Şuşada da bənövşə adətən kol dibində bitərdi. Bu aprel ayının ortalarından may ayının ortalarına kimi davam edirdi…

Qeyd olunan hər iki bənövşə əfsanəsi ayrı ayrılıqda xüsusi fəlsəfi məna daşıyır. Bu fəlsəfə yalnız Azərbaycan xalqına məxsusdur.

**Bənövşəyəm tütərəm,**
**Kol dibində bitərəm.**
**Hamının bülbülü gəldi,**
**Mən boynumu bükərəm.**

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

**Milli-mənəvi dəyərlər fəlsəfi məna kəsb edir**. Mənəviyyat geniş məna daşıyır. İnsanlar arasında mövcud olan münasibətlər və onlardan irəli gələn siyasi, iqtisadi və sosial vəzifələr özünü həmin münasibətlərdə əks etdirir. Cəmiyyətdə milli-mənəvi dəyərlərin formalaşmasında **əxlaq normaları** aparıcı yerlərdən birini özündə ehtiva edir.

Fəlsəfədə əxlaq ictimai şüurun formalarından biri kimi nəzərdən keçirilir. Fəlsəfi mənada – **Əxlaq-insanın hərtərəfli fəaliyyətini tənzimləyən sosial mexanizmdir**. Hər hansı bir şəxsin mənəvi simasını müəyyənləşdirmək üçün onun ictimai-sosial həyatını öyrənməliyik. Əxlaq insanın düşüncə tərzini saflaşdırır. İnsanlar arasında xoş əhval-ruhiyyə, saf münasibətlər bərqərar edir. **Əxlaq – yalan danışmağı, paxıllığı, böhtan atmağı, satqınlığı, ikiüzlülüyü, arxada danışmağı, qeybəti, qorxaqlığı, iradi keyfiyyətsizliyi, sədaqətsizliyi, etibarsızlığı, xudbinliyi, özündən bədgümanlığı və digər mənfi keyfiyyətləri qətiyyətlə rədd edir.**

Çox təəssüflər olsun ki, hələ həyatda yuxarıda göstərdiyim mənfi keyfiyyətlərdən yaxa qurtara bilməyən ünsürlər az da olsa var. Bu azlıq ruhən xəstə və paxıldırlar. Özləri haqqında yox, başqaları barədə fikirləşməyi ön plana çəkirlər…

**Ən yüksək əxlaqi-mənəvi-dəyərlərimiz – əməksevərlilik, insanpərvərlik, təvazökarlıq, insanın cövhəri olan sadəlik, halallıq, işgüzarlıq, sadiq dostluq, yoldaşlıq, düzlük, doğruçuluq, vətənpərvərlik yüksək mənəvi keyfiyyətlərdir.** Bütün bu mənəvi dəyərlərə yiyələnənlər ən xoşbəxt insanlardır.

**ƏMƏKSEVƏRLİK.** Qədim mənbələrdə Azərbaycan xalqının əxlaqi dəyərlərindən biri olan əməksevərlilik ön plana çəkilir. Ulularımız əməyə bütün həyat nemətlərinin mənbəyi kimi baxmış, cəmiyyətin sərvəti kimi qiymətləndirmişlər. Lakonik tərzdə desək əmək bütün cəmiyyət üzvlərinin sərvət

mənbəyidir. Respublikamız müstəqillik əldə etdikdən sonra cəmiyyətimizin bütün əmək adamlarına geniş imkanlar yaradılmışdır. Respublikamızda sürətlə artan maddi nemətlər istehsalı bunu bir daha əyani surətdə göstərir. Məhsul bolluğu yaratmaq üçün iş adamlarına və bütövlükdə əməklə məşğul olan cəmiyyət üzvlərinə hərtərəfli köməklik göstərilir.

**Əmək – insanda fərəh, gümlahlıq, mənəvi ruh yüksəkliyi yaradır, təşəbbüskarlıq, fərasət, işgüzarlıq və möhkəm xarakter keyfiyyətləri formalaşdırır.**

**Çox sərrast deyiblər: - «Əməyin bəhrəsi ağıldan doğur».**

**İNSANPƏRVƏRLİK.** Milli-mənəvi dəyərlərimizdən biri də insanpərvərlikdir. **«Adam insanları sevməlidir»** Hər kəs insana qayğılı münasibət bəsləməlidir. Həyatda insanın dəyəri onun əməyi ilə qiymətləndirilir. İnsanlıq həyatda sağlamlıq deməkdir.

**İNSANPƏRVƏRLİK – hər kəsin məxsus olduğu xalqın qayğısını çəkməkdə, el-obasına toxunanlara qarşı amansız olmaqda da özünü göstərir.**

Tarix dəfələrlə sübut etmişdir ki, insanpərvər adam adamlarla ünsiyyətə, dostluq və yoldaşlığa, həmrəyliyə meyilli olurlar.

**HƏMRƏYLİK**. Milli və mənəvi dəyərlərimiz içərisində xalqımızın **fikir və əməldə** həmrəy olmasıdır. Atalar çox sərras və tutarlı deyiblər:

**«Tək əldən səs çıxmaz», «Tək əllə düyün açılmaz», «Elin sözü bir olsa, dağ oynadar yerindən», «El yığılıb bir olsa, zərbi kərən sındırar»** kimi hikmətli kəlamlar xalqımızın çoxəsirlik tarixində dəfələrlə sınaqdan çıxmışdır. Əlverişli coğrafi mövqedə yerləşən, yeraltı və yerüstü təbii nemətlər və sərvətlərlə zəngin olan respublikamız əsrlər boyu xarici düşmənlərə qarşı mübarizə aparmış, torpaqlarımızı yağı düşmənlərdən qorunub saxlanılmasında həmrəyliyimiz və sıx birliyimiz mühüm əhəmiyyət kəsb etmişdir. Söz və əməlin vəhdəti bütün çə-

tin anlarda sınaqlardan şərəflə çıxmışdır.

Tariximizin hazırki inkişafı bir daha parlaq surətdə sübut edir ki, xalqımızın **həmrəyliyi və milli birliyi** dövlət müstəqilliyimizin əldə edildiyi indiki dövrdə daha yüksək zirvəyə qalxmışdır. Bu isə təbii haldır.

Xaricdən göstərilən təcavüz, təzyiq, yersiz hədə-qorxu, yalan böhtanlar bizi qorxuda bilmir. Bizim güclü milli dövlətimiz, güclü iqtisadiyyatımız və mükəmməl silahlarla təchiz olunmuş **Şanlı Milli Ordumuz var.**

Müstəqil və güclü Azərbaycan Respublikasına, özünün intellektual dəst-xətti ilə başqa siyasi xadimlərdən əsaslı surətdə fərqlənən, **Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan,** çox hörmətli **cənab İLHAM ƏLİYEV rəhbərlik edir.** Cənab İlham Əliyev həmrəyliyimizin, milli birliyimizin təminatçısıdır. Cənab İlham Əliyev ümummilli mənafelərimizlə səsləşən problemləri hərtərəfli və elm cəhətdən əsaslandırmaqla, xalqımızı həmin məqsədlərə doğru düzgün yolla irəliyə doğru inamla aparır. Qısa bir müddətdə respublikamızda siyasi, iqtisadi, mədəni və sosial sahələrdə əldə etdiyimiz böyük uğurlar bunu bir daha sübut edir.

**Bir daha qeyd edim ki, həmrəylik, əməl birliyi milli-mənəvi sərvətimizdir.**

**MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ İÇƏRİSİNDƏ YOLDAŞLIQ VƏ DOSTLUQ da mühüm yer tutur.** Yoldaşlıq və dostluq anlayışları mürəkkəb doyğudur. Xalqımız əsrlər boyu yoldaşlıq və dostluq münasibəilərinə hörmətlə yanaşmış və onları qoruyub saxlamağa səy göstərmişdir. Onların təhlilində müəyyən oxşarlıq aşkarlanmasına baxmayaraq, geniş fərqlər də var. Lakin, sağlam ictimai münasibətlər üzərində qurulan yoldaşlıq inkişaf edərək müəyyən zaman kəsiyində **dostluğa** çevrilir.

**Yoldaşlıq –** birgə əmək fəaliyyəti zəmnində yaranır. Yoldaş çox, dost isə həyatda az olur. Dostun ən böyük neməti onun

**mərdliyində və sədaqətli olmasındadır.** Dost-dostuna qayğılı münasibət bəsləməlidir. Yaxşı deyiblər:

**«Dosta xor baxan gələcəyinə xor baxar», «Dost tikər düşmən çökər», «Dost-dosta tən gərək, tən olmasa gen gərək», «Dost-dostu dar gündə sınayar».** Dostluq haqqında çoxsaylı atalar sözləri və xalqımızın geyimləri də var.

**Məsələn, «Ürək dostu», «Çörək dostum», «Cərək dostu», «Saxta dostluq» və sairə.**

Əsl dostluq böyük nemətdir, onu qoruyub saxlamaq isə mərd kişinin işidir.

**VƏTƏNPƏRVƏRLİK. Vətənpərvərlik – böyük mənəvi hisdir. Öz elini, obasını, fəxri və şərəfli olan Vətənini sevənlər, onun hərtərəfli inkişafı yolunda əlindən gələni əsirgəməyən, mənsub olduğu ölkənin tarixini dərindən bilən, canını Vətənə qurban verən və bu işə hazır olan, Vətəndən kənarda da onun şərəfini yüksəklərə qaldıranlar əsl vətənpərvər adamlardır.**

**Azərbaycan tarixində vətənpərvərlərin sayını saymaqla qurtarmaz. Onlar milyonlarla hesablanır. Vətənpərvərlik haqqında saysız-hesabsız atalar sözləri və deyimlər var: Məsələn, «Vətən üçün əziləni, Vətən əzizlər», «Vətən atanı, el də atar», «Vətənin bir günü, qəribliyin min gününə bərabərdir», «Vətənə gəldim, imana gəldim».** Bütün bunlar bizə ulularımızdan qalan mənəvi dəyərlərdir. Ona görə də doğulub boya çatdığımız doğma Azərbaycanımızı göz-bəbəyi kimi qorumağa hər an hazır olmalıyıq.

**MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZDƏN DANIŞARKƏN DÜZLÜK VƏ DOĞRUÇULUQDAN YAN KEÇMƏK OLMAZ.** Əsrlər boyu xalqımızın mənəvi keyfiyyətlərindən biri də düzlük və doğruçuluqdur. Düzlük adətən əmək fəaliyyətində, **doğruçuluq** isə sözdə təzahür edir. Deməli, şəxsin gördüyü iş düz, danışığı isə həqiqi olmalıdır. Düzlük insana şərəf, doğrucu olmaq ləyaqət gətirir. Bunların əksi isə insana şərəfsizlik və ləyaqətsizlik gətirir. Düz söz yalan danışanlar tə-

rəfindən bəyənilmir. Məlum məsələdir ki, **doğru söz acı olur**. Unutmayaq ki, **acı olan doğru sözün müalicəsi var. Acı dərman xəstəliyi – yalan danışmaq mərəzini müalicə edir**. Yalan və böhtan danışanı yaxına buraxmaq mənəvi cinayətdir… Belə ünsürlər yalan danışarkən məharətlə xüsusi **ROLA** girirlər… Düzlük həmişə bərəkət gətirir. Yalan danışmaq adamın mənəviyyatca iflasına səbəb olur. Belələri nəinki özünü, habelə nəslini də nüfuzdan salır.

**İctimai və sosial həyatda düzlük və doğruçuluq kimi mənəvi sərvət sahibləri ikiüzlülük, riyakarlıq, yalançılıq, əliəyrilik, oğurluq kimi rəzil əlamətlərdən həmişə uzaq olurlar.**

İndiki dövrdə, yəni müstəqilliyimizin əldə edildiyi hazırki şəraitdə biz azərbaycanlılar, bütövlükdə Azərbaycan ərazisində yaşayan bütün millət və xalqların hamısı **düzlük və doğruçuluğu həyatımızın ülvi sahəsinə çevirməlidir.** Biz buna qadir xalqıq.

**MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ SADƏLİK VƏ TƏVAZÖKARLIQLA sıx bağlıdır.** Əbəs yerə deyilməmişdir ki, **«Sadəlik insanın mənəvi bəzəyidir», «Ən böyük gözəllik sadəlikdir», «Bar verən ağacın başı həmişə aşağı olar».**

İnsan özünün zəhməti, ağılı, biliyi ilə cəmiyyətdə yüksəldikcə **sadəliyi və təvazökarlığı da eyni istiqamətdə artır. Belə insanlar mənəvi cəhətdən zəngin olanlardır.**

Sadəlik və təvazökarlıq sözün əsl mənasında mənəviyyatın çiçək açmasıdır. Sadəlik və təvazökarlıq insana həmişə şərəf və ləyaqət gətirir. El-obada hamı bu keyviyyətlərə malik olanlara hörmət və məhəbbətlə yanaşır və yüksək dəyərləndirirlər. Sadə və təvazökar adamlar faydalı əməlləri ilə mənsub olduqları ölkəsini bütün dünyaya tanıtdırır. Onlar bununla fəxr etməyə tamamilə haqlıdırlar.

Milli-mənəvi dəyərlərimiz içərisində **MİLLİ MENTALİTETİMİZ VƏ DİNİMİZ də xüsusi yer tuturlar.** Mentalitet siyasi mədəniyyət anlayışı ilə sıx bağlıdır. Daha dəqiq desək

siyasi mədəniyyət **mentalitetdən asılıdır.**

**MİLLİ-MENTALİTET** dedikdə biz nələri başa düşürük? **MENTALİTET – hər bir insan şüurunun elə bir sahəsidir ki, orada milli ənənələr, adətlər, bizi əhatə edən materiyanın intellektual tərzdə dərk olunmasının tarixən müəyyənləşdirilmiş yolları, yəni başqa sözlə desək, hər bir xalqın mənəvi adətlər kompleksləri kök salmışdır.** Hər bir adam mənsub olduğu ölkənin tarixini, ədəbiyyat və incəsənətini, mədəniyyətini, adət və ənənələrini hərtərəfli bilməli və öz dünyagörüşünü artırmalıdır. Bütün bunları əxz etməyən müasir vətəndaş ola bilməz. Ona görə ki, yaşadığımız dövr bunu tələb edir.

Son zamanlar ümumtəhsil məktəblərində dinin tədrisindən geniş söhbət aparılır. Mən deyərdim ki, tədris proqramlarında dinin əsasları barədə istənilən qədər, elmi əsaslara söykənən mövzular var. Dini elmi cəhətdən şagirdlərə öyrədilməsi üçün imkan və şərait var. Əsas məsələ dini mövzuların tədrisi vəziyyətindən asılıdır. **İslam dininin tarixini dərindən bilməklə, milli dəyərlərimizdən biri olan dinimizi şagirdlərə hərtərəfli öyrətmək olar və lazımdır.**

Bilirik ki, mövcud dinlərin ən mükəmməli və sonuncusu **İSLAM dinidir.** Hazırda İslam dininə **bir milyard üç yüz milyona qədər adam sitayiş edir.** İslam dininin müqəddəs kitabı **QURANİ-KƏRİMDİR.** Qurani-Kərimdə təbiət və cəmiyyətin inkişaf qanunları elmi cəhətdən mükəməl izah olunur. Dini dəyərlərimiz **humanizmə əsaslanır.** İnsanları əmin-amanlığa çağırır, pis əməllərdən çəkindirir. Dini cəmiyyətdən ayırmaq olmaz. Bu mənada dinimiz insanlar arasında ünsüyyət vasitəsidir. Sosial birlikdə dini dəyərlərimiz əvəzsiz yer tutur.

Müqəddəs kitabımız **QURANİ-KƏRİM TOLERANTLIĞIN** təminatçısıdır. Dinindən, irqindən asılı olmayaraq bütün insanlara, onların müqəddəs dini kitablarına hörmətlə yanaşmağı təbliğ edir. Qurani-Kərim ədavəti, fikir ayrılığının aradan qaldırılması yollarını göstərir. Humanist cəmiyyətin siyasi,

iqtisadi və sosial yollarını özündə ehtiva edir. Başqalarının fikir və düşüncələrinə hörmətlə yanaşmağı tövsiyyə edir.

Milli-mənəvi dəyərlərimizin bir qismi tolerantlıqda öz ifadəsini tapır. Bəs tolerantlığın fəlsəfi mənası nədir?

**TOLERANTLIQ – dünya mədəniyyətlərinin zəngin müxtəlifliyinə, mövcud özünüifadə formalarına hörmətlə yanaşmaq, bunları tanımaq və elmi cəhətdən düzgün anlamaq deməkdir.** Göründüyü kimi tolerantlıq hazırda beynəlxalq əhəmiyyət kəsb edir.

Respublikamızda yaşayan bütün millət və xalqlar arasında tolerantlıq bərqərar olmuşdur. Bu isə milli və mənəvi dəyərlərimizin ən böyük nemətidir.

Bu mənada:

**Sadə və təvazökar adamlar müqəddəs torpağı olan ölkədə dünyaya göz açırlar. Torpağın müqəddəsliyi, gözəlliyi, onun yetirdiyi barında, bərəkətindədir. Barın təamı qüvvətli, yararlı olanda ondan dadıb tamsınanlar da mənəvi cəhətdən saf, fiziki cəhətdən gücü, qeyrətli, namuslu və müdrik olurlar. Sadə və təvazökar adamlar məhz belə torpağın övladlarıdırlar. Onlar hər yerdə bu müqəddəs torpağın başını ucaldır, şöhrətini hər yerə yayır və müqəddəsləşdirirlər. Bu müqəddəs torpaq Müstəqil Azərbaycan Respublikasına, səcdəyə tam layiq olan bu ölkəyə məxsusdur.**

Milli-mənəvi dəyərlərimiz ata-baba mirasıdır, onu qorumaq və daha da təkmilləşdirmək hər birimizin müqəddəs vəzifəsidir.

# NƏSLİN LAYİQLİ DAVAMÇISI

Xalqımızın tarixi yaddaşında belə bir deyim var: - **«Hər bir nəsil özündən sonra gələn nəslə görə Allah və cəmiyyət qarşısında məsuliyyət daşıyır. Nəsildən qorunmazlar, nəsli qoruyarlar».**



Nəsil nurlu olmalıdır. Nur insanın ən gözəl xüsusiyyətidir. Yəni bu Allah vergisidir. Nur həm candır, həm də canlandırandır. Xoşbəxt o nəsildir ki, **kəlamlıdır.** Ona görə ki, kəlam hikmət mənbəyidir.

Öz nəslinə layiq işlər görənlər dünyanın ən xoşbəxt insanlarıdır. Şuşa da əslinəcabətli nəsillər çoxdur. Onları saymaqla qurtarmaz. Belə nəsillərdən biri də **SEYİD ƏLİ nəslidir.**

Seyid Əli Şuşa da özünün xeyirxah əməlləri, qeyri-adi inam, mənəvi qüvvəyə malik olan, insanlara cəfədan qurtarıb şəfa verən ilahi qüdrətə malik qabiliyyət sahibi olmuşdur. Şuşanın yaşıl sakinləri söyləyirdilər ki, Seyid Əlinin qapısını açanlar onun kəraməti sayəsində sağalması mümkün olmayan xəstəliklərdən xilas olmuşlar. Seyidin şəfaverici əlləri, Allahdan istədiyi diləklər ümidsizlərə şəfa vermiş və həyata qaytarmışdır. Ona pənah gətirənlər ilahi vergisinə dərin inam bəsləyirdilər.

Seyid Əli kimdir?  O, **Allaha sadiq, ömrü boyu müqəddəs İslam dininin keşiyində duran, insanları sevən, onları nurlu işığa qovuşduran və yaxınlaşdıran nurani bir şəxsiyyət idi. Müasirləri onu belə xarakterizə edirdilər…**

Seyid Əli **QARABAĞ XANLIĞINDA** tarixən mövcud olan Seyidlər içərisində seçilib – sayılan seyidlərdən biri idi. O,

**haqq, ədalət tərəfdarı, onların tərəqqisinə möhkəm inam bəsləyən, ümidini Allahdan üzməyən, baxışları ilə «əlinizi Allahın dərgahından üzməyin» deyən, canıyla, qanı və iliyi ilə doğma torpağına bağlı olan, Allahdan Imdad diləyənlərin pənahı olan şəxsiyyət idi. Yaddaşlarda o, belə qalmışdır.**

Seyid Əli övladlarına, yaxınlarına və bütün şuşalılara deyərmiş:

**«Dünyasını dəyişənləri tez-tez xatırlayın, bu savabdır. Dünyasını başa vuranları yad etməklə, onların ruhu da şad olur».**

Seyid Əlinin müasirləri deyirdilər ki, onda özünün keçmişi, gələcəyi, ziyalı qohum-əqrəbası arasında bir ümid çırağı, bir mərhəmət ocağı var idi. Bütün bunlar indi həqiqətə çevrilmişdir.

Islam tarixində **«Seyyid»** adını qəbilə başçıları daşıyırdılar. Seyyid (Seyid) sonralar müsəlman dünyasında fəxri məna kəsb etmiş və **MƏHƏMMƏD peyğəmbərin nəslinə mənsub olanlar bu titula layiq görülmüşlər.**

Əlbəttə, bütün seyidlər müsəlman cəmiyyətinin nüfuzlu sosial təbəqəsini təşkil edirlər. Özünün saf, müqəddəs əməlləri ilə **möcüzə və kəramət sahiblərinə cəmiyyətdə böyük hörmət bəslənilmişdir. SEYİDLƏR də kəramət sahibi adlandırılırdılar. Bu xüsusiyyətləri tam şəxsiyyət kimi özünə birləşdirən ŞUŞA seyidlərindən biri də Seyid Əlinin yadigarı olan Seyidlər arasında xüsusi nüfuzu olan SEYİD XƏLİL AĞA ƏLİ oğlu ABBASOVDUR.**

**Seyid Xəlil Ağa 1917-ci ildə Şuşada anadan olmuşdur. Seyid Xəlil Ağa anadan olanda onda qeyri-adi bədən quruluşu, cazibədarlıq, ilahi gözəlliyi diqqəti cəlb edirmiş. Atası, anası, qohum əqrəbaları onunla fəxr edərdilər.**

**Seyid Xəlil Ağa iki yaşında sərbəst hərəkət edir, danışır, insanlara xoş əhval-ruhiyyə bəxş edən nurani siması, insanları heyrətə salan nurlu gözləri ilə hamının diqqətini özünə cəlb edərdi. O, üç yaşına çatanda Allah nuruna qərq**

**olmuşdur. Nəinki ailənin, şuşalıların, bütün Qarabağın ümidinə çevrilirdi.**

Hamı Seyid Xəlil Ağanın solmaz sürətinə, gələcəyinə, tanrıdan ona bəxş edilən gözəlliyə böyük ümid bəsləyirdi. Qeyri-adi məntiqə sahib olan Seyid Xəlil Ağa ömrünün gül açdığı bir dövrdə sərt imtahan qarşısında qalır. Seyid Əlinin müqəddəs ocağında hamını heyrətə salan Seyid Xəlil Ağanın xoşbəxtlik **nuru saçan gözləri getdikcə sönməyə başlayır.** Bu nuru ona Allah vermişdir. Bu nuru Allah öz dərgahına apardı. Apardı ki, minlərlə insana Şəfa verən Seyid Xəlilin ilahi gücü daha təsirli, daha şərafətli olsun. Allahdan imdad diləyənlərə, Allahın köməyi ilə yardım göstərə bilsin. Bu belə də oldu.

Gözlərindən məhrum olan Seyid Xəlil Ağa diri ikən Allah dərgahına böyük ümidlərlə yüksəlirdi. Bu yüksəliş onun bütün kədər və qüssələrinə böyük təsir göstərirdi. Hələ uşaq yaşlarından onun ziyarətinə gələnlərin sayı-hesabı yox idi. Seyid Əlinin vəfatından sonra onun varisi olan, Seyid Xəlil Ağanın ocağının qapıları uşaqdan-böyüyə kimi hamının üzünə açıq olardı.

Onu ziyarətə gələnlər xahiş edərdilər ki, istək və diləklərinin hasil olması üçün Allaha dualar etsin, xəta-balalar onlardan uzaq olsun. Seyid Xəlil Ağa onu ziyarətə gələnləri diqqətlə dinləyər, təskinlik verərdi. Bir müddət keçəndən sonra həmin adamların istək və arzuları çin olardı. Seyidin ziyarətinə hər kəs öz arzu və istəkləri ilə gələrdi. Onun yaşadığı ev müqəddəs ziyarətgah idi.

Evin həyəti geniş idi. Hər tərəfdə səliqə-səhman göz oxşayırdı. Həyətə daxil olanda ilin yaz, yay və payız aylarında güllər və çiçəklər adamda xoş əhval-ruhiyyə yaradırdı. Daş pilləkanları çıxıb evin eyvanına daxil olanda ziyarətə gələnləri Ağanın özü qarşılayardı. Onun könül oxşayan əzəmətli səsi ilk baxışdan insanlarda inam yaradardı.

Bu ecazkar səs sanki **Ulu Tanrıdan** ona bəxş olunmuşdu. Seyidin dualarına, əzəmətli şəxsiyyətinə ziyarətə gələnlərdə

böyük inam var idi. Yeri gəlmişkən onu da qeyd edim ki, Seyid Xəlil Ağanı ziyarətə gələnlər içərisində başqa millətlərin nümayəndələri də – **özbəklər, qazaxlar, türkmənlər, ruslar və** başqa xalqlara mənsub olanlar da olardı. Adətən həmin xalqların nümayəndələri **yaz və yay aylarında ŞUŞAYA istirahətə gələnlər idilər.**

Tarixə qovuşan Sovet Ittifaqının müxtəlif şəhərlərindən – **Moskvadan, Leninqraddan (Sankt-Peterburqdan), Minskdən, Samaradan və digər şəhərlərdə yaşayan azərbaycanlılar, bir sözlə, Seyid Xəlil Ağanı tanıyanlar ona müntəzəm olaraq müxtəlif hədiyyələr göndərirdilər.**

Mənə belə gəlir ki, Seyid Xəlil Ağaya olan münasibət ümumbəşəri dəyərlərə və anlayışlara parlaq misaldır.

Seyid Xəlil Ağa hamını, xüsusilə də **uşaqları çox sevirdi. Mən bütün bunların canlı şahidiyəm.** Onu ziyarətə gələn ata-anaların uşaqlarını qucağına alar, alın və yanaqlarından öpər, şəfa verən müqəddəs əlləri ilə onların başlarını sığallayardı. Uşaqlar Seyid Xəlilin **cəddinə böyük inam bəsləyirdilər.**

Seyid Xəlil Ağa səliqəli geyinərdi. Ona anası **SƏKINƏ xanım** xidmət edirdi. Onun çay süfrəsi həmişə ziyarətə gələnlərin sevimli əyləncə yeri idi. Təmiz, səliqəli çay süfrəsində əla növ çaylardan dəmlənən çay adamlara xüsusi ləzzət verərdi. **Armudu stəkanlarda içilən çay ziyarətə gələnlərdə xoş əhval-ruhiyyə yaradardı.**

**HAŞİYƏ. ORUCLUQ, QURBAN bayramları və MƏHƏMMƏD peyğəmbərin doğum günlərində Seyid Xəlil Ağa onu ziyarətə gələnləri müxtəlif çeşidli yeməklərə qonaq edərdi. Bununla da o, insanlara olan humanistliyini nümayiş etdirərdi.** Seyidin ziyarətçilərinin istək və arzularının həyatda gerçəkləşməsi hər tərəfə yayılırdı.

**XX əsrin 30-cu illərində Şimali Azərbaycanda baş verən ictimai-siyasi hadisələr zamanı zorakılığa, haqsızlığa məruz qalanlar ümidlərini Seyid Xəlil Ağaya yönəltmişdi. Sənayeləşdirmə, kənd təsərrüfatının kollektivləşdirilməsi və**

**mədəni inqilab illərində baş verən haqsızlıqlar insanlarda gələcəyə inamın zəifləməsinə səbəb olmuşdur. Ona görə də Seyidə olan inam daha da artmışdır. Həbslərə, zorakılığa məruz qalanlar Seyid Xəlil Ağanın müqəddəs nəfəsinə və dualarına böyük ümid bəsləyərdilər. Bu həqiqət idi. 1941-1945-ci illər Böyük Vətən müharibəsi illərində bütün şuşalıların, Azərbaycanın müxtəlif şəhər və kəndlərində Seyid Xəlil Ağaya, onun müqəddəs dualarına inam daha da artdı və bu inam Seyidin dünyasını dəyişən günə qədər – 1994-cü ilə kimi davam etdi…**

**1941-1942-ci illər Moskva uğrunda, 1942-1943-cü illər Stalinqrad və 1943-cü il Kursk döyüşlərində Seyid Xəlil Ağaya, onun cəddinə şuşalıların inamı hədsiz dərəcədə olmuşdu. Stalinqrad döyüşü Sovet adamlarında faşist Almaniyası üzərində qələbəyə ilahi qüvvəsi yaratmışdır. Moskva uğrunda gedən döyüşlərdə qazanılan qələbə buna əsaslı şərait yaratmışdı.**

**1942-ci il idi.** Şuşada yaşlı kişilər, qadınlar **(bir sözlə əsgər ailələri)** bütün günü **otuz beş yaşlı Seyidin yaşadığı evin həyətində toplaşaraq Sovet Ordusuna, şuşadan müharibəyə gedənlərə, hamıya qələbə arzulayırdılar. Seyid Xəlil Ağa üç gün döyüş başlanan günə qədər (1942-ci il noyabrın 19-a kimi) heç kimi qəbul etməmiş və Allahına sitayişdə olmuşdur. Onun özünün dediyi kimi noyabr ayının 19-da mənə əyan oldu ki, Sovet Ordusu qalib gələcək və bu qələbə faşizmin məhvini sürətləndirəcək… Belə də oldu.**

Seyid Xəlil Ağanın bu dediyi həqiqət oldu. Bu onun müqəddəs cəddinə inamı artırdı. **1944-cü ilin aprel ayında Sovet dövlətinin dindarlara qarşı münasibəti dəyişdikdən sonra Ağanın həyəti ziyarətgah mərkəzinə çevrildi. Sovet Ordusuna dualar oxunur və qələbələr arzulanırdı.**

Seyid Xəlil Ağanın güclü hissiyyatı var idi. Bir dəfə səsini eşitdiyi adamı uzun müddət münasibət saxlamamasına baxmayaraq, səsini eşidən kimi deyərdi: **- Bu filankəsin oğludur.**

**Adını qeyd edərdi.**

Mən, atam **RZA ilə** Seyid Xəlilin Ağanın ziyarətinə tez-tez gedərdik. O, atama **dayı deyərdi. 1962-ci ilin avqust ayı idi. S.M.Kirov adına Azərbaycan Dövlət (indiki ABU) Universitetinin əyani tarix fakültəsinin ikinci kursunda oxuyurdum. Yenə atamla birlikdə Seyid Xəlil Ağanın ziyarətinə getmişdik.** Səliqə-səhman əvvəllər olduğu kimi idi. Eyvanda çay süfrəsi açılmışdır. Stolun arxasında **beş nəfər əyləşmişdir. Onların iki nəfəri kişi idi.** Qadınlardan birinin qucağında gözəl bir oğlan uşağı var idi. Onlar Ağaya dualar edir və cəddinə möhkəm inam bəslədiklərini təkrar-təkrar dillərinə gətirirdilər. Qonaqlar getdikdən sonra Seyid Xəlil Ağa dedi ki, gördüyünüz uşağın üç yaşı var. Ata-anaları ailə qurduqdan **beş il sonra** dünyaya gəlib. Gənc ailə məni ziyarətə gələndən sonra uşaq dünyaya göz açıb. **Beş ildir ki, onlar məni ziyarətə gəlirlər. Ağanın təmiz nəfəsi, müqəddəs duaları sayəsində çoxsaylı insanlar öz mətləblərinə çatırdılar.**

Xeyli söhbətdən sonra Seyid Xəlil Ağa anası Səkinə xaladan xahiş etdi ki, atası **Seyid Əli Ağanın** oxuduğu **QURANİ-KƏRİM kitabını gətir.** Atam əksi əlifbanı bilirdi və Quranı yaxşı oxuyurdu. **Cümə axşamı idi.** Indiki kimi yadımdadır, atam **QURANİ-KƏRİMİN ƏRRƏHMAN surəsini** oxudu. Mən, həm surəni dinləyir və həm də Seyid Xəlil Ağadan gözlərimi çəkmirdim. Surə oxunub qurtaranda hiss etdim ki, Ağanın gözlərindən yaş axır… **Bu mənzərəni təsvir edə bilmirəm…**

Seyid Xəlil Ağa ilə səmimiyyətlə görüşüb ayrılanda o böyük inamla dedi: **- RZA dayı atam Seyid Əli Ağanın mənə yadigarı olan Qurani-Kərimi sənə bağışlayıram. Atam ömrünün sonuna kimi hər cümə günləri qurandan surələr oxuyardı…**

Yuxarıda dediyim kimi **Seyid Xəlil Ağaya camaatın inamı böyük idi.** Insanlar **xoşbəxt günə çatmaq üçün, dərd-bəladan qurtarmaq, həsrətə son qoymaq naminə ümidlərini**

**ona bağlayırdılar.**

Ona görə ki, o, sözün əsl mənasında Allahın yer üzərində ən çox sevdiyi bəndələrindən idi. Şuşanın **SEYİDLİ** məhəlləsində yaşayan hər zaman adını hörmətlə çəkdiyimiz iman və inam sahibi – Seyid Xəlil Ağa bilirdi ki, kimə necə və nə kimi köməklik göstərmək lazımdır. Allahın Şuşa torpağına bəxş etdiyi Seyid Xəlil Ağa gözü yollarda qalan, köməyə ehtiyacı olanlara həmişə dayaq olmuşdur. Daha bir möcüzə barədə:

Şuşa sakini **AKİF SƏTTAR oğlu MƏHƏRRƏMOVUN** dedikləri – **Atam Səttar Səməd oğlu Məhərrəmov 1939-cu ildə hərbi xidmətə çağırılır. O, 1939-1940-cı illər Sovet Finlandiya müharibəsində iştirak etmişdi. 1941-1945-ci illər Böyük Vətən müharibəsi başlananda atam Səttar Qərbi Belorusiyada gedən ağır döyüşlərdə asir düşür. 1941-ci ilin sentyabrında atamın döyüşlərdə həlak olması haqqında Şuşa şəhərinə rəsmi xəbər gəlir. Babam Səməd Məhərrəmov həmin sənədi götürüb Seyid Xəlil Ağanın yanına gedir. Seyid Xəlil Ağa bu xəbərdən məyus olur. Çünki, Səttar Məhərrəmov hərbi xidmətə gedəndə Seyid Xəlil Ağa onu Qurani-Kərimin altından keçirmiş və Səməd kişiyə demişdir ki, Səttar sağ-salamat evə gələcək. Indi isə… Seyid Səməd kişinin ölüm kağızını özündə saxlayır və deyir: - «Bir həftədən sonra yenə mənim yanıma gələrsən».**

**Seyid Xəlil Ağaya pənah gətirənlər həmişə şad xəbərlərlə qarşılaşırdılar. Seyidin Allaha yalvarışları, diləkləri nəticəsində ona vəh gəlir ki, Səttar sağdır. Amma çətin şəraitdədir. Səttar Məhərrəmov faşist əsir düşərgəsindən Tərtər rayonunun Borsunlu kəndindən olan MƏZAHİR HƏMZƏ oğlu AXUNDOVLA birlikdə qaçaraq Sovet Ordusu ilə birlikdə faşistlərə qarşı vuruşurlar. 1943-cü ildə Səttar Məhərrəmovun ailəsinə məktub gəlir və onun sağ olduğu bildirilirdi. Halbu ki, Səttar Məhərrəmova yas mərasimi saxlanılmış, onun ruhuna ehsan da verilmişdir.**

**1945-ci ilin may ayında Səttar Şuşaya qayıtmış, evə**

**getmədən Seyid Xəlili ziyarət etmiş, onun Ilahi cəddinə valeh olduğunu bildirmişdir.**

**HAŞİYƏ. Səttar Məhərrəmov deyirdi ki, mən Seyid Xəlil Ağanı ziyarət edərkən o mənə gülə-gülə belə dedi – "Səttar mən sənin ehsanını yemədim, bilirdim ki, tezliklə gələcəksən"…**

Azərbaycandan kənarda təhsil alan Şuşalıların da xeyirduası Seyid Xəlil Ağadan alınardı. Azərbaycandan kənarda ali təhsil alan şuşalıların nümayəndələrindən biri mənim dostum, sədaqətli insan **BAYRAM VƏLİ oğlu RZAYEV deyir:**

**Mən, Şuşada onuncu sinfi qurtardıqdan sonra Ukraynanın Xarkov şəhərindəki Politexnik Institutunun elektrik maşınqayırma fakültəsinə qəbul oldum. Atam Vəli məni Seyid Xəlil Ağanın ziyarətinə apardı. Ağa mənə xeyir-dua dilədi, uğurlar arzuladı. Mən, hər il qış və yay tətillərinə gələndə Seyid Xəlil Ağanın ziyarətinə gedər, onun müqəddəs, insanlara xoşbəxtlik gətirən alqışlarını dinləyərdim. Ağanın evinin eyvanına daxil olub salam verəndə deyərdi: - «Bu Rzayev Vəlinin oğlu Bayramdır». Ömrü boyu Allahın dərgahına üz tutan, xəstələrə, köməyə ehtiyacı olanlara şəfaverici cəddi ilə kömək edən Seyid Xəlil Ağa böyük şəxsiyyət kimi əbədi olaraq yaddaşıma həkk olub. Unudulmaz insan olan Seyid Xəlil Ağa indi aramızda yoxdur. Allah onu rəhmət eləsin, məzarı nurla dolsun…**

**Belə misalları çox göstərmək olar.** Seyid Xəlil Ağa böyük hörmət və ehtiram sahibi idi. Böyükdən uşağa kimi bütün şuşalılar onu sevirdi. Ona görə ki, o, bizim inam simvolumuz idi. Xoşbəxt o insandır ki, özü cismən olmasa da adı yaşayır, dönə-dönə xatırlanır. **SEYİD XƏLİL AĞA kimi!**

Şuşada **QURDLAR MƏHƏLLƏSI ilə TƏZƏ MƏHƏLLƏ arasında çox da böyük olmayan SEYİDLİ MƏHƏLLƏSİ yerləşir.** Bu məhəllənin xoşbəxtliyi ondadır ki, Seyid Xəlil Ağa kimi şəxsiyyətin məkanıdır. Biz insanlar arzu və diləklərimizi **Böyük Allaha ünvanlayırıq, ona qurbanlar**

**verir və pənah gətiririk. Seyidlər isə bir növ, Allahla bizim aramızda binagüzarlıq, vasitəçilik edir, bizim müraciətlərimizi Ulu Tanrıya çatdırmağa köməklik göstərirlər. Necə ki, Seyid Xəlil Ağa göstərirdi.**

Seyid Xəlil Ağa **1994-cü il sentyabr ayının 19-da Bakı şəhərində əbədiyyətə qovuşmuş və orada torpağa tapşırılmışdır.**

Seyid Xəlil Ağanın müqəddəs məzarı şuşalıların və onu tanıyanların yenə də ziyarətgahıdır. Onun **ilahi, fitri istedadı unudulmur və heç vaxt unudulmayacaqdır.** Onun sadə, lakin əzəmətli məzarında bir **niskinlik hiss olunur. Bu Şuşa nisgilidir…**



*Ölüm sevinməsin qoy!... Ömrün vermir bada*
*El gədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirə tək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

***S.Vurğun***

## ŞƏRƏFLİ ÖMÜR YOLU

Müəllim, insan mənəviyyatının bağbanıdır, desək daha doğru olar. Müəllim saf mənəvi valideyn və eyni zamanda da elm fədaisidir. Müəllim hər bir adamın həyat çırağıdır. Elm nur, bu nuru insan gəlbində işıqlandıran müəllimdir. Müəllim, peyğəmbərlərdən sonra Allaha ən yaxın olan bəndələrdir.

Ümumiyyətlə, hərtərəfli biliyə, yüksək əxlaqa, geniş dünya görüşünə, milli-mənəvi dəyərlərə malik olan xalq, tarixi inkişafın hər bir mərhələsində qarşılaşdığı bütün çətinliklərdən çıxmaq üçün özündə qüvvə və iradə tapa bilib.

**«Siz bilik öyrədən adamı böyük sayın», - deyən Məhəmməd peyğəmbər biliyi bilməyənlər arasında təbliğ etməyi ən böyük savab hesab edirdi. Böyük mütəfəkkir Nəsrəddin Tusi də müəllimliyi ən şərəfli peşə adlandırırdı. Elmi pedaqoji ədəbiyyatda müəllim peşəsi şərəfli, məsuliyyətli, çətin və mürəkkəb iş kimi dəyərləndirilir.**

Xalqımızın dərin hörmətini qazanan, yüksək əqidə, məslək, mədəniyyət və mənəviyyat, hərtərəfli dərin bilik, özünün pedaqoji fəaliyyəti ilə respublikamızda şöhrət qazanan və heç vaxt yaddan çıxmayan, minlərlə insan qəlbində yaşayan xalq müəllimlərimizdən biri də **şuşalı, qacarlar sülaləsinin layiqli nümayəndəsi Keymah Keyqubad oğlu Bəhmənovdur.**

**Keymah Bəhmənov 1914-cü il avqust ayının 15-də Şuşa şəhərində anadan olmuşdur.**

Keymah Bəhmənov orta məktəbdə oxuyarkən bilik, bacarıq və vərdişlərinə görə şagird yoldaşlarından köklü surətdə fərqlənirdi. O, orta məktəbi əla qiymətlərlə qurtarıb, ali təhsil almaq məqsədilə sənədlərini **Azərbaycan Pedaqoji İnstitutuna (indiki Azərbaycan Pedaqoji Universitetinə) verir**. Bu elə bir dövr idi ki, Azərbaycan kəndində ictimai-siyasi və sosial problemlər çox mürəkkəb xarakter almışdır.

**1931-ci ilin avqust ayı idi.** Azərbaycan kəndi tarixinin ən ağır və dəhşətli günlərini yaşayırdı. **Kollektivləşmə pərdəsi altında** kəndlərdə ayrı-ayrı sosial təbəqələrə, - varlılara, ziyalılara və din xadimlərinə amansız divan tutulurdu. Keymah müəllimin dediyi kimi kollektivləşmə kəndlərə yeni həyat yox, sözün əsl mənasında dərd, bəla gətirmişdir.

Belə bir şəraitdə kəndlərdə maarif və mədəniyyəti təbliğ etmək məqsədilə Azərbaycanın ali məktəblərində təhsil alan tələbələr müvəqqəti olaraq Azərbaycan kəndlərinə ezam olunurdular. Onların arasında **17 yaşlı gənc Keymah da var idi. O, Qarabağın Ağdərə rayonunun Güneypəyə kəndinə müvəqqəti olaraq məktəb direktoru vəzifəsinə təyin olunur.** Özünün pedaqoji fəaliyyəti və humanistliyi ilə Keymah müəllim qısa müddət ərzində kənd camaatının dərin hörmətini qazanır.

Keymah müəllim yuxarıda adı qeyd olunan kəndin yeddillik məktəbində işlədikdən sonra, yenidən Bakı şəhərinə qayıdır və təhsilini davam etdirir. **1938-ci** ildə Keymah müəllim APİ-nin riyaziyyat fakültəsini əla qiymətlərlə qurtarıb qırmızı diplom alır. Elə həmin ildə o, **Ağdam Rayon Xalq Təhsil Şöbəsinin sərəncamına göndərilir.**

Keymah müəllim **İkinci Dünya müharibəsi başlayana kimi** Ağdam rayonunun müxtəlif məktəblərində riyaziyyat fənnini tədris edir. O, rayonun pedaqoji kollektivi arasında qısa bir müddətdə aparıcı yer tutur. Beləliklə də həm şagird və həm də valideynlərin dərin hörmətini qazanır.

İkinci Dünya müharibəsi başlananda ilk dəfə cəbhəyə gedənlərdən biri də Keymah müəllim idi. Döyüş tapşırıqlarını layiqincə yerinə yetirən Keymah müəllim orden və medallarla təltif olunmuşdur. Müharibə başa çatdıqdan sonra Keymah müəllim ordu sıralarından tərxis olunur və doğma şəhəri olan Şuşaya qayıdır. O, Şuşada orta məktəbdə fizika-riyaziyyat və astronomiya fənlərini tədris edir. Yaradıcı pedaqoji fəaliyyəti ilə şagirdlərin qəlbinə yol tapmağı bacaran Keymah müəllim Şuşa dairəsindən çıxaraq bütün Azərbaycan məkanında şərəfli pedaqoq kimi şöhrət tapır. Öz təlim üsulunda Keymah müəllim həmişə **müzakirə, məntiqi təfəkkürün inkişafına yönəldilən metodlara üstünlük verirdi, daim yeni təlim üsullarının axtarışına səy göstərirdi.** Şuşalılar Keymah müəllimi şagird və tələbə qəlbinin psixoloqu adlandırırdılar. Bu əsl həqiqət idi. Keymah müəllimin bir şəxsiyyət kimi el-oba arasında qazandığı hörmət və nüfuz, ilk növbədə onun humanizmi və saf şəxsiyyəti ilə sıx bağlı idi.

Keymah müəllim **1948-ci ildən ömrünün sonuna kimi pedaqoji fəaliyyətini Şuşa Kənd Təsərrüfatı texnikumunda davam etdirmişdir. 43 il ərzində yüksək səviyyəli mütəxəssislər yetişdirilməsinə məqsədyönlü töhfələr vermişdir.** Respublikamızda çox az şəhər və rayon olar ki, orada Keymah müəllimin yetirmələri olmasın.

Keymah müəllim **1961-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Gəncə Kənd Təsərrüfatı Akademiyası) mexanika fakültəsini də əla qiymətlərlə qurtarmışdır.**

Keymah müəllim bu sətirlərin müəllifinə də orta məktəbdə dərs demişdir. Mən fəxr edirəm ki, riyaziyyat, fizika və astronomiya elmlərini Keymah müəllimdən öyrənmişəm. Bu mənim təbiət elmləri sahəsində uğur qazanmağıma olduqca böyük köməklik göstərmişdir. Keymah müəllim olduqca ciddi və eyni zamanda da qayğıkeş müəllim idi. Tədris etdiyi fənləri şagird və tələbələrinə dərindən öyrətmək məqsədilə müxtəlif təlim metodlardan və üsullarından yaradıcı surətdə istifadə edərdi.

Keymah müəllim deyirdi ki, kim həyatda elm sahəsində irəli getmirsə günah onun özündədir. Oxumaq, müəyyən bir elmin axtarışında olmaq lazımdır. Etiraf edim ki, Keymah müəllimin həyat tövsiyyələri həmişə məni düşündürmüşdür. **62 il bundan əvvəl** Keymah müəllimin biz tələbələrə verdiyi tövsiyyələr artıq həyat vəsiqəsi almışdır.

**XX əsrin ikinci yarısında SSRİ-də** təhsil sahəsində həyata keçirilən islahatlara Keymah müəllim həmişə mənfi münasibət bəsləyirdi. Mən gənc müəllim kimi onunla fikir mübadiləsi aparır və ondan öyrənirdim. Təcrübəli müəllim deyirdi ki, partiya və hökumət tərəfindən qəbul olunan təhsil islahatları formal xarakter daşıyır. Onun tədris-təchizat bazası zəifdir. Məktəb müəllim və şagirdlər üçün deyil, eyni zamanda da ictimaiyyətindir. Hay-küylə, təmtəraqla irəli sürülən şüarlarla təhsili yüksəltmək olmaz deyərdi Keymah müəllim.

Çox təəssüflər olsun ki, Keymah müəllim müstəqil Azərbaycanın yeniləşən, dinamik inkişaf yoluna qədəm qoyan təhsil sistemini görə bilmədi…

Görkəmli müəllim, el ağsaqqalı, qayğıkeş və humanist vətəndaş **Keymah Bəhmənov 1991-ci il iyun ayının 15-də doğma şəhəri Şuşada əbədiyyətə qovuşdu.**

**Keymah Bəhmənov Şuşanın Mirzə Həsən qəbristanlığı ərazisində yerləşən Qacarlar sülaləsinin «Şahlıq Türbəsi»ndə dəfn olunmuşdur.**

Keymah müəllimin əziz xatirəsi heç vaxt biz şuşalıların qəlbindən çıxmayacaqdir.

Allah rəhmət eləsin. AMİN.

# ŞUŞA ŞƏHƏRİNİN İŞĞALINDAN 26 İL KEÇİR

*Şuşa yalnız şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.*

ULU ÖNDƏR,
**HEYDƏR ƏLİYEV**

Azərbaycan Respublikasının ən qədim ərazisi olan **QARABAĞIN** bir hissəsi, o cümlədən, onun şərəfi və **MÜQƏDDƏS KƏBƏSİ Şuşa 26 ildir ki, erməni faşizminin müvəqqəti** olaraq işğalı altındadır. Bu işğalın tarixi **1992-ci il may ayının 8-dən başlayır.**

**ŞUŞA rayonunun ərazisi 289 kv km, əhalisini ümumi sayı 33735 nəfərdir. Şəhərin ümumi ərazisi isə 34 kv.km-dir.**

Uca və əzəmətli dağ başında yazı və yayı yaşıllığa, payızı və qışı dumana bürünmüş müqəddəs bir şəhər var. **Bu mənim və bütün şuşalıların şəhəridir.** Bildiyimiz kimi bu şəhərin tarixi çox da qədim deyildir. **ŞUŞANIN 268 il tarixi var. Lakin bu tarix min illiklərə bərabər dövrü əhatə edir.**

Şuşanın salınma tarixi 1750-ci ilin sentyabr ayına təsadüf edir. Şuşa – Pənahabad, şəhərinin bünövrəsi qoyulana kimi bu ərazidə yaşayış olmamışdır. Dağlar qoynunda yerləşən ərazi **başdan-başa uca ağaclarla, keçilməz kolluqlarla əhatə olunmuşdur. Ərazidə müxtəlif vəhşi heyvanlar, müxtəlif quş növləri yaşamışlar.**

Pənahəli xan çağırdığı dövlət müşavirəsində din xadimlərinin və məmurların xeyir-duasını aldıqdan sonra əraziyə gəlir

və yeni paytaxtın salınacağı məkanı bəyənir və onun bünövrəsini qoyur. Şuşalılar yaxşı bilirlər ki, dumanlı havada Şuşa xüsusi gözəlliyə qərq olurdu. Şəhərin hər bir yerindən ş**imala, şimal-şərqə və şimal-qərbə nəzər saldıqda təbiətin möcüzəsi ilə qarşılaşmamaq mümkün deyildir. Bağrıqan, Böyük və Kiçik Kirs, Sarı Baba dağlarını öz ağuşuna alan qara duman tədricən səmaya doğru qalxdıqca təbiət sanki behişti xatırladır, quşların cəh-cəhi ətrafa yayılır və Günəş təbiətə gözəllik bəxş edirdi…**

Şuşa əsl möcüzə idi… **Şimal-şərq ərazidəki əzəmətli qayalı dağlar və onların ətraf çıxıntıları nağıllarda söylənilən əfsanəvi nəhəngləri xatırladır.**

Şuşa cənub-şərq tərəfdən iki hündür, təxminən **250-300 metr hündürlüyə malik olan, eni isə 100-120 metrə qədər olan sıldırım dərə ilə əhatə olunur**. Cənub tərəfdən **Kirs dağından Şuşaya nəzər saldıqda hər kəs bambaşqa bir mənzərə ilə qarşılaşırdı… Dumanlı havada şəhər vulkan kimi püskürürdü…**

Tarixdə belə bir deyim də var ki, **Ağa Məhəmməd Şah Qacar Topxanadan Ibrahimxəlil xana söyüş söyərkən belə demişdir: - «Filan-filan olmuş, sən qazanın içində oturub, onun kəfkirini əlində tutmusan və elə xəyal edirsən ki, guya mənimlə çəkişirsən? Mərhaba sənə! Hünərin varsa çıx meydana!»**

Şuşanın hər addımı bir tarix söyləyir **Ibrahimxəlil xanın kahası, Cıdır düzü, Dövtələb, Divanxana, Topxana, Xan sarayı, Qala divarları, bürclər, müqəddəs məscidlər, pirlər, əzəmətli binalar, bulaqlar, küçələr hərəsi bir kitab, canlı yaddaş…**

**Şuşanın tarixi Azərbaycan türklərinin şanlı tarixidir.**

**ŞUŞA Azərbaycan tarixində intibah mədəniyyətinin beşiyidir.**

**XIX əsrin ikinci yarısında BAKI şəhəri ticarət, ŞƏKI şəhəri sənaye sahəsində, ŞUŞA şəhəri isə elm, ədəbiyyat, in-**

**cəsənət və mədəniyyət mərkəzləri kimi şöhrət qazanmışlar. Təsadüfi deyildir ki, Şuşa o zaman Cənubi Zaqafqaziyanın konservatoriyası adlandırılırdı.** Tiflis şəhərindən sonra Şuşa Cənubi Zaqafqaziyada özünün inkişaf səviyyəsinə görə ikinci yerdə gedirdi. Hətta bəzi sahələrdə ondan üstün idi. Bəs Tiflisi şöhrətləndirən kimlər idi? Qarabağlılar, şuşalılar idilər.

Orta əsrlər şəhərsalma mədəniyyətinin incəliklərini özündə əks etdirən Şuşa Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi tarixi hədiyyədir. Daha dəqiq desəm, xalqımızın yaradıcılıq dühasının bəhrəsidir. Bu mənada Şuşa Azərbaycan xalqının **Ziyarət yeri – müqəddəs Kəbəsidir.** Milli-mənəvi nemətlərimizi özündə birləşdirən Şuşa mövcud olduğu tarixi ərzində zəngin və yadda qalan keçməkeşli qəhrəmanlıq yolu keçmişdir.

Qarabağ xanlığının paytaxtı kimi **Şuşa qısa müddət ərzində siyasi iqtisadi, mədəni, sosial sahələrdə sürətlə inkişaf edərək, ictimai həyatın bütün sahələrində elə uğurlar əldə etmişdir ki, bunları sözlə təsvir etmək mümkün deyil.** Dəfələrlə elmi əsərlərimdə, məqalə və çıxışlarımda  dediyim kimi, Şuşadan da hündür ərazilərdə yerləşən, görünüşlərində gözəl olan şəhərlər var.

Lakin bu şəhərlər bəşəriyyətə Şuşa qədər elm, ədəbiyyat, incəsənət xadimləri bəxş etmişlərmi? **Əlbəttə yox!** Bu uğurlar **yalnız və yalnız ŞUŞAYA məxsusdur.**

**Şuşa** tarixi şəxsiyyətlərin – **M.P.Vaqifin, Q.B.Zakirin, Xurşidbanu Natəvanın, M.M.Nəvvabın, N.B.Vəzirovun, F.B.Köçərlinin, Ə.B.Haqverdiyevin, Ə.B.Ağaoğlunun, Y.V.Çəmənzəminlinin, Z.Hacıbəyovun, Ü.Hacıbəyovun, F.Əmirovun, S.Ələsgərovun, Əbüdülbaqi Zilalovun, Cabbar Qaryağdı oğlunun, Seyid Şuşinskinin, Keçəçi oğlu Məhəmmədin M.M.Fərzəliyevin, M.C.Əmirovun, M.Məmmədovun (Bülbülün), Xan Şuşinskin, R.Behbudovun, F.B.Ağayevin, S.B.Mehmandarovun, Y.Quliyevin, A.Vəzirovun, S.Vəzirovun, X.Məmmədovun** və yüzlərlə tarixi şəxsiyyətlərin doğma vətənidir. Belə şəxsiyyətlər yalnız Şuşa mühitində

doğulub yetişə bilərdilər.

**Əlbəttə Şuşanın tarixi şəxsiyyətləri içərisində ilk yer tutanlar onun (şəhərin) PƏNAH xan və oğlu Ibrahimxəlil xanın adları birinci və ikinci yerləri tuturlar.**

Elə yeri gəlmişkən onu da deyim ki, Sovet imperiyası dövründə Şuşa görkəmli şəxsiyyətləri ilə birlikdə **siyasi təqiblərə məruz qalmışdır.** Xanlara, bəylərə, tacirlərə, din xadimlərinə məxsus olan evlər, imarətlər, müqəddəs ocaqlar – məscidlər, pirlər, hətta məhəllə bulaqları sökülüb məhv olunurdu. Sanki bu tarixi abidələr **Allahdan imdad diləyirdilər.**

**1977-ci ildə Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə «ŞUŞA şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan edilməsi haqqında» qərarın verilməsi Şuşanın düşdüyü bəladan xilas olmasında böyük rol oynadı.**

Azğınlaşmış erməni ünsürlərinin yolu bağlandı. Bu ünsürlərin şəhərimizə qarşı kin və nifrətinin qarşısı alındı. Lakin onlar məqam axtarırdılar. Bu məqam M.S.Qorbaçovun dövründə onlara nəsib oldu. Moskvanın erməni ünsürlərini açıqdan-açığa müdafiəsi müvəqqəti olsa da Şuşanın işğalına səbəb oldu…

**HAŞİYƏ.** Bu yaxınlarda Moskva televiziya kanallarının birində M.Qorbaçov nümayiş etdirilirdi. O, bədbəxt yetim əlində **əsa** ayaq üstə güclə dayanmışdı, danışa bilmirdi. Demək olar ki, insanlıq simasını itirmişdir, sanki, o, erməni donu geyinmişdir. Azərbaycan xalqının, o cümlədən də Şuşa camaatının ah-naləsinə düçar olmuşdur. O, belə də olmalı idi… Onun acı taleyi göz qabağındadır. Bu tale Qorbaçovun qoluna girib öz ardınca sürükləyir. Kim olursansa ol, amma ədaləti, haqqı nahaqqa vermə. Tarix bunu heç kimə bağışlamır. Bir vaxtlar Qorbaçovun Kremldə oturduğu otağı su yoluna çevirən erməni ünsürləri görəsən onu xatırlayırlar, ya yox! Inanmıram, erməni bunu eləməz…

**XVIII əsrin 40-cı ilinin ortalarında Azərbaycanda yaranan müstəqil feodal dövlətlərdən biri də Qarabağ xanlığı**

**idi. 1747-ci ildə yaranan Qarabağ xanlığı 1822-ci ilə kimi, yəni, Rusiya imperiyası tərəfindən ləğv edilənə qədər şərəfli tarixi yol keçmişdir.** Bu dövrdə mərkəzi Şuşa olan Qarabağ xanlığı Şimali və Cənubi Azərbaycan xanlıqla arasında ən çox inkişaf edən xanlıq idi. Şüşa hərbi-siyasi mərkəz olmaqla bərabər, elm, mədəniyyət, incəsənət sahələrindən başqa ən mühüm sənətkarlıq və ticarət mərkəzi idi. Bütün sənətkarlıq və ticarət sahələri azərbaycanlılara məxsus idi. Bu sahələr tarixi mənbələrdə də öz əksini tapır. Erməni ünsürü nəinki Qarabağın, ümumiyyətlə Cənubi Zaqafqaziyanın **aborigen (yerli)** əhalisi deyil.

Erməni ünsürləri Qarabağın yuxarı hissəsini **Arsax** adlandırırlar. Bu ərazi bütün erkən və orta əsrlər dövrlərində siyasi, iqtisadi, dini və mədəni baxımdan **Azərbaycan Alban** dövlətinin ən mühüm vilayətlərindən biri olmuşdur. Vilayətin əhalisinin əsas əmək məşğuliyyəti **əkinçilik, maldarlıq, sənətkarlıq və ticarət idi.** Erməni ünsürünün adlandırdığı Arsak **Azərbaycan dilində ƏRSAK, yəni ər, igid deməkdir. Sak türk tayfalarından birinin adıdır.** Ərsak vilayətinin əhalisi qədim türk tayfası olan **saklarla yanaşı, alban-türk mənşəli qarqarlar, utilər, hunlar, xəzərlər, barsillər və sairələrdən ibarət idilər.**

Qarabağ tarix boyu Azərbaycanda mövcud olan türk-müsəlman dövlətlərinin tərkibində olmuşdur. Öz yazılarımda həmin dövlətlərin adlarını qeyd etmişəm. Bu dövlətlərin adlarını qeyd etməyə ehtiyac hiss etmirəm.

Bəs bu erməni ünsürləri nə vaxt və hardan gəlib **cənubi Zaqafqaziyada peyda olmuşlar?** Səyyar həyat tərzi keçirən, **torpağı, tarixi folkloru, mədəniyyəti, paytaxtı və padşahı olmayan bu ünsür Rusiya və Iran müharibələrindən sonra** regiona yol tapmışlar.

**1828-ci il Türkmənçay və 1829-il Ədirnə sülh müqavilələrindən sonra** Rusiya imperiyası Cənubi Zaqafqaziya (Qafqazda) öz təcavüzkarlıq mövqeyini möhkəmləndirmək məqsədilə Iran və Türkiyə ərazisində özünə sığınacaq tapan erməni

ünsürlərindən istifadə etmək qərarına gəldi. Yuxarıda qeyd olunan sülh müqavilələrindən sonra **Irandan 40 min Osmanlı imperiyasından 84 min erməni ailəsi Cənubi Zaqafqaziyaya gətirilərək yerləşdirildilər.**

Bu hadisə Rusiya imperiyasının tarixdə həyata keçirdiyi ən qəddar siyasəti idi. Hətta rus tarixçiləri və məmurları da bunu dəfələrlə etiraf etmişlər. Rus diplomatı və məmuru **N.N.Şavrov yazırdı:**

**«Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin 1 milyondan çoxu bizim tərəfimizdən köçürülüb buraya gətirilmişlər».**

Rusiya imperiyası tərəfindən **1840-cı il 10 aprel tarixli inzibati-ərazi islahatına əsasən, 1841-ci il yanvar ayının 1-də Kaspi vilayətinin tərkibində Şuşa qəzası təşkil edildi. Bu qəza Cavanşir, Göyçay, Cavad, Cəbrayıl, Zəngəzur qəzaları ilə həmsərhəd idi. Şuşa qəzası 1846-cı ildən 1867-ci ilə kimi Bakı, 1867-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyalarının tərkibində olmuşdur.**

**Şuşa qəzası Kəbirli, Cavanşir, Mehri, Vərəndə məntəqələrinə bölünürdü. 1867-ci ilin dekabr ayında verilən fərmana əsasən Zəngəzur və Cavanşir məntəqələri Şuşa qəzasından ayrılaraq, müstəqil qəzalara çevrildilər. Şuşa qəzası 1929-cu ildə ləğv edilmişdir.**

*******

Şuşanın erməni faşistləri tərəfindən işğal edilməsinin yuxarıda dediyim kimi **26 ili 2018-ci il may ayının 8-də tamam olur.** Erməni ünsürləri bu günü «qələbə» günü kimi qeyd edirlər. Bu yaramaz ünsür Şuşanın işğalında kimlərdən kömək aldıqlarını hələlik dillərinə gətirmirlər.

Hamıya məlumdur ki, erməni silahlı quldur dəstələri Qarabağda ələ keçirdikləri nə varsa, burada yerləşən **tarixə qovuşan SSRİ-nin 366-cı hərbi qüvvələrrinin yaxından köməyi ilə əldə etmişlər.**

O dövrdə respublikamızda mövcud olan siyasi, iqtisadi və sosial çətinliklərdən istifadə edən erməni faşistləri yuxarıda göstərilən hərbi qüvvənin köməyi ilə **1992-ci il may ayının 8-də ŞUŞA** şəhərini işğal etdilər. Bu bizim üçün **faciə** idi.

Birləşmiş **rus-erməni** hərbi qruplaşmaları, Şuşanı bütün istiqamətlərdən **top, raket, iri çaxlı silahlarla və tanklarla amansızcasına atəşə tutdular. 1992-ci il may ayının 8-də Günəş çıxmamış Şuşanın səması həmin silahların qara tüstüsünə bürünmüşdü.** Amansız düşmənlərə qarşı yalnız şəhəri müdafiə edən könüllü özünümüdafiə dəstələri vuruşurdular. Onlar qəhrəmancasına vuruşmalarına baxmayaraq, uğrunda canlarını qurban verdikləri **ŞUŞANI qoruyub saxlaya bilmədilər… Şuşa müvəqqəti olaraq işğal olundu.**

**Şuşa uğrunda gedən döyüşlərdə 195 nəfər soydaşımız şəhid oldu, 165 nəfər müxtəlif dərəcədə yaralandı, 58 nəfər əsir düşdü.** Erməni faşist quldurları işğaldan sonra **minlərlə eksponatın – muzeylərin, nadir sərgilərin, əşyaların, boyakarlıq nümunələrini, heykəlləri, tətbiqi sənət əsərini, bədii oyma, tikmə, fauna və flora nümunələrini, tarixi etnoqrafik, memorial xarakterli sənəd və fotoşəkilləri və sairəni talan etdilər, yüzlərlə tarixi mədəniyyət abidələrini vəhşicəsinə dağıtdılar. Təhsil, səhiyyə ocaqlarını və şuşalıların evlərini yandırıb onların əmlaklarını qarət etdilər. Budur erməni faşizminin qanlı cinayətləri.**

Son vaxtlar xəstə təmayüllü erməni prezidenti S.Sərkisyan sayıqlamağa başlayıb, ağlına gəlməyəni dilinə gətirir. Azərbaycanı sözlə hədələyir. Bütün bunlar onun **sağalmaz embrionunun təzahürləridir. Embriologiya elmi və fəlsəfi mənşəyini «embrion» sözündən alır, insan orqanizminin gen hüceyrələrini araşdıran, onu yeniləşdirən, «SAF QAN», «SAĞLAM RUH» fikirlərini aşılayan elmdir.** Deməli, insan embrionlar üzərində qərar tutur, formalaşır.

**Qədim dünyanın məşhur alim-həkimi HİPPOKRAT vaxtilə yazırdı:**

**«Insanın əxlaqi dünya görüşləri, onun cəmiyyətə və gördüyü hər-hansı bir şeyə immuniteti embrionlarda formalaşır. Zəif və xəstə embrion xəstə əxlaq, xəstə dünyagörüşü deməkdir.**

**Qədim dünyanın görkəmli mütəfəkkiri Aristotel deyirdi:**

**«Embrionu şikəst olan şəxsin daxili aləmi də, cəmiyyətdə və həyatda tutduğu mövqe də şikəstdir».**

Çox maraqlıdır, görəsən dünyamızın aparıcı dövlətlərinin başçıları S.Sərkisyanın və onun ətrafına toplaşan quldurların embrion xəstəliklərini görmürlərmi?...

Mən embrionu xəstə olan erməni alimlərinin, şair və yazıçılarının və habelə ziyalı adını daşıyanlarının adlarını yazsam bu milyonlara gedib çıxar. Bəzi ünsürlərin adlarını və onların yaramaz fikirləri üzərində dayanmağı vacib sayıram.

Ermənistan MEA-nın professoru Movses Norants adlı bir yaramaz – deyir:

**«Hər bir türkü doğulduğu gündən ölümə məhkum edin. Onların dirilməsinə imkan verməyin».** Görünür o, bu sözləri deməklə türkdən qorxduğunu açıqdan-açığa etiraf edir. Başqa cür ola da bilməz.

Yazıçı Silva Kaputikyan embrionunun çürüklüyünü belə biruzə verir:

**«Hayik bilməlidir ki, ailəsində dünyaya göz açan erməni yaşamaq üçün yox, öncə erməni millətinə kömək üçün doğulub. Buna görə yeni doğulan erməni uşağının qulağına bərkdən, lap bərkdən demək lazımdır: - «Ey Aram sənin düşmənin türkdür».**

Ermənistan deyilən ərazidə gənclər türk dünyasına və o cümlədən də azərbaycanlılara qarşı düşmən ruhunda tərbiyə olunurlar. Bütün bunlar erməni millətinin məhvinə aparıb çıxaracaq. Erməni xəstəliyi müsəlman qəbiristanlıqlarından da yan keçməmişdir. Bu kafirlər Şuşa da daxil olmaqla Qarabağda **120 qədim və yeni müsəlman qəbiristanlığını yer üzərindən sil-**

**mişlər.**

Qarabağda, o cümlədən də Şuşada törədilən qanlı cinayətlər S.Sərkisyanın, R.Köçəryanın və onların ətraflarında olanların yaramaz adları ilə bağlıdır. Şuşanın şəhər meydanında törədilən qanlı terror unudulmamalıdır (açıqlamaq istəmirəm). Torpaqlarımızda törədilən terrorda **Livan, Misir, Iordaniya, Suriya, Iraq, Əlcəzair, Səudiyyə Ərəbistanı, Küveyt terror təşkilatının üzvləri də** ermənilər tərəfindən muzd yolu ilə bu işə cəlb olunmuşlar.

Erməni faşizmi bilməlidir ki, Azərbaycan Dövləti **1993-1994-cü illərin dövləti deyil. Indi Azərbaycan siyasi, iqtisadi, sosial cəhətdən ən yüksək səviyyədə inkişaf etmiş dövlətdir.** Regionda ən mühüm təsir gücünə malikdir. Böyük qürur hissi ilə **fəxr etdiyimiz Milli Ordumuz, möhkəm iradəli Prezidentimiz və Ali Baş Komandan İLHAM ƏLİYEVİMİZ var.**

**2016-cı il APREL döyüşləri dövlətimizin, xalqımızın, ordumuzun sıx birliyini parlaq surətdə nümayiş etdirdi. Dörd günlük müharibə düşmənin bütün sahələrdə çürüklüyünü və acizliyini bir daha aşkara çıxartdı. Şanlı Ordumuz bir daha göstərdi ki, istənilən an, müvəqqəti olaraq erməni faşistləri tərəfindən işğal olunan torpaqlarımızı tamamilə işğaldan azad etməyə hazırdır. Bunun üçün Ali Baş Komandanın əmrini gözləyir.**

Aprel döyüşləri zamanı erməni faşizmi heç bir dövlət, beynəlxalq təşkilat tərəfindən dəstəklənməməsi, yəni onun boynuna salınmış xaltaya heç kəs əl uzatmadı. Əksinə Azərbaycanın haqq və ədalət uğrunda apardığı iş bütün dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən müdafiə olundu və dəstəkləndi. **Aprel döyüşlərində iki min hektardan artıq ərazimiz düşmən işğalından azad olundu. Çox mühüm siyasi əhəmiyyətə malik olan yüksəkliklər, Milli Ordumuz tərəfindən geri qaytarıldı. Beləliklə də erməni faşizminin günəşi söndü. Onun bu sütunu isə Qarabağın, - ŞUŞANIN azad ediləcəyi gün sındırılacaq. Bu zəfər yürüşünə çox az qalıb.**

**Cəbrayıl rayonunun COCUQ MƏRCANLI yaşayış məntəqəsindən başlanan yol ŞUŞAYA gedən qəhrəmanlıq yolunun başlanğıcıdır.**

**Bir daha deyirəm: - Şuşa nəinki şuşalılar, bütün Azərbaycan xalqı üçün son dərəcə müqəddəs və unudulmaz yurd yeridir.**

# GƏRGİN ƏMƏYİN BƏHRƏSİ

Bu yaxınlarda mötəbər bir yığıncaqda diqqətimi **«AZƏRBAYCAN MİRVARİSİ ŞUŞA»** kitab albom diqqətimi cəlb etdi. Yığıncaq iştirakçıları kitab-alboma hədsiz dərəcədə maraqla baxır, öz fikir və düşüncələrini bölüşdürürdülər. Bir sözlə, kitab-albom Şuşanı görməyənlərə mənəvi ruh verirdi. Mən kitabın müəllifinin kimliyi ilə maraqlandığımdan, əldən-ələ keçən kitabın müəllifinin soy adını oxuya bildim. **İSMAYILOV**. Kitab-alboma baxanlara mane olmamaq üçün gözləməyi üstün tutudum. Nəhayət müəllifin soy adını, adını və atasının adını oxuya bildim: - **İSMAYILOV İSMAYIL AYDIN oğlu.**

Mən, şuşalı kimi müəllifi tanıdım. Müəllif Şuşanın ən ləyaqətli, davranışı, danışığı və dünya görüşü ilə diqqəti cəlb edən, gənc ziyalı İsmayıl müəllimlə görüşməyi və kitab-albomun bir nüsxəsini ondan almaq (əlbəttə hədiyyə olaraq) qərarına gəldim. İsmayıl ixtisasca hüquqşünasdır. Buna baxmayaraq o, Şuşanın tarixi, memarlıq abidələri, bir sözlə **XVIII əsrin ikinci, XIX və XX yüzilliklərdə Şuşada** baş verən hadisələrlə, burada yşayan, doğulub boya-başa çatan elm, mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri ilə, onların yaradıcılıqlarına böyük elmi həvəs göstərir.

Bu isə təbiidir. Çünki o, şuşalı ziyalıdır. İsmayılla görüşüb söhbət edərkən, onun Şuşaya olan məhəbbətindən, şəhərin tarixi ətrafında geniş məlumatları mənə xoş təsir bağışlayırdı. Hətta onun insana xoş təsir bağışlayan, gələcəkdən xəbər verən parlaq və mənalı gözləri arabir yaşarırdı. Bu kövrəklik **ŞUŞA** həsrətinin təzahürü idi…

“Azərbaycan mirvarisi Şuşa” kitab-albomun tərtibçisi, mənim tələbələrimdən biri olan, Azərbaycan Dövlət Texniki Universitetinin məzunu **QASIMOVA XATİRƏ VAQİF qızıdır**.

Elə yeri gəlmişkən onu da qeyd edim ki, Şuşanın **1750-ci**

**ildən XX əsrin 80-ci illərini özündə əks etdirən ən dəyərli kitab-albom, həmyerlimiz, uzun müddət Azərbaycan Dövlət Universitetinin xarici dillər kafedrasına başçılıq etmiş, Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 1919-1920-ci tədris illərində xarici ölklərə təhsil almaq üçün göndərilən 100 nəfər tələbələrdən biri olan Əliyev Ələkbər Qəhrəman oğlu tərəfindən tərtib edilmişdir. Bu kitab-albom iki cilddən ibarətdir.**

Ələkbər müəllim həmin kitab-albomu mənə göstərmişdir. Lakin baxmağa icazə verməmişdir… Görünür sovet sistemindən ehtiyat etmişdir. Ələkbər müəllim Almaniyanın Berlin şəhərində oxumuş, sonralar vətənə qoyıtmışdır. Olduqca əzəmətli və sözü keçən şəxsiyyət idi. Mənə belə gəlir ki, həmin yüz tələbənin xeyli hissəsi Ələkbər müəllimin yoldaşları kimi kitab-albomda olan foto-şəkillərdə mövcuddur. Həmin dövrdə Şuşadan da xeyli tələbə xaricə göndərilənlər arasında var idi. Kitab-albom hazırda Ələkbər müəllimin son beşiyi olan **ASƏF** müəllimdədir. Lakin o, atasından miras qalan kitab-albomu heç kimə vermir. Hətta baxmağa da icazə vermir. Onu da deyim ki, həmin kitab-albomda olan sənədlər indiki dövrümüz üçün xüsusi əhəmiyyətə malik nadir sənədlər toplusu kimi əhəmiyyətlidir.

“Azərbaycan mirvarisi Şuşa” kitab-albom **2015-ci ildə işıq üzü görüb.** Kitab-albom **264 səhifədən ibarətdir.** Şuşanın tarixini özündə əks etdirən **470-dən çox foto-şəkillər kitab-albom da əks etdirilir.**

Tərtibçi və müəllif foto-şəkilləri tarixi dövrlər üzrə düzgün yerləşdirməklə, tarixi ardıcıllığa nail ola bilmişlər. Bu ardıcıllıq öz növbəsində kitab-albomun dəyərini artırır, reallıq heç bir yerdə pozulmur.

Kitab-albom qədim Şuşanın ümumi görünüşü və təbii mənzərəsi ilə başlayır və yenə də dağlar gözəli olan Şuşanın əzəmətli təbii mənzərəsi ilə qurtarır.

Kitaba-albomun əvvəlinci səhifəsində **Ulu Öndər Hey-**

**dər Əliyevin və Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan çox hörmətli İlham Əliyevin Qarabağ və Şuşa haqqındakı kəlamlarının verilməsi kitab-albomun elmi dəyərinə böyük təsir göstərir.** Qarabağlıların və o cümlədən də şuşalıların tezliklə öz ata-baba yurdlarına qayıdacaqlarına inamı artırır.

Kitab-albomda müəllifin fikir və düşüncələri iki dildə – **Azərbaycan və rus dilində verilmişdir. Bu təqdirə layiqdir.**

Foto-şəkillər qədim Şuşanın-Pənahadın rəmzləri ilə başlayır. Qarabağ xanlığı dövründə inşa olunan maddi-tarixi abidələr qədimliliyini saxlamaqla yazılı izahatlarla oxucuya çatdırılır. Foto-şəkillərlə tanış olan hər kəs sanki iki əsr yarımdan artıq tarixə malik olan Şuşanı seyr edir. Hər bir foto-şəkil tarixin canlı sənədi kimi insanı məftun edir. **470-dən artıq foto-şəkil** xalqımızın mənəvi əzəmətini, dünya görüşünü və ümumilikdə nələrə qadir olduğunu sübut edir.

**Kitab-albom orta əsrlər Şuşasın – Pənahabadın** küçə və məhəllələrini, bulaqlarını, məscid və pirlərini (saqqaxanalarını), bulaqlarını, hamamlarını, karvansaraylarını, qala divarlarını və onların gözətçi bürclərini olduğu kimi əks etdirir. Bütün bunlar kitab-albomu ərsiyə gətirən **İsmayılın və Xatirə xanımın** gərgin əməllərinin bəhrəsidir. Hər bir foto-şəkilə baxarkən deyilənlər öz təsdiqini tapır.

Kitab-albomda ən maraqlı foto-şəkillərdən biri də **Nəriman Nərimanovun 1920-ci ildə Yuxarı Gövhər ağa məscidində şuşalılarla görüşüdür. Məlum olduğu kimi Nəriman Nərimanov 1920-ci ilin oktyabr ayında Şuşada olmuş və şəhər camaatı ilə söhbət etmişdir.**

Tarixi düşmənlərimiz – **torpaqlarımızda özlərinə sığınacaq tapan erməni ünsürləri Şuşa haqqında internetdə həqiqətə uyğun olmayan, saxta foto-şəkillər nümayiş etdirirlər. Onlar Şuşa üçün tamamilə yaddır.**

**"AZƏRBAYCAN MİRVARİSİ ŞUŞA"** kitab-albom erməni ünsürlərinin yalan və böhtanlarını ifşa etmək üçün ən

dəyərli və tutarlı elmi əsər kimi də qiymətlidir.

Kitab-albomu vərəqlədikcə aydın hiss olunur ki, onu ərsəyə gətirənlər gərgin əmək sərf etmişlər. Daha dəqiq desəm pərvanə şamın başına dolandığı kimi, onlar da unudulmaz Şuşanın başına dolanıb kitab-albomu ərsəyə gətirə bilmişlər. Əgər belə olmasaydı Kitab-albom qısa müddət ərzində şöhrət tapmazdı. Kitab-albomda ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımlarına da geniş yer verilir. Şuşanın Yuxarı Gövhər ağa məscidinin heyətində 1918-1920-ci illərdə erməni quldurlarının Şuşada törətdikləri soyqırıma qarşı qəhrəmanlıqla mübarizə aparanların və şəhid olanların xatirələrini əks etdirən foto-şəkillərin kitab-albomda yerləşdirilməsi də təqdirəlayiqdir. Mədəniyyətsiz, müasir vandalizmin bariz nümunəsi olan erməni faşistlərini ifşa etmək üçün kitab-albomda **foto-şəkillər müqayisəli tərzdə verilmişdir.**

Yəni işğaldan əvvəl və işğaldan sonra. Erməni vəhşiləri Şuşada yüzlərlə mədəniyyət abidələrimizi yerlə yeksan etmişlər. Verilən müqayisələr erməni ünsürünün insanlığa qarşı törətdikləri vəhşiliyin ifşa olunmasına səmərəli kömək edir. Erməni quldurları Şuşada **XVIII əsrin ikinci, XIX yüzillikdə və XX əsrin əvvəllərində inşa olunmuş və tarixin incisi olan sahiblərinin adları ilə adlandırılan binaları yerlə yeksan etmişlər. «Bu yaramazlar deyirlər ki, guya şuşalılardan qisas almışlar». Daşınmaz əmlakı məhv etməklə erməni ünsürü özünü "şücaət"li hesab edir.**

Belə bir deyim var: - **«Tülkü qızanda ŞİRƏ hücum edər»**. İndi erməni ünsürü abidələrimizi məhv etməklə fəxr edir. Bilmir ki, qiyamət günü yaxınlaşır. Kitab-albomda dərc olunmuş foto-şəkillər **Azərbaycan Milli Ordusunu haraya çağırır.** Şuşada ermənilərin törətdikləri vəhşiliklər sözsüz ki, cavabsız qalmayacaqdır.

Kitab-albomda Şuşada keçirilən **Vaqif poeziya günlərini və mahnı bayramlarını əks etdirən foto-şəkillər də diqqətəlayiqdir. Ulu Öndər Heydər Əliyevin həmin tədbirlərdə iş-**

**tirakı adamda unudulmaz təəssürat yaradır.**

Tarixi şəxsiyyətlərin foto-şəkillərinin kitab-albomda əks etdirilməsi də diqqətə layiqdir. Bütün bu məlumatların əldə edilməsi bir daha deyim ki, gərgin əməyin məhsuludur.

Kitab-albomun gələcək nəşrlərinə ehtiyac var. Həmin nəşrlərdə "**Azərbaycan mirvarisi ŞUŞA" kitab albomun təkmilləşdirilməsi bir daha nəzərdə saxlanılmalıdır…**

Son olaraq bir daha demək istərdim ki, biz Qarabağa, o cümlədən də Şuşaya foto-şəkilləri nümayiş etdirməklə yox, güclü ordu ilə, Azərbaycan Milli Ordusu ilə gedəcəyik!

Kitab-albomun müəllifinə və tərtibçiyə yeni uğurlar diləyirəm.

# PİRŞAĞIDA GÖRDÜKLƏRİMİZ VƏ EŞİTDİKLƏRİMİZ

**QISA MƏLUMAT. Pirşağı qəsəbəsi Bakı şəhərindən 16 km şimal-qərbdə Xəzər dənizi sahəsində, Abşeron yarımadasında yerləşir. Pirşağıda XVII əsrə aid qədim türbə mövcuddur. Yerli əhali həmin türbəni PİR adlandırmış və ona sitayiş etmişlər.**

**Türbənin daş kitabəsində qeyd edilir ki, türbədə Piri Şahi və onun ən yaxın müridi şeyx Məhəmməd dəfn olunmuşlar.**

Tarixən torpaqları yağılar tərəfindən parçalanmış Azərbaycanımızın şəhər, qəsəbə və kəndlərində nəfəsi ağır, əli bərəkətli, uzunömürlü, hikmətli sözə malik olan insanlar, Allah adına müqəddəs bilinən pirlər, ocaqlar var. Allah bəndələri bu müqəddəs yerlərə çətin vaxtlarda inam gətirmiş və nicat tapmışlar. Belə müqəddəs yerlərdən biri də **PİRŞAĞI qəsəbəsidir.**

Kim deyə bilərdi ki, şuşalılar elə bir dövr gələcəkdir ki, əsrlər boyu yaşadığı **ata-baba** torpağından qaçqın düşəcək, başqa ərazilərdə məskunlaşacaqlar. Doğma vətənin bir parçası olan həmin ərazilər yeni sakinləri mehribanlıqla qəbul etmiş və yerli sakinlərin bir hissəsinə çevrilmişlər.

Biz pirşağıya çatanda hava olduqca isti idi. Yerli sakinlər yaşıllıqlar əhatəsində fəaliyyət göstərən istirahət guşələrində dincəlirdilər. Hər tərədə səliqə-səhman göz oxşayırdı. Yerli sakinlərlə müvəqqəti olaraq qəsəbədə məskunlaşan şuşalılar haqqında söhbət olduqca səmimi və yüksək səviyyədə gedirdi. Yerli sakinlər **şuşalıların** sədaqət və səmimiliyindən fərəhlə danışırdılar. Onların ağayanalığından, dar gündə nəinki özlərinin və eyni zamanda da yerli **pirşağıların** köməyinə gəldiklərini razılıq hissilə söyləyirdilər.

Bir sözlə qəsəbədə hamı bir-birinin xeyir və şər işlərində fəal iştirak edir. İndi qəsəbədə **gəlmə, yerli sözləri işlənmir.**

Əsrin dörddə biri qədər bir yerdə yaşayan, işləyən, qayğı və köməkliklərini başqalarından əsirgəməyən insanları ayrılıqda təsəvvür etmək olarmı? Əlbəttə yox!

Pirşağalılar – **sadə adamlar, ziyalılar, din xadimləri şuşalıların yoldaşlığına, dostluğuna və mərdliklərinə yüksək qiymət verirlər.** Söhbətin şirin yerində Pirşağı düşərgəsinin rəisi **Bilal Hilal oğlu Axundov** düşərgəyə gələnlərlə görüşmək üçün çay süfrəsinə təşrif gətirdi. Hamı ayağa qalxıb onunla səmimi görüşdülər və hal-əhval tutdular. Yaxşı deyiblər: - **«İnsanın böyüklüyü mədəniyyətində və başqalarına olan səmimiliyindədir».**

Bilal Axundov kamil şəxsiyyətdir. Hamillik onun **qəlblə əqlinin** vəhdətidir. Onun söhbəti masa ətrafında oturanları valeh edirdi. Şuşadan, onun gözəl təbiətindən, insanlarından ürək dolusu ilə danışan Bilalın arabir gözləri də yaşarırdı. Hər sözünün əvvəlində torpaqlarımızın müqəddəsliyindən, dəyərindən həvəslə danışırdı Bilal…

Pirşağı qəsəbəsində yerləşən düşərgədə **98 ailə məskunlaşıb.** Onlardan **4 ailə başqa işğal olunmuş rayondan, 94 ailə isə Şuşa ailəsidir.** Onlar öz doğma torpaqlarına qayıdacaqlarına möhkəm inanırlar. Düşərgədə boya-başa çatan cavanlar hər an müqəddəs torpaqlarımızın yağı düşməndən azad olunmalarını uğrunda mübarizəyə hazır olduqlarını dönə-dönə bildirdilər. Yerli Pirşağı cavanları da bu müqəddəs döyüşə hazır olduqlarını söylədilər.

Məclisimiz çox keçmədi ki, genişləndi. Qonşular başımıza yığışdılar. **Qonşuların aralarında olan ictimai münasibətlər bizi sevindirirdi.** Onlar şuşalılardan, xüsusilə də düşərgənin rəisi Bilal Axundovdan həvəslə danışırdılar. **Bilal Axundov dəyərli ailə başçısıdır.** O, **2 oğul və 3 qız atasıdır.** Onlar da qəsəbədə ataları kimi hamının hörmətini qazanmışlar. **11 nəvəsindən 9-u Bilal Axundov ilə bir yerdə yaşayır. Həyat yoldaşı Sürəyya əsl Azərbaycan xanımıdır. Düşərgə sakinləri Sürəyya xanımdan fərəhlə danışırdılar.**

Qəsəbə sakinləri dedilər ki, Bilal Axunjov bizim bütün sosial problemlərimizin həllində əsas simadır.

Əlbəttə, həmyerlilərimiz haqqında xoş söz eşitmək, bizi hədsiz dərəcədə sevindirirdi. Bu belə də olmalıdır. Axı onlar şuşalıdılar.

**Ulu müdriklərimiz çox yerində və tutarlı demişlər:**

**«Torpağın müqəddəsliyi, gözəlliyi onun yetirdiyi barında, bərəkətindədir. Belə torpağın ərsəyə gətirdiyi barın təamı qüvvətli, yararlı olanda ondan dadıb-tamsınanlar da güclü, qüvvətli, namuslu, qeyrətli, istedadlı və müdrik olurlar. Belə müdriklər, istedadlar, o torpağın şərəf və şöhrətini artırır, başını ucaldır və müqəddəsləşdirir.**

**Bilal Axundovun dediyi kimi bu torpaq doğma Azərbaycanımızdır. Onun ayrılmaz, əbədi tərkib hissəsi olan ŞUŞA və doğma QARABAĞIMIZDIR.**

**Tariyel Kazımov,**
**Akif Məhərrəmov,**
**Zahid Cəfərov,**
**Saleh Heydərov,**
**Bayram Rzayev,**
**Vaqif Qasımov.**

**Şuşa sakinləri**

# RUSİYA İMPERİYASI İLƏ QACARLAR ARASINDA AZƏRBAYCANIN İKİ HİSSƏYƏ BÖLÜNMƏSİNİ ÖZÜNDƏ ƏKS ETDİRƏN ƏDALƏTSİZ MÜQAVİLƏLƏR

# KÜRƏKÇAY MÜQAVİLƏSİ

**Biz yəni Şuşalı və Qarabağlı İbrahim xan və Bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi general Pavel Sisianov, olduqca mərhəmətli böyük İmperator əlahəzrətləri Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə Bütün Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük imperator əlahəzrətləri Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təbəəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq:**

**I MADDƏ**

**Mən Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın böyük İmperator əlahəzrətlərinin və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs Qurana and içməliyəm.**

**II MADDƏ**

**İmperator əlahəzrətləri zati-aliləri (xan) həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nə-**

**cib havadarlığını heç vaxt əsirgəməyəcəklər, buna sübut olaraq İmperator əlahəzrətləri zati-alilərinin (xanın) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.**

## III MADDƏ

**Zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xanın Bütün Rusiya imperatorlarının və onların vəliəhdlərinin öz üzərində ali və yeganə hakimiyyətini belə səmimiyyətlə qəbul etməsi müqabilində qərara alınır ki, adı çəkilən xan, ondan sonra isə böyük oğlunun və bu qayda ilə nəslin yaşca sonrakı böyüyü irsən xanlığa keçərkən Gürcüstan Baş hakimi tərəfindən xanlıqda bərqərar olmaq haqqında dövlət möhürü ilə təsdiq edilmiş imperator fərmanından ibarət investitura aldıqdan sonra Bütün Rusiya imperiyasının təbəəliyinə sadiq olmasına, özü və varisləri üzərində Bütün Rusiya imperatorlarının ali və yeganə hakimiyyətinin tanınmasına təntənəli surətdə and içməlidirlər. Andın forması traktata əlavə olunur ki, indi hakim olan Şuşalı və Qarabağlı İbrahim xan bu mərasim Gürcüstan Baş hakiminin və bu qətnaməni başa çatdıran infgen. knyaz Sisianovun iştirakı ilə yerinə yetirsin.**

## IV MADDƏ

**Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin Bütün Rusiya imperiyasına sadiq təəbəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanları haqda isə məlumat verməyə və Gürcüstan Baş hakimi tərəfindən mənim yanıma**

**təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.**

**V MADDƏ**

**İmperator əlahəzrətləri Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: 1) həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır. 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır. 3) Daxili idarə etmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı ölkədən yığılan gəlir zati-alilərin (xanın) səlahiyyətində qalacaqdır. 4) Zati-alilərinin və onun sülaləsinin, eləcədə onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərərgah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsinin Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.**

**VI MADDƏ**

**Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm: 1) istər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan (Gəncə) gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür. 2) Qoşunların Şuşa qalasın- da yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıra- caq və lazımi qədər odunla təmin edəcəyəm. 3) Şuşa qala- sına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu ara-**

baların gedişi üçün yararlı edəcəyəm. 4) Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazımi olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.

## VII MADDƏ

İmperator əlahəzrətlərinin zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində Bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.

## VIII MADDƏ

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İmperator əlahəzrətlərinin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazəm olduğundan İmperator əlahəzrətlərinin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətə, yeni bir hissəsi fevralın 1-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın İmperator əlahəzrətləri tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məhəmmədhəsən Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.

## IX MADDƏ

İmperator əlahəzrətləri özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılması olan zati- aliləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.

**X MADDƏ**

**Bu müqavilə əbədi müddətə bağlanır və bundan belə həmişəlik heç bir dəyişikliyə uğramamalıdır.**

**XI MADDƏ**

**Bu traktın İmperator əlahəzrətləri tərəfindən onun dövlət möhürü vurulmuş Ali Fərmanı ilə təsdiqi bu sənədin imzalanmasından 6 ay keçənədək və ya mümkün olsa, daha tez olmalıdır.**

**Yuxarıdakıların həqiqətə uyğun olduğunu (bildirmək) üçün aşağıda imza edənlər Yelizavetpol dairəsinin düşərgəsində, Kürək çayı yaxınlığında, miladın 1805-ci ilinin yayında, mayın 14-də (müsəlman təqvimi ilə 1220-ci il səfər ayında) bu maddələrə qol çəkərək öz möhürlərini vurdular.**

# GÜLÜSTAN MÜQAVİLƏSİ

**İMPERATOR ƏLAHƏZRƏTLƏRİ, Bütün Rusiyanın Ən Şöhrətli və ƏZƏMƏTLİ BÖYÜK HÖKMDARI və İMPERATORU və İran Dövlətinin Sahibi, hökmdarı ƏLAHƏZRƏTLƏRİ Padşahın ÖZ təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, ONLARIN ürəklərinə zidd olan müharibənin fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya İMPERİYASI və İran Dövləti arasında mövcud olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi qəlbdən, qarşılıqlı surətdə arzulayaraq bu ədaləti və nicatverici iş üçün aşağıdakıları öz səlahiyyətli Müvəkkilləri təyin etməyi faydalı bilmişlər:**

**ƏLAHƏZRƏT Bütün Rusiya İmperatoru - ÖZ General- leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda Mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş Müdiri, Xəzər Hərbi Donanmasının Komandanı, Müqəddəs Aleksandr Nevski, birinci Müqəddəs Anna, dördüncü dərəcəli Müqəddəs Əzabkeş və Qalibiyyətli Georgi ordenləri, habelə üzərində igidliyə görə yazısı olan qızıl qılıncla təltif edilmiş zati-aliləri Nikolay Rtişşevi, Əlahəzrət İran şahı isə - özünün, Türkiyə və İngiltərə Saraylarında fövqaladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş, öz padşahından brilyant- larla bəzədilmiş xəncər və qılıncdan, şal paltardan və brilyantlarla zinnətləndirilmiş at bəzəkləri dəstindən ibarət fərqləndirici lütf görmüş, öz Padşahının ən yaxın Məmuru, Ali İran Sarayının Gizli İşlər Müşaviri, Vəzir nəslinə mənsub olan, İran Sarayında ikinci dərəcəli Xan, Yüksəkrütbəli və çox hörmətli Mirzə Həsən Xanı: bu səbəbdən də BİZ, yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətna-**

**mələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimizə öz tərəfindən bizim BÖYÜK HÖKMDARLARIMIZ adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik:**

**I MADDƏ**

**İndiyədək Rusiya İmperiyası və İran Dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin Müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur və qoy İMPERATOR ƏLAHƏZRƏTLƏRİ Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, Taxtlarının Varisləri və ONLARIN, qarşılıqlı surətdə, Ali Dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah razılıq olsun.**

**II MADDƏ**

**Bir halda ki, həq iki Ali Dövlət arasında ilkin əlaqələr vasitəsilə (.............) yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması əsasında sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda indiki zamandan etibarən və gələcəkdə Bütün Rusiya İmperiyası və İran Dövləti anasında sərhəd aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzü, Araz çayındakı Yeddibulaq keçidinədək, oradan da üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax va Şəmşəddin torpaqlarından ayıran mərzlə Eşşək-**

**meydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı istiqamətində, Həmzəçimən yolu ilə, Pəmbək dağları silsiləsi ilə Şuragöl mərzi ilə, dağlar silsiləsi ilə, Mastaras və Artikin arası ilə Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin Xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan sərhədləri, daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin həqiqi hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələrin, həmçinin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq va təfsilatlı təsvirini verəcəklər) tərəfindən, bu Müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda (............) əsasında Talış xanlığının sərhəd xətti elə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də, yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kanara nə isə çıxarsa, hər iki Ali Dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf (............) əsasında təminat verəcək.**

## III MADDƏ

**Şah Əlahəzrətləri ƏLAHƏZRƏT bütün Rusiya İMPERATORUNA səmimi dostluq hislərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran Taxtının Ali Vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyasının hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla bərabər Dağıstan, Gürcüstan (Şuragölə əyaləti ilə birlikdə) İmperiya, Quriya, Minqreliya və Abxaziya, eyni dərəcədə, hazırda bərqərar edilmiş sərhəd Qafqaz xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperiyasının mülkiyyətinə mənsub olduğunu qəbul edir.**

**IV MADDƏ**

**ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU ƏLAHƏZRƏT İran Şahına Öz qarşılıqlı dostluq hisslərini ifadə etmək və İranda - ona qonşu olan bu Dövlətdə, möhkəm əsas üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi qəlbdən təsdiq etmək üçün, bununla, ÖZ adından və ÖZ Vəliəhdləri adından İran Şahı tərəfindən İran Dövlətinin Varisi təyin ediləcək Vəliəhdə, lazım gəldikdə, kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran Dövlətinin işinə qarışa bilməsin və Ali Rusiya Sarayının köməyi ilə İran Sarayı möhkəmlənsin. Bununla belə, əgər İran Dövəti işləri üzrə Şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya İmperiyası hakimiyyətdə olan Şah xahiş etməyincə bunlara qarışmayacaq.**

**V MADDƏ**

**Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onları yan almaq hüququ verilir; həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq - əvvəlki qayda üzrə Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı, qarşılıqlı surətdə, iranlılara hər cür yardım göstərimməlidir. Hərbi gəmilərə gəldikdə isə, müharibədən əvvəl, habelə sülh vaxtı və həmişə Rusiya hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. Həmin ehtiram daxilində, əvvəlki ixtiyar indi də yalnız Rusiya Dövlətinə verilir ki, ondan başqa heç bir Dövlətin hərbi Bayrağı Xəzər dənizində ola bilməz.**

**VI MADDƏ**

**Nəq iki tərəfdən döyüsdə əsir alınmışları, Xristian dininə və s. dinlərə mənsub ələ keçirilmiş sakinləri Müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəf-**

**dən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə təmin edilərək, buraxılsınlar. Özbaşına, yaxud qanunu pozaraq, qaçanlardan hər birinə, milliyətindən asılı olmayaraq, öz könüllü istəyinə görə öz Vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla bərabər hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.**

## VII MADDƏ

**Bütün yuxarıda deyilənlərə əlavə olaraq ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU və Əlahəzrət İran Şahı buyururlar ki, lazım olduqda, Əlahəzrətlərin İqamətgahlarına göndərilən, ONLARIN Ali Saraylarının qarşılıqlı Nazirlər və ya Elçiləri rütbələrinə və onlara tapşırılmış işlərin mühümlüyünə müvafiq qəbul olunsunlar; şəhərlərdə ticarətə himayəçilik üçün təyin olunmuş Müvəkkillərin və ya Konsulların on nəfərdən artıq məiyyəti olmasın, onlar vəkil edilmiş məmurlar kimi vəzifələrinə layiq hörmət və şərəfə malik olmalıdırlar, həmçinin, Əmrnaməyə əsasən, bundan sonra onları nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürbətlə razı salmaq gərəkdir.**

## VIII MADDƏ

**Əlahəzrətlərin, öz hökumətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki Ali Dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada kim nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həmçinin heç cür ləngidilmədən oradan çıxıb getməyə, Rusiya İmperiya-**

**sına mənsub olan yerlərdən İran Dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək. Hər iki Ali Dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və s. ilə əlaqədar şikayətlərinə adi qayda üzrə baxılması Konsula, yaxud Müvəkkilə, onlar olmadıqda isə yerli Rəisə həvalə edilir. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq təminatı verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.**

**İrana gəlmiş, Rusiya təbəəliyindən olan tacirlər, istəsələr, oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə də sərbəst gedəcəklər; bundan ötrü İran Hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları lazımi pasportlarla təmin edəcəkdir; buna ticarət işləri ilə əlaqədar Rusiyadan Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılıqlı surətdə riayət ediləcəkdir.**

**İrana gəlmiş Rusiya təbələrindən kimlərinsə ölüm hadisəsi baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşla və mülkləri, dost Dövlətin təbəələrinə məxsus olduğu üçün, ilk növbədə, saxlanılmadan və xəlvəti mənimsənilmədən, Rusiya İmperiyasında və bütün mədəni Dövlətlərdə icra edildiyi kimi, kimin hansı Dövlətə, mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasdan, qəbzlə, onların yoldaşlarına yaxud qohumlarına verilməli, həmin qohumlara öz arzuları ilə və öz xeyirləri üçün bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.**

### IX MADDƏ

**Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallara görə yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, ora-**

**dan apardıqları İran mallarına görə də eyni gömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin. İran təbəələrin Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə və qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.**

**X MADDƏ**

**Malları Müqavilə bağlamış hər iki Dövlətin sahillərin və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərin gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə, nəzarəti altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolları ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun həmçinin satıcıdan və alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərti ilə qanuni rüsumlar yığılsın.**

**XI MADDƏ**

**Bu müqavilə imzalandıqdan sonra hər iki Ali Dövlətin müvəkkilləri, qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımı xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər. İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan Ali tərəflərin yuxarıda göstərilmiş Müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh Müqaviləsi ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU və Əlahəzrət İran Şahı tərəfindən bərqərar ediləcək və Əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli Ratifikasiyalarla təsdiq olunacaqdır.**

**Bu Müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu Ali Saraylardan, qarşılıqlı surətdə göndərilməklə onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən**

**sonra çadırılacaq.**

**Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü. İran hesablaması ilə min ikiyüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır.**

**İMZALAMIŞLAR:**

Müvəkkil və Gürcüstanda Baş Komandan
**Nikolay Rtişşev (M:Y:)**

Alişöhrətli İran Dövlətindən Müvəkkil
**Mirzə Əbül Həsən Xan**

# TÜRKMƏNÇAY MÜQAVİLƏSİ

## I MADDƏ

**Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır.**

## II MADDƏ

**Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktatının qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər də başa çatmışdır; onlar göstərilən Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.**

## III MADDƏ

**İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə Erivan xanlığını və Naxçıvan xanlığını Rusiya İmperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırki müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanların idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə verməyi vəd edir.**

**Müqaviləyə qoşulan yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır: sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratanın zirvəsindən aralıda düz istiqamətdə ən yaxın nöqtədən başlayaraq o dağların zirvəsindən keçir; buradan maillik üzrə Araratanın cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxarılarına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı**

**üzrə gedir; burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yəni 3 1/2 Rusiya versti enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq bir daha o çayın yatağı ilə Yeddibulaq bərəsinədək gedir; burada İran torpaqları Araz çayının yatağı üzrə üç ağaca, yəni 21 Rusiya versti uzanacaqdır: sonra sərhəd Muğan düzü vasitəsilə Bolqarçayadək, iki kiçicik Adınabazar və Sarıqamış çaylarının birləşməsində üç ağac yəni 21 rus versti aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı; adları çəkilən kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Cikoir yüksəkliyinin zirvəsinədək elə davam edir ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır, İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələrilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onların Xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Cikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Qəmərkühüm zirvəsinədək keçir. Suların axarını iki yerə bölən dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Cikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə Qəmərkuhun zirvəsindən Züvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velgic dairəsinin sərhədlərinədək uzanacaqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna olmaqla Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd xətti su axınının yuxarıda qeyd olunan qaydalarına daima uyğun olaraq, Velkic dairəsi sərhəddindən Kloputanın zirvəsi və Velkic dairəsindəki dağ-**

**ların baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarını İrandan ayırmalı olan sərhəd xətti qurtarır.**

## V MADDƏ

**İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz vərəsələri və İran taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında və Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanədək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.**

## VI MADDƏ

**İran şahı həzrətləri hər iki dövlət arasında baş vermiş müharibə ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödəməyi öhdəsinə götürür. Müqaviləyə qoşulan hər iki yüksək tərəf o mükafatın məbləğini on kurur tümən raicə və ya iyirmi milyon gümüş manat qərarlaşdırmışdır, onun vaxtı, ödəniş qaydası və təminatı sözbəsöz hazırkı traktata daxil edilə biləcək qüvvəyə malik olan xüsusi müqavilədə qərarlaşdırılmışdır.**

## VII MADDƏ

**İran şahı həzrətləri öz əlahəzrət oğlu şahzadə Abbas Mirzənin öz vərəsəsi və taxt-tacın varisi təyin etmək iltifatında bulunan kimi, Bütün Rusiya imperatoru həzrətləri öz dostluq münasibətlərini və bu varislik qaydasının təsdiqinə kömək etmək arzusunu açıq-aşkar sübut etməkdən ötrü bundan sonra şahzadə Abbas Mirzə həzrətlərinin simasında İran taxt-tacının vərəsəsi və varisini, onun taxta çıxmasından sonra isə onu o dövlətin qanuni hökmdarı hesab etməyi öhdəsinə götürür.**

**VIII MADDƏ**

**Rusiyanın ticarət gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarında Iranda onlara hər cür kömək edilməlidir. Bu üsulla Iran ticarət gəmilərində də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilərlər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.**

**IX MADDƏ**

**Bütün Rusiya imperatoru həzrətləri və Iran şahı həzrətləri hər vasitə ilə onlar arasında bu qədər xoşbəxtliklə bərpa olunmuş sülh və dostluğu bərqərar etməyi arzulayaraq, müvəqqəti tapşırıqların icrası və ya daimi qalmaq üçün bu və ya o biri dövlətə göndərilən yüksək sarayların (hökumətlərin) səfirlərinin, nazirlərinin və işlər müvəkillərinin, onların dərəcəsinə, razılığa gələn yüksək tərəflərin şərəfinə, onları birləşdirən səmimi dostluğa və yerli adətlərə uyğun olaraq, ehtiramla və (hər birinin) ayrılıqda qəbul edilməsini qarşılıqlı surətdə rəva bilirlər. Xüsusi protokol ilə bu və ya o biri tərəfin əməl etməsi üçün bu məzmunda mərasim qərarlaşdırılacaqdır.**

**X MADDƏ**

**Bütün Rusiya həzrətləri və İran şahı həzrətləri hər iki dövlət arasında ticarət əlaqələrinin bərpa olunmasını və genişlənməsini sülhün bərqərar olmasının ən başlıca xeyirxah nəticələrindən biri saydıqları üçün, tam qarşılıqlı razılıq əsasında hökm verdilər ki, ticarətə hakimlik edilməsinə və qarşılıqlı surətdə təbəələrin təhlükəsizliyinə aid olan bütün sərən-**

**camlar səadətlə yoluna qoyulsun və onlar onu qarşılıqlı surətdə müvəkkillər tərəfindən bağlanacaq bu sülh müqaviləsinin eyni güclü hissəsi sayılmalı olan və ona əlavə edilən ayrıca Akt ilə izah etsinlər. İran şahı həzrətləri, qabaqlar olduğu kimi, Rusiyaya ticarətin xeyrinə tələb olunan hər yerə konsullar və ticarət agentləri təyin etmək hüququ verir və öhdəsinə götürür ki, hər ikisinin məiyyəti on nəfərdən çox olmayacaq konsul və agentlərə hamilik göstərsin ki, onlar öz rütbələrinə verilmiş şan-şövkət və üstünlüklərdən istifadə etsinlər. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran şahı həzrətlərinin konsul və ya ticarət agentlərinə münasibətdə buna tam müvafiq əməl edilməsinə vəd verir. İran hökumətinin Rusiya agentinə və ya konsuluna əsaslı şikayəti olarsa, Rusiya naziri (səfiri) və ya onun şah həzrətləri sarayı yanında işlər müvəkkili, ya da onların bilavasitə rəisi öz mülahizəsinə əsasən günahkarı vəzifəsindən uzaqlaşdıra və onu müvəqqəti olaraq digər şəxsə həvalə edə bilər.**

### XI MADDƏ

**Qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və müharibə ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olunacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökumətin xəzinəsinə müqavilə təəhhüdləri dərhal və tamamilə təmin edilməlidir.**

### XII MADDƏ

**Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır: onlardan Arazın hər iki tərəfində tərpənməz əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperatoru həzrətləri ona aid olduğuna görə, keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.**

## XIII MADDƏ

**Axırıncı və ya bundan qabaqkı müharibənin gedişində əsir alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumətin nə vaxtsa əsir düşmüş təbəələri qarşılıqlı surətdə azad edilməli və dörd ay ərzində qaytarılmalıdır; onlar həyati azuqə və digər tələbatlarla təmin edilməli və onları qəbul etmək və sonrakı yaşayış yerinə yollamağa sərəncam vermək üçün hər iki tərəfdən ayrılmış komissarlara verməkdən ötrü Abbasabada göndərilməlidirlər. Razılığa gələn yüksək tərəflər hər iki tərəfdən əsir düşmüş, lakin olduqları yerin uzaqlığına və ya başqa bir səbəbə və ya vəziyyətə görə göstərilən müddətə qaytarıla bilməyəcək bütün hərbi əsirlərə, habelə Rusiya və İran təbəələrinə də bu yolla yanaşacaqlar. Hər iki dövlət belələrinin hər bir vaxt tələb edilməsində özünə dəqiq və qeyri-məhdud hüquq verir və öhdəsinə götürür ki, onlar aşkar edildikdə və ya onlar haqqında tələblər alındıqda qarşılıqlı surətdə onları (bir-birinə) qaytarsınlar.**

## XIV MADDƏ

**Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı müharibənin başlanmasınadək və ya o vaxtı digərinin təbəəliyinə keçmiş olan satqınların və fərarilərin verilmısini tələb etməyəcəkdir. İran hökuməti bu qaçqınlardan bəzilərinin və onların köhnə həmvətənlərinin və ya hakimiyyəti altında olanların arasında qərəzli əlaqələrdən qarşılıqlı surətdə baş verə biləcək zərərli nəticələrin qarşısını almaq üçün, öhdəsinə götürür ki, indi və ya sonralar Rusiya hökumətinin adbaad göstərdiyi adamların Arazla Çara çayının, Urmiya gölünün, Cakatu çayının və Qızıl Üzən çayının Xəzər dənizinə töküldüyü yer arasında yaratdığı hüduddakı öz torpaqlarında olmasını qadağan edəcəkdir. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən hissəsində yurd salma-**

**sına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyini vəd edir. Lakin özlüyündə aydındır ki, ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan adamlara: şəxsi nümunələri, nəsihət və gizli əlaqələri ilə keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan əvvəlki həmvətənlərinə zərərli təsir göstərə bilən xan, bəy və dini rəislər və ya mollalara qarşı bu şərtin gücü var və olacaqdır. Ümumiyyətlə, hər iki dövlətin sakinlərinə gəldikdə isə, razılığa gələn yüksək tərəflər qərara alır ki, hər iki tərəfin bir dövlətdən o birinə keçmiş və ya bundan sonra keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilər.**

### XV MADDƏ

**Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.**

**Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdan sonra,**

**qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımı fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifaksiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvvəkilləri tərəfincdən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir. Fevral ayının 10-da Isanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır.**

**Əslinə qol çəkmişlər:**

**Ivan Paskoviç**
**A.Obrezkov**

# ŞUŞANIN ABİDƏLƏRİ VƏ TƏBİİ MƏNZƏRƏLƏRİ



*Şuşada bahar fəsli*



***Şuşanın Hacı Yusifli məhəlləsində məscid və bulaq***



***Şuşanın qala divarı***



*Şuşanın Potu ərazisində Qala divarının görünüşü*




*Çaxmaq meşəsinin ümumi görünüşü*



*Cıdır düzündən Çaxmaq meşəsinin görünüşü*



*Hacı Qulunun mülkü*



*Xan qızı Natəvanın evinin (yandırılmış) görünüşü*



*Üçmıx qayasının görünüşü*



*Mehmandarovların imarəti*



*Cıdır düzündə M.P.Vaqifin məqbərəsi*



*Cıdır düzündə M.M.Həvvabın məzarı*



Şuşa mənzərəsi



***Qala qapısının açarları***



*Çölqala məhəlləsindən bir görünüş*



*Yuxarı Gövhər ağa məscidi*



*Aşağı Gövhər ağa məscidi*




*Gəncə qapısı*



*Şuşada məhəllə*



*Şuşada qış fəsli*



*Xan qızı Natəvanın bulağı*



*"Meydan bulağı"nın görünüşü*



*Köçərli məhəlləsinin bulağı*



***Çölqala məhəllə bulağı***



***Şor su bulağı***



*Şuşada bulaq*



***Təzə  məhəllə bulağı***



*Qurdlar məhəlləsinin bulağı*



***Daşaltı çayı üzərindəki körpü***



*İbrahimxəlil xanın kəmənd istirahət sahəsi*



*İbrahimxəlil xanın kəmənd istirahət sahəsi*



*Şuşada yaşayış binaları*

# MÜNDƏRİCAT


**ÖN SÖZ....4**
**QARABAĞ ....15**
**BƏXTİYAR VAHABZADƏ. GÜLÜSTAN....31**
**ERMƏNİ ÜNSÜRLƏRİNİN QARABAĞA KÖÇÜRÜLMƏSİ ....39**
**YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN “İKİ OD ARASINDA” ROMANINDA ERMƏNİ MƏSƏLƏSİNİN QOYULUŞU .... 48**
**DAĞLIQ QARABAĞDA ERMƏNİ TERRORİZMİNİN FENOMENOLOGİYASININ TARİXİ.... 72**
**AZƏRBAYCANIN QARABAĞ ƏRAZİSİNDƏ ERMƏNİ SAXTAKARLIQLARI ....79**
**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI ....87**
**Qətnamə 822 ....87**
**Qətnamə 853 ....89**
**Qətnamə 874 ....92**
**Qətnamə 884 ....95**
**AZƏRBAYCANIN İTİRİLMİŞ TARİXİ-ETNİK TORPAQLARI....99**
**ERMƏNİ ÜNSÜRÜNÜN YENİ FIRILDAĞI....110**
**M.M.NƏVVAB VƏ C.MƏMMƏDQULUZADƏ QOLOŞAPOV HAQQINDA ....120**
**LƏYAQƏTSİZ ÜNSÜR....126**
**ŞANLI MİLLİ AZƏRBAYCAN ORDUSU İŞĞAL ALTINDA OLAN TORPAQLARIMIZIN BİR FAİZİNİ AZAD ETDİ....135**
**ERMƏNİ PREZİDENTİ S.SƏRKİSYANIN QULAĞI KƏSİLDİ....135**
**AZƏRBAYCAN-ALBAN DÖVLƏTİNDƏ XRİSTİANLIQ ....141**
**AZƏRBAYCANLILARIN MART SOYQIRIMI - 100....146**
**QANLI CİNAYƏTLƏR....146**
**HERODOTUN «KOR OĞULLARI» HAQQINDA SKİF ƏFSANƏSİ VƏ «KOROĞLU» TÜRK EPOSU ARASINDA SÜJET PARALELLƏRİ ....152**
**AZƏRBAYCAN RESPUBLİKASININ ERMƏNİ FAŞİST ÜNSÜRLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ YURD YERLƏRİMİZİN QISA TƏHLİLİ ....158**
**ŞUŞA İNZİBATİ RAYONU....158**
**XANKƏNDİ ŞƏHƏR ƏRAZİ DAİRƏSİ ....160**

XOCALI İNZİBATİ RAYONU .......... 160
XOCAVƏND İNZİBATİ RAYONU .......... 162
AĞDAM İNZİBATİ RAYONU .......... 163
CƏBRAYIL İNZİBATİ RAYONU .......... 164
KƏLBƏCƏR İNZİBATİ RAYONU .......... 165
FÜZULİ İNZİBATİ RAYONU .......... 167
LAÇIN İNZİBATİ RAYONU .......... 168
QUBADLI İNZİBATİ RAYONU .......... 169
ZƏNGİLAN İNZİBATİ RAYONU .......... 170
«QARABAĞ XANLIĞININ İQTİSADİYYATI» DİSSERTASİYASI HAQQINDA MÜLAHİZƏLƏRİM .......... 172
ŞUŞA ŞƏHƏRİNDƏ AŞAĞIDAKI MƏHƏLLƏ BULAQLARI VAR .......... 182
ON YEDDİ MƏHƏLLƏNİN İLKİ .......... 185
XALQIMIZIN NOVRUZ BAYRAMI .......... 202
NOVRUZ BAYRAMI İLƏ BAĞLI İNANCLAR VƏ SÖYLƏMƏLƏR .......... 203
NOVRUZ QARABAĞDA VƏ ŞUŞADA DA TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNARDI .......... 206
QƏLƏMƏ ALDIM Kİ, UNUDULMASIN... .......... 218
ŞUŞANIN QALA DİVARLARI VƏ BÜRCLƏRİ .......... 222
SİZİN QANINIZ ÇOXDAN TÖKÜLMƏLİ İDİ... .......... 224
BƏS CƏHƏNNƏMƏ KİM GETMƏLİDİR? .......... 229
ŞUŞADA XALQ DEYİMLƏRİ .......... 234
MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ .......... 243
NƏSLİN LAYİQLİ DAVAMÇISI .......... 250
ŞƏRƏFLİ ÖMÜR YOLU .......... 259
ŞUŞA ŞƏHƏRİNİN İŞĞALINDAN 26 İL KEÇİR .......... 263
GƏRGİN ƏMƏYİN BƏHRƏSİ .......... 273
PİRŞAĞIDA GÖRDÜKLƏRİMİZ VƏ EŞİTDİKLƏRİMİZ .......... 278
RUSİYA İMPERİYASI İLƏ QACARLAR ARASINDA AZƏRBAYCANIN İKİ HİSSƏYƏ BÖLÜNMƏSİNİ ÖZÜNDƏ ƏKS ETDİRƏN ƏDALƏTSİZ MÜQAVİLƏLƏR .......... 281
KÜRƏKÇAY MÜQAVİLƏSİ .......... 282
GÜLÜSTAN MÜQAVİLƏSİ .......... 287
TÜRKMƏNÇAY MÜQAVİLƏSİ .......... 295
ŞUŞANIN ABİDƏLƏRİ VƏ TƏBİİ MƏNZƏRƏLƏRİ .......... 303

*Qeydlər*

| | |
|---|---|
| **Mətbəənin direktoru:** | Fuad HÜSEYNOV |
| **Texniki redaktor:** | Azər RƏSULOV |
| **Dizayner:** | Kəmalə FƏRHADOVA |
| **Kompüter yığımı:** | Təranə RƏHİMOVA |
| **Cildçi:** | Gövhər NURULLAYEVA |
| **Çapçı:** | Oqtay YUSİFOV |

Kitab ***"AFPoliqrAF"*** mətbəəsində çap olunmuşdur.

afpoliqraf@mail.ru | Tel.: +994(12) 510 96 74
afpoliqraf@gmail.com | Mob.: +994(50) 405 96 74

Yığılmağa verilmişdir: 02.04.2018
Çapa imzalanmışdır: 01.05.2018
Qarnitura: Times New Roman
Şərti çap vərəqi: 21
Formatı: 64x90 $^{1}/_{16}$
Tiraj: 300